Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində
nəşr olunmuşdur

Xəqani Alməmmədov
Elvin Əliyev
Şamil Nəcəfov

# AZƏRBAYCANIN QƏRB RAYONLARINDA MÜXTƏLİF DÖVR ARXEOLOJİ ABİDƏLƏRİN ELEKTRON QEYDİYYATI VƏ XƏRİTƏLƏŞMƏSİ

BAKI – ELMİN İNKİŞAFI FONDU – 2017

*Elmi redaktor*:

**Maisə RƏHİMOVA**
*tarix üzrə elmlər doktoru, professor*

*Rəyçilər*:

**Fərhad QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

**Bəhlul İBRAHİMLİ**
*tarix üzrə fəlsəfə doktoru*

**X.İ.Alməmmədov, E.H.Əliyev, Ş.N.Nəcəfov. Azərbaycanın qərb rayonlarında müxtəlif dövr arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşməsi** – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017. – 352 səh.

Kıtabda Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Gənc Alim və Mütəxəssislərin 1-ci qrant müsabiqəsinin (EİF/GAM-1-2011-2(4)) qalibi olmuş “Azərbaycanın qərb rayonlarında müxtəlif dövr arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşməsi” layihəsi çərçivəsində 2012-2013-cü illərdə Qarabağ düzənliyi, Qazax, Ağstafa və Ordubad rayonları ərazisində elektron şəkildə qeydiyyata alınaraq xəritələşdirilmiş arxeoloji və tarixi-memarlıq abidələri haqqında məlumat verilir.

**Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində çap olunmuşdur:**
**Qrant № EİF/GAM-1-2011-2(4)-26/22/5**

**Bu əsər 15 fevral 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 7090 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi: 04/C-6010-12), 7093 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi: 04/C-6029-12) və 7093 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi: 04/C-6025-12) verilmişdir.**

**ISBN: 978-9952-516-07-4**

© Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondu, 2017
© X.İ.Alməmmədov, E.H.Əliyev, Ş.N.Nəcəfov, 2017

# MÜNDƏRİCAT

Ön söz ........................................................................ 4

*Xəqani İmran oğlu ALMƏMMƏDOV*

Qarabağ düzənliyində yerləşən müxtəlif dövr arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşdirilməsi ........................................................................ 6

*Elvin Həsən oğlu ƏLİYEV*

Ordubad rayonunun arxeoloji, tarixi-memarlıq abidələrinin elektron qeydiyyatı və xəritələşdirilməsi ........................................................................ 108

*Şamil Nadir oğlu Nəcəfov*

Qazax və Ağstafa rayonlarının arxeoloji, tarixi və memarlıq abidələrinin elektron qeydiyyatı və xəritələşdirilməsi ........................................................................ 204

# Ön söz

Azərbaycan ərazisində mövcud olan arxeoloji abidələrin yüz ildən də çox əvvəl başlamış öyrənilməsi prosesində hazırkı zamanda nəzərə çarpacaq uğurlar əldə olunmuşdur. Bu gün ölkənin bütün regionları arxeoloji tədqiqata cəlb olunmuş, çoxlu sayda müxtəlif xarakterli və dövrlərə aid abidələr aşkar olunaraq öyrənilmiş, arxeoloji mədəniyyətlər müəyyənləşdirilmlşdir.

Bütün bu nailiyyətlərə rəğmən hər gün daim böyüməkdə olan bir problemlə-abidələrin mühafizəsi problemilə qarşılaşırıq. Minilliklər boyu qiymətli məlumatları günümüzədək qoruyub saxlamış abidələr gözlər qarşısında məhv olur. Artan templə gedən bu prosesin həcmi və sürəti əhəmiyyətli dərəcədə abidələrin tədqiqi həcmini və sürətini üstələyir. Əsasını müxtəlif qərar və hökmlərdən ibarət olan mühafizə tədbirləri də praktikada az effektivdir. Bunun isə əsas səbəbi Azərbaycan ərazisində mövcud olan arxeoloji abidələrin tam mükəmməl "Məlumat bazası"nın olmamasıdır.

Artıq bir müddətdir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001–ci il tarixli 132 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü" mövcuddur və bu siyahı vaxtaşırı olaraq yeniləşdirilir. Bu siyahı ilə bağlı olan bütün problemlərə toxunmayacağıq. Yalnız bununla bağlı bir məsələni qeyd etmək istərdik ki, abidələrin nəinki mühafizəsini təmin etmək, heç yerini müəyyənləşdirmək, vəziyyətini yoxlamaq da praktiki olaraq mümkün deyil. İlk növbədə ona görə ki, abidələrin yerləşmə oriyentrləri onlar daha dəqiq və yaxşı qeydiyyata alınsa belə zaman-zaman müxtəlif səbəblərdən öz əhəmiyyətini itirərək fəaliyyətsiz hala düşürlər. Bütün bu deyilənlər, abidələrin qeydiyyatında yeni yanaşmanın zəruriliyini əyani olaraq göstərir. Abidələrin qeydiyyatı prosesində İKT-nin tətbiqi bu problemlərin köklü şəkildə yaxşılığa doğru dəyişməsinə səbəb ola bilər.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci il üçün Gənc Alim və Mütəxəssislərin Müsabiqəsinin (EİF/GAM-1-2011-2(4)) qalibi olmuş "Azərbaycanın qərb rayonlarında müxtəlif dövr arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşməsi" adlı layihənin həyata keçirilməsinin də əsas məqsədi müasir texniki vasitələrin tətbiqilə abidələrin qeydiyyatını həyata keçirərək, xəritələrin yaradılması idi. Layihə çərçivəsində bir il (01.06.2012-01.06.2013-cü

illər) ərzində Azərbaycan arxeologiyasında ilk dəfə olaraq Qarabağ düzənliyi, Ordubad, Qazax və Ağstafa rayonları üzrə 601 arxeoloji, tarixi-memarlıq abidəsi elektron şəkildə qeydiyyata alınaraq xəritələşdirilmişdir. Hər üç bölgə üzrə qeydiyyata alınmış abidələr cəddvəlləşdirilmiş, fotolaşdırılmış və onların təsnifatı verilmişdir. İlk dəfə olaraq nisbi oriyentrlərə görə deyil, coğrafi koordinatlara görə 1:50 000 miqyasında stasionar arxeoloji xəritələr tərtib edilmişdir. Layihə çərçivəsində əldə edilmiş informasiyalar və tərtib edilmiş xəritələr gələcəkdə yaradılacaq “Arxeoloji abidələrin elektron məlumat bazası”nın yaradılmasında heç şübhəsiz ki, əsas mənbə rolunu oynayacaqdır.

Sizin diqqətinizə təqdim olunan kitab, “Azərbaycanın qərb rayonlarında müxtəlif dövr arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşməsi” adlı layihə çərçivəsində aparılmış çöl-tədqiqat işlərinin hesabatı olmaqla yanaşı, Azərbaycanın arxeoloji abidələrinin “Məlumat bazası”nın yaradılması istiqamətində ilkin addımdır. Hesabatın I fəsli Qarabağ düzənliyi, II fəsli Ordubad rayonu, III fəsli isə Qazax və Ağstafa rayonları ərazisində aparılmış tədqiqatlara həsr olunmuşdur.

***X. İ. Alməmmədov***
*layihə rəhbəri, t.f.d.*

*Xəqani İmran oğlu ALMƏMMƏDOV*

# Qarabağ düzənliyində yerləşən müxtəlif dövr arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşdirilməsi

## QARABAĞIN ARXEOLOJİ ABİDƏLƏRİ XƏRİTƏSİ

(Ağdam rayonunun işğal olunmamış əraziləri və Ağcabədi rayonunun şimal-qərb hissəsi)




Miqyas 1: 50 000

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| *Sıra sayı* | *Abidənin adı* | *Koordinatları* | | | *Dövrü* |
| 1 | Sultanbud kurqanı | 40° 11' 22.74" N | 47° 08' 35.88" E | 134 m | Tunc dövrü |
| 2 | Ayaq Qərvənd y/y | 40° 11' 03.36" N | 47° 05' 27.60" E | 138 m | Neolit dövrü |
| 3 | Ayaq Qərvənd kurqanı | 40° 11' 12.90" N | 47° 05' 14.88" E | 138 m | Tunc dövrü |
| 4 | Şükürbəyli y/y | 40° 09' 05.52" N | 47° 08' 16.92" E | 143 m | Neolit dövrü |
| 5 | Quzanlı y/y | 40° 08' 58.56" N | 47° 08' 44.16" E | 95 m | Neolit dövrü |
| 6 | II Yüzbaşılı y/y | 40° 09' 00.18" N | 47° 07' 00.06" E | 155 m | Neolit dövrü |
| 7 | Mərmərtəpə y/y | 40° 09' 06.18" N | 47° 05' 15.60" E | 140 m | Neolit, orta əsrlər dövrü |
| 8 | Leylatəpə y/y | 40° 08' 18.54" N | 47° 08' 19.56" E | 111 m | Leylatəpə mədəniyyəti |
| 9 | Əhədtəpə y/y | 40° 08' 16.02" N | 47° 08' 46.14" E | 107 m | Neolit dövrü |
| 10 | İsmayılbəytəpə y/y | 40° 08' 09.18" N | 47° 07' 48.78" E | 119 m | Neolit dövrü |
| 11 | Boztəpə y/y | 40° 08' 19.98" N | 47° 09' 045.6" E | 100 m | Erkən orta əsrlər dövrü |
| 12 | Paşabəyli y/y | 40° 08' 17.52" N | 47° 06' 11.82" E | 138 m | Leylatəpə məd., orta əsrlər dövrü |
| 13 | Nazlıxantəpə y/y | 40° 08' 08.52" N | 47° 09' 28.14" E | 107 m | Neolit dövrü |
| 14 | Kərimlitəpə y/y | 40° 08' 04.14" N | 47° 09' 01.56" E | 103 m | Neolit dövrü |
| 15 | Ağabəytəpə y/y | 40° 08' 31.38" N | 47° 05' 26.10" E | 144 m | Neolit dövrü |
| 16 | Buynuztəpə y/y | 40° 08' 39.12" N | 47° 04' 54.72" E | 150 m | Neolit, son tunc, erkən orta əsrlər |
| 17 | I Yüzbaşılı y/y | 40° 08' 11.52" N | 47° 05' 48.18" E | 143 m | Neolit, son tunc-ilk dəmir dövrü |
| 18 | Sarıcalı y/y | 40° 08' 01.44" N | 47° 10' 30.96" E | 94 m | Erkən orta əsrlər |
| 19 | Namazalıtəpə y/y | 40° 07' 27.18" N | 47° 07' 051.9" E | 143 m | Neolit, son tunc-ilk dəmir dövrü |
| 20 | 3 saylı Xındırıstan kurqanı | 40° 07' 43.32" N | 47° 05' 58.56" E | 147 m | Tunc dövrü |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| 21 | Qurdtəpə y/y | 40° 07' 28.56" N | 47° 09' 11.40" E | 134 m | Son tunc-ilk dəmir, orta əsrlər |
| 22 | Rəsultəpə y/y | 40° 07' 38.46" N | 47° 05' 59.04" E | 155 m | Neolit, orta tunc, orta əsrlər |
| 23 | Sarıtəpə y/y | 40° 07' 42.42" N | 47° 10' 38.76" E | 97 m | Erkən orta əsrlər |
| 24 | İstisu y/y | 40° 08' 21.78" N | 47° 03' 59.88" E | 180 m | Neolit, Leylatəpə məd., son tunc-ilk dəmir, orta əsrlər (IX-XIII əsrlər) |
| 25 | Böyük Şomlutəpə y/y | 40° 08' 33.84" N | 47° 03' 40.26" E | 185 m | Leylatəpə məd., son tunc-ilk dəmir, orta əsrlər (III-XIII əsr) |
| 26 | Kəbləhüseynli y/y | 40° 07' 13.08" N | 47° 07' 17.04" E | 122 m | Neolit, son tunc-ilk dəmir |
| 27 | Taynaq y/y | 40° 07' 07.92" N | 47° 09' 23.10" E | 125 m | Leylatəpə məd.-orta əsrlər |
| 28 | 2 saylı Xındırıstan kurqanı | 40° 07' 08.76" N | 47° 06' 18.30" E | 152 m | Tunc dövrü |
| 29 | Böyüktəpə kurqanı | 40° 06' 57.66" N | 47° 08' 10.20" E | 136 m | Tunc dövrü |
| 30 | Kiçik Şomlutəpə y/y | 40° 08' 21.42" N | 47° 03' 22.14" E | 198 m | Neolit, orta əsrlər dövrü |
| 31 | 1 saylı Xındırıstan kurqanı | 40° 07' 05.34" N | 47° 06' 21.30" E | 154 m | Tunc dövrü |
| 32 | Miraşelli y/y | 40° 07' 31.32" N | 47° 04' 48.06" E | 170 m | Neolit dövrü |
| 33 | Dəvəbatıran y/y | 40° 06' 25.74" N | 47° 06' 35.04" E | 155 m | Neolit, Kür-Araz dövrü |
| 34 | 3 saylı Baharlı y/y | 40° 06' 54.36" N | 47° 04' 16.98" E | 211 m | Neolit, son tunc-ilk dəmir dövrü |
| 35 | 1 saylı Baharlı y/y | 40° 06' 46.92" N | 47° 03' 43.32" E | 228 m | Neolit, antik dövr |
| 36 | Vəlibəytəpə y/y | 40° 06' 40.02" N | 47° 03' 46.32" E | 234 m | Neolit, Kür-Araz, antik, orta əsrlər dövrü |
| 37 | Əhmədağalı y/y | 40° 07' 04.32" N | 47° 02' 54.00" E | 206 m | Neolit dövrü |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| 38 | Əzgənlitəpə y/y | 40° 07' 00.84" N | 47° 02' 57.84" E | 208 m | Neolit dövrü |
| 39 | 2 saylı Baharlı y/y | 40° 06' 37.62" N | 47° 03' 42.30" E | 230 m | Antik və orta əsrlər dövrü |
| 40 | Səngərtəpə y/y | 40° 06' 03.00" N | 47° 03' 15.42" E | 170 m | Neolit dövrü |
| 41 | 1 saylı Douttəpə kurqanı | 40° 05' 20.94" N | 47° 11' 36.60" E | 108 m | Tunc dövrü |
| 42 | 2 saylı Douttəpə kurqanı | 40° 05' 00.48" N | 47° 11' 51.96" E | 108 m | Tunc dövrü |
| 43 | Çaqqallıtəpə y/y | 40° 05' 03.48" N | 47° 12' 19.56" E | 106 m | Leylatəpə mədəniyyəti |
| 44 | Qoşatəpə y/y | 40° 04' 17.34" N | 47° 06' 45.54" E | 165 m | Neolit, Leylatəpə məd., ilk tünc dövrü |
| 45 | Cəfərqulutəpə y/y | 40° 03' 58.32" N | 47° 06' 34.62" E | 177 m | Neolit dövrü |
| 46 | Gəşəlitəpə y/y | 40° 03' 44.16" N | 47° 06' 27.66" E | 177 m | Neolit dövrü |
| 47 | Xanlıqtəpə y/y | 40° 03' 37.14" N | 47° 07' 49.50" E | 176 m | Neolit, Leylatəpə məd. dövrü |
| 48 | Küllütəpə y/y | 40° 03' 35.22" N | 47° 07' 07.80" E | 164 m | Neolit dövrü |
| 49 | Hacılar y/y | 40° 03' 19.62" N | 47° 06' 50.16" E | 185 m | Leylatəpə mədəniyyəti |
| 50 | Xantəpə y/y | 40° 03' 15.78" N | 47° 08' 16.80" E | 168 m | Neolit, son tunc-ilk dəmir, orta əsrlər dövrü |
| 51 | Bilağan y/y | 40° 03' 01.80" N | 47° 09' 16.98" E | 148 m | Neolit, orta əsrlər dövrü |
| 52 | Bəybalatəpə y/y | 40° 02' 58.38" N | 47° 07' 30.18" E | 165 m | Neolit dövrü |
| 53 | Sayattəpə y/y | 40° 02' 40.08" N | 47° 06' 19.44" E | 180 m | Neolit dövrü |
| 54 | Əfətli y/y (Çalağantəpə) | 40° 02' 05.10" N | 47° 07' 17.22" E | 174 m | Neolit dövrü |
| 55 | 1 saylı Boyat y/y | 40° 01' 55.80" N | 47° 08' 21.36" E | 166 m | Neolit dövrü |
| 56 | 2 saylı Boyat y/y | 40° 02' 01.14" N | 47° 08' 24.12" E | 163 m | Neolit dövrü |
| 57 | Saattəpə y/y | 40° 01' 29.88" N | 47° 07' 56.16" E | 172 m | Antik, ilk orta əsrlər dövrü |
| 58 | Ağalartəpə y/y | 40° 01' 16.26" N | 47° 08' 06.42" E | 171 m | Antik dövr |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 59 | 1 saylı Əfətli kurqanı | 40° 01' 21.12" N | 47° 05' 30.24" E | 231 m | Tunc dövrü |
| 60 | Imamqulubəyli kurqanı | 40° 10' 36.96" N | 47° 08' 47.10" E | 99 m | Tunc dövrü |
| 61 | Fərmantəpə y/y | 40° 11' 09.72" N | 47° 06' 41.28" E | 113 m | Leylatəpə mədəniyyəti |
| 62 | Çardaqlı y/y | 40° 07' 29.40" N | 47° 02' 00.40" E | 216 m | Neolit dövrü |
| 63 | Məscidtəpə y/y | 40° 06' 27.10" N | 47° 02' 17.30" E | 212 m | Neolit dövrü |
| 64 | Zəngisalı kurqanı | 40° 03' 02.00" N | 47° 03' 08.20" E | 216 m | Tunc dövrü |
| 65 | 2 saylı Əfətli kurqanı | 40° 00' 52.20" N | 47° 05' 47.30" E | 223 m | Tunc dövrü |
| 66 | 1 saylı Çəmənli y/y | 40° 04' 24.70" N | 47° 03' 41.10" E | 203 m | Neolit dövrü |
| 67 | 2 saylı Çəmənli y/y | 40° 04' 24.90" N | 47° 03' 46.40" E | 203 m | Neolit dövrü |
| 68 | Bəhməztəpə y/y | 40° 05' 00.40" N | 47° 03' 43.50" E | 202 m | Neolit dövrü |
| 69 | Sulduztəpə y/y | 40° 06' 17.70" N | 47° 04' 17.50" E | 178 m | Neolit, Leylatəpə məd., orta əsrlər dövrü |
| 70 | İdealtəpə y/y | 40° 04' 52.70" N | 47° 05' 36.10" E | 167 m | Neolit dövrü |
| 71 | Osmantəpə y/y | 40° 04' 48.80" N | 47° 05' 38.30" E | 170 m | Neolit dövrü |
| 72 | 1 saylı Səfərli y/y | 40° 04' 20.10" N | 47° 06' 10.70" E | 171 m | Neolit dövrü |
| 73 | 2 saylı Səfərli y/y | 40° 04' 28.60" N | 47° 06' 04.90" E | 169 m | Neolit dövrü |
| 74 | 1 saylı Ağtəpə y/y | 40° 05' 26.60" N | 47° 05' 03.00" E | 183 m | Kür-Araz, orta tunc, son tunc-erkən dəmir dövrləri |
| 75 | 2 saylı Ağtəpə y/y | 40° 05' 25.40" N | 47° 05' 07.20" E | 179 m | Orta tunc dövrü |
| 76 | Sayadtəpə y/y | 40° 05' 20.40" N | 47° 06' 38.10" E | 153 m | Neolit dövrü |
| 77 | Qaraxanlı y/y | 40° 04' 33.60" N | 47° 06' 59.20" E | 152 m | Neolit dövrü |
| 78 | 1 saylı Hindarx kurqanı | 40° 04' 54.70" N | 47° 11' 32.10" E | 107 m | Tunc dövrü |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 79 | 2 saylı Hindarx kurqanı | 40° 04' 40.30" N | 47° 11' 21.70" E | 119 m | Tunc dövrü |
| 80 | 3 saylı Hindarx kurqanı | 40° 04' 47.60" N | 47° 11' 08.70" E | 121 m | Tunc dövrü |
| 81 | Küllütəpə kurqanı | 40° 05' 57.80" N | 47° 11' 02.50" E | 102 m | Tunc dövrü |
| 82 | Alıbəyli kurqanı | 40° 05' 54.40" N | 47° 10' 07.00" E | 113 m | Tunc dövrü |
| 83 | Şorantəpə (Əb-düləzimtəpə) y/y | 40° 06' 15.60" N | 47° 09' 30.10" E | 120 m | Neolit dövrü |
| 84 | Yaqubtəpə kurqanı | 40° 06' 26.60" N | 47° 09' 39.20" E | 120 m | Tunc dövrü |
| 85 | Kazımbəytəpə y/y | 40° 05' 17.30" N | 47° 08' 56.80" E | 132 m | Neolit dövrü |
| 86 | 2 saylı Kiçiktəpə y/y | 40° 06' 36.80" N | 47° 09' 30.00" E | 116 m | Dəmir, orta əsrlər dövrü |
| 87 | 1 saylı Kiçiktəpə y/y | 40° 06' 34.80" N | 47° 09' 24.80" E | 114 m | Neolit, dəmir dövrü |
| 88 | Salamattəpə y/y | 40° 06' 41.90" N | 47° 09' 22.30" E | 128 m | Neolit dövrü |
| 89 | Qəbiristanlıq-təpə y/y | 40° 06' 27.70" N | 47° 08' 13.50" E | 129 m | Neolit dövrü |
| 90 | Bəşirtəpə y/y | 40° 06' 14.30" N | 47° 07' 42.00" E | 131 m | Leylatəpə mədəniyyəti |
| 91 | 1 saylı Yeddigöz y/y | 40° 11' 22.20" N | 47° 07' 05.30" E | 108 m | Leylatəpə məd., son tunc-erkən dəmir dövrü |
| 92 | 2 saylı Yeddigöz y/y | 40° 11' 25.50" N | 47° 07' 16.30" E | 112 m | Leylatəpə məd., son tunc-erkən dəmir dövrü |
| 93 | Eyvazlı y/y | 40° 08' 11.90" N | 47° 08' 21.30" E | 120m | Neolit dövrü |
| 94 | Ceyrantəpə kurqanı | 40° 11' 10.46" N | 47° 04' 34.84" E | 138 m | Tunc dövrü |
| 95 | 1 saylı Narlıtəpə y/y | 40° 11' 22.30" N | 47° 08' 18.50" E | 99 m | Orta əsrlər dövrü |
| 96 | 2 saylı Narlıtəpə y/y | 40° 11' 27.10" N | 47° 08' 20.10" E | 97 m | Neolit, orta əsrlər dövrü |
| 97 | 1 saylı Narlıtəpə kurqanı | 40° 11' 23.10" N | 47° 08' 15.80" E | 99 m | Tunc dövrü |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 98 | 2 saylı Narlıtəpə kurqanı | 40° 11' 28.90" N | 47° 08' 18.10" E | 94 m | Tunc dövrü |
| 99 | Boztəpə y/y | 40° 10' 53.80" N | 47° 07' 27.20" E | 114 m | Neolit dövrü |
| 100 | Həsəntəpə y/y | 40° 10' 53.00" N | 47° 07' 39.70" E | 110 m | Neolit dövrü |
| 101 | 1 saylı Sultanbud y/y | 40° 09' 58.80" N | 47° 06' 55.20" E | 120 m | Neolit, son tunc-ilk dəmir, orta əsrlər dövrü |
| 102 | 2 saylı Sultanbud y/y | 40° 10' 50.10" N | 47° 06' 30.80" E | 124 m | Neolit, orta əsrlər dövrü |
| 103 | 3 saylı Sultanbud y/y | 40° 10' 14.70" N | 47° 07' 01.70" E | 117 m | Neolit dövrü |
| 104 | 2 saylı Sultanbud kurqanı | 40° 10' 51.20" N | 47° 06' 25.30" E | 122 m | Tunc dövrü |
| 105 | 3 saylı Sultanbud kurqanı | 40° 10' 40.10" N | 47° 06' 27.80" E | 120 m | Tunc dövrü |
| 106 | 4 saylı Sultanbud kurqanı | 40° 10' 28.10" N | 47° 06' 28.60" E | 124 m | Tunc dövrü |
| 107 | Alıtəpə y/y | 40° 10' 35.60" N | 47° 06' 18.10" E | 127 m | Neolit dövrü |
| 108 | Evtəpə (Xındırtəpə) y/y | 40° 10' 00.90" N | 47° 06' 23.60" E | 126 m | Neolit dövrü |
| 109 | Qəbiristanlıqtəpə y/y (Çullu) | 40° 10' 08.80" N | 47° 07' 49.50" E | 107 m | Neolit dövrü |
| 110 | Çullu y/y | 40° 09' 57.30" N | 47° 07' 44.60" E | 107 m | Neolit dövrü |
| 111 | 1 saylı İmamqulubəyli y/y | 40° 10' 21.30" N | 47° 10' 36.80" E | 77 m | Neolit dövrü |
| 112 | 2 saylı İmamqulubəyli y/y | 40° 10' 50.30" N | 47° 11' 41.00" E | 67 m | Neolit dövrü |
| 113 | 3 saylı İmamqulubəyli y/y | 40° 10' 58.50" N | 47° 11' 27.60" E | 69 m | Neolit dövrü |
| 114 | 4 saylı İmamqulubəyli y/y | 40° 11' 28.40" N | 47° 12' 06.90" E | 62 m | Neolit dövrü |
| 115 | 5 saylı İmamqulubəyli y/y | 40° 11' 31.90" N | 47° 12' 14.00" E | 64 m | Erkən orta əsrlər dövrü |
| 116 | 6 saylı İmamqulubəyli y/y | 40° 11' 29.90" N | 47° 12' 28.30" E | 68 m | ??? |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 117 | 7 saylı İmam-qulubəyli y/y | 40° 11' 20.60" N | 47° 12' 13.70" E | 67 m | Neolit dövrü |
| 118 | 8 saylı İmam-qulubəyli y/y | 40° 11' 24.30" N | 47° 12' 14.90" E | 67 m | Neolit, orta əsrlər dövrü |
| 119 | 9 saylı İmam-qulubəyli y/y | 40°11'17.62" N | 47°11'49.68" E | 65 m | Orta əsrlər dövrü |
| 120 | 2 saylı İmam-qulubəyli kurqanı | 40° 11' 03.40" N | 47° 12' 23.30" E | 70 m | Tunc dövrü |
| 121 | 1 saylı Sarıcalı y/y | 40° 09' 08.60" N | 47° 11' 47.30" E | 62 m | Antik dövr |
| 122 | 2 saylı Sarıcalı y/y | 40° 09' 15.40" N | 47° 12' 19.80" E | 71 m | Leylatəpə mədəniyyəti |
| 123 | Zəmitəpə y/y | 40° 09' 53.30" N | 47° 12' 05.50" E | 67 m | Neolit dövrü |
| 124 | Kərpictəpə y/y | 40° 09' 13.90" N | 47° 11' 02.30" E | 73 m | Neolit dövrü |
| 125 | Molla Mehditəpə y/y | 40° 09' 24.70" N | 47° 10' 22.60" E | 82 m | Neolit dövrü |
| 126 | Canavartəpə y/y | 40° 07' 35.50" N | 47° 09' 56.00" E | 96 m | Leylatəpə mədəniyyəti |
| 127 | Qazantəpə y/y | 40° 07' 27.60" N | 47° 10' 07.50" E | 98 m | Neolit dövrü |
| 128 | 1 saylı Mirvaritəpə y/y | 40° 06' 50.40" N | 47° 09' 57.00" E | 106 m | Neolit dövrü |
| 129 | 2 saylı Mirvaritəpə y/y | 40° 06' 47.60" N | 47° 10' 00.90" E | 106 m | Neolit dövrü |
| 130 | Söyüdlütəpə y/y | 40° 07' 02.90" N | 47° 08' 58.50" E | 108 m | Leylatəpə mədəniyyəti |
| 131 | Kərimtəpə y/y | 40° 06' 17.30" N | 47° 08' 19.50" E | 124 m | Neolit, orta əsrlər dövrü |
| 132 | Qəbiristanlıq-təpə y/y (Qaraxanlı) | 40° 04' 42.10" N | 47° 08' 05.00" E | 135 m | Neolit dövrü |
| 133 | İslambəytəpə y/y | 40° 04' 23.50" N | 47° 08' 10.30" E | 136 m | Neolit dövrü |
| 134 | Şamlıtəpə y/y | 40° 03' 59.80" N | 47° 05' 22.70" E | 179 m | Neolit dövrü, Leylatəpə mədəniyyəti |
| 135 | Düztəpə y/y | 40° 03' 54.60" N | 47° 04' 27.40" E | 189 m | Neolit dövrü |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 136 | 1 saylı Əhməd-ağalı kurqanı | 40° 06' 07.80" N | 47° 02' 12.70" E | 217 m | Tunc dövrü |
| 137 | 2 saylı Əhmədağalı kurqanı | 40° 06' 14.20" N | 47° 01' 51.10" E | 222 m | Tunc dövrü |
| 138 | İydəlitəpə y/y | 40° 11' 13.53" N | 47° 06' 45.24" E | 112 m | Orta əsrlər dövrü |
| 139 | Pambıqtəpə y/y | 40° 10' 57.69" N | 47° 12' 51.20" E | 59 m | Neolit dövrü |
| 140 | Qəbiristanlıqtəpə (Poladlı) y/y | 40° 06' 16.11" N | 47° 12' 17.64" E | 86 m | ??? |
| 141 | Yoltəpə y/y | 40° 06' 26.66" N | 47° 12' 32.56" E | 77 m | Neolit, orta əsrlər dövrü |
| 142 | Böyüktəpə y/y | 40° 06' 50.60" N | 47° 13' 03.80" E | 70 m | Neolit, Kür-Araz, son tunc-ilk dəmir dövrləri |
| 143 | 1 saylı Çəməntəpə kurqanı | 40° 07' 32.61" N | 47° 14' 42.91" E | 61 m | Tunc dövrü |
| 144 | 2 saylı Çəməntəpə kurqanı | 40° 07' 35.45" N | 47° 14' 31.90" E | 61 m | Tunc dövrü |
| 145 | 3 saylı Çəməntəpə kurqanı | 40° 07' 24.00" N | 47° 14' 29.66" E | 61 m | Tunc dövrü |
| 146 | Yantəpə kurqanı | 40° 07' 42.40" N | 47° 14' 49.76" E | 57 m | Tunc dövrü |
| 147 | Xanarşın y/y | 40° 08' 05.46" N | 47° 14' 49.96" E | 51 m | Neolit dövrü |
| 148 | Baxçatəpə y/y | 40° 04' 18.61" N | 47° 10' 05.29" E | 121 m | Neolit dövrü |
| 149 | Qətltəpə y/y | 40° 04' 10.17" N | 47° 10' 00.04" E | 119 m | Neolit dövrü |
| 150 | Məktəbtəpə y/y | 40° 04' 04.20" N | 47° 09' 55.60" E | 121 m | Neolit dövrü |
| 151 | Ədiltəpə y/y | 40° 04' 07.05" N | 47° 09' 46.55" E | 121 m | Neolit dövrü |
| 152 | 1 saylı Xımılıtəpə y/y | 40° 04' 13.28" N | 47° 09' 30.99" E | 123 m | Neolit dövrü |
| 153 | 2 saylı Xımılıtəpə y/y | 40° 04' 24.22" N | 47° 09' 35.77" E | 121 m | Neolit dövrü |
| 154 | 3 saylı Xımılıtəpə y/y | 40° 04' 19.70" N | 47° 09' 27.89" E | 122 m | Neolit dövrü |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 155 | 4 saylı Xımılıtəpə y/y | 40° 04' 09.77" N | 47° 09' 24.84" E | 123 m | Neolit dövrü |
| 156 | Qəbiristanlıq-təpə (İmam-qulubəyli) y/y | 40° 03' 49.19" N | 47° 08' 45.62" E | 123 m | Neolit dövrü |
| 157 | Yolaşantəpə y/y | 40° 03' 38.35" N | 47° 09' 51.69" E | 121 m | Leylatəpə mədəniyyəti |
| 158 | Yovşanlıtəpə y/y | 40° 05' 33.76" N | 47° 10' 22.20" E | 105 m | Neolit dövrü |
| 159 | Yanıqtəpə kurqanı | 40° 05' 07.28" N | 47° 09' 53.16" E | 110 m | Tunc dövrü |
| 160 | Köpəktəpə y/y | 40° 04' 50.63" N | 47° 10' 03.11" E | 111 m | Erkən orta əsrlər dövrü |
| 161 | Balatəpə kurqanı | 40° 04' 49.36" N | 47° 10' 40.29" E | 108 m | Tunc dövrü |
| 162 | Kəruztəpə y/y | 40° 04' 41.97" N | 47° 11' 06.41" E | 113 m | Leylatəpə məd., orta əsrlər dövrü |
| 163 | Alıbəyli kur-qanları (5 ədəd) | 40° 04' 38.87" N | 47° 10' 53.88" E | 107 m | Tunc dövrü |
| 164 | Yolkəsəntəpə y/y | 40° 04' 34.83" N | 47° 10' 45.82" E | 107 m | Neolit, erkən orta əsrlər |
| 165 | Qəbiristanlıq-təpə (Hindarx) kurqanı | 40° 04' 25.90" N | 47° 11' 45.90" E | 106 m | Tunc dövrü |
| 166 | Qazantəpə kurqanı | 40° 03' 54.47" N | 47° 13' 42.35" E | 94 m | Tunc dövrü |
| 167 | Sarıtəpə y/y | 40° 10' 22.34" N | 47° 05' 31.34" E | 125 m | Neolit dövrü |
| 168 | Qəbiristanlıq-təpə (Alıbəyli) y/y | 40° 05' 48.37" N | 47° 09' 15.52" E | 116 m | ??? |
| 169 | Uzuntəpə y/y | 40° 07' 17.36" N | 47° 13' 42.00" E | 66 m | Leylatəpə mədəniyyəti |

2012-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci il üçün Gənc Alim və Mütəxəssislərin Müsabiqəsinin (EİF/GAM-1-2011-2(4)) qalibi olmuş "Azərbaycanın qərb rayonlarında müxtəlif dövr arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşməsi" layihəsi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci il üçün Gənc Alim və Mütəxəssislərin Müsabiqəsinin (EİF/GAM-1-2011-2(4)) qalibi olmuş "Azərbaycanın qərb rayonlarında müxtəlif dövr arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşməsi" layihəsi çərçivəsində Qarabağ düzənliyində yerləşən arxeoloji abidələrinin elektron qeydiyyatı və xəritəsinin hazırlanması istiqamətində tədqiqatlara start verilmişdir.

Qarabağ düzənliyinin əlverişli təbii şəraiti bu ərazidə tarixin bütün dövrlərində məhsuldar qüvvələrin təşəkkülü və inkişafı üçün münbüt zəmin rolunu oynamışdır. Bu səbəbdən də düzənlik ərazisi bütünlüklə qədim tariximizi özündə əks etdirən müxtəlif genetik və xronoloji mənsubiyyətə məxsus arxeoloji abidələrlə zəngindir. Lakin bu abidələr çox təəssüf ki, müxtəlif zamanlarda təbii və antropogen təsirlərdən bilərəkdən və ya kortəbii şəkildə dağıdılmışdır. Onların sayı müasir dövrümüzdə durmadan azalır. Abidələrin dağılmasının başlıca səbəblərindən biri də Qarabağ ərazisinində baş vermiş və hələ də davam edən hərbi əməliyyatlardır. Belə ki, bu əməliyyatlar zamanı əsasən təpə formasında olan arxeoloji abidələr sipər kimi istifadə olunur, onların səthi və mədəni təbəqə yatımı qazılaraq dağıdılır. Müharibədə insanlarımızla birgə abidələrimizinin də şəhid olur.

Qarabağ ərazisində əsasən XX əsrin 70-80-cı illərində görkəmli arxeoloq İdeal Nərimanov tərəfindən geniş arxeoloji tədqiqat işləri aparılmışdır. Əslən qarabağlı olan arxeoloq onlarla abidəni qeydiyyata alaraq tədqiq etmişdir. Qarabağ ərazisində daha geniş arxeoloji kəşfiyyat işləri keçən əsrin 80-ci illərinin sonlarında arxeoloq alim Hidayət Cəfərov tərəfindən aparılmış, yüzdən çox abidə ilkin olaraq qeydiyyata alınmışdır. Lakin bu tədqiqtlardan artıq iyirmi beş ildən çox keçmişdir. Abidələrin qeydiyyatı və öyrənilməsi istiqamətində yeni informasiya texnologiyalarının tədbiqi vacib idi. 2010-cu ildə fəaliyyətə başlamış "Qarabağ neolit-eneolit ekspedisiyası" bu istiqamətdə işlərini quraraq Qarabağın arxeoloji abidələrinin elektron məlumat bazasının yaradılmasını əsas vəzifə kimi qarşısına qoyub. Layihə məhz bu ekspedisiyanın bazasında yerinə yetirilmişdir. Layihə Azərbaycan arxeologiyası üçün yenilikdir. Layihə müddətində ərazidə mövcud olan müxtəlif dövrlərə aid arxeoloji abidələr elektron şəkildə qeydiyyata alınaraq xəritələşdiriləşdirilmişdir. Xəritə indiyə kimi tərtib edilmiş xəritələrdən profilinə və dəqiqliyinə görə

fərqlənir. Burada abidələrin UTM koordinat sistemində həm coğrafi, həm də metrə koordinatları verilmişdir.

2012-ci ilin uyul – oktyabr aylarında (123 gün) layihə çərçivəsində çöl-tədqiqat işlərinin I mərhələsi aparılmışdır. Ezamiyyət dövründə ilk öncə əvvəlki illərdə kəşfiyyat işləri aparılmış Ağdam və Ağcabədi rayonunun şimal hissəsinin yenidən yoxlanılmasına başlanılmışdı. Çünki, bu ərazidə məlum müharibə ilə əlaqədar əsasən göz qabağında olan abidələr qeydiyyata alınmış, daha çətin keçilən ərazilərə isə baxılmamışdır. Bu problemin həlli üçün müasir informasiya texnologiyalarından istifadə edərək əla nəticə əldə edilmişdir. Belə ki, abidələrin yerini müəyyənləşdirməkdən ötrü "Google Earth" proqramından da istifadə olunmuşdur. Proqram vasitəsilə abidələrin yerləşmə koordinatları müəyyən olunur və həmin nəticələr GPS naviqatora yüklənərək abidələrin axtarışına başlanılırdı. Bu vasitə çox effektiv olub, ərazinin tam yoxlanılması işinə yardımçı olmuşdu. Layihə müddətində əldə edilmiş elektron məlumatlar "Map Source Garmin" və "Google Earth" proqramları vasitəsilə ilkin xəritələşdirilmişdir. Çöl-tədqiqat işlərinin I mərhələsində 94 arxeoloji abidə qeydiyyata alınaraq xəritələşdirilmişdir. Bundan başqa kəşfiyyat müddətində keçən mövsümlərdə qeydiyyata aldığımız abidələrin yenidən monitorinqini aparılmışdır. Vəziyyət ürəkaçan deyildir, abidələrin mühafizəsi işi yenə də yarıtmazdır!!!

Qarabağ bölgəsində illərlə apardığımız tədqiqtlar zamanı abidələrin mühafizəsi işində yarıtmaz fəaliyyətin şahidi olduq. Yerli hakimiyyət orqanları isə nədənsə bu vandallığa seyrci qalmaqda işlərini bitmiş hesab edirlər. Qarabağda abidələrin dağıdılması və zibillənməsi bu intensivliklə davam edərsə yaxın zamanlarda bölgədə arxeoloji abidələrin sayı barmaqla sayılacaq dərəcədə azalacaqdır!!!

Çöl-tədqiqat işlərinin I mərhələsi başa çatdıqdan sonra 2012-ci ilin noyabr ayından etibarən abidələr toplusunun və elektron xəritənin hazırlanması istiqamətində işlərə start verilmişdir. Qeydiyyata alınmış bütün abidələrin GPS koordinatları cədvəlləşdirilərək baza xəritəyə yüklənilmiş, abidələr pasportlaşdırılaraq topluya əlavə edilmişdir.

Layihə çərçivəsində çöl-tədqiqat işlərinin II mərhələsində (30 mart-30 aprel 2013-cü il) aparılmış arxeoloji kəşfiyyat işləri nəticəsində 75 arxeoloji abidə qeydiyyata alınmışdır.

Çox təəssüf verici fakt odur ki, yenə də abidələrə vandal münasibətin şahidi olduq. Nəinki Azərbaycan, həmçinin dünya arxeologiyası üçün qiymətli mənbə rolunu oynayan abidələrimiz dağılır və zibillənir. Abidələrin mühafizəsinə bilavasitə və dolayısıyla cavabdeh olan dövlət və ictimai qurumlar buna sadəcə olaraq göz yumurlar...

Yuxarıda verilənlərə yekun vuraraq qeyd etmək istərdik ki, bütün çətinliklərə baxmayaraq layihə uğurla başa çatdırıldı. Ağdam rayonunun işğal olunmamış əraziləri və Ağcabədi rayonunun Qarqarçaya qədər olan şimal qərb hissəsini əhatə etməklə təxminən 950 kv. km ərazidə aparılmış arxeoloji kəşfiyyat işləri nəticəsində 169 arxeoloji abidə

elektron şəkildə qeydiyyata alınaraq pasportlaşdırılmış və xəritələşdirilmişdir. Qeydiyyata alınmış bu abidələrdən yerüstü material toplanılmış, fotolaşdırılmış, dövrü və arxeoloji xüsusiyyətləri müəyyənləşdirilmişdir. Layihənin həyata keçirilməsi nəticəsində əldə edilmiş qiymətli informasiya yaradılmaqda olan "Qarabağın arxeoloji abidələrinin elektron məlumat bazası"na daxil ediləcəkdir.

Layihə Azərbaycan arxeologiyası üçün yeni bir istiqamət olmaqla yanaşı heç şübhəsiz gələcəkdə bu yöndə aparılacaq işlər üçün bazis rolunu oynayacaqdır. Qarabağ ərazisində aparılmış bu tədqiqatlar yeni abidələrin aşkar edilməsi ilə yanaşı Azərbaycan arxeologiyası üçün xüsusi əhəmiyyət kəsb edən bəzi problem məsələrin həlli istiqamətində də qiymətli informasiyanın əldə edilməsinə şərait yaratdı. Heç şübhə yoxdur ki, "Qarabağ neolit-eneolit ekspedisiyası" bölgədə tədqiqatlarını daha da intensivləşdirərək Qarabağ arxeologiyasının tədqiqində əhəmiyyətli nəticələr alacaqdır.

## Ağabəytəpə yaşayış yeri



Ağabəytəpə yaşayış yeri Birinci Yüzbaşılar kəndinin qərbində yerləşir. Diametri 100-120 m olan təpənin cənub-şərq və şimal-şərq tərəfi yol və həyətyanı sahələr Salınarkən dağıdılıb. Sovet dönəmində təpənin səthi təxminən 1 m-ə qədər hamarlanaraq pambıq çardağı tikilmişdir. Hal-hazırda təpənin hündürlüyü 3 m-dir. Təpənin dağılmış cənub-şərq tərəfində 60 sm hündürlüyündə çiy kərpicdən tikilmiş divar qalıqları aydın görünür. Təpənin bütün səthi zibillik kimi istifadə olunur. Yaşayış yerindən neolit dövrünə aid keramika fraqmentləri aşkar olunub.

## Mərmərtəpə yaşayış yeri



Mərmərtəpə yaşayış yeri Bəybabalılar kəndindən 300 m cənub-şərqdə yerləşir. Diametri 90 m olan təpənin cənub, şimal və qərb tərəfi torpaq karxanası kimi istifadə olunaraq dağıdılıb. Təpənin ətrafı əkin sahəsi kimi istifadə olunur. Əkin sahəsinin vizual müşahidəsi zamanı burada maddi-mədəniyyət nümunələrinə, osteoloji və ocaq qalıqlarına rast gəlindi ki, bu da təpənin indiki hüdudlarından da böyük olduğunu söyləməyə imkan verir. Mərmərtəpə də kənd zibilliyi kimi istifadə olunur. Digər qədim yaşayış yerlərində

olduğu kimi burada da tülkü yuvalarının çoxluğu diqqətimizi cəlb etdi. Mərmərtəpədən neolit və orta əsrlər dövrünə aid keramika fraqmentləri aşkar olunub.

## Buynuztəpə yaşayış yeri



Buynuztəpə yaşayış yeri I Yüzbaşılar kəndindən 650 m şimal-qərbdə yerləşir. Diametri 100 m olan təpənin səthi sovet dövründə pambıq çardağı və üzümlüklər salınarkən dağıdılıb. Hal-hazırda təpənin səthindən torpaq aparılır, bu isə onun yaxın zamanda tamamilə dağılmasına səbəb ola bilər. Abidənin vizual müşahidələri zamanı təsadüf olunmuş keramika fraqmentlər neolit, son tunc-ilk dəmir və erkən orta əsrlər dövrünə aiddir.

## I Yüzbaşılı yaşayış yeri



I Yüzbaşılı yaşayış yeri eyni adlı kəndin 200 m şərqində yerləşir. Diametri 105 m, hündürlüyü 4 m olan təpə günümüzədək əla vəziyyətdə qalmışdı. Yaşayış yerindən 9 ədəd keramika fraqmenti aşkar olunub ki, bunlar da neolit və son tunc-ilk dəmir dövrlərinə aiddirlər.

## Paşabəyli yaşayış yeri



Paşabəyli yaşayış yeri eyni adlı kəndin şimal-qərb hissəsində, meşə adlanan yerin qərb tərəfində yerləşir. Hündürlüyü 4 m, diametri 150 m olan təpə sovet dövründə və Qarabağ müharibəsi gedişində dağıdılıb. Şimal-qərb, cənub-şərq istiqaməti üzrə uzanan təpənin yalniz mərkəzi hissəsi salamat qalıb. Şərq və qərb tərəfi tamamilə dağılmış təpənin mərkəzi hissəsini uzununa qazılmış xəndək ikiyə ayırıb. Leylatəpə mədəniyyətinə aid Paşabəyli yaşayış məskəni də kənd zibilxanası kimi istifadə olunur.

## Bənövşələr yaşayış yeri



Bənövşələr yaşayış yeri eyni adlı kəndin Bənövşələr qəsəbəsində, Xındırıstan-Baş Qərvənd yolunun sağında yerləşir. Ərazisi 4,5 ha, hündürlüyü 5 m olan yaşayış yerinin bütün ətrafı qəsəbə və yol tikintisi zamanı dağıdılmışdır. Qərb hissəsi isə kərpic kəsmək üçün torpaq karxanası kimi istifadə olunur. Bütün yaşayış yeri qəsəbənin zibilxanası kimi istifadə olunur. Təpənin dağıdılmış mərkəzi hissəsinin kəsiyində uzunluğu 120 sm olan divar qalıqları aydın görünür. Digər tərəfdə isə 194 sm qalınlığı olan Kamiltəpə tipli plat-

formanın bir hissəsi qalmışdı. Platformanın hündürlüyü 1 m-ə yaxındır. Divar və platforma 37x15x19 sm, 44x11x16 sm və 42x9x17 sm-lik samansız çiy kərpiclərlə tikilib və səthi suvanmışdır. Burada kəsiyin alt hissəsində təsərrüfat küpünün bir hissəsi də qalmışdı. Küp yerli sakinlər tərəfindən torpaq qazılması zamanı aşkar olunaraq dağıdılmışdır. Küpə düz oturacaqlıdır və oturacağının diametri 21 sm-dir. Dağıdılmış vəziyyətdə hündürlüyü 82 sm, gövdəsinin diametri 70 sm-dir. Miraşelli yaşayış yeri ərazisi və mədəni təbəqə xüsusiyyətlərinə görə unikal bir abidədir. Qorunması təmin olunması yaxın bir neçə ildə yaşayış yeri tamamilə məhv olacaqdır. Yaşayış yerindən 4 ədəd neolit dövrünə aid keramika fraqmenti aşkar olunub.

## İstisu yaşayış yeri



İstisu yaşayış yeri Miraşelli kəndindən 500 m şimalda, kənd qəbiristanlığının qərb tərəfində isti qeyzer bulağının çıxdığı təpədə yerləşir. Hündürlüyü 6 m, diametri 260 m olan yaşayış yeri şərq-qərb istiqaməti üzrə uzanıb. Yaşayış yerinin bütün səthi və tərəfləri torpağının qazılıb aparılması nəticəsində dağıdılmışdır. Dağıdılmış yaşayış yerinində müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələrinə təsadüf olunur. Təpənin şimal tərəfi son tunc-ilk dəmir dövründə nekropol kimi istifadə olunub. Müşahidələr zamanı 32 ədəd müxtəlif təyinatlı maddi-mədəniyyət nümunəsi aşkar olunubdur ki, bunlar da xronoloji baxımdan neolit, son tunc-ilk dəmir və orta əsrlər dövrünə (IX-XI əsrlər) aiddir. Neolit dövrünə aid keramika fraqmentləri içərisində Leylatəpə tipli dulus nümunələri çoxluq təşkil etsə də, burada təbəqələrin necə növbələşdiyini söyləyə bilmərik.

## Böyük Şomlutəpə yaşayış yeri



Böyük Şomlutəpə yaşayış yeri Miraşelli kəndindən 700 m şimal-qərbdə, İstisu yaşayış yerindən 500 m qərbdə yerləşir. Dairəvi formada olan təpənin diametri 300 m, hündürlüyü 11 m-dir. Yaşayış yeri Qarabağ müharibəsi gedişində səthində səngərlər və blindajlar qazılaraq dağıdılmışdır. Təpənin mərkəzi hissəsində qazılmış blindajın şərq divarının kəsiyində hündürlüyü 99 sm olan divar qalığı aydın görünür. Divar 55x10x32 sm ölçüsündə çiy kərpiclə hörülmüşdür. Kərpiclər arası suvaq qatı 0,5-3 sm arasında dəyişir. 31 ədəd keramika fraqmentindən ibarət yerüstü material toplanılmışdır ki, bunlar da Leylatəpə mədəniyyəti, son tunc-ilk dəmir və orta əsrlər dövrlərinə aiddir.

## Kiçik Şomlutəpə yaşayış yeri



Kiçik Şomlutəpə yaşayış yeri Böyük Şomlutəpə yaşayış yerindən 300 m cənubda, Miraşelli kəndinin şimal-qərbində yerləşir. Diametri 200 m, hündürlüyü 7 m olan təpənin mərkəzi hissəsində 1962-ci ildə pambıq qəbulu məntəqəsi tikilib. Qarabağ müharibəsi zamanı təpənin qərb tərəfində dərinliyi 2 m olan səngər və blindajlar qazılıb. Qədim yaşayış yerindən 13 ədəd keramika fraqmentinə təsadüf olunub ki, bunlar da neolit və orta əsrlər dövrünə aiddirlər.

## Şükürbəyli yaşayış yeri



Şükürbəyli yaşayış yeri təpə formasında olub, Xındırıstan kəndinin qərb hissəsində, köçkünlər şəhərciyindən 800 m qərbdə, Sultanbud meşəsindən 500 m cənubda yerləşir. Təpənin diametri 275 m, hündürlüyü 4 m-dir. Cənub-şərq hissəsində qazılmış quyuları nəzərə almasaq təpə dağıdılmayıb, yaxşı vəziyyətdədir. Qədim yaşayış yerindən 23 ədəd keramika fraqmenti aşkar olunmuşdur ki, bunlar da neolit dövrünə aiddir.

## II Yüzbaşılı yaşayış yeri



II Yüzbaşılı yaşayış yeri eyni adlı kəndin cənub-şərqində təxminən 500 m aralıqda yerləşir. Diametri 200 m, hündürlüyü 4 m olan təpənin səthi torpaq qazılıb aparılması nəticəsində dağıdılmışdır. Yaşayış yerindən 100 m cənubda kolxoz dövründə dağıdılmış başqa bir təpənin qalığı bir qədər hündür yer kimi qalıb. Dağıdılmış təpədə keramika nümunələrinə və həvəngə təsadüf olundu (Cəmi 23 ədəd). Aşkar olunmuş maddi-mədəniyyət nümunələrinin müqayisəli təhlili nəticəsində onların neolit dövrünə aid olduğunu söyləyə bilərik.

## Quzanlı yaşayış yeri



Quzanlı yaşayış yeri eyni adlı qəsəbənin köçgünlər üçün salınmış yeni şəhərciyinin qərbində yerləşir. Təpə formasında olan yaşayış yerinin diametri 100 m, hündürlüyü 4 m-dir. Təpənin şimal, şərq və cənub tərəfi qəsəbə tikilərkən tamamilə dağıdılmışdır. Dağıdılmış yerlərin divar kəsiyində ekskavatorun çömçəsinin izləri qalmışdır. Buradan torpaq şəhərcik ərazisinin hamarlanması üçün istifadə olunub. Dağıdılmış yerlərdə osteoloji qalıqlara və neolit dövrünə aid 5 ədəd keramika nümunələrinə təsadüf olunub.

## Kəbləhüseynli yaşayış yeri



Kəblə Hüsüynli yaşayış yeri eyni adlı kəndin mərkəzində yerləşir. Şərq-qərb istiqamətində uzanan yaşayış yeri təpə formasında olub, diametri 200 m, hündürlüyü isə 3 m-dən çoxdur. Təpənin cənub tərəfi həyatyanı sahələr, şimal tərəfi isə kənd yolu salınarkən dağıdılmışdır. Şərq tərəfi torpaq qazılıb aparılması nəticəsində tamamilə dağıdılmış yaşa-

yış yeri kəndin zibilxanası kimi istifadə olunur. Təpənin şimal-şərq tərəfində 1,3 m dərinlikdə dəmir dövrünə aid qəbir dağıdılmışdır ki, onun da materiallarının fraqmentləri ətrafa səpələnmişdir. Ehtimal ki, təpə son tunc-ilk dəmir dövründə nekropol kimi istifadə olunmuşdur. Yerli sakinlərin söylədiklərinə görə torpaq qazılarkən buradan çoxlu sayda saxsı qab çıxarılır. Aşkar olunan saxsı qab nümunələri evlərdə və Xındırıstan kənd orta məktəbində saxlanılır. Təpənin dağıdılmış mərkəzi hissəsində 20 sm dərinlikdə uzunluğu 2 m olan divar qalığı aşkar olundu. 40x9,5x15 sm ölçüsündə çiy kərpiclərdən tikilmiş divarın hündürlüyü 50 sm-dir. Bu divar qalığından 15 m şimalda, 1 m dərinlikdə 2 ədəd təsərrüfat küpü aşkar olundu ki, bu küplər də torpaq qazılması nəticəsində üzə çıxarılmış və dağıdılmışdır. Şiş oturcaqlı birinci küpün dərinliyi 130 sm, gövdəsinin diametri 110 sm-dir. İkinci küpün ağız hissəsinin bir hissəsi salamat qalmışdı. Bu küpün ağız hissəsinin diametri 104 sm-dir.

Kəbləhüseynli yaşayış yeri artıq tamamilə məhv olmaq üzrədir. Tezliklə bu təpənin qazılması və zibillənməsinin qarşısı alınması gələcəyə yalnız bu qədim yaşayış yerinin adı qalacaqdır. Qədim yaşayış yerində apardığımız təmizlik-xilasetmə işləri nəticəsində 16 ədəd keramika fraqmentinə təsadüf olundu ki, bunlar da neolit və son tunc-ilk dəmir dövrünə aiddir.

## Namazalıtəpə yaşayış yeri



Namazalıtəpə yaşayış yeri Kəbləhüseynli kəndindən 500 m, Kəbləhüseynli yaşayış yerindən 960 m qərbdə yerləşir. Diametri 120 m, hündürlüyü 3,5 m olan təpənin ətrafları torpaq aparılması nəticəsində dağıdılmışdı. Qədim yaşayış yeri digər abidələr kimi zibillik funksiyasını oynayır. Buradan 20 ədəd keramika fraqmentinə təsadüf olunmuşdur ki, bunlar da neolit və son tunc-erkən dəmir dövrünə aiddir.

## Böyüktəpə kurqanı



Böyüktəpə kurqanı Namazalıtəpədən 1,01 km cənub-şərqdə, Şirxan qobusunun kənarında yerləşir. Diametri 90 m olan kurqanın şimal tərəfində hündürlüyü 17 m, cənub tərəfində isə 3 m-dir. Təpənin şimal tərəfində ağac əkmək üçün qazılan arxı nəzərə almasaq təpə dağıntıya məruz qalmamışdır. Kurqanın səthi orta tunc dövründə yaşayış məskəni kimi istifadə olunduğundan arx qazılarkın həmin dövrə aid maddi-mədəniyyət nümunələri ətrafa səpələnmişdir. Bunlar keramika fraqmentləri, obsidian qəlpələri və serdolit muncuğun bir hissəsidir.

## Qurdtəpə yaşayış yeri



Qurdtəpə yaşayış yeri Böyüktəpə kurqanından 1,73 km şimal-qərbdə yerləşir. Şimal tərəfdə hündürlüyü 12 m, cənub tərəfdə isə 4 m-dir. Diametri 94 m olan təpə dağıntıya məruz qalmamışdır. Təpənin səthi nəzərdən keçirilərkən 13 ədəd keramika fraqmentinə təsadüf olundu ki, bunlar da son tunc-ilk dəmir və orta əsrlər dövrünə aiddir.

## Taynaq yaşayış yeri



Taynaq yaşayış yeri Ağcabədi rayonu ilə Ağdam rayonu sərhəddində, Qurdtəpədən 700 m cənub-şərqdə yerləşir. Təpəyə ən yaxın yaşayış məntəqəsi Taynaq kəndi olduğundan biz onu şərti olaraq Taynaq yaşayış yeri kimi qeydiyyata aldiq. Dərənin relyefinə görə şimal-qərb, cənub-şərq istiqamətində uzanan təpənin diametri 160x96 m-dir. Hündürlüyü şimal tərəfdə 5 m, cənub tərəfdə isə 3 m-dir. Yaşayış məskəni dağıntıya məruz qalmamışdır. Qədim yaşayış yerində 33 ədəd keramika fraqmentinə təsadüf olundu ki, bunlar da Leylatəpə mədəniyyəti və orta əsrlər dövrünə aiddir.

## Dəvəbatiran yaşayış yeri



Dəvəbatıran yaşayış yeri Xındırıstan elektrik şəbəkəsindən 100 m cənub-şərqdə yerləşir. Diametri 180 m olan təpənin çox böyük hissəsinin torpağı ekskavatorla qazılaraq aparılmış və beləliklə yaşayış məskəni dağıdılmışdır. Təpənin dağıdılmış cənub və şərq tərəflərində hündürlük yer səthilə bərabərdir. Şimal və qərb tərəfdə isə hündürlük 5 m-dir. Dağıdılmış yerlərdə ocaq izlərinə, osteoloji qalıqlara və saxsı məmulatına təsadüf olunur. Apardığımız müşahidələrə görə təpənin tunc dövründə nekropol kimi istifadə olunduğunu söyləyə bilərik. Dağıdılmış təpədə 23 ədəd keramika fraqmentinə təsadüf olundu ki, bunlar da neolit və Kür-Araz dövrünə aiddir. Dəvəbatıran yaşayış yerində torpaq qazılmasının qarşısı yaxın zamanlarda alınmasa təpə tamamilə məhv olacaqdır.

## 1 saylı Baharlı yaşayış yeri



1 saylı Baharlı yaşayış yeri Baharlı köçgün qəsəbəsindən 800 m şimalda, Əhmədağalı kənd qəbiristanlığından 150 m şərqdə yerləşir. Dairəvi formada olan təpənin diametri 95 m-dir. Təpənin cənub və cənub-qərb tərəfi torpaq aparılaraq dağıdılmışdır. Şimal tərəfdə hündürlüyü 3 m olan yaşayış məskəni zibilxana kimi istifadə olunur. Toplanılmış yerüstü materiallar əsasən keramika fraqmentlərindən ibarətdir ki, bunlar da müvafiq olaraq neolit və antik dövrünə aiddir.

## 2 saylı Baharlı yaşayış yeri

2 saylı Baharlı yaşayış yeri Baharlı köçgün qəsəbəsindən 500 m şimalda, 1 saylı Baharlı yaşayış məskənindən 290 m cənubda yerləşir. Diametri 130 m, hündürlüyü 2 m olan təpənin mərkəzi hissəsi Qarabağ muharibəsi zamanı blindaj tikildiyindən dağılıb. Təpənin cənub qərb tərəfi qobu ilə əhatə olunub. Əsasən keramika fraqmentlərindən ibarət yerüstü materiallar antik və orta əsrlərə aiddir.

## 3 saylı Baharlı yaşayış yeri



3 saylı Baharlı yaşayış yeri 1 saylı Baharlı yaşayış məskənindən 827 m şərqdə, Miraşelli yaşayış yerindən 1,36 km cənub-şərqdə, Bənövşələr köçgün qəsəbəsindən 400 m cənub-qərbdə yerləşir. Diametri 80 m, hündürlüyü 1,5 m olan təpə Qarabağ müharibəsi zamanında səngər qazılması nəticəsində dağıdılmışdır. Dağıdılmış təbəqədən topladığımız keramika fraqmentləri neolit və son tunc-ilk dəmir dövrünə aiddir.

## Vəlibəytəpə yaşayış yeri

Vəlibəytəpə yaşayış yeri Ağdam rayonu Baharlı köçgün qəsəbəsindən 500 m şimalda, 2 saylı Baharlı yaşayış məskənindən 40 m qərbdə yerləşir. Diametri 130 m, hündürlüyü 4 m olan təpə cənub tərəfdən qobu ilə əhatə olunub. Toplanılmış yerüstü nümunələrin müqayisəli təhlili nəticəsində burada neolit, Kür-Araz, antik və orta əsrlər dövrünü özündə əks materialların olduğunu söyləyə bilərik.

## Əhmədağalı yaşayış yeri



Əhmədağalı yaşayış yeri eyni adlı kənddən 820 m şərqdə, 1 saylı Baharlı yaşayış yerindən 1,28 km şimal-qərbdə yerləşir. Diametri 150 m, hündürlüyü 1,5 m olan təpə kolxoz dövründə pambıq çardağı və kübrə anbarı kimi istifadə olunub. Yaşayış yerinin şimal-şərq hissəsi Qarabağ müharibəsi dövründə blindajların qazılması nəticəsində dağılmışdı. Təpənin müşahidəsi zamanı yalnız neolit dövrünə aid maddi-mədəniyyət nümunələrinə təsadüf olundu.

## Əzgənlitəpə yaşayış yeri



Əzgənlitəpə yaşayış yeri təpə formasında olub, Əhmədağalı kəndindən 800 m şərqdə, Əhmədağalı yaşayış yerindən 133 m cənub-qərbdə yerləşir. Diametri 105 m, hündürlüyü 4 m olan təpənin mərkəzi hissəsində blindajlar salınıb. Qazılmış blindajların birinin divarında 3 sira samansız çiy kərpicdən ibarət divar qalığı tərəfimizdən aşkar olunaraq təmizləndi. Əhmədağalı yaşayış yerindən fərqli olaraq Əzgənlitəpə elə də dağıntıya məruz qalmamışdır. Burada da yalnız neolit dövrünə aid maddi-mədəniyyət nümunələrinə təsadüf olundu.

## Səngərtəpə yaşayış yeri



Səngərtəpə yaşayış yeri Vəlibəytəpədən 1,36 km cənub-şərqdə, Əzgənlitəpədən 1,84 km cənubda, Baharlı qəsəbəsindən 300 m cənub-qərbdə yerləşir. Diametri 60 m, hündürlüyü 3 m olan təpənin səthi qazılmış səngərlər tərəfindən dağıldığından biz onu məhz belə adlandırdıq. Burada da təsadüf olunan materiallar neolit dövrünə aiddir.

## Çalağantəpə yaşayış yeri



Yaşayış yeri təpə formasında olub, eyni adlı kəndin cənubunda, "Qarabağ petrol" yanacaq doldurma məntəqəsindən 250 m cənubda yerləşir. Şimal-cənub istiqamətində uzanan təpənin diametri 85x60 m, hündürlüyü isə 3,5 m-dir. Toplanılmış yerüstü materiallar neolit dövrünə aiddir.

## 1 saylı Boyat yaşayış yeri



1 saylı Boyat yaşayış yeri təpə formasında olub, Çalağantəpə yaşayış yerindən 1,57 km şərqdə yerləşir. Təpənin diametri şimal-cənub istiqaməti üzrə 200 m, qərb-şərq istiqaməti uzrə 170 m, hündürlüyü isə 6 m-dir. Təpədə Böyük Kəhrizli və Boyat kəndlərinin qəbiristanlığı yerləşir. Buradan yerüstü olaraq aşkar olunmuş 12 ədəd keramika fraqmenti neolit dövrünə aiddir.

## 2 saylı Boyat yaşayış yeri



2 saylı Boyat yaşayış yeri 1 saylı Boyat yaşayış yerindən 181 m şimalda yerləşir. Diametri 95 m, hündürlüyü 3 m olan təpənin cənub hissəsi və bütün səthi torpaq qazılması nəticəsində dağıdılmışdır. Hal-hazirda yaşayış yeri torpaq karyeri və zibilxana kimi istifadə olunur. Əgər torpaq qazılması və zibilləmə bu intensivliklə davam edərsə yaxın zamanda yaşayış yeri tamamilə məhv olacaqdır. Dağıdılmış ərazidən 7 ədəd neolit dövrünə aid keramika fraqmenti tapılmışdı.

## Xantəpə yaşayış yeri



Xantəpə yaşayış yeri Boyat kəndindən 1,32 km şimalda yerləşir. Təpə Qalaça qobusu ilə əhatə olunmuşdur. Xalq arasında Solaxaytəpə, Qalaça kimi də adlandırılır. Üç mərtəbəli zikkuratı xatırladan formaya malik təpənin hündürlüyü şimal tərəfində 20 m, diametri isə 300 m-dir. Strateji mövqeyə malik təpə vasitəsilə bütün Aran Qarabağa nə-

zarət etmək mümkündür. Yerli sakinlər təpəni Pənah xanla bağlayır və bunun üçün də Xantəpə adlandirmışlar. Xantəpənin ətrafı da digər qədim yaşayış yerləri kimi zibillik funksiyası daşıyır. Yerüstü axtarışlar zamanı neolit, son tunc-erkən dəmir və inkişaf etmiş orta əsrlər dövrünə aid keramika məmulatına təsadüf olunmuşdur. Ehtimallarımıza görə qala qədim yaşayış yerinin üzərində salınmışdır. Təpə ətraf ərazilərdən torpaq daşınaraq toplanılması nəticəsində indiki formasını almışdır. Çox güman ki, belə forma qalanın müdafiə qabiliyyətinin artırılması məqsədilə edilmişdir.

## Saattəpə yaşayış yeri



Saattəpə yaşayış yeri Əfətli kəndindən 250 m şərqdə yerləşir. Hündürlüyü 4 m, diametri 150 m olan təpə dağıntıya məruz qalmamışdır. Yerüstü material olaraq antik və ilk orta əsrlər dövrünə aid keramika fraqmentlərinə təsadüf olunmuşdur.

## Ağalartəpə yaşayış yeri



Ağalartəpə yaşayış yeri Saattəpədən 480 m cənub-şərqdə yerləşir. Diametri 60 m, hündürlüyü 1,5 m olan təpə torpaq karyeri və zibillik kimi istifadə olunur. Təpə artıq

məhv olmaq üzrədir. Təsadüf olunmuş keramika fraqmentləri yaşayış yerinin antik dövrə aid olduğu fikrinə gəlməyimizə səbəb oldu.

## Xanlıqtəpə yaşayış yeri



Xanlıqtəpə yaşayış yeri Xantəpədən 926 m şimal-qərbdə, Qaraxanbəyli kəndindən 800 m cənub-qərbdə yerləşir. Hündürlüyü 6 m, diametri 180 m olan təpənin qərb hissəsi torpaq daşinaraq dağıdılmışdır. Burada neolit dövrünə aid keramika fraqmentlərinə (15 ədəd) təsadüf olunmuşdur. Onların içərisində 2 ədəd Leylatəpə tipli fraqment də var.

## Hacılar yaşayış yeri



Hacılar yaşayış yeri eyni adlı kəndin mərkəzində yerləşir. Diametri 200 m, hündürlüyü 2,5 m olan təpənin səthi kənd yolu və həyətyanı sahələr salınarkən dağıdılıb. Təpənin şərq tərəfi 150x100 m sahədə materikə qədər qazılaraq burada həyətyanı sahə yaradılmışdır. Yaşayış yerinin tam yarısı bütünlüklə dağıdılmışdır. Daha maraqlısı budur ki, yaşayış yeri bütünlüklə Leylatəpə tiplidir. Burada təsadüf olunmuş keramika məmulatı abidənin genetik xüsusiyyətləri haqqında müəyyən fikrə gəlməyimizə əsas verir.

## Sarıcalı yaşayış yeri



Sarıcalı yaşayış yeri Ağcabədi rayonu Sarıcalı kəndindən 500 m cənub qərbdə, Şirxan qobusunun sağ kənarında yerləşir. Təpənin diametri 120 m, hündürlüyü şimal tərəfdə 10 m, cənub tərəfdə isə 4 m-dir. Relyefi nəzərdən keçirdikdə aydın olur ki, yaşayış yeri təbii yüksəklik üzərində salınıb. Yerüstü materiallar yaşayış yerinin orta əsrlər dövrünə aid olduğunu söyləməyə imkan verir.

## Sarıtəpə yaşayış yeri



Sarıtəpə yaşayış yeri Sarıcalı yaşayış yerindən 622 m cənubda yerləşir. Diametri 65 m, hündürlüyü isə 3 m olan təpə əkin sahələri ilə əhatə olunmuşdur. Təpə bu səbəbdən də dağılmamış, əla vəziyyətdədir. Yaşayış yeri erkən orta əsrlərə aiddir.

## 1 saylı Douttəpə kurqanı



1 saylı Douttəpə kurqanı Hindarx qəsəbəsində, Ağdam-Ağcabədi şosse yolunun sağında, Sarıtəpədən 4,73 km cənubda yerləşir. Diametri 130 m, hündürlüyü 3 m olan kurqan yaxşı vəziyyətdə qalmışdır. Bu kurqandan cənubda daha 3 abidə, Goruslu, Garuslu və Həsəntəpə yerləşir.

## 2 saylı Douttəpə kurqanı



2 saylı Douttəpə kurqanı 1 saylı Douttəpə kurqanından 800 m cənubda, Ağdam-Ağcabədi şosse yolunun solunda yerləşir. Diametri 60 m, hündürlüyü 1,5 m olan kurqanın səthi kolxoz dövründə hamarlanaraq pambıq çardağı tikilmişdir.

## Çaqqallıtəpə yaşayış yeri



Çaqqallıtəpə yaşayış yeri 2 saylı Douttəpə kurqanından 650 m şərqdə yerləşir. Şimal-şərq, cənub qərb istiqamətində olan təpənin diametri müvafiq olaraq 120x80 m-dir. Səthində çoxlu sayda tülkü və çaqqal yuvaları olduğundan yerli əhali tərəfindən belə adlandırılıb. Təpə hal-hazırda kənd zibilxanası kimi istifadə olunur. Təsadüf olunmuş keramika məmulatı (21 ədəd) eneolit dövrünə aiddir.

## Bilağan yaşayış yeri



Bilağan yaşayış yeri eyni adlı kənddən 250 m şimal-şərqdə yerləşir. Diametri 150 m, hündürlüyü 3 m olan bu təpə də təəssüflər olsun ki, zibillik kimi istifadə olunur. Təpənin vizual müşahidəsi zamanı burada orta əsrlərə aid çox yüksək səviyyəli saxsı məmulatının olduğunu müşahidə etdik. Bu təpədən 100 m cənubda yerləşən kənd qəbiristanlığında qədim dini tikintinin qalıqları nəzərimizi cəlb etdi. Qəbiristanlıqda olan orta əsrlərə aid çoxlu sayda başdaşıları və yaşayış yerində təsadüf olunan saxsı məmulatı ərazinin məhz bu dövrdə yüksək inkişaf etdiyinə bir sübutdur. Neolit dövrünə aid yaşayış yeri IX-XV əsrlərdə yenidən məskunlaşdırılmışdır. Fikrimizin isbatı kimi buradan aşkar etdiyimiz saxsı fraqmentlərini (17 ədəd) göstərə bilərik.

## Bəybalatəpə yaşayış yeri



Bəybalatəpə yaşayış yeri Boyat kəndinin qərb hissəsində, Bilağan yaşayış yerindən 1300 m cənubda, kənd dəyirmanının arxasında yerləşir. Diametri 140 m, hündürlüyü 4 m olan təpənin üzərində müharibə dövründə səngərlər qazılıb. Hal-hazırda təpə torpaq karyeri və zibilxana kimi istifadə olunur. Toplanılmış yerüstü materiallar (19 ədəd) yaşayış yerinin neolit dövrünə aid olduğunu söyləməyə imkan verir.

## Küllütəpə yaşayış yeri



Küllütəpə yaşayış yeri Hacılar kəndində, Hacılar yaşayış yerindən 630 m şimal-şərqdə, Xanlıqtəpədən 987 m qərbdə, Hacılar qobusunun sağ tərəfində yerləşir. Şimal və cənub tərəfləri həyətyanı sahələr və yolun çəkilməsilə bağlı olaraq dağıdılmışdır. Bununla bağlı olaraq təpənin uzunluğu şərq-qərb istiqaməti üzrə 90 m, şimal-cənub istiqaməti üzrə 30 m, hündürlüyü isə 3 m-dir. Təpənin qərb tərəfi hal-hazırda torpaq karyeri kimi istifadə olunur. Yerli əhalinin sözlərinə görə Küllütəpədən 130 m cənub-şərqdə Əhəngtəpə adlanan başqa bir qədim yaşayış yeri də mövcud idi ki, bu təpə də həyətyanı sahələrin

salınması ilə əlaqədar olaraq tamamilə dağıdılmışdır. Küllütəpə neolit dövrünə aid yaşayış məskənidir ki, bunu da buradan aşkar olunmuş maddi-mədəniyyət nümunələri sübut edir.

## Gəşəlitəpə yaşayış yeri



Gəşəlitəpə yaşayış yeri Hacılar kəndinin şimal-qərbində, Küllütəpədən 990 m qərbdə yerləşir. Təpənin hündürlüyü 6 m, diametri 120 m olub, səthi qazılmış səngərlər səbəbindən dağıdılmışdır. Qədim yaşayış yeri neolit dövrünə aiddir. Buradan həmin dövrə aid 19 ədəd keramika fraqmentinə təsadüf olunub.

## Cəfərqulutəpə yaşayış yeri



Cəfərqulutəpə yaşayış yeri Gəşəlitəpədən 460 m şimalda yerləşir. Diametri 90 m, hündürlüyü 2,5 m olan təpə kolxoz dövründə pambıq çardağı, müharibə dövründə isə səngər qazıdılaraq dağıdılmışdır. Neolit dövrünə aid yaşayış məskəni olan Cəfərqulu təpəsindən həmin dövrə aid 10 ədəd keramika fraqmentinə təsadüf olunub.

## Qoşatəpə yaşayış yeri



Qoşatəpə yaşayış yeri Cəfərqulutəpədən 691 m şimal-şərqdə Qarqarçayın qədim qolu olan Hacılar qobusunun sol tərəfində yerləşir. Diametri 200 m, hündürlüyü 10 m olan təpənin şərq tərəfində vaxtilə ikinci təpə olmuş, həmin təpə də keçən əsrin 70-ci illərində pambıq əkininin genişləndirilməsi üçün dağıdılmışdır. Yaşayış yerinin adı da elə buradan əmələ gəlmişdi. Toplanılmış materialların müqayisəli təhlili abidənin çox maraqlı olduğuna dəlalət edir. Buradan neolit və eneolit Kur-Araz dövrünə aid 33 ədəd müxtəlif təyinatlı maddi-mədəniyyət nümunələrinə təsadüf olunub.

## Sayattəpə yaşayış yeri



Sayattəpə yaşayış yeri Qaradağlı kəndi ərazisində, Hacılar yaşayış yerindən 1,45 km cənub-qərbdə yerləşir. Hündürlüyü 6 m, diametri 120 m olan təpə dağılmamış, yaxşı vəziyyətdədir. Sayattəpə neolit dövrünə aid yaşayış məskənidir ki, bunu da aşkar olunmuş keramika məmulatı (24 ədəd) sübut edir.

## Əhədtəpə yaşayış yeri



Əhədtəpə yaşayış yeri Eyvazlı kəndinin şərqində, Quzanlı-Xındırıstan yolundan 200 m cənubda yerləşir. Diametri 160 m, hündürlüyü 5 m olan təpə pambıq çardağı kimi istifadə olunub. Hal-hazırda təpə torpaq karyeri və zibilxana kimi istifadə olunur. Yerüstü material olaraq  14 ədəd keramika fraqmentinə təsadüf olundu ki, bunlar da neolit dövrünə aiddir.

## Kərimlitəpə yaşayış yeri



Kərimlitəpə yaşayış yeri Əhədtəpədən 515 m cənub-şərqdə yerləşir. Diametri 75 m, hündürlüyü 2 m olan təpə pambıq çardağı kimi istifadə olunub. Təpənin şimal-şərq tərəfi torpaq qazılıb aparılması nəticəsində dağıdılıb. Buradan 4 ədəd Leylatəpə tipli keramika fraqmenti aşkar olunub ki, bu da abidənin dövrü və genetik xüsusiyyəti haqqında müəyyən fikirlər söyləmək imkanı verir.

## Nazlıxantəpə yaşayış yeri



Nazlıxantəpə yaşayış yeri Kərimlitəpədən 640 m, Əhədtəpədən 1,02 km şərqdə yerləşir. Diametri 105 m, hündürlüyü 3 m olan təpə pambıq çardağı kimi istifadə olunub. Təpənin qərb tərəfinin torpağı qazılaraq dağıdılmışdır. Qədim yaşayış yeri neolit dövrünə aiddir.

## Boztəpə yaşayış yeri



Boztəpə yaşayış yeri Nazlıxantəpədən 540 m şimal-şərqdə, I Qasımbəyli qəsəbəsinin qərb hissəsində yerləşir. Diametri 85 m, hündürlüyü 2,5 m olan təpə dağıntıya məruz qalmamışdır. Yaşayış yerində erkən orta əsrlərə aid 6 ədəd keramika fraqmenti aşkar olunub.

## Leylatəpə yaşayış yeri

Leylatəpə yaşayış yeri Eyvazlı kəndinin şimalında, Quzanlı-Xındırıstan şosse yolunun sağında yerləşir. Keçən əsrin 80-cı illərində burada mərhum arxeoloqomuz İ.H. Nərimanov arxeoloji tədqiqat işləri aparmış və Cənubi Qafqazın son eneolit dövrünü özündə əks etdirən yeni bir arxeoloji mədəniyyəti müəyyən edərək onu məhz bu təpənin adı ilə Leylatəpə mədəniyyəti adlandırmışdır. Çox təəssüf ki, təpə üzərində restoran tikildiyi vaxtlarda dağıdılmışdır. Hal-hazırda təpənin üzərində bağ salinmişdır.

## İsmayılbəytəpə yaşayış yeri



İsmayılbəytəpə yaşayış yeri Leylatəpədən 780 m qərbdə, Quzanlı-Xındırıstan şosse yolundan 250 m şimalda yerləşir. Diametri 100 m, hündürlüyü 4 m olan təpə dağıntıya məruz qalmayıb. Neolit dövrünə aid yaşayış yeri "Qarabağ eneolit ekspedisiyası"nın əsas tədqiqat obyekti kimi muəyyən edilmişdir. 2012-ci ildən burada geniş miqyaslı arxeoloji qazıntılara start verilmişdir.

## 1 saylı Xındırıstan kurqanı



1 saylı Xındırıstan kurqanı eyni adlı kəndin ərazisində yerləşir. Diametri 70 m, hündürlüyü 5 m-dir. Kurqanın cənub tərəfi torpaq daşınması nəticəsində dağıdılıb.

## 2 saylı Xındırıstan kurqanı



2 saylı Xındırıstan kurqanı eyni adlı kəndin ərazisində yerləşir. Diametri 75 m, hündürlüyü 7 m-dir.

## 3 saylı Xındırıstan kurqanı



3 saylı Xındırıstan kurqanı eyni adlı kəndin qəbiristanlığında yerləşir. Diametri 77 m, hündürlüyü 5 m-dir.

## Ayaq Qərvənd yaşayış yeri



Ayaq Qərvənd yaşayış yeri eyni adlı qəsəbənin qərbində yerləşir. Diametri 95 m, hündürlüyü 10 m olan təpə dağılmaya məruz qalmamışdır. Yalnız təpənin cənub hissəsi hazırda zibillik kimi istifadə olunur. Neolit dövrünə aid yaşayış yerində həmin dövrə aid 10 ədəd keramika fraqmentinə təsadüf olunub.

## Ayaq Qərvənd kurqanı



Ayaq Qərvənd kurqanı eyni adlı yaşayış yerindən 425 m şimal-şərqdə yerləşir. Diametri 90 m, hündürlüyü 8 m olan kurqanın mərkəzi hissəsi səngər qazılaraq dağıdılmışdır.

## Sultanbud kurqanı



Sultanbud kurqanı Bərdə, Ağdam, Tərtər yolunun kəsişdiyi yerdə yerləşir. Çox əzəmətli görünüşə malik olan kurqan diametri 284 m olan platforma üzərində qurulmuşdur. Platformanın hündürlüyü 14 m, kurqanın hündürlüyü isə 23 m-dir. Kurqanın platforma ilə birgə hündürlüyü 37 m-dir. Hal-hazırda kurqanın zirvəsində bayraq meydanı tikilmişdir.

## 1 saylı Əfətli kurqanı



Kurqan Ağdam rayonunun eyni adlı kəndinin şimal-şərqində yerləşir. Hündürlüyü 17 m, diametri isə  200 m olan kurqanın şimal-şərq və cənub-şərq hissəsi təpə üzərində mərkəzi müharibə dövründə səngərlər qazılaraq dağıdılıb.

## İmamqulubəyli kurqanı



İmamqulubəyli kurqanı eyni adlı kəndin cənub hissəsində, Bərdə-Ağdam yolunun sağında yerləşir. Kurqan yerli əhali tərəfindən Kərpictəpə kimi də adlandırılır. Diametri 95 m, hündürlüyü isə 4 m olan kurqanın qərb hissəsi tamamilə dağıdılaraq bağ salınıb. Yerli əhalinin söylədiyinə görə kurqan dağıdılarkən təxminən 1 m dərinlikdən təpənin diametrini əhatə edən çay daşı düzümü üzə çıxmışdı. Dağıdılmış hissənin şərq tərəfində kəsikdə çay daşı yığını aydın görünür. Güman ki, bu daşlar dağıdılmış kameraya aiddir. Yerli əhalinin söylədiklərilə apardığımız müşahidələrə əsaslanaraq ehtimal edirik ki, kurqanın kamerası hələ ki, salamatdır. Əgər tez bir zamanda burada xilasetmə qazıntıları aparılmazsa kurqan dağıdılaraq onun kamerası talan ediləcəkdir. Kurqanın şimal və şimal-şərq tərəfi də torpaq aparılması nəticəsində dağıdılmışdır. Dağıdılması ilə yanaşı kurqan həm də zibillik kimi də istifadə olunur.

## Fərmantəpə yaşayış yeri



Fərmantəpə yaşayış məskəni Ayaq Qərvənd kurqanından 2 km şərqdə Sultanbud meşəsində yerləşir. Diametri 120 m, hündürlüyü isə 7 m olan təpənin cənub tərəfi meşə səviyyəsilə eynidir. Qərbə, qədim çay yatağına doğru getdikcə isə təpə 7 m-ə kimi hündürləşir. Təpədə aparılan müşahidələr zamanı Leylatəpə mədəniyyətinə aid keramika

fraqmentlərinə təsadüf olundu. Digər tip maddi-mədəniyyət nümunələrinə rast gəlinmədiyi üçün ehtimal etmək olar ki, yaşayış yeri tək təbəqəlidir. Təpənin yaxınlığında yaşayan sakinlər təpənin adsız olduğunu söylədilər. Biz də öz növbəmizdə təpəyə Azərbaycanın eneolit dövrü arxeologiyasının ən sanballı tədqiqatçılarından biri olan, mərhum arxeoloq Fərman Mahmudovun şərəfinə Fərmantəpə adlandırdıq. 2013-cü ildə yaşayış yerində "Qarabağ neolit-eneolit ekspedisiyası" tərəfindən arxeoloji qazıntı işlərinə start verilmişdir.

## Çardaqlı yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Çıraqlı kəndindən 200 m şərqdə, Əhmədağalı Baş Qərvənd yolundan 150 m sağda yerləşir. Dağılmış vəziyyətdə diametri 90 m, hündürlüyü isə 1,5 m-dir. Sovet dövründə təpə pambıq çardağı və əhəng kürəsi kimi istifadə olunmuşdur. Təpənin erməni səngərləri ilə üzbəüz şimal və şərq hissəsinə torpaq yığılaraq val düzəldilmiş, mərkəzi hissəsində isə müşahidə məntəqəsi tikilmişdir. Hal-hazırda təpə əsgərlər tərəfindən boşaldılsa da, yerli əhali tərəfindən zibilxana və torpaq karxanası kimi istifadə olunaraq dağıdılır. Dağıdılmış hissələri müşahidə edərkən mədəni təbəqənin indiki yer səviyyəsindən təxminən 1 m-ə kimi aşağıda da olduğu müəyyənləşdirildi. Buradan toplanılmış maddi-mədəniyyət nümunələrinin müqayisəli təhlilinə əsaslanaraq yaşayış yerinin neolit dövrünə aid olduğu müəyyən olundu.

## Məscidtəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Əhmədağalı kəndinin mərkəzində, kənd məscidi ərazisində yerləşir. Təpə formasında olan yaşayış yeri məscid, kənd yolu və həyətyanı sahələrin salınması zamanı dağıdılmışdır. İndiki vəziyyətdə bəzi hissələrdə hündürlüyü 1m, diametri 45 m-dir. Yaşayış yeri demək olar ki, hər gün dağıntıya məruz qalır. Abidə neolit dövrünə aiddir.

## Zəngisalı kurqanı



Kurqan Ağdam rayonunun eyni adlı kəndinin şimal hissəsində yerləşir. Hündürlüyü 7 m, diametri isə 85 m olan olan kurqanın təpə hissəsinin şimal və şərq hissəsi tamamilə dağıdılıb. Hal-hazırda kurqan kənd sakinləri tərəfindən torpaq karxanası və zibilxana kimi istifadə olunur.

## 2 saylı Əfətli kurqanı



Kurqan Ağdam rayonunun eyni adlı kəndinin şərqində, 1 saylı Əfətli kurqanından 1 km cənub-şərqdə yerləşir. Hündürlüyü 25 m, diametri isə 240 m olan kurqan quruluşuna görə ikiyarusludur. Müharibə dövründə mərkəzi hissəsində səngər və blindajlar qazılsa da, bu qazıntılar kurqanın möhtəşəmliyinə xələl gətirə bilməmişdir. Toplanılmış yerüstü materiallara əsasən kurqanın orta əsrlərdə yaşayış yeri kimi də istifadə olunduğunu söyləyə bilərik.

## 1 saylı Çəmənli yaşayış yeri



Təpə formasında olan yaşayış yeri eyni adlı kənddən 400 m şərqdə, əkin sahələri içərisində yerləşir. Təpənin bütün tərəfləri əkin sahələrinin genişləndirilməsi nəticəsində dağıdılaraq əkilmişdir. Neolit dövrünə aid olan yaşayış yerinin şimal-cənub istiqamətində uzunluğu 55 m, qərb-şərq istiqamətində eni isə 30 m-dir. Mərkəzində dərin quyu qazılmışdır və ətrafa səpələnmiş materiallardan buradan yaşayış yeri kimi orta əsrlərdə də

istifadə olunduğunu söyləyə bilərik. Burada da mədəni təbəqənin indiki yer səviyyəsindən aşağıda başlanıldığı müşahidə olunmuşdur.

## 2 saylı Çəmənli yaşayış yeri



Təpə formasında olan yaşayış yeri 1 saylı Çəmənli y/y-dən 125 m şərqdə yerləşir. Hündürlüyü 2,5 m, diametri isə 110 m olan təpəmin mərkəzi və qərb hissəsi qazıntılar aparılaraq dağıdılmışdır. Təpənin şərq tərəfində elektrik şəbəkəsi tikilmiş, cənubuna isə polad elektrik ötürücüsü qoyulmuşdur. Yaşayış yeri neolit dövrünə aiddir.

## Bəhməztəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri təpə formasında olub, Ağdam rayonu Şüküralı kəndindən 700 m şərqdə yerləşir. Hündürlüyü 2,5 m, diametri isə 80 m olan təpədə xırda qazıntılar aparılsa da, ümumilikdə yaxşı vəziyyətdədir. Hər tərəfi əkin sahələrilə əhatə olunub, ehtimal ki, bu da onun zibillənməsinin qarşısını alıb.

## Sulduztəpə yaşayış yeri



Təpə formasında olan yaşayış yeri Ağdam rayonu Baharlı qaçqın şəhərciyindən 50 m şimal-şərqdə yerləşir. Yaşayış yeri şimal, şərq və qərb tərəfdən qədim çay yatağı ilə əhatə olunub. Şərq-qərb istiqamətində uzunluğu 150 m, şimal-cənub istiqamətində eni 80 m-dir. Təpə o qədər də dağıntıya məruz qalmayıb. Toplanılmış yerüstü materiallar neolit, Leylatəpə və orta əsrlər dövrlərinə aiddir.

## Adsıztəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Quzanlı qaçqın şəhərciyindən 100 m qərbdə, Ağabəy qobusu adlanan qədim çay yatağının sahilində yerləşir. Çay yatağı təpənin şimal və şərq tərəfini əhatə edir. Təpə formasında olan yaşayış yeri təbii təpənin üzərində yerləşir. Cənub və qərb tərəfdə yaşayış yerinin dəqiq hündürlüyünü təyin etmək mümkündür. Neolit dövrünə aid olan yaşayış yerinin diametri 80 m, hündürlüyü 1 m-dir. Təpə dağıntıya məruz qalmamış, əla vəziyyətdədir.

## 1 saylı Ağtəpə yaşayış yeri



Təpə formasında olan yaşayış yeri Ağdam rayonu II Baharlı qaçqın şəhərciyindən 70 m şərqdə, qədim çay dərəsinin cənub sahilində yerləşib. Təbii təpə üzərində qurulan yaşayış yerinin hündürlüyü 3 m, diametri isə 120 m-dir. Mərkəzi hissəsi torpaq qazılıb aparılması nəticəsində tamamilə dağıdılıb. Yaşayış yeri şərqdən çay yatağı, cənubdan isə yol ilə sərhədlənir. Ətrafa dağıntılar nəticəsində səpələnmiş çoxlu sayda saxsı və daş məmulatının müqayisəli təhlili burada neolit, Kür-Araz və orta tunc dövrlərində intensiv yaşayışın olduğunu söyləməyə imkan verir.

## 2 saylı Ağtəpə yaşayış yeri



Yaşayış yeri 1 saylı Ağtəpə yaşayış yerindən 100 m şərqdə yerləşir. Buradan da torpaq karxanası və zibilxana kimi istifadə olunur. Mərkəzi hissəsi tamamilə dağıdılmış yaşayış yerinin diametri 80 m, hündürlüyü isə 1,2 m-dir. Bu abidədən 70 m şərqdə dağıdılmış üçüncü bir dağıdılmış təpə də var ki, onun da kurqan olduğu ehtimal olunur.

## 1saylı Səfərli yaşayış yeri



Təpə formasında olan yaşayış yeri Ağdam rayonunun Səfərli kəndindən 1 km şimal-şərqdə əkin sahələrinin içərisində yerləşir. Diametri 100 m, hündürlüyü isə 2,5 m olan neolit dövrünə aid yaşayış yeri dağıntıya məruz qalmamışdır.

## 2 saylı Səfərli yaşayış yeri



Yaşayış yeri 1 saylı Səfərli yaşayış yerindən 250 m şimal-qərbdə yerləşir. Əkin sahələri içərisində olan təpənin hündürlüyü 2 m, diametri 75 m-dir. Qismən dağılmış şimal hissəsini nəzərə almasaq, neolit dövrünə aid olan yaşayış yeri əla vəziyyətdədir.

## Qaraxanlı yaşayış yeri



Yaşayış yeri Ağcabədi rayonunun eyni adlı kəndinin 700 m qərbində yerləşir. Əkin sahələri içərisində yerləşən təpənin mərkəzi hissəsi qazılıb. Ehtimal ki, bu qazıntılar müharibə zamanı müdafiə üçün istehkam inşası üçün edilmişdir. Diametri 80 m, hündürlüyü isə 3 m olan yaşayış yeri neolit dövrünə aiddir.

## İdealtəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Səfərli kəndindən 1,2 km, Sayadtəpədən 1,7 km cənub-qərbdə yerləşir. Diametri 70 m, hündürlüyü isə 3 m olan təpə formalı yaşayış yeri dağıntıya məruz qalmamışdır. Neolit dövrünə aid olan təpənin adsız olduğunu öyrəndikdən sonra onu görkəmli arxeoloqumuz İdeal Nərimanovun şərəfinə İdealtəpə adlandırdıq.

## Sayadtəpə yaşayış yeri





Yaşayış yeri Ağdam rayonu Səfərli kəndinin qərb hissəsində yerləşir. Təpə formasında olan yaşayış yerinin hündürlüyü 9 m, dağılmış vəziyyətdə diametri 90 m-dir. Öz ölçülərinə görə Qarabağın ən möhtəşəm abidələrindən olan Sayadtəpənin şimal, şərq və qərb tərəfi tamamilə dağıdılıb. Cənub, cənub-şərq hissələri isə həyətyanı sahələrin salınması səbəbindən dağıdılıb. Neolit dövrünə aid təpənin dağıntılarını müşahidə edərkən saxsı qab və tikili qalıqlarını aydın görmək mümkündür. Əldə olunan materiallara əsasən buranın orta əsrlərdə də yaşayış yeri kim istifadə olunduğunu söyləyə bilərik. Çox təəssüf ki, yaşayış yeri hal-hazırda torpaq karxanası və zibilxana kimi istifadə olunur.

## Osmantəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Səfərli kəndindən 1,2 km, Sayadtəpədən 1,7 km cənub-qərbdə, İdealtəpədən 154 m cənubda yerləşir. Əkin sahələri içərisində yerləşən təpə formasında olan neolit dövrünə aid yaşayış yerinin diametri 90 m, hündürlüyü isə 3 m-dir. Bu təpə də adsız olduğundan biz onu Azərbaycanın erkən-əkinçi maldar mədəniyyətlərinin ilkin tədqiqatçısı, görkəmli arxeoloq Osman Həbibullayevin şərəfinə Osmantəpə adlandırdıq.

## Alıbəyli kurqanı



Kurqan Ağdam rayonunun eyni adlı kəndindən 500 m şimal-şərqdə yerləşir. Diametri 90 m, hündürlüyü isə 2 m olan kurqan təpəsi sovet dövründə pambıq çardağı kimi istifadə olunmuşdur. Onun ustü və ətrafı dağıdılıb, hal-hazırda isə onun üstündə ev tikilib və həyətyanı sahə kimi istifadə olunur.

## 1 saylı Hindarx kurqanı









Kurqan Ağcabədi rayonu Hindarx qəsəbəsindən 500 m şimal-şərqdə, Hindarx-Quzanlı yolunun 250 m solunda yerləşir. Hündürlüyü 5 m, diametri isə 76 m olan kurqanın cənub-şərq hissəsi torpaq qazılıb aparılması nəticəsində tamamilə dağıdılmışdır. Yerli əhalinin verdiyi məlumata görə torpaq Hindarx qəsəbəsində aparılan tikinti-abadlıq işlərində istifadə üçün daşınmışdır. Kurqana baxış keçirilərkən diqqətimizi vəhşicəsinə dağıntının izləri cəlb etdi. Hər tərəfdə insan və heyvanlara məxsus osteoloji qalıqlar, saxsı qab fraqmentləri, obsidian qəlpələri səpələnmişdir. Bu hissədə kurqan təpəsi tamamilə dağıdılmış, nəticədə isə sallama qəbirlər məhv olmuşdur. Vizual müşahidələr zamanı kurqan kamerası izlənilmədi, çox böyük ehtimal ki, kamera təpənin altında materikdə qazıldığından dağıdılmamışdır. Bundan başqa uzun illərdir ki, kurqanın ətrafı zibillik kimi istifadə olunur.

## 2 saylı Hindarx kurqanı



Kurqan 1 saylı Hindarx kurqanından 500 m cənub-qərbdə, Hindarx kəndinin şimal-qərb qurtaracağında yerləşir. Hündürlüyü 7 m, diametri isə 140 m olan kurqanın mərkəzində 1943-cü ildə vəfat etmiş sovet əsgərinin qəbri var. Kiçik qazıntıları nəzərə almasaq kurqan əla vəziyyətdədir.

## 3 saylı Hindarx kurqanı



Kurqan 2 saylı Hindarx kurqanından 380 m  şimal-qərbdə yerləşir. Kurqanın quruluşu Sultanbud kurqanını xatırladır. Kurqanın hündürlüyü 17 m, diametri isə 152 m-dir. Kurqan təpəsinin şimal hissəsi çöküb. Ətrafı nəzərdən keçirərkən antik, orta əsrlər dövrlərinə aid çoxlu sayda saxsı fraqmentləri diqqətimizi cəlb etdi.

## Küllütəpə kurqanı





Kurqan Ağdam rayonu Alıbəyli kəndindən 1,5 km şərqdə, kənd yolunun sağında yerləşir. Sovet dövründə kurqan təpəsi pambıq çardağı kimi istifadə olunmuşdur. Diametri 110 m, hündürlüyü 1-1,5 m olan kurqan hal-hazırda dağıdılaraq zibillənir.

## Kazımbəytəpə yaşayış yeri



Yaşayış yeri Alıbəyli kəndindən 150 m qərbdə yerləşir. Təpə formasında olan yaşayış yerinin diametri 140 m, hündürlüyü isə 2 m-dir. Təpə dağıntıya məruz qalmasa da, məişət tullantıları ilə zibillənib. Neolit dövrünə aid olan yaşayış yerinin çox hissəsi zibilliklə tamamilə örtülmüşdür.

## Bəşirtəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Kiçikli kəndinin cənub-şərq qurtaracağında yerləşir. Yerli sakinlərin sözlərinə görə bu təpə hündür imiş, keçən əsrin 80-cı illərində onun üzərində uşaq bağçası və 90-cı illərdə isə “20 Yanvar” şəhidlərinin xatirəsinə abidə ucaldılarkən səthi dağıdılmışdır. Təpə çox dağıntıya məruz qalıb və zibilliyə çevrilib, hal-

hazırda hündürlüyü 2m, diametri isə 60 m olar. Toplanılmış saxsı məmulatının müqayisəli analizinə istinad edərək bu abidənin Leylatəpə mədəniyyətinə aid olduğunu söyləyə bilərik.

## Qəbiristanlıqtəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri təpə formasında olub, Ağdam rayonu Kiçikli kəndindən 500 m şərqdə yerləşir. Hündürlüyü 6 m, diametri isə 90 m olan təpənin üzərində Kiçikli kənd qəbiristanlığı salınıb. Burada ərəb qrafikası ilə yazılmış baş daşlarının mövcudluğu buranın son orta əsrlərdən etibarən qəbiristanlıq kimi istifadə olunduğunu göstərir. Təpənin qəbiristanlıq kimi istifadəsi onun dağıdılması və zibillənməsinin qarşısını almışdır. Bu təpədən 350 m cənubda dağıdılmış digər bir təpə qalığı nəzərimizi cəlb etdi. Abidəni vizual olaraq nəzərdən keçirdiyimiz zaman hər hansı maddi-mədəniyyət nümunəsinə təsadüf etmədik. Ehtimal ki, bu təpə qalığı dağıdılmış kurqana məxsusdur. Təəssüf ki, torpaq karxanası kimi istifadə olunaraq bu abidə də digərləri kimi məhv olmaq üzrədir.

## Salamattəpə yaşayış yeri



Yaşayış yeri Ağcabədi rayonunun Taynaq kəndindən 1 km cənub-qərbdə, əkin sahələri içərisində yerləşir. Təpə formasında olub, hündürlüyü 8 m, diametri 260 m-dir. Mərkəzində müasi dövrdə salınmış bir müsəlman qəbri var. Yaşayış yeri dağıntıya məruz qalmamış, əla vəziyyətdədir. Vizual müşahidələr zamanı burada Leylatəpə, Kür-Araz və orta əsrlərə aid saxsı nümunələrinə təsadüf olunmuşdur.

## 1 saylı Kiçiktəpə yaşayış yeri



1 saylı Kiçiktəpə yaşayış yeri Salamattəpə yaşayış yerindən 200 m cənubda, əkin sahələri içərisində yerləşir. Uzun illər əkilməsi səbəbindən uzunsov forma almışdır. Cənub-şimal boyunca uzunluğu 100 m, şərq-qərb istiqaməti üzrə eni 50 m, hündürlüyü isə 1,5 m-dir. Ətrafı əkilsə də onun üzəri elə bir ciddi dağıntıya məruz qalmamışdır.

## 2 saylı Kiçiktəpə yaşayış yeri



Təpə formasında olan yaşayış yeri 1 saylı Kiçiktəpə yaşayış yerindən 135 m şərqdə yerləşir. Bu təpə də əkin sahələrinin genişləndirilməsi və irriqasiya sistemlərinin yaradılması səbəbindən uzunsov forma almışdır. Şimal-cənub istiqaməti boyunca uzunluğu

110 m, şərq-qərb istiqaməti üzrə eni isə 30 m-dir. Hündürlüyü 1,2 m olan təpənin bütün səthinə tunc və orta əsrlər dövrlərinə aid maddi-mədəniyyət nümunələri səpələnmişdir. Diqqətimizi çəkən ən əsas məqam isə orta əsrlərə aid materiallar içərisində kaşı fraqmentlərinin çoxluq təşkil etməsidir. Çox güman ki, burada bəhs etdiyimiz dövrdə ya hamam, ya da ki, hər hansı bir dini obyekt mövcud olmuşdur. İkinci ən maraqlı fakt isə çiy kərpicdən inşa edilmiş divar qalığı idi ki, o da arx üçün torpaq qazılması nəticəsində üzə çıxmışdır.

## Yaqubtəpə kurqanı



Kurqan Ağcabədi rayonu Taynaq kəndindən 800 m cənub-qərbdə, Salamattəpədən 870 m cənub-şərqdə yerləşir. Hündürlüyü 7 m, diametri 140 m olan kurqan dağıntıya məruz qalmamış, əla vəziyyətdədir. Kurqan təpəsi orta əsrlərdə yaşayış yeri kimi istifadə olunmuşdur.

## Əbdüləzimtəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağdam rayonu Alıbəyli kəndindən 900 m şimalda, Yaqubtəpə kurqanından 390 m cənub-qərbdə yerləşir. Təpə formasında olan yaşayış yeri əkin sahələrinin genişləndirilməsi və bu sahələrə yol çəkilməsilə əlaqədar olaraq dağıdılmışdır. Hal-hazırda təpə torpaq karxanası və zibilxana kimi də istifadə olunur. Diametri 80 m, hündürlüyü 1,5 m olan təpə yerli əhali arasında Şorantəpə kimi də adlandırılır.

## 1 saylı Yeddigöz yaşayış yeri



Yaşayış yeri təpə formasında olub, Bərdə rayonu Şahvəlilər kəndindən 850 m cənub-qərbdə, Sultanbud kurqanından 2,1 km qərbdə, Fərmantəpədən 720 m şimal-şərqdə Sultanbud meşəsinin şimal yamacında, Qarasu çay yarağının cənub yamacında təbii təpə üzərində yerləşir. Diametri 95 m, hündürlüyü 1,5 m olan təpənin üzərindən Ayaq Qərvənd-Şahvəlilər yolu keçir. Qaz xəttinin çəkilməsilə əlaqədar olaraq təpə şərq-qərb istiqaməti boyunca qazılmışdır. Qazıntılar zamanı ətrafa insana və heyvana məxsus osteoloji qalıqlar, saxsı fraqmentləri ətrafa səpələnmişdir. Qazılmış quyularda ocaq yerlərinin olduğu aydın görünürdü. Materiallatın təhlilindən belə nəticəyə gəlmək olar ki, Leylatəpə mədəniyyətinə aid yaşayış yeri tunc dövründə nekropol kimi də istifadə olunmuşdur.

## 2 saylı Yeddigöz yaşayış yeri



Yaşayış yeri 1 saylı Yeddigöz y/y-dən 300 m şimal-şərqdə Qarasu çay yatağının sağ sahilində yerləşir. Təbii təpə üzərində yerləşmiş yaşayış yeri dağılmadığından və meşə yamacında yerləşdiyindən burada maddi-mədəniyyət nümunələrinə az-az təsadüf olunur. Ehtimal ki, bu yaşayış yeri də Leylatəpə tiplidir.

## Eyvazlı yaşayış yeri



Eneolit dövrünə aid yaşayış yeri Ağdam rayonu Eyvazlı kəndinin şimal-qərb qurtaracağında, Quzanlı-Ağdam yolunun solunda, Leylatəpədən 150 m cənubda yerləşir. Təpənin əsas hissəsi dağıdılmış, 1988-ci ildə burada yeməkxana sonradan isə yaşayış evi tikilmişdir. Dağıdılmış və zibillənmiş təpədən ancaq kiçik bir hissə qalmışdır ki, o da yox olmaq üzrədir.

## 1 saylı Narlı yaşayış yeri



1 saylı Narlı yaşayış yeri Ağdam rayonu İmamqulubəyli kəndinin şimal-qərbində, nar bağı ərazisində yerləşir. Təpənin ətrafı bağ salınarkən dağıdılmışdır, hal-hazırda 40x30 m ərazini əhatə edir. Hündürlüyü təxminən 1 m olan təpənin səthində orta əsrlərə aid saxsı qab fraqmentlərinə təsadüf olunur.

## 1 saylı Narlı kurqanı



Kurqan Ağdam rayonu İmamqulubəyli kəndinin şimal-qərbində, nar bağı ərazisində, 1 saylı Narlı yaşayış yerindən 50 m qərbdə yerləşir. Diametri 25 m, hündürlüyü 1 m olan kurqanın səthi bağ salınarkən dağıdılsa da, baş hissəsi salamat qalıb.

## 2 saylı Narlı yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu İmamqulubəyli kəndinin şimal-qərbində, nar bağı ərazisində, 1 saylı Narlı yaşayış yerindən 150 m şimalda yerləşir. Diametri 85 m, hündürlüyü təxminən 1 m olan təpə formalı yaşayış yeri neolit dövrünə aiddir. Yaşayış yerinin şərq hissəsində kiçik bir kurqan da tərəfimizdən qeydiyyata alınmışdır. Yerüstü toplanılmış materiallara əasasən söyləyə bilərik ki, yaşayış yeri orta əsrlərdə də məskunlaşdırılmışdır.

## 2 saylı Narlı kurqanı



Kurqan Ağdam rayonu İmamqulubəyli kəndinin şimal-qərbində, nar bağı ərazisində, 1 saylı Narlı yaşayış yerindən 200 m şimalda, Xaçınçayın sağ sahilində yerləşir. Diametri 55 m, hündürlüyü 3 m olan kurqanın şərq yamacı hamarlansa da, yaxşı vəziyyətdə qalıb. Kurqanın ətrafı və səthindən müxtəlif dövrlərə aid saxsı qab fraqmentləri toplanılmışdır. Ehtimal ki, kurqan neolit dövrünə aid 2 saylı Narlı yaşayış yerinin ərazisində salınmış və orta əsrlərdə yenidən məskunlaşdırılmışdır.

Sultanbud meşəsinin ərazisində erkən - əkinçi maldar tayfalara aid yaşayış yerlərinin mövcudluğu barədə indiyə kimi hər hansı bir məlumat yox idi. Meşə ərazisinin böyük və sıx olması bu ərazidə arxeoloji kəşfiyyat işlərinin aparılmasını çətinləşdirmiş və nəticə ərazidə olan arxeoloji abidələr qeydiyyata alınmamışdır. Müasir texnoloji vasitələrdən istifadə etməklə biz ilk dəfə olaraq Sultanbud meşəsi ərazisində mövcud olan arxeoloji abidələrin yerinin müəyyənləşdirərək qeydiyyatını həyata keçirdik. Meşə ərazisində yerləşən arxeoloji abidələrin əksəriyyəti erkən əkinçi-maldar tayfalara aid yaşayış yerləridir. Məhz meşənin mühafizə zolağında yerləşdikləri üçün onlar dağıntıya məruz qalmamışdılar. Çox zaman abidələrin dağılmış hissələri arxeoloqlar üçün şurf rolunu oynayır ki, məhz bu "şurflardan" əldə edilmiş maddi-mədəniyyət nümunələrinə əsasən də abidələrin dövrü təyin edilir. Sultanbud abidələrinin dövrünün təyin edilməsi işi bu abidələrin dağıntıya məruz qalmadıqları və ərazidə torpaq əmələgəlmə prosesinin sürətli olması səbəbindən bir qədər çətinləşir. Təpə formasında olan bu abidələrin səthinə vizual baxış keçirilərkən hər hansı maddi-mədəniyyət nümunəsinə təsadüf olunmur. Bu təpələrin topoqrafiyası erkən-əkinçi maldar tayfalara məxsus yaşayış məskənlərinə xas olsa da, dövrü təyin etmək üçün yerüstü material tapılmadığı üçün biz bu təpələrin bir qismini kurqan kimi qeydiyyata almışıq. Sultanbud abidələrinin dəqiq xronologiyasını təyin etmək üçün burada kəşfiyyat şurflarının qoyulması vacibdir.

## Boztəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu İmamqulubəyli kəndindən 900 m qərbdə, Sultanbud meşəsində yerləşir. Hündürlüyü 2 m, diametri isə 90 m olan təpə heç bir dağıntıya məruz qalmamışdır. Ətrafa baxış keçirərkən neolit dövrünə aid az sayda saxsı qab fraqmentlərinə təsadüf olunub.

## Həsəntəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu İmamqulubəyli kəndindən 600 m qərbdə, Sultanbud meşəsində yerləşir. Boztəpədən 250 m şərqdə yerləşən Həsəntəpə yaşayış yerinin hündürlüyü 3 m, diametri isə 110 m-dir. Təpənin qərbində kiçik bir hissə dağılıb ki, məhz bu dağıntı sahəsindən əldə etdiyimiz materiallar əsasında yaşayış yerinin erkən əkinçi-maldar tayfalara aid olduğunu söyləyə bilərik. Təpə erkən orta əsrlərdə yenidən məskunlaşdırılmışdır. Həmin dövrü özündə əks etdirən tikili qalığına aid qırmızımtıl-narıncı rəngli əla bişirilmiş 35x35x11 sm ölçülərində olan kərpiclər ətrafa baxış keçirilərkən ərazidən toplanılmışdır.

## 1 saylı Sultanbud yaşayış yeri



Təpə formasında olan yaşayış yeri Ağdam rayonu Çullu kəndindən 700 m cənub-qərbdə, Sultanbud meşəsində yerləşir. İki təpədən ibarət olan yaşayış yerinin hündürlüyü 2,5 m-dir. Təpələri bir-birindən 20 m enində meşə zolağı ayırır. Birinin diametri 85 m, digərinin ki, isə 105 m-dir. Təpələr dağıntıya məruz qalmamış, çox əla vəziyyətdədirlər. Abidəyə baxış keçirilərkən onun səthindən son tunc-erkən dəmir dövrünə və orta əsrlərə aid cəmi 5 ədəd saxsı fraqmentinə təsadüf olunmuşdur. Lakin abidənin topoqrafiyası

erkən əkinçi-maldar tayfalara məxsus yaşayış yerləri üçün xasdır. Yaşayış yeri meşə ərazisində yerləşdiyindən mühafizəsi yaxşı təyin edilmiş və bu səbəbdən də dağıntıya məruz qalmamışdır. Həmçinin meşə ərazisində torpaq əmələgəlmə prosesi sürətli olduğu üçün yaşayış yerinin mədəni təbəqə yatımının üzəri örtülmüşdür. Bu səbəbdən də ərazidə yerüstü materiala rast gəlinmir. Təsadüf etdiyimiz nümunələr isə çox sonralar bu ərazidə köçəri maldarlıqla məşğul olmuş tayfalara məxsusdur. Ehtimallarımızın daha dəqiq sübut etmək üçün kəşfiyyat şurfunun qoyulmasına ehtiyac var.

## 2 saylı Sultanbud yaşayış yeri



Yaşayış yeri Ayaq Qərvənd qaçqın qəsəbəsindən 1 km şərqdə, Sultanbud meşəsinin qərbində yerləşir. Diametri 60 m, hündürlüyü 1,5 m olan təpənin cənub və cənub-şərq tərəfləri vəhşi heyvanların yuva salmaq səbəbindən qismən dağılıb. Bu yuvaların divarlarında neolit və orta əsrlərə aid maddi-mədəniyyət nümunələrini izləmək mümmkündür. Neolit dövrünə aid olan təpə formalı yaşayış yeri orta əsrlərdə də məskunlaşdırılmışdır.

## 3 saylı Sultanbud yaşayış yeri



Təpə formasında olan yaşayış yeri Ağdam rayonu Çullu kəndindən 200 m qərbdə, Sultanbud meşəsində yerləşir. Şimal-qərb, cənub-şərq istiqamətində uzunluğu 120 m, eni isə 65 m-dir. Təpənin səthi meşə salınması məqsədilə dərin əkildiyindən neolit dövrünə aid maddi-mədəniyyət nümunələri yer səthinə çıxmışdır. Bu isə onun dövrünün təyin edilməsi baxımından bizim üçün xüsusi imkanlar demək idi. Təpənin səthi nəzərdən keçirilərkən neolit dövrünə aid saxsı nümunələri və obsidian qəlpələri toplanılmışdır. Ümumiyyətlə yaşayış yeri elə də ciddi dağıntıya məruz qalmamışdır.

## 2 saylı Sultanbud kurqanı



Kurqan Ayaq Qərvənd qaçqın qəsəbəsindən 1 km şərqdə, Sultanbud meşəsinin qərbində, 2 saylı Sultanbud yaşayış yerindən 100 m qərbdə yerləşir. Diametri 75 m, hündürlüyü 7 m olan kurqan əla vəziyyətdə qalmışdır.

## 3 saylı Sultanbud kurqanı



Kurqan Ayaq Qərvənd qaçqın qəsəbəsindən 1,2 km cənub-şərqdə, Sultanbud meşəsinin qərbində, 2 saylı Sultanbud yaşayış yerindən 300 m cənub-qərbdə yerləşir. Diametri 60 m, hündürlüyü 2,5 m olan təpənin şimal hissəsi torpaq aparılması səbəbindən qazılıb. Qazılmış hissədə hər hansı maddi-mədəniyyət nümunələrinə təsadüf olunmamışdır.

## 4 saylı Sultanbud kurqanı



Kurqan Ayaq Qərvənd qaçqın qəsəbəsindən 1,3 km cənub-şərqdə, Sultanbud meşəsinin qərbində, 3 saylı Sultanbud kurqanından 350 m cənubda yerləşir. Diametri 54 m, hündürlüyü 2,5 m olan kurqan əla vəziyyətdədir.

## Alıtəpə yaşayış yeri



Yaşayış yeri Ayaq Qərvənd qaçqın qəsəbəsindən 0,85 km cənub-şərqdə, Sultanbud meşəsinin qərb qurtaracağında yerləşir. Diametri təxminən 80 m olan təpənin səthi qaçqınlar tərəfindən hamarlanaraq kərpic daxmaların tikilməsi üçün istifadə olunub. Hal-hazırda onun hündürlüyü 1 m-ə yaxındır. Torpağından kərpic kəsilməsi üçün istifadə olunan təpənin müxtəlif hissələrində qazılmış quyulardan neolit dövrünə aid maddi-

mədəniyyət nümunələri çıxır ki, onlardan da bir qismini təpə sakinləri bizə təqdim etdilər. Təpənin xüsusi adı olmadığından biz onu buranın ən yaşlı sakini Alı kişinin adı ilə Alıtəpə adlandırdıq.

## Evtəpə yaşayış yeri



Evtəpə yaşayış yeri Alıtəpədən 1 km cənubda, keçmiş Xındırıstan kolxozunun mal fermasının ərazisində yerləşir. Təpənin ərazisi ferma tikintisi və qaçqınlar məskunlaşdığı dövrdə ciddi dağıntıya məruz qalmışdır. Belə ki, onun şimal və şərq hissəsi tamamilə dağılmış, səthi və digər tərəfləri isə qismən salamat qalmışdır. İndiki vəziyyətdə diametri 70 m-ə yaxındır. Hündürlüyü şimalda 5 m, cənubda isə 1,5 m-dir. Üzərində artezian quyusu və yaşayış evi olan təpənin torpağı kərpic kəsilməsi üçün istifadə olunur. Yerli sakinlərin söylədiyinə görə qazıntılar zamanı saxsı qablar və insan sümüklərinə rast gəlinir. Neolit dövrünə aid abidə tərəfimizdən Evtəpə kimi qeydiyyata alınmışdır.

## Qəbiristanlıqtəpə (Çullu) yaşayış yeri



Qədim yaşayış yeri Ağdam rayonu Çullu kəndinin cənub-şərqində təbii təpə üzərində, qədim çay yatağı yamacında yerləşir. Diametri 90 m, hündürlüyü 4 m olan təpə hal-hazırda Çullu kənd qəbiristanlığı kimi istifadə olunur. Qəbiristanlıq ərazisində qəbirlər qazılarkən çıxarılmış torpaqda neolit dövrünə aid saxsı qab fraqmentlərinin olduğunu müşahidə etdik. Buradan toplanılmış fraqmentlər içərisində basma naxışlı, ikili formalaşdırılmış nümunələr çoxluq təşkil edir. Bir fraqmentin isə üzərində çızma üsulu ilə həndəsi forma çəkilib.

## Çullu yaşayış yeri



Çullu yaşayış yeri eyni adlı kənddən 500 m cənub-şərqdə, Qəbiristanlıqtəpədən (Çullu) 350 m cənub-qərbdə yerləşir. Kiçik təpədən ibarət olan yaşayış yerinin səthi bostanlıq kimi istifadə olunur. Təpə ehtimal ki, pambıq plantasiyalarının genişləndirilməsi məqsədilə dağıdılmışdır. Hal-hazırda diametri təxminən 45 m, hündürlüyü isə 1 m-ə yaxındır. Bu təpədən 90 m qərbdə dağıdılmış ikinci təpənin qalıqları mövcuddur ki, buradan da neolit dövrünə aid saxsı qab fraqmentləri aşkar edildi.

## 1 saylı İmamqulubəyli yaşayış yeri



Təpə formasında olan yaşayış yeri Ağdam rayonu Quzanlı qəsəbəsindən 800 m şimal-şərqdə, İmamqulubəyli qaçqın qəsəbəsindən 1,8 km cənub-qərbdə, yol kənarında yerləşir. Hündürlüyü 3,5 m, diametri isə 150 m olan yaşayış yerinin səthində sovet dövründə silos quyuları qazılıb. Təpə tamamilə dağıdılıb və hal-hazırda Quzanlı qəsəbəsinin zibilxanası kimi istifadə olunur. Toplanılmış saxsı məmulatına əsasən yaşayış yerinin neolit dövrünə aid olduğunu söyləyə bilərik. Yerli sakinlər tərəfindən xüsusi adla deyil, sadəcə "təpə" adlandırılan bu qədim abidələri biz sıra sayına uyğun olaraq qeydiyyata almışıq.

## 2 saylı İmamqulubəyli yaşayış yeri



Yaşayış yeri İmamqulubəyli qaçqın qəsəbəsinin cənub-qərbində, yol kənarında yerləşir. Diametri 110 m, hündürlüyü isə 2,5 m olan təpənin cənub-qərb hissəsi tamamilə dağıdılıb. Təpə hal-hazırda zibilxana və torpaq karxanası kimi istifadə olunur. Abidənin səthindən və dağılmış hissələrdən neolit dövrünə aid saxsı qab fraqmentlərinə təsadüf olunmuşdur. Fraqmentlər içərisində basma naxışlı nümunələr çoxluq təşkil edir.

## 3 saylı İmamqulubəyli yaşayış yeri



Qədim yaşayış yeri Ağdam rayonu İmamqulubəyli qaçqın qəsəbəsindən 220 m qərbdə yerləşir. Diametri 110 m, hündürlüyü isə 1,5 m olan təpə kolluq və bataqlıqla əhatələndiyindən antropogen təsirlərə o qədər də məruz qalmamış və bu səbəbdən də dağılmamışdır. Təpənin ərazisindən neolit dövrünə aid saxsı qab fraqmentləri toplanılmışdır ki. bu da onun erkən əkinçi-maldar tayfalara aid yaşayış yeri olduğunu sübut edir.

## 4 saylı İmamqulubəyli yaşayış yeri



Təpə formasında olan yaşayış yeri Ağdam rayonu İmamqulubəyli qaçqın qəsəbəsindən 500 m şimal-şərqdə yerləşir. Diametri 80 m, hündürlüyü isə 1-ə yaxın olan yaşayış yerinin mərkəzindən keçən yol onu iki hissəyə ayırır. Təpənin səthi və cənub hissəsi tamamilə dağıdılıb, hal-hazırda ərazi torpaq karxanası kimi istifadə edilir. Dağıdılmış hissələrdən topladığımız saxsı qab fraqmentləri dəmir dövrünə aiddir. Ehtimal ki. erkən oturaq əkinçi-maldar tayfalara aid yaşayış yeri dəmir dövründə qəbiristanlıq kimi istifadə olunub. Abidənin dəqiq xronologiyasını və mədəni təbəqə yatımının stratiqrafiyasını müəyyənləşdirmək üçün burada kəşfiyyat şurfunun qoyulması vacibdir.

## 5 saylı İmamqulubəyli yaşayış yeri



Yaşayış yeri 4 saylı İmamqulubəyli yaşayış yerindən 120 m şərqdə yerləşir. Şimal-cənub uzunluğu 150 m, eni isə 80 m olan təpənin cənub ətəyindən yol keçir. Hündürlüyü 2 m olan yaşayış yerinin üzərində sovet dövründə pampıq çardağı olmuşdur. Qismən dağılsa da, yaxşı vəziyyətdə qalmışdı. Yerüstü material olaraq erkən orta əsrlərə aid 3 ədəd saxsı qab fraqmenti toplanılmışdır. Abidə haqqında daha dəqiq informasiya əldə etmək üçün təpə ərazisində kəşfiyyat şurfunun qoyulması vacibdir.

## 6 saylı İmamqulubəyli yaşayış yeri



Hal-hazırda tamamilə dağıdılmış təpə 5 saylı İmamqulubəyli yaşayış yerindən 250 m cənub-şərqdə, əkin sahələrinin içərisində yerləşir. Hündürlüyü təxminən 0,7 m, diametri isə 90 m-dən çox olan təpə çox güman ki, sovet dövründə əkin sahələrinin böyüdülməsi məqsədilə dağıdılmışdır. Yaşayış yerinin bozumtul-sarı rəngdə olan gilli tərkibli şoran təbəqəsi əkin sahəsinin torpağından kəskin fərqlənir. Qeyri-münbit torpağı olan yaşayış yerinin səthində əkil-səpin işləri aparılsa da məhsul bitməmiş, onun ərazisi yaşıl tarla içərisində bir ada kimi qalmışdır. Abidə tamamilə dağılaraq izləri itməmiş burada kəşfiyyat şurfunun qazılması vacibdir.

## 7 saylı İmamqulubəyli yaşayış yeri



Qədim yaşayış yeri Ağdam rayonu İmamqulubəyli qaçqın qəsəbəsindən 500 m şərqdə, 6 saylı İmamqulubəyli yaşayış yerindən isə 380 m cənub-qərbdə yerləşir. Səthi uzun illər boyu şumlandığından çox az hissəsi qalıb. Təxminən hündürlüyü 0,6 m, diametri isə 60 m-ə yaxındır. Üzəri şumlanıb pambıq əkilsə də məhsul çıxmamışdır. Toplanılmiş materiallara əsasən yaşayış yerini neolit dövrünə aid edə bilərik.

## 8 saylı İmamqulubəyli yaşayış yeri



Uzun illər boyu əkilmə səbəbindən ərazisi kiçilmiş və hal-hazırda diametri təxminən 35 m, hündürlüyü isə 0,5 m-ə yaxın olan kiçik təpəcik formasında qalmış yaşayış yeri 7 saylı İmamqulubəyli yaşayış yerindən isə 120 m şimalda yerləşir. Əkin sahəsi içərisində sarı ləkə kimi diqqəti cəlb edən yaşayış yerinin ərazisindən yerüstü material olaraq neolit və inkişaf etmiş orta əsrlərə aid saxsı qab fraqmentləri toplanılmışdır. Qarabağın əksər erkən əkinçi-maldar tayfalarına məxsus yaşayış yerlərində olduğu kimi bu təpə də orta əsrlərdə yenidən məskunlaşdırılmışdır.

## 9 saylı İmamqulubəyli yaşayış yeri



Hal-hazırda böyük hissəsi dağılmış yaşayış yeri Ağdam rayonu İmamqulubəyli qaçqın qəsəbəsindən 100 m şimalda yerləşir. Abidənin əsas hissəsi pambıq sahələrinin genişləndirilməsi səbəbində dağıdılıb. Təpənin cənub hissəsi isə drensaj kanalının və qəsəbənin tikintisi zamanı dağıdılıb. İndiki vəziyyətdə diametri təxminən 50-m-ə yaxındır. Hündürlüyü isə ətraf ərazilərdən bir qədər seçilir.

## 2 saylı İmamqulubəyli kurqanı



Kurqan 2 saylı İmamqulubəyli yaşayış yerindən 1 km şimal-şərqdə, İmamqulubəyli qaçqın qəsəbəsindən 550 m şərqdə yerləşir. Diametri 110 m, hündürlüyü isə 3 m olan təpə dağıntıya məruz qalmamış, əla vəziyyətdə qalmışdır. Yerüstü axtarışlar zamanı hər hansı maddi-mədəniyyət nümunəsinə təsadüf olunmamışdır. Neolit dövrü yaşayış məskəninə xas topoqrafik xüsusiyyətlərə malik təpənin dövrünü təyin etmək üçün əlimizdə hər hansı fakta malik olmadığımız üçün biz abidəni kurqan kimi qeydiyyata aldıq. Bütün şübhələrə son qoymaq üçün burada kəşfiyyat şurfunun qoyulması vacibdir.

## 1 saylı Sarıcalı yaşayış yeri



Yaşayış yerinin qalıqları Ağcabədi rayonu Sarıcalı kəndindən 850 m şimal-şərqdə Quzanlı 1 qaçqın qəsəbəsinə gedən yolun sağında yerləşir. Yerli sakinlərin verdiyi məlumata görə təpə 2011-2012-ci illərdə əkin sahələrinin genişləndirilməsi məqsədilə dağıdılıbdır. Dağıdılmış təpənin yerində hündürlüyü təxminən 30 sm-ə çatan bozumtul-sarı təbəqə qalmışdır. Əraziyə baxış keçirilən zaman eramızın I-II əsrlərinə aid edilən şüşə qabın boğaz hissəsi və saxsı qab fraqmentləri toplanılmışdır.

## 2 saylı Sarıcalı yaşayış yeri



Yaşayış yeri Ağcabədi rayonu Sarıcalı kəndindən 1,6 km şimal-şərqdə Quzanlı 1 qaçqın qəsəbəsinə gedən yolun üzərində yerləşir. Diametri 100 m, hündürlüyü 1 m-ə yaxın olan təpənin mərkəzi hissəsindən yol keçir. Abidənin səthi və ətrafları dağılsa da arxeoloji qazıntılar aparmaq üçün hələ də salamat hissələr qalmaqdadır. Yaşayış yeri Leylatəpə mədəniyyətinə aiddir.

## Zəmitəpə yaşayış yeri



Təpə formasında olan yaşayış yeri 2 saylı Sarıcalı yaşayış yerindən 1,2 km şimalda, Quzanlı qəsəbəsinin əkin sahələrində yerləşir. Diametri 90 m, hündürlüyü isə 1,5 m olan təpə dağıntıya məruz qalmamış, əla vəziyyətdədir. Neolit dövrünə aid olan yaşayış yeri tərəfimizdən Zəmitəpə kimi qeydiyyata götürülmüşdür.

## Kərpictəpə yaşayış yeri



Qədim yaşayış yeri Ağdam rayonu Quzanlı qəsəbəsindən 550 m şərqdə, əkin sahələrinin arasında yerləşir. Onun üzərində dörd istiqamətdən gələn yollar kəsişir. Təpənin mərkəzi hissəsində böyük quyu qazılıb. İndiki vəziyyətdə diametri 90 m, hündürlüyü 1,5 m-ə yaxın olar. Neolit dövrünə aid yaşayış yeri zibilxana kimi istifadə olunur.

## Molla Mehditəpə yaşayış yeri



Qədim yaşayış yeri Ağdam rayonu Quzanlı qəsəbəsinin cənub-şərq hissəsində, peşə məktəbinin arxasında yerləşir. Diametri 125 m, hündürlüyü 5 m olan təpənin bütün ətrafı həyətyanı sahələrin salınması zamanı dağıdılmışdır. Təpənin üstündə də ev tikilmiş

və onun bütün səthi tərəvəz əkini üçün istifadə edilir. Böyük dağıntılara baxmayaraq yaşayış yeri üz möhtəşəmliyini saxlayır. Neolit dövrü yaşayış yeri olan təpə son orta əsrlərdə də yaşayış məskəni kimi istifadə edilmişdir.

## Canavartəpə yaşayış yeri



Ağcabədi rayonu Taynaq kəndindən 700 m şimalda, Ağdam rayonu Qasımbəyli kəndindən 450 m cənubda, Şirxan qobusunun sağ yamacında yerləşir. Təbii təpə üzərində salınmış yaşayış yerinin hündürlüyü şimal və şimal-qərb tərəfdə 2,5 m, cənub və cənub-şərq tərəfdə isə 1 m-dir. Leylatəpə mədəniyyətinə aid olan yaşayış yerinin diametri 120 m olub, dağıntıya məruz qalmamışdır.

## Qazantəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu Taynaq kəndindən 450 m şimalda, Canavartəpədən 250 m cənub-şərqdə, əkin sahələri arasında yerləşir. Diametri 135 m, hündürlüyü isə 1,5 m olan təpə böyük miqyasda dağıdılıb və hal-hazırda kənd zibilxanası kimi istifadə olunur.

## 1 saylı Mirvaritəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu Taynaq kəndinin cənub-qərbində Yaqubtəpə kurqanından 750 m şimal-şərqdə yerləşir. Diametri 80 m, hündürlüyü isə 1,5 m olan təpənin şimal və şimal-şərq hissəsi həyətyanı sahələrin salınması zamanı dağıdılmışdır. Hal-hazırda təpə zibilxana kimi istifadə olunur.

## 2 saylı Mirvaritəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu Taynaq kəndinin cənub-qərbində 1 saylı Mirvaritəpə yaşayış yerindən 70 m cənub-şərqdə yerləşir. Təpənin şimal hissəsi həyətyanı sahənin salınması zamanı tamamilə ekskavator vasitəsilə kürünüb. Dağıdılmış həmin hissədə mədəni təbəqənin müasir yer səviyyəsindən də aşağıda davam etdiyi izlənilmişdir. Təpənin digər hissələri və səthi də dağıdılmış, hal-hazırda zibilxana kimi istifadə olunur. İndiki vəziyyətdə diametri 60 m, hündürlüyü 1,3 m-dir.

## Söyüdlütəpə yaşayış yeri



Leylatəpə mədəniyyətinə aid olan yaşayış yeri Ağcabədi rayonu Taynaq kəndindən 1,2 km qərbdə, Taynaq yaşayış yerindən 550 m cənub-qərbdə yerləşir. Diametri 65 m, hündürlüyü 1,5 m olan təpənin ətəkləri əkilsə də ciddi dağıntıya məruz qalmamış, ideal vəziyyətdədir. Yerli əhali tərəfindən sadəcə "təpə" adlandırılan yaşayış yerinin ətrafında söyüd ağacları əkildiyindən biz onu Söyüdlütəpə kimi qeydiyyata aldıq.

## Kərimtəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Üçoğlan kəndinin şimalında, Qəbiristanlıqtəpədən 200 m cənub-şərqdə yerləşir. Abidənin səthi və ətrafları hələ sovet dövründə təsərrüfat işlərinin aparılması nəticəsində dağıdılmışdır. 2010-cu il tədqiqat mövsümündə biz təpəni nəzərdən keçirsək də elə də maraqlı tapıntıya rast gəlməmişdik. Bu səbəbdən də onu dağılmış kurqan olduğunu güman edərək qeydiyyata almamışdıq. 2013-cü ildə isə burada qazılmış zibil quyusu abidə haqqında yeni məlumatların əldə edilməsinə kömək etdi. Belə

ki, təpənin yola yaxın hissəsində qazılmış quyunun divarlarında ocaq izləri və saxsı qab fraqmentləri diqqətimizi cəlb etdi. Quyuya baxış keçirilən zaman orta əsrlərə aid şirli qab fraqmentlərinə təsadüf olundu. Qeyd etmək istərdik ki, burada orta əsrlərə aid olan təbəqənin qalınlığı 2 m-dən çoxdur. Neolit dövrünə aid yaşayış yeri orta əsrlərdə də məskunlaşdırılmışdır. Diametri 130 m, hündürlüyü 3,5 m olan təpə hal-hazırda torpaq karxanası və zibilxana kimi istifadə olunur.

## Qəbiristanlıqtəpə (Qaraxanlı) yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu Qaraxanlı kəndinin şimalında yerləşir. Qərb-şərq istiqamətində uzunluğu 220 m, şimal-cənub istiqamətində eni isə 75 m-dir. Hal-hazırda Qaraxanlı kənd qəbiristanlığı kimi istifadə olunur və bu səbəbdən də yaxşı qalmışdır.

## İslambəytəpə yaşayış yeri





Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu Qaraxanlı kəndinin qərbində yerləşir. Hal-hazırda yaşayış yerinin təxminən 50 kv.m-lik ərazisi salamat qalıb. Mədəni təbəqənin qalınlığı 3 m-dən çoxdur. Təpənin torpağı 2012-ci ildə Qaraxanlı kənd orta məktəbi tikilən zaman onun həyətində aparılan abadlıq işləri zamanı daşınaraq aparılmışdır.

## Şamlıtəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Səfərli qaçqın qəsəbəsindən 100 m cənubda, qədim çay yatağı yamacında yerləşir. Hündürlüyü 4 m, diametri 200 m-dən çox olan təpənin şimal hissəsi tamamilə dağıdılmışdır. Təpənin səthi isə sovet dövründə burada ferma tikilən zaman dağıdılıb. Dağılmış şimal hissədə apardığımız müşahidələrə və toplanılmış yerüstü materiallara əsasən abidənin alt təbəqəsinin neolit dövrünə, üst təbəqəsinin isə Leylatəpə mədəniyyətinə aid olduğunu söyləyə bilərik.

## Düztəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Şamlıtəpədən 1,3 km qərbdə əkin sahələrinin əhatəsində yerləşir. Hündürlüyü 1 m, diametri isə 75 m olan təpənin səthi sovet dövründə hamarlanaraq pambıq çardağı kimi istifadə edilmişdir. Hal-hazırda üzərində artezian quyusu var. Abidə çox dağılıb.

## 1 saylı Əhmədağalı kurqanı



Kurqan eyni adlı kəndin cənub-qərbində yerləşir. Diametri 110 m, hündürlüyü isə 3 m olan kurqanın səthi hamarlanıb. I Qarabağ müharibəsi gedişində isə onun üzərində səngərlər qazılıb.

## 2 saylı Əhmədağalı kurqanı



Kurqan eyni adlı kəndin qərb qurtaracağında, 1 saylı Əhmədağalı kurqanından 500 m qərbdə yerləşir. Diametri 50 m, hündürlüyü isə 2 m olan kurqan sovet dövründə gübrə anbarı, indi isə ferma kimi istifadə olunur. Kurqanın ətrafı və səthi aparılmış təsərrüfat və tikinti işlərinin nəticəsində tamamilə dağıdılmışdır.

## İydəlitəpə yaşayış yeri



Yaşayış yeri Sultanbud meşəsinin şimal-qərb qurtaracağında, Fərmantəpə yaşayış yerindən 80 m şimal-şərqdə, Qarasuyun sağ yamacında yerləşir. Təpənin əsas hissəsi iydə ağaclarından ibarət yeni meşə zolağının salınması zamanı dağılmışdır. Hal-hazırda təpədən diametri təxminən 30 m-ə yaxın bir hissə qalmışdır. Təpənin dağılmış hissələrində çoxlu sayda şirli qab fraqmentlərinə təsadüf olunur. Yerüstü olaraq toplanılmış saxsı məmulatına əsasən təpənin orta əsrlərə aid kənd tipli yaşayış yeri olduğunu söyləyə bilərik.

## Pambıqtəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağdam rayonu İmamqulubəyli qaçqın qəsəbəsindən 1,1 km şərqdə, 2 saylı İmamqulubəyli kurqanından 570 m cənub-şərqdə əkin sahələri əhatəsində yerləşir. Diametri 95 m, hündürlüyü 2 m olan təpənin üzərində sovet dövründə pambıq çardağı yerləşib. Mərkəzi hissəsində şimal-qərb, cənub şərq uzunluğunda xəndək qazılıb, ətrafı və səthi torpaq işlərinin aparılması nəticəsində dağıdılıb. Yaşayış yeri tərəfimizdən Pambıqtəpə adı ilə qeydiyyata alınmışdır.

## Qəbiristanlıqtəpə (Poladlı) yaşayış yeri



Ağcabədi rayonu Poladlı kəndindən 880 m cənub-şərqdə, qobunun sol sahilində yerləşir. Çay yatağından hündürlüyü 3 m-ə yaxındır, bir neçə təpədən ibarətdir. Ərazi dəvətikanı və yovşan kolları ilə sıx örtülü olduğundan yerüstü olaraq hər hansı maddi-mədəniyyət nümunəsinə təsadüf edilməmişdir. Öz topoqrafik quruluşuna görə yaşayış yerini xatırladan təpədə kəşfiyyat şurfunun qoyulması vacibdir.

## Yoltəpə yaşayış yeri



Ağcabədi rayonu Poladlı kəndindən 850 m cənub-şərqdə, Qəbiristanlıqtəpədən 350 m şimal-şərqdə, qobunun sol sahilində yerləşir. Diametri 85 m, hündürlüyü isə 3,5 m olan təpənin səthi şoranlaşıb. Mərkəzi hissəsindən yol keçdiyindən Yoltəpə adı ilə qeydiyyata götürülmüşdür.

## Böyüktəpə yaşayış yeri



Yaşayış yeri Ağcabədi rayonu Poladlı kəndindən 1,2 km şərqdə, qobunun sol sahilində yerləşir. Diametri 185 m, hündürlüyü isə 5,5 m olan təpə ciddi dağıntıya məruz qalmamışdır. Ərazidən yerüstü olaraq neolit, Kür-Araz, son tunc-ilk dəmir dövrlərinə aid saxsı qab fraqmentləri toplanılmışdır. Öz ölçülərinə görə möhtəşəm olan yaşayış yerində kəşfiyyat şurfunun qoyulmasına ehtiyac var.

## Uzuntəpə yaşayış yeri



Yaşayış yeri Ağcabədi rayonu Poladlı kəndindən 2,3 km, Böyüktəpə yaşayış yerindən 1 km şimal-şərqdə, qobunun sol sahilində yerləşir. Təpələr kompleksindən ibarət olan yaşayış yerinin şimal-şərq, cənub-qərb uzunluğu 250 m, eni isə 95 m-dir. Səthinin bəzi hissələri şoranlaşan Leylatəpə mədəniyyətinə aid bu yaşayış yeri ciddi dağıntıya məruz qalmamışdır.

## 1 saylı Çəməntəpə kurqanı



Kurqan Ağcabədi rayonu Kələbədin kəndindən 800 m cənub-qərbdə, əkin sahələrinin əhatəsində yerləşir. Diametri 55 m, hündürlüyü isə 1,5 m olan kurqan dağıntıya məruz qalmamışdır.

## 2 saylı Çəməntəpə kurqanı



Kurqan Ağcabədi rayonu Kələbədin kəndindən 870 m cənub-qərbdə, əkin sahələrinin əhatəsində yerləşir. Diametri 45 m, hündürlüyü isə 0,8 m olan kurqanın səthi uzun müddət əkildiyindən onun ölçüləri kiçilir və bu proses davam edərsə onun izlərinin itməsi labüddür.

## 3 saylı Çəməntəpə kurqanı



Kurqan Ağcabədi rayonu Kələbədin kəndindən 1,2 km cənub-qərbdə, əkin sahələrinin əhatəsində yerləşir. Diametri 40 m, hündürlüyü isə 2,5 m olan kurqan elə də ciddi dağıntıya məruz qalmamışdır.

## Yantəpə kurqanı



Kurqan Ağcabədi rayonu Kələbədin kəndindən 450 m cənub-qərbdə, əkin sahələrinin əhatəsində yerləşir. Diametri 70 m, hündürlüyü isə 3,5 m olan kurqan elə də ciddi dağıntıya məruz qalmamışdır. Təpəni kurqan kimi qeydiyyata alsaq da, o öz topoqrafik quruluşuna görə daha çox neolit dövrü məskənlərini xatırladır. Lakin onun səthində hər hansı maddi-mədəniyyət nümunələrinə təsadüf olunmamışdır. Burada da kəşfiyyat şurfunun qoyulması vacibdir.

## Xanarşın yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu Kələbədin kəndinin qərb qurtaracağında yerləşir. Diametri 160 m-dən çox olan təpənin şimal-şərq, cənub-şərq və qərb hissəsi həyətyanı sahələr tərəfindən tutulmuşdur. Təpənin səthi ciddi dasğıntıya məruz qalmış və zibillənir. Dağılmış hissələrdə mədəni təbəqə yatımı aydın seçilsə də, maddi-mədəniyyət nümunələrinə az təsadüf olunur.

## Baxçatəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndinin mərkəzində yerləşir. Təpənin bütün tərəfləri və səthi həyətyanı sahələrin və kənd yolunun salınması zamanı dağıdılıb. Hal-hazır ki, vəziyyətdə diametri 80 m-ə yaxın olub, hündürlüyü isə 1,3 m-dir. Üzərində kənd üşaq baxçası yerləşir və bu səbəbdən də yaşayış yeri Baxçatəpə adı ilə qeydiyyata alınmışdır.

## Qətltəpə yaşayış yeri



Qədim yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndinin mərkəzində, Baxçatəpə yaşayış yerindən 250 m cənub-qərbdə yerləşir. İndiki vəziyyətdə diametri 130 m, hündürlüyü isə 1,5 m olan təpə tamamilə dağıdılıb və zibillənib. Müşahidələrimizə əsaslanaraq söyləyə bilərik ki, dağıdılmamışdan əvvəl yaşayış yerinin ərazisi indikindən ən azı iki dəfə çox olmuşdur. Neolit dövrünə aid olan yaşayış yerinin bütün ətrafı həyətyanı

sahələr tərəfindən tutulub və hamarlanmışdır. Təpə son tunc-erkən dəmir dövründə qəbiristanlıq kimi istifadə olunub. Burada da neolit dövrünə aid mədəni təbəqə yatımının müasir yer səviyyəsindən də aşağıda davam etdiyini müşahidə etdik.

## Məktəbtəpə yaşayış yeri



Yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndinin cənub qurtaracağında, Qətltəpə yaşayış yerindən 170 m cənub-qərbdə İmamqulubəyli kənd orta məktəbinin həyətində yerləşir. Təpənin şimal-qərb hissəsi məktəb tikintisi, cənub hissəsi isə fərdi yaşayış evlərinin tikintisi zamanı dağıdılıb. Neolit dövrünə aid yaşayış yerinin indiki vəziyyətdə diametri 65 m, hündürlüyü isə 3 m-ə yaxındır.

## Ədiltəpə yaşayış yeri



Yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndinin cənub-qərbində, Məktəbtəpə yaşayış yerindən 180 m şimal-qərbdə yerləşir. İndiki vəziyyətdə hündürlüyü 2 m, diametri isə 65 m olan təpənin bütün ətrafları fərdi yaşayış evləri və əkin sahələri tərə-

findən tutulmuşdur. Səthi təsərrüfat məqsədilə istifadə edilən neolit dövrünə aid yaşayış yerinin tamamilə məhv olmaq təhlükəsi var.

## 1 saylı Xımlıtəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndinin qərb qurtaracağında, Ədiltəpə yaşayış yerindən 400 m şimal-qərbdə, qobunun sağ yamacında yerləşir. Diametri 170 m, hündürlüyü isə 5 m olan yaşayış yeri təbii təpə üzərində salınmışdır. Yaşayış yerinin ətraf hissələri fərdi həyətyanı sahələr tərəfindən tutulub, onun səthi isə dağıdılıb. Zibillik və torpaq karxanası kimi istifadə olunur.

## 2 saylı Xımlıtəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndinin qərb qurtaracağında, 1 saylı Xımıtəpə yaşayış yerindən 200 m şimal-şərqdə, qobunun sağ yamacında yerləşir. Diametri 155 m, hündürlüyü isə 4 m-dən çox olan yaşayış yeri təbii təpə üzərində salınmışdır. Təpə heç bir dağıntıya məruz qalmamış, əla vəziyyətdədir.

## 3 saylı Xımlıtəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndinin qərb qurtaracağında, 1 saylı Xımıtəpə yaşayış yerindən 80 m şimalda, qobunun sol yamacında təbii təpə üzərində yerləşir. Təpənin şimal-qərb və şərq hissəsi sovet dövründə burada salınmış bənd tikintisi zamanı dağıdılıb. Diametri 110 m, hündürlüyü isə 5 m olan təpə yaxşı vəziyyətdədir.

## 4 saylı Xımlıtəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndinin qərb qurtaracağında, 1 saylı Xımıtəpə yaşayış yerindən 130 m cənub-qərbdə, qobunun sağ yamacında təbii təpə üzərində yerləşir. Hündürlüyü 2 m, cənub-qərb, şimal-şərq uzunluğu 135 m, eni isə 70 m-dir. Üzərində fərdi yaşayış evi tikilib, yaxşı vəziyyətdədir.

## Qəbiristanlıqtəpə (İmamqulubəyli) yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndindən 1 km cənub-qərbdə, qobunun sağ yamacında təbii təpə üzərində yerləşir. Şimal-şərq, cənub-qərb uzunluğu 260 m, eni isə 110 m olan təpə kənd qəbiristanlığı kimi istifadə olunur.

## Yovşanlıtəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Alıbəyli kəndindən 500 m şərqdə, əkin sahələrinin əhatəsində yerləşir. Şimal-qərb, cənub-şərq uzunluğu 140 m, eni isə 90 m olan təpənin hündürlüyü 1 m-dir. Ehtimal ki, onun səthi sovet dövründə hamarlanmış və ətrafları əkin sahələrinə qatılmışdır. Bütün ətrafı boyunca söyüd ağacları əkilmiş təpənin səthini tamamilə yovşan kolları örtüb. Bu səbəbdən də yaşayış yeri Yovşanlıtəpə adı ilə qeydiyyata alınmışdır.

## Qəbiristanlıqtəpə (Alıbəyli) yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Alıbəyli kəndində, qəbiristanlıq ərazisində yerləşir. Təpənin səthi XIX-XX əsrin əvvəllərində qəbiristanlıq kimi istifadə olunub. Diametri 90 m, hündürlüyü isə 2 m olan yaşayış yerinin ətrafları qəbirlərin salınması nəticəsində dağılıb. Səthi sıx ot və kolluqlarla örtülüb. Müşahidələrimiz zamanı müxtəlif dövrlərə aid saxsı qab fraqmentlərinə rast gəlsək də, abidənin dəqiq dövrünü müəyyənləşdirmək üçün kəşfiyyat şurfunun qoyulmasına ehtiyac var.

## Yolaşantəpə yaşayış yeri



Leylatəpə mədəniyyətinə aid yaşayış yeri Ağcabədi rayonu İmamqulubəyli kəndindən 650 m cənubda, əkin sahələrinin əhatəsində yerləşir. Təpənin ətraf hissələri əkin sahələrinin genişləndirilməsi məqsədilə hamarlanmışdır. Qərb-şərq uzunluğu 135 m, eni isə 70 m olan yaşayış yerinin hündürlüyü 1,5 m-dir. Təpənin səthi elə də ciddi dağıntıya məruz qalmamışdır.

## Yanıqtəpə kurqanı



Yaşayış yeri Ağdam rayonu Alıbəyli kəndindən 400 m cənub-şərqdə, Yovşanlıtəpə yaşayış yerindən 1 km cənub-qərbdə, əkin sahələrinin əhatəsində yerləşir. Sovet dövründə təpənin üzərində pambıq çardağı yerləşib, ətraf hissələri tamamilə dağıdılaraq əkin sahələrinə qatılıb. Hal-hazırda kənd zibilxanası kimi istifadə edilir. Yaşayış yerinin diametri 50 m olan hissəsi qismən salamat qalmışdır ki, onun da hündürlüyü 1,2 m-dir. Təpənin bütün səthi zibilliklə birgə yandırılmış olduğundan yaşayış yeri Yanıqtəpə adı ilə qeydiyyata alınmışdır.

## Köpəktəpə yaşayış yeri



Yaşayış yeri Ağdam rayonu Alıbəyli 2 qaçqın qəsəbəsinin şimal qurtaracağında yerləşir. Sovet dövründə təpənin mərkəzində silos quyusu qazılıb, onun bütün ətrafları dağıdılaraq əkin sahəsi və ya fərdi həyətlərin ərazisinə qatılıb. Hal-hazırda təpənin 60x40 m ərazisi qismən salamat qalsa da, bu hissə də zibilxana kimi istifadə olunur. Qazılmış

hissələrin divarlarında ocaq izləri və saxsı qab fraqmentlərinin olduğunu müşahidə etdik. Abidə demək olar ki, məhv olmaq üzrədir. Təəssüf ki, Qarabağın əksər qədim abidələri kimi zibilxana funksiyası daşıyan abidə sahibsiz itlərin məskəninə çevrilmişdir. Bu səbəbdən də yaşayış yeri Köpəktəpə adı ilə qeydiyyata alınmışdır.

## Balatəpə kurqanı



Kurqan Ağdam rayonu Alıbəyli 2 qaçqın qəsəbəsindən 700 m, Köpəktəpə yaşayış yerindən 800 m şərqdə əkin sahələrinin əhatəsində yerləşir. Diametri 40 m, hündürlüyü isə 1,5 m olan kurqan elə bir ciddi dağıntıya məruz qalmamış, əla vəziyyətdədir.

## Kəruztəpə yaşayış yeri



Yaşayış yeri Ağcabədi rayonu Hindarx qəsəbəsindən 250 m şimal-qərbdə, 3 saylı Hindarx kurqanının cənub hissəsində, qobunun sağ sahilində yerləşir. Təpənin səthi ehtimal ki, sovet dövründə kənd təssərüfatı qurğularının tikintisi zamanı hamarlanmışdır.

O dövrün yadigarı olaraq təpənin mərkəzində iki silos quyusu hələ də qalmaqdadır. Diametri 260 m, hündürlüyü isə 2 m olan təpə orta əsrlərə aid böyük yaşayış yerinin qalıqlarıdır. Təpənin qobu istiqamətində olan qərb yamaclarında apardığımız müşühidələr zamanı Leylatəpə mədəniyyətinə aid saxsı qab fraqmentlərinə təsadüf edilmişdir. Bu tapıntılara əsasən söyləyə bilərik ki, orta əsrlərə aid yaşayış yeri Leylatəpə məskəninin üzərində salınmışdır. Abidə də arxeolji kəşfiyyat şurfunun qazılması olduqca vacibdir.

## Alıbəyli kurqanları (5 ədəd)



Kurqan Ağdam rayonu Alıbəyli 2 qaçqın qəsəbəsindən 400 m şimal-şərqdə, Kəruztəpə yaşayış yerindən 280 m cənub-qərbdə, qobunun sol sahilində yerləşir. Mərkəzi hissədə diametri 65 m, hündürlüyü isə 3 m olan ən böyük kurqan yerləşir ki, onun da mərkəzi hissəsi çöküb. Böyük kurqanın ətrafında isə dörd kiçik kurqan salınıb ki, onlarında diametrləri 12-20 m arasında dəyişir. Kurqanlar yerləşdiyi ərazi orta əsrlərdə məskunlaşdırılmışdır.

## Yolkəsəntəpə yaşayış yeri

Yaşayış yeri Ağdam rayonu Alıbəyli 2 qaçqın qəsəbəsindən 200 m şərqdə, yerləşir. Təpənin mərkəzi hissəsi Alıbəyli-Hindarx yolunun çəkilməsi zamanı dağıdılmışdır. Təxminən 1 ha-dan çox ərazini əhatə edir.

## Qəbiristanlıqtəpə (Hindarx) kurqanı



Kurqan Ağcabədi rayonu Hindarx qəsəbəsinin şimal-qərbində yerləşir. Hündürlüyü 9 m, diametri isə 160 m olan kurqanın səthi qəbiristanlıq kimi istifadə edilir.

## Qazantəpə kurqanı



Kurqan Ağcabədi rayonu Hindarx qəsəbəsinin şərq qurtaracağında, Hindarx-Ağcabədi şosse yolunun sağında yerləşir. Hündürlüyü 7 m, diametri isə 120 m olan kurqanın mərkəzində keçən əsrdə salınmış qəbir var. Əla vəziyyətdədir.

## Sarıtəpə yaşayış yeri



Neolit dövrünə aid yaşayış yeri Ağdam rayonu Ayaq Qərvənd qaçqın qəsəbəsindən 700 m cənubda, əkin sahələrinin əhatəsində yerləşir. Təpənin ətraf hissələri hamarlanaraq əkin sahələrinə qatılmışdır. Onun səthi isə I Qarabağ müharibəsi dövründə səngərlərin qazılması ilə əlaqədar olaraq dağılmışdır. Hündürlüyü 1,5 m olan yaşayış yerinin ərazisi təxminən 0,25 ha-dır.

## Ceyrantəpə kurqanı



Kurqan Ağdam rayonu Ayaq Qərvənd qaçqın qəsəbəsindən 1,1 km şimal-qərbdə, əkin sahələrinin əhatəsində yerləşir. Hündürlüyü 4 m, diametri isə 70 m olan kurqan ciddi dağıntıya məruz qalmamışdır.

***Elvin Həsən oğlu ƏLİYEV***

# Ordubad rayonunun arxeoloji, tarixi-memarlıq abidələrinin elektron qeydiyyatı və xəritələşdirilməsi

ORDUBAD RAYONUNUN ARXEOLOJİ, TARİXİ- MEMARLIQ ABİDƏLƏRİNİN XƏRİTƏSİ




MİQYAS - 1:60 000

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| Sıra sayı | Abidənin adı | Koordinatları | | | Dövrü |
| 1 | Düylün məscidi | Şm 38° 57. 176' | Şq 045° 53. 165' | 911 m | XVIII əsr |
| 2 | Düylün hamamı | Şm 38° 57. 160' | Şq 045° 53. 118' | 912 m | XVIII əsr |
| 3 | Qəriblər qəbiristanı-1 | Şm 38° 57. 046' | Şq 045° 53. 033' | 892 m | XIX əsr |
| 4 | Seyid Sultan Səfi piri | Şm 38° 57. 010' | Şq 045° 53. 006' | 897 m | XIV əsr |
| 5 | Düylün nekropolu | Şm 38° 57. 017' | Şq 045° 53. 018' | 873 m | XIV əsr |
| 6 | Qəriblər qəbiristanı-2 (Qaradaş oyunu ) | Şm 38° 56. 953' | Şq 045° 52. 962' | 893 m | XIX əsr |
| 7 | Düylün qalası | Şm 38° 56. 895' | Şq 045° 52. 564' | 1022 m | III-XVII əsrlər |
| 8 | Qəssabxana yaşayış yeri | Şm 38° 56. 572' | Şq 045° 52. 508' | 850 m | XI-XVII əsr |
| 9 | Dərəli yaşayış yeri (Hacı Hüseyn dərəsi başı ) | Şm 38° 56. 734' | Şq 045° 51. 779' | 830 m | orta əsrlər |
| 10 | Düylün dəyirmanı | Şm 38° 57. 286' | Şq 045° 53. 270' | 923 m | XIX əsr |
| 11 | Sarı təpə ( göl yeri ) | Şm 38° 57. 751' | Şq 045° 53. 183' | 984 m | erkən orta əsrlər |
| 12 | Vang yaşayış yeri (qalaça) | Şm 38° 58. 873' | Şq 045° 53. 191' | 1095 m | erkən orta əsrlər |
| 13 | Xəllilli mağaraları (oyuqları) | Şm 38° 58. 483' | Şq 045° 53. 200' | 1043 m | |
| 14 | Xəlli yaşayış yeri | Şm 38° 58. 211' | Şq 045° 53. 137' | 1011 m | erkən orta əsrlər |
| 15 | Aza körpüsü | Şm 38° 55. 748' | Şq 045° 49. 346' | 738 m | XVII əsr |
| 16 | Azad kənd türbəsi (Seyidin qəbri) | Şm 38° 55. 184' | Şq 045° 49. 486' | 738 m | XVII əsr |
| 17 | Azad kənd nekropolu | Şm 38° 55. 157' | Şq 045° 49. 454' | 727 m | XIV-XVIII əsrlər |
| 18 | Azad kənd kündəli pir | Şm 38° 54. 833' | Şq 045° 49. 615' | 707 m | e.ə. II-I minillik |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 19 | Darkənd hasarları | Şm 38° 55. 945' | Şq 045° 48. 917' | 749 m | XVII-XIX əsrlər |
| 20 | Darkənd piri | Şm 38° 55. 949' | Şq 045° 48. 883' | 743 m | XV əsr |
| 21 | Darkənd nekropolu | Şm 38° 55. 919' | Şq 045° 48. 895' | 741 m | XIV-XVIII əsrlər |
| 22 | Darkənd pir | Şm 38° 56. 014' | Şq 045° 48. 647' | 744 m | XV əsr |
| 23 | Darkənd məscidi | Şm 38° 56. 653' | Şq 045° 48. 976' | 741 m | XVIII əsr |
| 24 | Azad kənd piri (Mövlanə Şəmsəddin Məhəmməd) | Şm 38° 55. 105' | Şq 045° 49. 377' | 717 m | XV əsr |
| 25 | Azad kənd minarəsi | Şm 38° 55. 012' | Şq 045° 49. 306' | 712 m | XII-XIII əsrlər |
| 26 | Azad kənd məscidi | Şm 38° 55. 094' | Şq 045° 49. 168' | 714 m | XVII əsr |
| 27 | Azad kənd hamamı | Şm 38° 54. 996' | Şq 045° 49. 220' | 714 m | XVI-XVII əsr |
| 28 | Azad kənd hamam qalığı (Kümbəz hamamı) | Şm 38° 55. 263' | Şq 045° 48. 678' | 717 m | XV əsr |
| 29 | Azad kənd kümbəzi | Şm 38° 55. 247' | Şq 045° 48. 639' | 713 m | XIV əsr |
| 30 | Sumbatan nekropolu | Şm 38° 56. 609' | Şq 045° 49. 592' | 805 m | e.ə. II-I minillik |
| 31 | Xalıkeşan nekropolu | Şm 38° 56. 558' | Şq 045° 50. 738' | 844 m | e.ə. II-I minillik |
| 32 | Mərdangölü nekropolu | Şm 38° 56. 894' | Şq 045° 50. 618' | 827 m | e.ə. I minillik |
| 33 | Muncuqlutəpə nekropolu | Şm 38° 56. 581' | Şq 045° 50. 550' | 812 m | e.ə I minillik |
| 34 | Sumbatan yaşayış yeri A | Şm 38° 56. 612' | Şq 045° 49. 608' | 807 m | e.ə. II-I minillik |
| 35 | Sumbatan yaşayış yeri B (orta) | Şm 38° 56. 628' | Şq 045° 49. 644' | 805 m | e.ə. II-I minillik |
| 36 | Sumbatan yaşayış yeri C (3-cü qazıntı sahəsi)ən aşağı | Şm 38° 56. 639' | Şq 045° 49. 659' | 793 m | e.ə. II-I minillik |
| 37 | Sumbatan yaşayış yeri D (stadion-kənar divar) | Şm 38° 56. 584' | Şq 045° 49. 682' | 775 m | e.ə. II-I minillik |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| 38 | Sabirkənd məscidi | Şm 38° 56. 629' | Şq 045° 49. 635' | 802 m | XXI əsr |
| 39 | Dəyirman dağı nekropolu | Şm 38° 56. 553' | Şq 045° 49. 522' | 796 m | e.ə. II-I minillik |
| 40 | Rəsul dərəsi yaşayış yeri | Şm 38° 56. 602' | Şq 045° 49. 466' | 808 m | e.ə. I minillik |
| 41 | Rəsul dərəsi 2009-cu il qazıntısı | Şm 38° 56. 622' | Şq 045° 49. 460' | 803 m | e.ə. I minillik |
| 42 | Dəlmə qalası | Şm 38° 56. 978' | Şq 045° 48. 495' | 853 m | IV-VI əsrlər |
| 43 | Yuxarı Əylis bazar yeri | Şm 38° 57. 369' | Şq 045° 58. 655' | 1150 m | XVII-XVIII əsrlər |
| 44 | Yuxarı Əylis bazar körpüsü | Şm 38° 57. 380' | Şq 045° 58. 713' | 1140 m | XVIII əsr |
| 45 | Yuxarı Əylis bazar çeşməsi | Şm 38° 57. 358' | Şq 045° 58. 746' | 1133 m | XVIII əsr |
| 46 | Yuxarı Əylis körpü məscidi | Şm 38° 57. 190' | Şq 045° 58. 783' | 1108 m | XVIII əsr |
| 47 | Yuxarı Əylis çeşməsi (körpüaltı) | Şm 38° 57. 129' | Şq 045° 58. 789' | 1099 m | XVIII əsr |
| 48 | Yuxarı Əylis I körpü çeşməsi | Şm 38° 57. 132' | Şq 045° 58. 793' | 1104 m | XVII-XVIII əsr |
| 49 | Yuxarı Əylis mədrəsə | Şm 38° 57. 222' | Şq 045° 58. 876' | 1107 m | XVII əsr |
| 50 | Yuxarı Əylis Şah Abbas məscidi | Şm 38° 57. 217' | Şq 045° 58. 889' | 1107 m | XVII əsr |
| 51 | Yuxarı Əylis hamamı | Şm 38° 57. 224' | Şq 045° 58. 889' | 1105 m | XVII əsr |
| 52 | Yuxarı Əylis Şah Abbas çeşməsi | Şm 38° 57. 213' | Şq 045° 58. 893' | 1106 m | XVII əsr |
| 53 | Yuxarı Əylis Nuh körpüsü | Şm 38° 57. 705' | Şq 045° 58. 889' | 1193 m | XVIII əsr |
| 54 | Yuxarı Əylis 40 pillə (Qulu çeşmə) | Şm 38° 57. 643' | Şq 045° 58. 903' | 1192 m | XVI-XVIII əsr |
| 55 | Yuxarı Əylis Xoşkeşin məscidi | Şm 38° 57. 376' | Şq 045° 58. 972' | 1163 m | XVII əsr |
| 56 | Yuxarı Əylis Xoşkeşin yaşayış yeri | Şm 38° 57. 421' | Şq 045° 58. 972' | 1181 m | XVII-XIX əsrlər |
| 57 | Yuxarı Əylis Türk şəhidliyi | Şm 38° 57. 160' | Şq 045° 59. 163' | 1102 m | XX əsr |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 58 | Yuxarı Əylis qəbiristan içi tikili | Şm 38° 57. 193' | Şq 045° 59. 170' | 1115 m | XIX əsr |
| 59 | Yuxarı Əylis nekropolu | Şm 38° 57. 166' | Şq 045° 59. 192' | 1106 m | XIV əsr |
| 60 | Aşağı Əylis sussuz kəhriz | Şm 38° 55. 849' | Şq 045° 59. 202' | 937 m | XVIII-XIX əsrlər |
| 61 | Aşağı Əylis köhnə məktəb | Şm 38° 55. 875' | Şq 045° 59. 226' | 936 m | XIX-XXəsrlər |
| 62 | Aşağı Əylis Dəvəçeşmə kəhrizi | Şm 38° 55. 679' | Şq 045° 59. 251' | 909 m | XVIII-XIX əsrlər |
| 63 | Aşağı Əylis məscidi | Şm 38° 55. 712' | Şq 045° 59. 498' | 914 m | XX əsr |
| 64 | Yuxarı Ambaras məscidi | Şm 38° 56. 246' | Şq 045° 49. 453' | 945 m | XVII əsr |
| 65 | Yuxarı Ambaras çeşməsi | Şm 38° 54. 823' | Şq 046° 01. 193' | 921 m | XVII əsr |
| 66 | Ordubad Qoşqar məscidi | Şm 38° 54. 732' | Şq 046° 01. 166' | 913 m | XVII əsr |
| 67 | Afqan qalası | Şm 38° 54. 775' | Şq 046° 01. 196' | 954 m | XIV-XIX əsr |
| 68 | Dilbər məscidi | Şm 38° 54. 968' | Şq 046° 01. 339' | 902 m | XVIII əsr |
| 69 | Dilbər çeşməsi | Şm 38° 54. 967' | Şq 046° 01. 349' | 906 m | XVIII əsr |
| 70 | Məbəd (Ordubad) | Şm 38° 55. 799' | Şq 045° 59. 241' | 879 m | III-V əsrlər |
| 71 | Y.Məmmədəliyevin ev muzeyi | Şm 38° 54. 625' | Şq 046° 01. 251' | 890 m | XX əsr |
| 72 | Qeysəriyyə | Şm 38° 54. 594' | Şq 046° 01. 323' | 891 m | XVII əsr |
| 73 | Təkeşiyi məscidi | Şm 38° 54. 522' | Şq 046° 01. 293' | 884 m | XVIII əsr |
| 74 | Ordubad mədrəsəsi | Şm 38° 54. 660' | Şq 046° 01. 363' | 902 m | XVIII əsr |
| 75 | Buzxana | Şm 38° 54. 289' | Şq 046° 01. 174' | 854 m | XIV əsr |
| 76 | Hacı Fəttah kəhrizi | Şm 38° 54. 874' | Şq 046° 01. 462' | 910 m | XVIII-XIX əsrlər |
| 77 | Hacı Fəttah məscidi | Şm 38° 54. 869' | Şq 046° 01. 462' | 913 m | XVIII-XIX əsrlər |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| 78 | Ordubad Cami məscidi | Şm 38° 54. 562' | Şq 046° 01. 354' | 891 m | XVII əsr |
| 79 | Hacı Fəttah çeşmə yanı | Şm 38° 54. 853' | Şq 046° 01. 488' | 914 m | XVIII-XIX əsrlər |
| 80 | Hüseyn Sultan məscidi (Ərbabın nəvəsi) | Şm 38° 54. 836' | Şq 046° 01. 513' | 917 m | XIX əsr |
| 81 | Qarahovuz məscidi | Şm 38° 54. 675' | Şq 046° 01. 510' | 915 m | XVII əsr |
| 82 | Hamam | Şm 38° 54. 599' | Şq 046° 01. 486' | 899 m | XVIII əsr |
| 83 | Qarahovuz çeşməsi | Şm 38° 54. 665' | Şq 046° 01. 517' | 914 m | XVII əsr |
| 84 | Məscid qonaq evi (Mingis başı) | Şm 38° 54. 475' | Şq 046° 01. 462' | 882 m | XVIII-XIX əsrlər |
| 85 | M.S.Ordubadinin ev muzeyi | Şm 38° 54. 556' | Şq 046° 01. 505' | 895 m | XX əsr |
| 86 | Mingis məscidi | Şm 38° 54. 507' | Şq 046° 01. 512' | 890 m | XVII əsr |
| 87 | Səqqaxana | Şm 38° 54. 512' | Şq 046° 01. 515' | 890 m | XVIII əsr |
| 88 | Sərşəhər məscidi | Şm 38° 54. 707' | Şq 046° 01. 611' | 910 m | XVIII əsr |
| 89 | Mingis çeşməsi | Şm 38° 54. 496' | Şq 046° 01. 514' | 885 m | XVIII əsr |
| 90 | Sərşəhər çeşməsi | Şm 38° 54. 703' | Şq 046° 01. 613' | 908 m | XVIII əsr |
| 91 | Sərşəhər meydanı | Şm 38° 54. 693' | Şq 046° 01. 609' | 907 m | XVII əsr |
| 92 | Daşlar başı məscidi | Şm 38° 54. 713' | Şq 046° 01. 687' | 917 m | XVIII əsr |
| 93 | Şai kəhrizi | Şm 38° 54. 361' | Şq 046° 01. 575' | 875 m | XVIII əsr |
| 94 | Əngəs məscidi | Şm 38° 54. 774' | Şq 046° 01. 848' | 941 m | XVIII əsr |
| 95 | Əngəs çeşməsi | Şm 38° 54. 776' | Şq 046° 01. 851' | 941 m | XVIII əsr |
| 96 | Ordubad redaksiya | Şm 38° 54. 652' | Şq 046° 01. 484' | 909 m | XIX əsr |
| 97 | Ordubad yaşayış evi (Mingis) | Şm 38° 54. 491' | Şq 046° 01. 489' | 884 m | XIX əsr |
| 98 | Hacı Əhməd kəhrizi | Şm 38° 54. 301' | Şq 046° 01. 682' | 871 m | XIX əsr |
| 99 | Həzrəti Abbas məscidi | Şm 38° 54. 517' | Şq 046° 01. 789' | 906 m | XIX əsr |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 100 | Həzrəti Abbas quyusu | Şm 38° 54. 517' | Şq 046° 01. 791' | 906 m | XIX əsr |
| 101 | Bilal kəhrizi | Şm 38° 54. 718' | Şq 046° 01. 919' | 938 m | XIX əsr |
| 102 | Bilal məscidi | Şm 38° 54. 715' | Şq 046° 01. 926' | 939 m | XIX əsr |
| 103 | Nəhər kəhrizi | Şm 38° 54. 938' | Şq 046° 02. 056' | 989 m | XVIII əsr |
| 104 | Nəhər məscidi (dağıntı) | Şm 38° 54. 997' | Şq 046° 02. 064' | 995 m | XIX əsr |
| 105 | Çuxur çeşmə (Üçtürləngə) | Şm 38° 54. 849' | Şq 046° 02. 037' | 964 m | XVIII əsr |
| 106 | Sarıtəpə kəhrizi (böyrək suyu) | Şm 38° 53. 844' | Şq 046° 01. 700' | 816 m | XVIII əsr |
| 107 | Malik İbrahim qəbiristanı | Şm 38° 54. 757' | Şq 046° 02. 164' | 961 m | XIV-XXI əsr |
| 108 | Malik İbrahim piri | Şm 38° 54. 781' | Şq 046° 02. 211' | 970 m | XIV əsr |
| 109 | Malik İbrahim sərdabə | Şm 38° 54. 819' | Şq 046° 02. 267' | 983 m | XVIII əsr |
| 110 | Tivi Biləv yolayrımı | Şm 39° 04. 395' | Şq 045° 49. 786' | 1126 m | |
| 111 | Bist körpüsü I | Şm 39° 08. 851' | Şq 045° 52. 829' | 1547 m | XVII əsr |
| 112 | Dəyirman çeşməsi | Şm 39° 08. 971' | Şq 045° 52. 996' | 1574 m | XIX əsr |
| 113 | Çay zəmi yaşayış yeri | Şm 39° 08. 970' | Şq 045° 52. 708' | 1569 m | orta əsrlər |
| 114 | Bist dəyirmanı | Şm 39° 08. 985' | Şq 045° 52. 990' | 1575 m | XIX əsr |
| 115 | Bist məscidi | Şm 39° 09. 039' | Şq 045° 52. 936' | 1615 m | XVIII əsr |
| 116 | II Bist körpüsü | Şm 39° 09. 046' | Şq 045° 52. 703' | 1535 m | XIX əsr |
| 117 | Gəmi qaya yurd (dəyə) yeri | Şm 39° 08. 669' | Şq 045° 58. 329' | 2974 m | e.ə. IV-I minillik |
| 118 | Dəyə yeri | Şm 39° 08. 815' | Şq 045° 58. 230' | 2945 m | e.ə. IV-I minillik |
| 119 | Nəbi yurdu | Şm 39° 08. 881' | Şq 045° 58. 103' | 2920 m | e.ə. IV-I minillik |
| 120 | Qaranquş nekropolu | Şm 39° 08. 905' | Şq 045° 58. 122' | 2919 m | e.ə. IV-I minillik |
| 121 | Qaranquş yaylağı | Şm 39° 08. 949' | Şq 045° 58. 203' | 2927 m | e.ə. IV-I minillik |
| 122 | Qaranquş subay çanqılı | Şm 39° 08. 885' | Şq 045° 58. 508' | 3035 m | e.ə. IV-I minillik |
| 123 | Qaranquş yaylağı (yuxarı) | Şm 39° 08. 867' | Şq 045° 58. 689' | 3116 m | e.ə. IV-I minillik |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 124 | Qaranquş yaylağı (orta) | Şm 39° 08. 951' | Şq 045° 58. 589' | 3060 m | e.ə. IV-I minillik |
| 125 | Dəli çeşmə | Şm 39° 09. 058' | Şq 045° 58. 227' | 2910 m | təbiət abidəsi |
| 126 | Xəştablar (muzey yeri) | Şm 39° 09. 798' | Şq 045° 57. 376' | 2435 m | XXI əsr |
| 127 | Gülüm-gülüm | Şm 39° 09. 757' | Şq 045° 55. 044' | 1927 m | e.ə.I minillik |
| 128 | Nərgiz otağı | Şm 39° 09. 435' | Şq 045° 54. 879' | 1911 m | XIV-XVI əsr |
| 129 | Üstüpü nekropolu | Şm 39° 01. 448' | Şq 045° 54. 634' | 1345 m | XI-XVIII əsr |
| 130 | Üstüpü piri | Şm 39° 01. 460' | Şq 045° 54. 687' | 1373 m | XVI əsr |
| 131 | Üstüpü hamamı | Şm 39° 01. 484' | Şq 045° 54. 584' | 1330 m | XVII-XVIII əsr |
| 132 | Üstüpü köhnə məscid | Şm 39° 01. 536' | Şq 045° 54. 619' | 1344 m | XVIII-XIX əsrlər |
| 133 | Üstüpü məscidi | Şm 39° 01. 564' | Şq 045° 54. 614' | 1346 m | XIX əsr |
| 134 | Xaraba Gilan I qala bürcü | Şm 38° 56. 530' | Şq 045° 51. 348' | 820 m | XII-XIV əsr |
| 135 | Xaraba Gilan göl yeri | Şm 38° 56. 581' | Şq 045° 51. 302' | 791 m | orta əsrlər |
| 136 | Xaraba Gilan tikili qalığı (arka) | Şm 38° 56. 509' | Şq 045° 51. 275' | 784 m | XII-XIV əsr |
| 137 | Xaraba Gilan II qala bürcü | Şm 38° 56. 468' | Şq 045° 51. 256' | 804 m | XII-XIV əsr |
| 138 | Xaraba Gilan III qala bürcü | Şm 38° 56. 447' | Şq 045° 51. 204' | 799 m | XII-XIV əsr |
| 139 | Xaraba Gilan IV qala bürcü | Şm 38° 56. 456' | Şq 045° 51. 158' | 824 m | XII-XIV əsr |
| 140 | Xaraba Gilan nekropolu B | Şm 38° 56. 705' | Şq 045° 50. 894' | 891 m | VIII-XVI əsr |
| 141 | Xaraba Gilan nekropolu B-3 | Şm 38° 56. 696' | Şq 045° 50. 888' | 884 m | VIII-XVI əsr |
| 142 | Xaraba Gilan nekropol B, sərdabə 1 | Şm 38° 56. 688' | Şq 045° 50. 885' | 882 m | XII əsr |
| 143 | Xaraba Gilan nekropol B, sərdabə 2 (sütun) | Şm 38° 56. 696' | Şq 045° 50. 884' | 885 m | XII əsr |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 144 | Xaraba Gilan ailə sərdabəsi | Şm 38° 56. 735' | Şq 045° 50. 827' | 877 m | XII əsr |
| 145 | Xaraba Gilan şəhər ətrafı tikili | Şm 38° 56. 749' | Şq 045° 50. 793' | 858 m | XII-XIV əsr |
| 146 | Xaraba Gilan nekropol A | Şm 38° 56. 674' | Şq 045° 50. 796' | 878 m | VIII-XVI əsr |
| 147 | Xaraba Gilan şəhər ətrafı emalatxana yeri -1 | Şm 38° 56. 509' | Şq 045° 51. 107' | 838 m | XII-XIV əsr |
| 148 | Xaraba Gilan 2-ci emalatxana yeri | Şm 38° 56. 544' | Şq 045° 51. 065' | 938 m | XII-XIV əsr |
| 149 | Xaraba Gilan 3-cü emalatxana yeri | Şm 38° 56. 604' | Şq 045° 51. 206' | 796 m | XII-XIV əsr |
| 150 | Xaraba Gilan Karvansara | Şm 38° 56. 643' | Şq 045° 50. 960' | 859 m | XII-XIII əsrlər |
| 151 | Xaraba Gilan ətrafı məhəllə yeri | Şm 38° 56. 581' | Şq 045° 51. 037' | 905 m | XII-XIV əsr |
| 152 | Xaraba Gilan Narınqala | Şm 38° 56. 414' | Şq 045° 51. 067' | 932 m | XII-XIV əsr |
| 153 | Xaraba Gilan Narınqala B (ortadakı ordugah) | Şm 38° 56. 352' | Şq 045° 51. 028' | 925 m | XII-XIV əsr |
| 154 | Xaraba Gilan Narınqala C | Şm 38° 56. 313' | Şq 045° 51. 011' | 930 m | XII-XIV əsr |
| 155 | Plovdağ nekropolu I | Şm 38° 56. 617' | Şq 045° 50. 328' | 812 m | e.ə. III-I minillik |
| 156 | Plovdağ nekropolu II (A) | Şm 38° 56. 725' | Şq 045° 50. 192' | 815 m | e.ə. III-II minillik |
| 157 | Plovdağ nekropolu II (B) | Şm 38° 56. 686' | Şq 045° 50. 318' | 837 m | e.ə. III-II minillik |
| 158 | Plovdağ nekropolu III | Şm 38° 56. 629' | Şq 045° 50. 483' | 807 m | e.ə. III minillik |
| 159 | Plovdağ yaşayış yeri (1986-cı il qazıntısı) | Şm 38° 56. 606' | Şq 045° 50. 205' | 806 m | e.ə. III minillik |
| 160 | Plovdağ yaşayış yeri (A) | Şm 38° 56. 700' | Şq 045° 50. 172' | 818 m | e.ə. III-II minillik |
| 161 | Baba Yaqub yaşayış yeri | Şm 38° 53. 092' | Şq 045° 53. 564' | 690 m | XIV-XVIII əsr |
| 162 | Baba Yaqub piri | Şm 38° 53. 064' | Şq 045° 53. 523' | 684 m | XIV əsr |
| 163 | Dəstə piri | Şm 38° 53. 025' | Şq 045° 54. 104' | 697 m | XIV əsr |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| 164 | Şingiləy məscidi | Şm 38° 53. 059' | Şq 045° 54. 408' | 554 m | XI əsr |
| 165 | Dəstə Cami (meydan) məscidi | Şm 38° 53. 026' | Şq 045° 54. 460' | 555 m | XVII əsr |
| 166 | Hacı Allahverdi məscid | Şm 38° 52. 966' | Şq 045° 54. 486' | 550 m | XVII əsr |
| 167 | Sahib-əz Zaman məscidi | Şm 38° 52. 833' | Şq 045° 54. 492' | 539 m | XVIII əsr |
| 168 | Xanağa nekropolu | Şm 38° 54. 657' | Şq 045° 55. 330' | 709 m | XII-XVIII əsr |
| 169 | Xanağa məscidi | Şm 38° 54. 830' | Şq 045° 55. 623' | 723 m | XVII əsr |
| 170 | Ağrı məscidi | Şm 38° 55. 407' | Şq 045° 55. 683' | 777 m | XVII əsr |
| 171 | Vənənd Dizə məscidi | Şm 38° 55. 750' | Şq 045° 55. 465' | 807 m | XIX əsr |
| 172 | Vənənd nekropolu | Şm 38° 56. 231' | Şq 045° 55. 432' | 863 m | XVI-XVIII əsr |
| 173 | Vənənd Burçunlu məscidi | Şm 38° 56. 548' | Şq 045° 55. 337' | 894 m | XVIII əsr |
| 174 | Vənənd Uzunküçə məscidi | Şm 38° 56. 667' | Şq 045° 55. 476' | 905 m | XVII əsr |
| 175 | Vənənd Came məscidi | Şm 38° 56. 737' | Şq 045° 55. 432' | 915 m | XIV əsr |
| 176 | Vənənd Abidin məscidi | Şm 38° 56. 799' | Şq 045° 55. 467' | 918 m | XVII əsr |
| 177 | Vələver piri | Şm 38° 56. 960' | Şq 045° 55. 828' | 932 m | XIV əsr |
| 178 | Vələver məscidi | Şm 38° 57. 259' | Şq 045° 56. 005' | 970 m | XVII əsr |
| 179 | Qoruqlar məscidi | Şm 38° 58. 138' | Şq 045° 56. 358' | 1032 m | XX əsr |
| 180 | Ordubad Qirxpillə | Şm 38° 54. 415' | Şq 046° 01. 370' | 877 m | XVI-XVIII əsr |
| 181 | Aşağı Əndəmic məscidi | Şm 38° 55. 646' | Şq 046° 01. 323' | 985 m | XVII əsr |
| 182 | Əndəmic Meydan məscidi | Şm 38° 56. 017' | Şq 046° 01. 142' | 1027 m | XVIII əsr |
| 183 | Gülaman yaşayış yeri | Şm 38° 56. 255' | Şq 046° 01. 021' | 1045 m | XIV-XVIII əsr |
| 184 | Əndəmic Süd məscidi | Şm 38° 55. 923' | Şq 046° 01. 343' | 1055 m | XVIII əsr |
| 185 | Əndəmic Yuxarıküçə məscidi | Şm 38° 56. 145' | Şq 046° 01. 244' | 1072 m | XIX əsr |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| 186 | Yuxarı Əndəmic nekropolu | Şm 38° 56. 191' | Şq 046° 01. 251' | 1085 m | XVI-XIX əsr |
| 187 | Anabad nekropolu | Şm 38° 55. 858' | Şq 046° 01. 863' | 1136 m | XVI-XX əsrlər |
| 188 | Anabad hamamı | Şm 38° 55. 953' | Şq 046° 02. 156' | 1162 m | XVII əsr |
| 189 | Anabad hamam çeşmə kəhrizi | Şm 38° 55. 950' | Şq 046° 02. 162' | 1159 m | XVII əsr |
| 190 | Anabad məscidi | Şm 38° 55. 925' | Şq 046° 02. 273' | 1166 m | XIX əsr |
| 191 | Anabad Baba çeşmə kəhrizi | Şm 38° 55. 941' | Şq 046° 02. 270' | 1168 m | XVIII əsr |
| 192 | Nüsnüs Əhli-Beyt məscidi | Şm 38° 56. 874' | Şq 046° 01. 275' | 1156 m | XXI əsr |
| 193 | Nüsnüs nekropolu I | Şm 38° 57. 474' | Şq 046° 01. 315' | 1246 m | XII-XIX əsrlər |
| 194 | Nüsnüs meydan məscidi | Şm 38° 57. 535' | Şq 046° 01. 523' | 1286 m | XIX əsr |
| 195 | Nüsnüs Qırxkimsənə məscidi | Şm 38° 57. 580' | Şq 046° 01. 612' | 1310 m | XIV əsr |
| 196 | Nüsnüs Qırxkimsənə piri | Şm 38° 57. 601' | Şq 046° 01. 594' | 1309 m | XIV əsr |
| 197 | Nüsnüs hamamı | Şm 38° 57. 659' | Şq 046° 01. 667' | 1326 m | XIV-XV əsrlər |
| 198 | Nüsnüs nekropolu II | Şm 38° 57. 652' | Şq 046° 01. 417' | 1340 m | XII-XVIII əsrlər |
| 199 | Gənzə qəbiristanı | Şm 38° 56. 527' | Şq 046° 02. 896' | 1314 m | XV-XXI əsr |
| 200 | Gənzə mərasim evi | Şm 38° 56. 587' | Şq 046° 02. 908' | 1327 m | XX əsr |
| 201 | Gənzə Hacı Hüseynqulu məscidi | Şm 38° 56. 591' | Şq 046° 02. 923' | 1328 m | XVI əsr |
| 202 | Gənzə hamamı | Şm 38° 56. 599' | Şq 046° 02. 932' | 1329 m | XV əsr |
| 203 | Gənzə köhnə məktəb yeri | Şm 38° 56. 601' | Şq 046° 02. 961' | 1338 m | XIX-XX əsrlər |
| 204 | Gənzə Gingiləy yaşayış yeri | Şm 38° 56. 677' | Şq 046° 02. 972' | 1358 m | XI-XVIII əsrlər |
| 205 | Gənzə Məmmədhəsən məscidi | Şm 38° 56. 652' | Şq 046° 03. 145' | 1337 m | XVIII əsr |
| 206 | Gənzə Fətulla evi piri | Şm 38° 56. 531' | Şq 046° 03. 124' | 1354 m | XVII əsr |
| 207 | Gənzə Gülməz kəhrizi | Şm 38° 56. 684' | Şq 046° 03. 133' | 1346 m | XVIII əsr |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 208 | Dırnıs hamamı | Şm 38° 59. 289' | Şq 045° 58. 382' | 1233 m | XVIII əsr |
| 209 | Dırnıs bazar məscidi | Şm 38° 59. 294' | Şq 045° 58. 417' | 1240 m | XVII əsr |
| 210 | Dırnıs Böyük məscid | Şm 38° 59. 323' | Şq 045° 58. 479' | 1256 m | XVII əsr |
| 211 | Dırnıs qəbiristanı | Şm 38° 59. 268' | Şq 045° 58. 816' | 1288 m | XV-XXI əsrlər |
| 212 | Dırnıs piri | Şm 38° 59. 320' | Şq 045° 58. 945' | 1309 m | XV əsr |
| 213 | Kələki məscidi | Şm 39° 00. 246' | Şq 045° 58. 904' | 1350 m | XXI əsr |
| 214 | Kələki körpüsü | Şm 39° 00. 359' | Şq 045° 58. 745' | 1355 m | XIX əsr |
| 215 | Kələki qəbiristanı | Şm 39° 00. 571' | Şq 045° 58. 784' | 1410 m | III-VII əsrlər |
| 216 | Unus məscidi | Şm 39° 00. 718' | Şq 045° 59. 046' | 1416 m | XII əsr |
| 217 | Unus nekropolu | Şm 39° 00 . 857' | Şq 045° 58. 985' | 1450 m | XII-XVIII əsrlər |
| 218 | Çimənək piri | Şm 39° 01. 460' | Şq 045° 59. 415' | 1525 m | XVI əsr |
| 219 | Gəlindaş | Şm 39° 01. 469' | Şq 045° 59. 441' | 1555 m | təbiət abidəsi |
| 220 | Pəzməri nekropolu | Şm 39° 01. 799' | Şq 046° 00. 640' | 1651 m | XI-XVII əsrlər |
| 221 | Pəzməri məscidi | Şm 39° 01. 827' | Şq 046° 00. 878' | 1676 m | XVIII əsr |
| 222 | Çənnəb körpüsü | Şm 39° 01. 142' | Şq 045° 54. 467' | 1144 m | XIX əsr |
| 223 | Köçəri qəbiristanı | Şm 39° 02. 825' | Şq 045° 56. 124' | 1639 m | XI-XIX əsrlər |
| 224 | Köçəri yurd yeri | Şm 39° 03. 041' | Şq 045° 56. 361' | 1722 m | XIV-XVII əsrlər |
| 225 | Məzrə qəbiristanı | Şm 39° 03. 173' | Şq 045° 55. 385' | 1445 m | XX əsr |
| 226 | Məzrə körpüsü | Şm 39° 03. 240' | Şq 045° 55. 188' | 1373 m | XVII-XVIII əsr |
| 227 | Məzrə məscidi | Şm 39° 03. 317' | Şq 045° 55. 257' | 1406 m | XVIII əsr |
| 228 | Gilaslı dərə yaşayış yeri | Şm 39° 03. 259' | Şq 045° 56. 073' | 1584 m | XI-XVIII əsr |
| 229 | Gilaslı dərə nekropolu | Şm 39° 03. 249' | Şq 045° 56. 209' | 1604 m | XI-XVIII əsr |
| 230 | Babək qalası | Şm 39° 03. 863' | Şq 045° 49. 495' | 1080 m | II-XIV əsr |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 231 | Behrud Qrek qəbiristanı | Şm 39° 04. 295' | Şq 045° 51. 912' | 1260 m | erkən orta əsrlər |
| 232 | Behrud nekropolu | Şm 39° 04. 349' | Şq 045° 52. 024' | 1254 m | XI-XIX əsr |
| 233 | Behrud məscidi | Şm 39° 04. 508' | Şq 045° 51. 934' | 1228 m | XVII-XIX əsr |
| 234 | Behrud məscidi II | Şm 39° 04. 531' | Şq 045° 51. 915' | 1225 m | XIX əsr |
| 235 | Biləv nekropolu I | Şm 39° 04. 449' | Şq 045° 51. 035' | 1159m | XIV-XVIII əsr |
| 236 | Biləv Tay çuxuru yaşayış yeri | Şm 39° 04. 479' | Şq 045° 50. 966' | 1144 m | V-XVIII əsr |
| 237 | Biləv İmam Hüseyn məscidi | Şm 39° 04. 522' | Şq 045° 51. 079' | 1118 m | XVIII əsr |
| 238 | Biləv İmam Həsən məscidi | Şm 39° 04. 509' | Şq 045° 50. 982' | 1130m | XVIII əsr |
| 239 | Biləv Şıx piri nekropolu | Şm 39° 04. 725' | Şq 045° 50. 380' | 1093 m | XVI-XVIII əsr |
| 240 | Biləv qalası | Şm 39° 04. 752' | Şq 045° 50. 048' | 1111 m | V-X əsrlər |

Azərbaycan Respublikası Prezidenti Yanında Elmin İnkişafı Fondunun elan etdiyi "Gənc Alim və Mütəxəssislərin 1-ci Qrant Müsabiqəsi" çərçivəsində "Ordubad rayonu ərazisində qeydə alınmış tarixi və arxeoloji abidələrin elektron qeydiyyatı" adlı layihəni həyata keçirdik. 2012-ci ilin iyul ayında start verilən layihəyə 2013-cü ilin iyul ayında yekun vuruldu.

Layihədə qarşıya qoyulan əsas məqsəd Ordubad rayonu ərazisindəki tarixi və arxeoloji abidələrin yerlərini müəyyənləşdirmək, onları müasir texniki vasitələrlə qeydiyyata almaq və gələcəkdə bu abidələr haqqında "Elektron məlumat bazası" yaradılması üçün zəmin hazırlamaqdan ibarət olmuşdur.

Naxçıvan MR-nın şərqində, Araz çayının sol sahilində, Zəngəzur silsiləsinin ətəyində yerləşən Ordubad rayonu cənubda İran İslam Respublikası, şimalda və şərqdə müasir Ermənistan Respublikası ilə həmsərhəddir. Rayonun əlverişli coğrafi şəraitdə yerləşməsi, zəngin fauna və flora ehtiyatlarına malik olması qədimdən insanların bu ərazidə məskunlaşmasına şərait yaratmışdır. Ancaq təəssüf ki, Ordubad digər bölgələrimizlə müqayisədə arxeoloji baxımdan az öyrənilmişdir. Gəmiqaya, tunc və dəmir dövrünə aid Gilançay hövzəsi abidələri və orta əsrlərə aid Xaraba Gilan şəhər yerindən başqa bölgədə demək olar ki, arxeoloji tədqiqatlar aparılmamışdır.

AMEA Naxçıvan Bölməsinin əməkdaşları 2005-2006-cı illərdə Muxtar Respublika ərazisində tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması işini həyata keçiriblər. Bu zaman əsasən yerüstü tarixi abidələr qeyd olunmuş və sadəcə onların dövrü göstərilmişdir. Bu abidələrin heç birinin elektron qeydiyyatı aparılmamış və GPS koordinatları götürülməmişdir.

Məlumdur ki, mənfur qonşularımız olan ermənilər Naxçıvan ərazisinə torpaq iddiasındadırlar. Düşünürük ki, bu layihənin həyata keçirilməsi ərazidəki yaşayış yerlərinin qeydiyyata alınması, burada qədimdən məskunlaşmış tayfaların sosial-iqtisadi vəziyyəti, etnogenezi və s. haqqında məlumatların toplanılması mənfur qonşularımızın əsassız iddialarına bir daha tutarlı cavab verməyə imkan verəcək.

Layihə çərçivəsində Ordubad rayonu ərazisində yeni aşkar edilmiş arxeoloji abidələrin müasir elektron vasitələrlə qeydiyyatı həyata keçirilmişdir. Belə ki, bu abidələrin məhv olması Azərbaycan tarixinin qədim dövrünün öyrənilməsi baxımından boşluqların yaranmasına səbəb ola bilər. Əlverişli coğrafi mövqedə yerləşməsi hələ qədim dövrlərdən etibarən bölgənin şimal-cənub yerdəyişmələrində əsaslı rol oynamasına şərait yaratmışdır. Burada aşkar olunan arxeoloji materiallar özündə Azərbaycanın həm cənubunda, həm də şimalında mövcud olmuş arxeoloji mədəniyyətlərin izlərini saxlayır. Biz Ordubadın qədim dövr tarixi və arxeoloji abidələrini öyrənməklə miqrasiya və yerdəyişmələrin dəqiq marşrutlarını, xarakterini və genetik xüsusiyyətlərini müəyyənləşdirə bilərik.

Hər gün böyüməkdə olan bir problemlə-abidələrin mühafizəsi problemilə qarşılaşırıq. Minilliklər boyu qiymətli məlumatları günümüzədək qoruyub saxlamış abidələr gözlər qarşısında məhv olur. Artan templə gedən bu prosesin həcmi və sürəti əhəmiyyətli dərəcədə abidələrin tədqiqi həcmini və sürətini üstələyir. Əsası müxtəlif qərar və hökmlərdən ibarət olan mühafizə tədbirləri də praktikada az effektivdir. Bunun əsas səbəbi isə Azərbaycan ərazisində mövcud olan arxeoloji və tarixi abidələrin tam mükəmməl "Məlumat bazası"nın olmamasıdır.

Naxçıvan ərazisində qədimdən məskunlaşmış tayfalar burada öz mədəniyyətlərini yaratmış, onların həyat və fəaliyyətini əks etdirən bir tarix qoyub getmişlər. Bölgədə qədimdən məskunlaşmış əhalinin həyat tərzini öyrənmək üçün ən yaxşı maddi mənbə təbii ki, arxeoloji abidələr və artefaktlardır. Lakin bu abidələrin çoxu təbii və antropogen təsirlərdən məhv olur. Bəzən onların mühafizəsini təmin etmək mümkün olmur. Bir vətəndaş kimi, həm də bir gənc tədqiqatçı kimi bizim borcumuz bu abidələrin ən azından elektron qeydiyyatını aparmaq, elektron bazasını yaratmaq, xəritələşdirmək və Məlumat bazasını yaratmaqdır. Abidələrin "Məlumat bazası"nın yaradılmasında ilk iş isə onların elektron qeydiyyatını həyata keçirməkdir. "Məlumat bazasının" yaradılması isə bölgədə mövcud olan tarixi və arxeoloji abidələr haqqında uzunömürlü və dayanıqlı məlumat formalaşdırmaqdır.

Layihə çərçivəsində rayon ərazisində əvvəllər məlum olan arxeoloji abidələrlə yanaşı yeni qeydə alınmış arxeoloji abidələrin də elektron qeydiyyatı aparılmışıdır. Çöl tədqiqatları müddətində Ordubad rayonu ərazisində yerüstü kəşfiyyat işləri aparılaraq hər bir abidənin GPS vasitəsilə koordinatları təyin olunmuşdur.

Layihə müddətində Ordubad rayonu ərazisindəki 240 abidənin GPS koordinatları götürüldü, video və fotoları çəkildi. Bu abidələrin müəyyən hissəsi ilk dəfə olaraq tərəfimizdən qeydiyyata alındı. Layihə çərçivəsində 70 arxeoloji abidə, 2 təbiət abidəsi (Xəlilli oyuqları (mağaraları) və Gəlindaş), 25 qədim kəhriz və çeşmə, eləcə də onlarla tarixi-memarlıq abidəsi qeydiyyata alındı. Qeydiyyata alınan bütün abidələrin GPS koordinatları rayonun elektron xəritəsinə yerləşdirildi. Ordubad rayonundakı tarixi və arxeoloji abidələrin elektron xəritəsi ilk dəfə olaraq bu layihə nəticəsində yaradıldı.

Layihənin gerçəkləşməsinin elmi və praktik əhəmiyyəti var. Çünki biz bu layihəni həyata keçirməklə bölgədə mövcud olmuş tarixi və arxeoloji abidələrin dəqiq elektron koordinatları haqqında ilk  informasiya bazasına sahib oluruq. Yaradılacaq bu informasiya bazası həm yerli, həm də bölgə ilə maraqlanan tədqiqatçılar üçün də maraqlı mənbə rolunu oynaya bilər. Bu layihənin həyata keçirilməsi abidələrin mühafizəsi baxımından da çox effektivdir.

## Sarıtəpə (Göl yeri) yaşayış yeri



Ordubad rayonu Düylün kəndi ərazisində erkən orta əsrlər dövrünə aid yaşayış yeri. Yerüstü material kimi bir neçə keramika parçası əldə olundu. Dağılmış divar qalıqlarına əsasən tikinti materialı kimi daşdan və ciy kərpicdən istifadə olunduğunu söyləyə bilirik. Yerli əhalinin məlumatına görə vaxtilə yaşayış yerinin yaxınlığında böyük bir göl olmuş və bu gölün suyunu insanlar saxsı borular vasitəsilə Düylün kəndinə aparmışlar.

## Düylün məscidi



Ordubad rayonu Düylün kəndi ərazisində XVIII əsrə aid məscid. Düylün kəndinin mərkəzində yerləşir. Kəndin əsas məscidi kimi fəaliyyət göstərir. Ümumi sahəsi 150 kv metrdir. Çiy kərpicdən tikilmişdir. Divarının qalınlığı 1 m-ə yaxındır. Azərbaycanda bolşevik hakimiyyəti qurulduqdan sonra bina anbar kimi fəaliyyət göstərmişdi. 1990-cı ildə Məscid yenidən təmir və bərpa edilmişdir. Üzərində heç bir kitabəyə rast gəlinməməşdir.

## Düylün hamamı



Ordubad rayonu Düylün kəndi ərazisində orta əsrlərə aid memarlıq abidəsi. Öz tikinti quruluşuna görə XVII-XVIII əsrlərə aid hamamlarına çox bənzəyir. Əsasən çay daşı və dağ daşlardan istifadə edilməklə tikilmişdir. Hamama su saxsı borular vasitəsilə çəkilmişdir. Hamam girişdə böyük vestibüldən ibarətdir. Hamamın mərkəzindəki soyunma zalı səkkizbucaqlı olub, ortasında kiçik hovuz yerləşir. Suyu qızdırmaq uçun samandan və digər vasitələrdən istifadə edilmişdir. 1990-ci ilə qədər hamam tam fəaliyyət göstərmişdir. Hal-hazırda baxımsız vəziyyətdə olan bu unikal orta əsr abidəsi dağılmaq təhlukəsi qarşısındadır.

## Qəriblər qəbiristanı-I



Ordubad rayonu Düylün kəndi ərazisində son orta əsrlərə aid qəbiristanlıq yeri. Kənd əhalisin sözlərinə görə keçmiş dövrlərdə kəndə qonaq gələn və ya bu kənddə yaşayan əslən başqa bölgələrdən olan insanlar vəfat etdikləri zaman bu qəbiristanlıqda dəfn olunmuşlar. Qəbir əlamətlərinə görə deyə bilərik ki, mərhumların hamısı müsəlman adətənənəsi ilə dəfn olunub. Bir qəbirüstü daşın üzərində ərəb əlifbası ilə yazılmış yazını qeydə aldıq. Daş üzərindəki yazı təbiət amilləri təsiri nəticəsində oxunmaz vəziyyətə

düşmüşdür. Mütəxəssislərə təqdim etmək üçün daşın fotolarını çəkdik. Bu abidə ilk dəfə olaraq tərəfimizdən qeydə alınmışdır.

## Seyid Sultan Səfi piri



Ordubad rayonu Düylün kəndinin girişində, kənd qəbiristanlığı mərkəzində yerləşən ziyarətgah. Rəvayətə görə şiə imamı Museyi Kazımın nəslindən olan Seyid Sultan Səfi (Şəffan) burada dəfn olunub. Sovet hakimiyyəti qurulana qədər binanın qapısı üzərində daş kitabə olmuşdur. Sonradan bu kitabə yoxa çıxmışdır. Tədqiqatçılar bu pirin sufiliklə bağlı bir ziyarətgah olduğunu və XIV əsrdən əvvəl fəaliyyət göstərdiyini ehtimal edirlər. Ziyarətgah 2006-cı ildə yenidən bərpa edilmiş, qəbirüstü abidənin üzərində məscid tikilmişdir. Hal-hazırda həmin ziyarətgah bölgə əhalisinin ən çox ziyarət etdiyi ocaqlardan biridir.

## Düylün nekropolu





Ordubad rayonu Düylün kəndi ərazisində orta əsrlərə aid qəbiristanlıq yeri. Seyid Sultan Səfinin dəfn olunduğu ziyarətgahın ətrafında salınmışdır. Əsasən müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin ətrafı çay daşları ilə əhatə olunmuş, bəzən isə tamamən daşla örtülmüşdür. Təqribən XIV əsrdən başlayaraq XX əsrə qədər bu qəbiristanlıqda insanların dəfni icra olunmuşdu. Hazırda Düylün kəndinin əsas qəbiristanlığı da bu nekropolun ətrafında yerləşir. Nekropolda qəbirüstü qoç heykəli və ərəb əlifbası ilə yazılmış qəbirüstü baş daşları da mövcuddur. Bu yazılar mütəxəssislər tərəfindən oxunandan sonra daha yeni məlumatlar əldə edə biləcəyik.

## Qəriblər qəbiristanı-2
## (Qaradaş oyunu)



Ordubad rayonu Duylün kəndinin yaxınlığında qəbiristanlıq yeri. Kənd əhalisinin verdiyi məlumata gorə XX əsrin əvvəllərində erməni-türk (Azərbaycan) münaqişəsi zamanı həlak olanları bu qəbiristanlıqda dəfn ediblər. Digər rəvayətə görə isə qəbiristanlıq kəndin girəcəyində, yolun üzərində yerləşdiyi üçün kəndə gələn qonaqlar dünyalarını dəyişərkən burada dəfn olunmuşlar.

## Düylün qalası





Düylün kəndindən cənub-qərbdə Qırxlar dağı üzərində arxeoloji abidə. Ümumi sahəsi 2500 kv m olan qala əsasən mühafizə məqsədilə istifadə edilmişdir. Qala cənub və qərb tərəfdən sıldırım qayalarla əhatələnib. Qala divarlarının müəyyən hissəsi 4 m hündürlüyündə salamat qalmışdır. Qalanın mərkəzi hissəsində nekropol vardır. Ehtimal ki, qalanın müdafiəsi zamanı dünyasını dəyişənlər məhz burada dəfn olunmuşlar. Qala yerli əhali tərəfindən Qırxlar qalası və ya Qırxlar piri də adlandırılır. Qala təqribən III əsrdən XVIII əsrə qədər olan zaman çərçivəsində istifadə edilmişdir.

## Qəssabxana yaşayış yeri



Ordubad rayonu Düylün kəndi ərazisində orta əsrlərə aid arxeoloji abidə. Rəvayətə görə Gilan şəhəri mövcud olduğu zaman gilanlı tacirlər Düylün ərazisinə gəlmiş, Qəssabxana ərazisində yerli əhalidən ət və ağartı məhsulları almışlar. Ərazidə kəşfiyyat xarakterli tədqiqatlar zamanı yerüstü material kimi keramika nümunələri götürülmüşdür. XX əsrin ortalarına qədər mövcud olmuş tikili qalıqları sonradan dağıdılaraq məhv edilmişdir. Yerüstü material kimi götürülmüş şirli və şirsiz keramika parçaları XI-XVII əsrlərə aid edilir. Daha geniş məlumat əldə etmək üçün abidədə arxeoloji qazıntının aparılmasına ehtiyac var.

## Dərəli yaşayış yeri



Ordubad rayonu Düylün kəndi ərazisində arxeoloji abidə. Yaşayış yeri Düylün kəndi ilə Xaraba Gilan arasındakı Hacı Hüseyn dərəsinin başında yerləşir. Təpə üzərində yerləşən yaşayış yerində tikili qalıqları və son orta əsrlərə aid saxsı qab qırıqları aşkar edilmişdi. Abidə ilk dəfə olaraq bu layihə zamanı qeydə alınmışdır.

## Düylün dəyirmanı



Ordubad rayonu Düylün kəndi ərazisində su dəyirmanı. XX əsrin ortalarına qədər fəaliyyət göstərib. Yuxarıdan tökülən su 2 boyük dəyirman daşını hərəkətə gətirirmiş. Tikilinin divarları əsasən çay daşları ilə hörülüb. Yalnız şərq divarı iri dağ daşlarından ibarətdir. Hazırda abidə baxımsızlıqdan məhv olmaq təhlükəsi qarşısındadır.

## Vəng yaşayış yeri (qalaça)



Ordubad rayonu Çənnəb kəndi ərazisində erkən orta əsrlərə aid arxeoloji abidə. Düylün-Üstüpü şosse yolunun solunda yerləşən yaşayış yeri təpə üzərindədir. Yaşayış yerinin sol kənarında Düylün çayı axır. Yaşayış yerinin təpə hissəsi bir və ya iki cərgə iri

cay daşlarından hörülmüş divarla əhatə olunub. Təpənin mərkəzi hissəsində bir neçə qəbir yeri də aşkar edildi. Çay kənarında və müdafiəsi asan təmin oluna bilən təpədə insanlar uzun muddətli məskunlaşa bilərdilər. Təpə üzərində yerüstü kəşfiyyat axtarış işləri zamanı erkən orta əsrlər aid qalın divarlı küp qalıqları da aşkar edildi. Yaşayış yerində arxeoloji qazıntı aparılarsa daha geniş məlumatlar əldə olunacaqdır.

## Xəlli mağaraları (oyuqları)





Ordubad rayonu Üstüpü kəndi ərazisində Xəlli adlanan sahədə təbiət abidəsi. Mağara tipli bu oyuqlarda insanlar qısa müddətli ozlərini yağışdan və digər təbiət hadisələrindən qorumaq üçün istifadə ediblər.

## Xəlli yaşayış yeri



Ordubad rayonu Üstüpü kəndi ərazisində orta əsrlərə aid arxeoloji abidə. Yerüstü material kimi az sayda orta əsrlərə aid keramika qırıqları və çay daşlarından hörülmüş divar izləri aşkar olunub. Bu abidədə də qazıntı işləri aparılarsa çox maraqlı materialların əldə olunacağına inanırıq. Abidənin ümumi sahəsi 1 hektardan artıqdır.

# Aza körpüsü





Ordubad rayonu Aza kəndi ərazisində Gilançayın üzərində XVII əsrə aid korpü. Aza kəndi ilə Darkəndi birləşdirir. Eni 3,5 metr, uzunluğu 46 paqonometrdir. Yonulmuş yerli dağ daşlarından tikilmişdir. Səfəvi hökmdarı I Şah Abbasın zamanında tikildiyi güman edilir. Böyük İpək yolu üzərində yerləşən Aza körpüsü şərqdən qərbə gedən ticarət karvanlarının istifadə etdiyi əsas körpülərdən biri olmuşdur. 1997-ci ildə Gilançayda baş verən güclü sel daşqını nəticəsində körpünün bir hissəsi dağılmışdır. Lakin dağılmış bu hissə sonradan bərpa edilmişdir. Hal-hazırda yerli əhalinin istifadə etdiyi əsas körpüdür.

## Azadkənd türbəsi (seyidin qəbri)



Ordubad rayonu Azadkənd qəbiristanlğında qəbirüstü abidə. Vaxtilə bölgədə yaşayan İslam dini alimlərindən birinə aid olduğu bildirilir. Kənd əhalisi bu məzarı Seyid qəbri adı altında ziyarət edirmişlər. XX əsrin sonunda kənd əhalisi tərəfindən məzar üztündə qəbirüstü abidə – türbə inşa olunmuşdur. Burada dəfn olunanın kimliyi dəqiq bilinmir.

## Azadkənd nekropolu



Azadkəndin şərqində təpənin ətəyində arxeoloji abidə. Qəbiristanlıqda orta əsrlərə aid bir neçə sənduqə və yazılı baş daşı salamat qalmışdır. Yerli əhalinin məlumatına görə vaxtilə bu nekropolda bir neçə qəbirüstü daş qoç heykəli də olub. Sənduqələr əsasən düzbucaqlı formada, boz və çəhrayı rəngli daşlardan hazırlanmışdır. Sənduqələrin üzərin-

dəki yazıların müəyyən hissəsi salamat qalmışdır. Bu yazılar ərəb qrafikası ilə həkk edilib. Bəzi sənduqələrin üzərində müxtəlif təsvirlər də olmuşdur. Nekropolda insanların dəfn edilməsinə XIV əsrdən başlanılmışdır.

## Darkənd hasarları



Ordubad rayonu Darkənd ərazisində orta əsrlərə aid yaşayış yeri ətrafında tikilmiş hasarlar. Təqribən 10 ha ərazinin ətrafında çəkilmiş hasarlar möhrədən hörülmüşdür. Təbii təsirlər nəticəsində hasarların böyük hissəsi dağıntıya və aşınmaya məruz qalmışdır. Ərazidə son orta əsrlərə aid şirli və şirsiz keramika qırıqları tapılmışdır.

## Darkənd məscidi



Ordubad rayonu Darkənd ərazisində yüsək təpə üzərində orta əsrlərə aid tarixi abidə. XX əsrin sonlarında məscid kənd əhalisi tərəfindən əsaslı təmir edilmiş və yenidən istifadəyə verilmişdir. Bu gün də kənd əhalisinin əsas ibadət evi kimi fəaliyyət göstərir.

## Azadkənd piri (Mövlanə Şəmsəddin Məhəmməd)





Ordubad rayonu Azad kəndindən şimal-şərqdə orta əsrlərə aid ziyarətgah. İslam dini xadimlərindən Mövlanə Şəmsəddin Məhəmmədin burada dəfn olunduğu bildirilir. Məzarın üzərində sonradan məscid binası inşa olunub. Pirin içərisindəki kitabə və ətraf qəbiristanlıqda qalmış kitabələr tarixi əhəmiyyətli abidədir. Pirin ətrafında sonradan böyük qəbiristanlıq salınmışdır.

## Azadkənd minarəsi



Ordubad rayonu Azadkənd ərazisində orta əsrlərə aid memarlıq abidəsi. Səlcuqlu memarlığı üslubunda əsasən bişmiş kərpicdən inşa edilmiş minarə demək olar ki, tamamən dağılmışdır. Minarənin salamat qalan qalığının hündürlüyü təqribən 2 metr, eni isə 5 metrə yaxındır. Minarənin yuxarı hissəsinə çıxmaq üçün minarənin içərisində dairəvi formada inşa olunan pilləkənlərdən istifadə edilmişdir. Yapışdırıcı maddə kimi əhəngdən istifadə edilmişdir.

## Azadkənd məscidi



Ordubad rayonu Azadkənd ərazisində orta əsrlərə aid tarixi abidə. Azadkəndin mərkəzində yerləşir. XX əsrin sonlarında yenidən əsaslı bərpa edilib. Bu gün də kənd əhalisinin əsas ibadət evi olaraq fəaliyyət göstərir.

## Azadkənd hamamı



Ordubad rayonu Azadkənd ərazisində tarixi-memarlıq abidəsi. Şərq hamamları üslubunda inşa olunmuş hamam tikilisi baxımsızlıqdan məhv olmaq təhlükəsi qarşısındadır. Əsasən sal və çay daşlarından inşa olunan hamamın girişi qərb tərəfdəndir. Hamamın 1 metrə yaxını yerin üstündə, qalanı isə yerin altındadır. Hamamın 4 günbəzi olub. Uzunluğu təqribən 19 m, eni isə 8 m-dən artıqdır. Abidə XVI-XVII əsrlərə aiddir.

## Azadkənd Günbəz hamamı



Ordubad rayonu Azadkənd ərazisində memarlıq abidəsi. Azadkənd günbəzi yaxınlığında tikilmiş hamam demək olar ki, tamamən dağıdılmışdır. Abidə XV əsrə aid edilir. Əsasən dağ daşlarında inşa olunmuş hamam qalığı memarların fikrincə Cənubi Qafqazda nadir tikili növlərindən biri olmuşdur.

## Azadkənd günbəzi



Ordubad rayonu Azadkənd ərazisində tarixi-memarlıq abidəsi. Bir çox tarixi mənbələrdə bu günbəz Darkənd günbəzi kimi göstərilib. Respublikamız müstəqilliyini bərpa etdikdən sonra yaranan yeni bələdiyyə sisteminə görə bu abidə Azadkənd bələdiyyəsi ərazisindədir. Abidə bişmiş kərpicdən hörülmüş, orta hissəsi bürcvari türbələr şəklində olub, yuxarı hissədə günbəzlə tamamlanır. Üzərində heç bir yazılı kitabə olmadığına görə abidənin tarixini dəqiq göstərmək mümkün deyildir. Memar və tarixçilər abidəni tikinti quruluşuna və texnikasına görə XIV əsrə aid edirlər.

## Sumbatan nekropolu



Ordubad rayonu Sabir kəndi ərazisində miladdan əvvəl II-I minillkilərə aid arxeoloji abidə. Hələ XX əsrin 70-ci illərində abidədə "Naxçıvan arxeoloji ekspedisiyası" tərəfindən kəşfiyyat xarakterli qazıntı işi aparılmışdır. Buradan son tunc dövrünə aid

keramika nümunələri, tunc xəncər, muncuq və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Sumbatan nekropolu ərazisində orta əsrlərdə də qəbiristanlıq kimi istifadə edilmişdir.

## Xalıkeşan nekropolu



Ordubad rayonu Kələntər Dizə kəndi yaxınlığında arxeoloji abidə. Nekropol şərti olaraq yaxınlıqdakı kiçik çayın adı ilə adlandırılmışdır. Əslində Xaraba Gilan şəhər yerinə aid olan nekropol şəhərə qərb tərəfdən gələn yolun üzərində yerləşdiyindən qəbirlər güclü dağıntıya məruz qalmışdır. XX əsrin 80-ci illərində "Xaraba-Gilan" arxeoloji ekspedisiyası nekropolda qazıntı aparmışdı. Qəbirlər əsasən düzbucaqlı formada olub, sal daşlarla qurulmuşdur. Qəbirlərin əksəriyyətinin qurbangahı olmuşdur. Xalıkeşan nekropolu e.ə. II minilliyin sonu-e.ə. I minilliyin əvvəllərinə aid edilir.

## Mərdangölü nekropolu



Ordubad rayonu Xaraba Gilan ərazisində qədim dövrə aid nekropol. E.ə. I minilliyə aid nekropol ərazisndə orta əsrlərdə tikinti işləri aparılarkən qədim dövr nekropolu dağıdılmışıdr. Hələ 1985-ci illərdə AMEA Tarix İnstitutunun "Xaraba-Gilan" arxeoloji ekspedisiyası abidədə arxeoloji qazıntı apararkən 18 qəbir tədqiq edilib, öyrənmişdir. Nekropoldakı qəbir abidələri şimaldan-cənuba uzanmış müxtəlif istiqamətlərdə tikilmiş sərdabə və onlara bitişik qurbangahlardan ibarət olmuşdur. Sərdabə və qurbangahların üstü iri sal daşlarla örtülmüşdür. Sərdabələr bir neçə dəfəlik dəfn üçün istifadə olunmuşdur. Qəbirlərin avadanlıqları boz, çəhrayı, habelə sarı rəngli keramikadan, tuncdan, nadir hallarda dəmirdən hazırlanmış bəzəklərdən və silahlardan ibarət olmuşdur. Bundan əlavə qəbirlərdən xeyli sayda əqiq, pasta, balıqqulağı və s. hazırlanmış muncuqlar tapılmışdır. Abidə ümumilikdə erkən dəmir dövrünə aid edilir.

## Muncuqlutəpə nekropolu



Ordubad rayonu Kələntər Dizə yaxınlığında e.ə. I minilliyə aid arxeoloji abidə. Yerli əhali Muncuqlutəpənin adının “Musleyim” dərəsi olduğunu bildirir. Əhali burada çoxlu sayda muncuqlara rast gəldiyinə görə əraziyə həm də Muncuqlutəpə adını vermişdir. Muncuqlutəpə nekropolu Xalıkeşan nekropolundan əks istiqamətdə yerləşmişdir. AMEA Tarix İnstitutunun "Xaraba-Gilan" arxeoloji ekspedisiyası Q.M.Aslanovun başçılığı ilə 1979-1982-ci illərdə abidədə 33 sərdabə tipli qəbir tədqiq etmişdir. Qəbirlər əsasən sal daşlardan qurulmuşdur. Qəbirlərin demək olar ki, hamısının qurbangahı olmuşdur. Tədqiqatçılar nekropoldan aşkar edilən arxeoloji materiallara əsasən Muncuqlutəpə nekropolunu son tunc və ilk dəmir dövrünə aid edirlər. Abidə hazırda məhv olmaq təhlükəsi qarşısındadır.

## Sumbatan yaşayış yeri




Sabirkənd ərazisində e.ə. II-I minilliyə aidə arxeoloji abidə. Abidə 1976-ci ildə qeydə alınıb. Sahəsi 5 hektardır. Mədəni təbəqənin qalınlığı 3 m-ə qədərdir. 2008-cu ildən etibarən t.ü.f.d. B.İ.İbrahimlinin başçılığı ilə "Xaraba-Gilan" arxeoloji ekspedisiyası abidədə qazıntılara yenidən başlanılıb. Abidədə yaşayış evləri, inzibati bina, məbəd qalığı və s. aşkar edilmişdir. B.İ.İbrahimlinin fikrincə, Sumbatan-dizə yaşayış yeri plan quruluşuna, tikinti texnikası və memarlıq üslubuna, buradan aşkar edilmiş arxeoloji materiallara əsasən Urmiya hövzəsindəki Həsənlitəpə abidəsi ilə çox oxşarlıq təşkil edir. Sumbatan dizə yaşayış yeri ətrafına 3 metr enində daşla işlənmiş müdafiə divarına malik, ərazisi 20 hektardan artıq olan, e.ə. II minilliyin sonu və I minilliyin əvvəllərinə aid şəhər yeridir. Abidədə qazıntılar hələ də davam edir.

## Sabirkənd məscidi



Ordubad rayonu Sabirkəndində Məscid. 2011-ci ildə dövlət tərəfindən tikdirilmişdir. Qadınlar və kişilər eyni anda ibadət edə bilirlər. Müasir dövrdə tikilsə də, milli və Şərq ornamentləri də tikilidə müşahidə etmək olur.

## Dəyirman dağı nekropolu



Ordubad rayonu Sabirkənd ərazisində tunc dövrünə aid arxeoloji abidə. Yaycı arxının sağ sahilində, təpənin ətəyində yerləşən nekropolda 2003-cü ildə B.İbrahimli tərəfindən kəşfiyyat xarakterli qazıntı aparılmışdır. 2012-ci ildən başlayaraq AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Xaraba-Gilan" arxeoloji ekspedisiyası nekropolda qazıntılara başlamışdır. Nekropolda bir neçə qəbir tədqiq olunmuşdur. Bu qəbirlər əsasən kurqanaltı daş qutulardan ibarətdir. Abidə ümumilikdə son tunc dövrünə aid edilir.

## Rəsul dərəsi yaşayış yeri





Ordubad rayonu Sabirkənd ərazisində arxeoloji abidə. 2009-cu ildən etibarən "Xaraba-Gilan" arxeoloji ekspedisiyası tərəfindən Q.S.İsmayılzadə və B.İ.İbrahimlinin başçılığı ilə yaşayış yerində arxeoloji qazıntılar başlanılıb. Abidədə daşdan tikilmiş yaşayış evi kompleksləri aşkar edilmişdir. Yaşayış evi kompleksində divarların eni 0,5-1 metrə qədər olmuşdur. Abidədən keramika məmulatı, daş əmək alətləri, iri və xırda buynuzlu heyvanlara məxsus osteoloji qalıqlar aşkar edilmişdir. Yaşayış yeri e.ə. I minilliyə aid möhtəşəm bir abidədir.

## Dəlmə qalası





Ordubad rayonu ərazisində Sabirkənddən qərbdə, Ordubad-Culfa rayonları sərhəddində, Ordubad-Naxçıvan avtomobil yolunun 19-cu kilometrində erkən orta əsrlərə aid arxeoloji abidə. Hündür təpə üzərində dağ daşları ilə tikilmiş qala yerindən ehtimal ki, IV-VI əsrlərdə müdafiə məqsədilə və həbsxana kimi istifadə edilmişdir. 2012-ci ildən B.İ.İbrahimlinin başçılığı ilə abidədə arxeoloji tədqiqatlara başlanılıb. Qalanın müdafiə divarları qaya daşları üzərində müxtəlif ölçülü dağ daşları və gil məhlulu ilə hörülmüşdür. Divarların aşağı hissəsi və özülü iri daşlarla, yuxarı hissələri isə nisbətən kiçik ölçülü daşlarla işlənmişdir. Divarların eni təqribən 2-2,5 metr enindədir. Qala divarları ən çox şərq tərəfdə salamat qalmışdır. Salamat qalan hissədə divarların hündürlüyü 3 metrdən artıqdır. Tədqiqatçılar Dəlmə qalasının təyinatı ilə bağlı müxtəlif fikirlər irəli sürürlər. Onların fikrincə ilk orta əsrlərdə qaladan zindan məqsədilə istifadə etmişlər. Digər bir ehtimala görə isə, Dəlmə qalası Xaraba Gilan şəhər yerinin forpostu olmuş və ya qaladan zərbxana kimi istifadə edilmişdir. Ümüd edirik ki, qalada arxeoloji tədqiqatların davam etdirilməsi abidənin təyinatı ilə bağlı konkret bir firik söyləməyə imkan verəcək.

## Yuxarı Əylis bazar yeri



Ordubad rayonu Yuxarı Əylis kəndində qədim bazar yeri. Kəndin mərkəzində Bazar məscidi və bazar körpüsü yaxınlığında yerləşir. XVII-XIX əsrlərdə bu ərazidə bazar yeri olmuşdur. Əylis orta əsrlərdə böyük bir sənətkarlıq və ticarət mərkəzi olduğu üçün bu şəhər ərazisində bir neçə böyük bazar yeri olmuşdur. Orta əsrlərə aid bazar yerində müasir dövrdə kənd mərkəzi üçün bina inşa olunur.

## Yuxarı Əylis bazar körpüsü



Ordubad rayonu Yuxarı Əylis kəndində tarixi-memarlıq abidəsi. Körpü kəndin içərisində dərənin üzərində tikilmişdir. Uzunluğu 9 metr, eni 3,2 metr, hündürlüyü 9 metr. Körpü birtağlı inşa olunmuşdur. Tağının kənarları yonulmuş daşlarla bəzədilmişdir. Memarlıq üslubu XVIII əsr abidələri üçün xarakterikdir.

## Yuxarı Əylis bazar çeşməsi



Ordubad rayonu Yuxarı Əylis kəndində Bazar məhəlləsində, Bazar körpüsü yaxınlığında çeşmə (kəhriz). Hələ qədim dövrdən etibarən Əylisdə mövcud olan kəhriz sistemi bütün kəndin içməli su problemini həll etmək üçün əsas mənbə rolunu oynayıb. Bazar çeşməsi də bir neçə dəfə təmir-bərpa olunsa da hələ də fəaliyyət göstərir.

## Yuxarı Əylis mədrəsəsi



Ordubad rayonu Yuxarı Əylis kəndində tarixi-memarlıq abidəsi. Şah Abbas məscidinə şimal-şərq tərəfdən bitişikdir. İkimərtəbəli binanın üzü cənuba doğru tikilib. Bəzi insanlar bu binanı qonaq evi də adlandırırlar. Amma əslində Şah Abbas məscidinin yanında fəaliyyət göstərən bu mədrəsədə Yuxarı Əylis və qonşu kəndlərdən olan uşaqlar təhsil alırmışlar. Yuxarı Əylis mədrəsəsi də yaxınlıqdakı məscidlə eyni dövrə, yəni XVII əsrə aid edilir.

## Yuxarı Əylis Şah Abbas məscidi





Ordubad rayonu Yuxarı Əylis kəndində XVII əsrə aid tarixi-memarlıq abidəsi. Səfəvi hökmdarı Şah Abbas tərəfindən inşa etdirildiyi bildirilir. Məscid kompleksinə mədrəsə və hamam daxildir. Abidəni kənd camaatı "Meydan məscidi" də adlandırır. Uzunluğu 11 metr, eni 7,7 metr, hündürlüyü 4,5 metrdir. Tədqiqatçıların fikrincə Yuxarı Əylis məscidi Naxçıvan bölgəsində Ordubad Came məscidindən sonra yanında mədrəsə binası olmaqla indiyədək salamat qalmış ikinci məsciddir.

## Yuxarı Əylis hamamı





Yuxarı Əylis kəndində orta əsrlərə aid hamam tikilisi. Hamamın yanında XVII əsrdə tikilmiş Şah Abbas məscidi yerləşir. Hamamın da məscidlə eyni dövrdə tikildiyi güman edilir. Əsasən bişmiş kərpicdən, orta əsr şərq hamamları üslubunda tikilib. Baxımsız vəziyyətdə olduğu üçün bu abidə də məhv olmaq təhlükəsi qarşısındadır.

## Nuh körpüsü



Ordubad rayonu Yuxarı Əylis kəndində tarixi-memarlıq abidəsi. Birtağlı olan bu körpü Əylis çayının qollarının birinin üzərində salınmışdır. Körpünün tağı kənarlarda yonulmuş daşlarla inşa edilərək əhəng məhlulu ilə bərkidilmişdir. Memarlıq üslubuna görə abidə XVIII-XIX əsrlərə aid edilir.

## Yuxarı Əylis 40 pilləsi (Quşlu çeşmə)





Ordubad rayonu Yuxarı Əylis kəndində XVI-XVIII əsrlərə aid "Quşlu çeşmə" üzərində inşa edilmiş abidə. Kəhrizin "Quşlu çeşmə" adlandırılmasının səbəbi suyun axdığı novun hər iki tərəfində daş üzərində quş rəsminin həkk olunmasıdır.

## Xoşkeşin məscidi



Ordubad rayonu Yuxarı Əylis kəndində orta əsrlərə aid tarixi-memarlıq abidəsi. Məscid qədim Xoşkeşin yaşayış yerinin yaxınlığında tikilib. İkimərtəbəli inşa olunan məscidin girişi qərb tərəfdəndir. Müasir dövrdə bərpa olunaraq kənd camaatının yenidən istifadəsinə verilib.

## Xoşkeşin yaşayış yeri



Ordubad rayonu Yuxarı Əylis kəndində orta əsrlərə aid arxeoloji abidə. Xoşkeşin məscidinin yaxınlığında orta əsrlər dövründə mövcud olmuş yaşayış yerinin xarabalıqları. Ərazidə yaşayış evi, məhəllələr və s. dağıntıları qalır.

## Yuxarı Əylis Türk şəhidliyi



Ordubad rayonu Yuxarı Əylis kəndində tarixi-memarlıq abidəsi. 1918-ci ildə Osmanlı qoşunlarının erməni quldurlarına qarşı Naxçıvan əhalisinə köməyə gəldiyi zaman ermənilərlə döyüşdə şəhid olmuş türk əsgərlərinin dəfn olunduğu şəhidlik. 12 osmanlı əsgəri bu məzarlıqda dəfn olunub.

## Yuxarı Əylis nekropolu



Ordubad rayonu Yuxarı Əylis kəndində orta əsrlərə aid arxeoloji abidə. Nekropol təpənin ətəyində salınmışdır. Qəbirlərin torpaq örtüyü aşınmışdır. Onları yalnız baş daşla-

rına görə müəyyən etmək olur. Baş daşlarının əksəriyyəti yonulmamış qaya parçalarındandır. Nekropol xalq arasında Xoşkeşin qəbiristanlığı da adlanır.

## Aşağı Əylis susuz kəhriz



Ordubad rayonu Aşağı Əylis kəndində tarixi-memarlıq abidəsi. Yuxarı Əylisdə olduğu kimi Aşağı Əylisdə də kəndin içməli su problemi kəhrizlər vasitəsilə həll olunurmuş. Susuz kəhrizin sonradan baxımsızlıq ucbatından, buraya gələn yeraltı su kanalının təmizlənməməsi nəticəsində suyu quruyub.

## Aşağı Əylis köhnə məktəb



Ordubad rayonu Aşağı Əylis kəndində köhnə məktəb yeri. Binanın XIX əsrin sonlarında və ya XX əsrin başlanğıcında tikildiyi bildirilir. İpəkçiliklə bağlı olaraq ilk fabrik

kimi istifadə edildiyi söylənilir. İki mərtəbəli inşa olunan bina Sovet hakimiyyəti zamanı məktəb yeri kimi istifadə edilib. Hazırda bina baxımsız vəziyyətdə olub, dağılmaq təhlükəsi qarşısındadır.

## Aşağı Əylis Dəvə çeşmə kəhrizi






Ordubad rayonu Aşağı Əylis kəndində qədim kəhriz yeri. 2008-ci ildə Beynəlxalq Miqrasiya təşkilatının köməkliyi ilə yenidən təmir və bərpa olunaraq kənd camahatının istifadəsinə verilib.

## Aşağı Əylis məscidi



Ordubad rayonu Aşağı Əylis kəndində tarixi-memarlıq abidəsi. XX əsrin sonlarında tikilib. Bir neçə il bundan əvvəl yenidən təmir olunub. Bu gün Aşağı Əylis kəndinin əsas məscidi kimi fəaliyyət göstərir.

## Yuxarı Ambaras məscidi



Ordubad şəhərində Yuxarı Ambaras məhəlləsində tarixi-memarlıq abidəsi. Məscidin XVII əsrdə Ağa Mirzə Cəfər tərəfindən tikdirildiyi güman edilir. Bir neçə dəfə təmir və bərpa olunub. Hal-hazırda Ordubad şəhərinin əsas məhəllə məscidlərindən biridir.

## Qoşqar məscidi






Ordubad şəhəri Aşağı Ambaras məhəlləsində tarixi-memarlıq abidəsi. XVIII əsrdə tikildiyi güman edilir. 2001-ci ildə sonucu dəfə əsaslı sürətdə təmir olunmuşdur. Hal-hazırda Ordubad şəhərinin əsas məhəllə məscidi kimi fəaliyyət göstəririr.

## Əfqan qalası



Ordubad şəhərində Dübəndi çayının sahilində arxeoloji abidə. Qala şərq tərəfdən sıldırım qayalarla, digər yanlardan isə iri daş parçalarından hörülmüş müdafiə divarı ilə əhatələnib. Hörgüdə bərkidici maddə kimi əhəng məhlulundan istifadə edilmişdi. Qalanın içərisindəki tikililər və qala divarları böyük dağıntıya məruz qalmış, məhv olmaq təhlükəsi qarşısındadır. Qala divarlarının tikinti texnikasına və aşkar edilən arxeoloji materiallara əsasən abidə XIV-XIX əsrlərə aid edilir.

## Dilbər məscidi





Ordubad şəhərində tarixi-memarlıq abidəsi. Çox da böyük olmayan məscid 6 sütunludur. Məscidin Dilbər adlı qadın tərəfəindən inşa etdirildiyi bildirilir. Memarlıq üslubuna və tikinti texnikaslna görə məscid XVIII əsrə aid edilir. Hazırda təmirdən sonra məhəllə məscidi kimi istifadə olunur.

## Dilbər çeşməsi



Ordubad şəhərində Dilbər məscidi yaxınlığında çeşmə-kəhriz. Ordubad məhəllələri üçün xarakterik olan vahid kompleks sistemi burada da özünü göstərir. Belə ki, Ordubad şəhərinin bütün məhəllələrində məhəllə məscidi, yanında çeşmə (bulaq) və çinar ağacı var. Hazırda kəhrizdən istifadə olunur. Dilbər məscidinin yaxınlığında olduğuna görə kəhrizin qurulma dövrünü də XVIII əsrə aid edirlər.

## Ordubad Məbədi





Ordubad şəhərində tarixi-memarlıq abidəsi. Tarixi Alban kilsəsi 2011-ci ildə əsaslı təmir və bərpa edilərək istifadəyə verilib. Hazırda sərgi salonu kimi fəaliyyət göstərir.

## Y.Məmmədəliyevin ev muzeyi





Ordubad şəhərində tarixi-memarlıq abidəsi. Görkəmli alim, akademik Yusif Məmmədəliyevin yaşadığı ev. XXI əsrin əvvllərində yenidən təmir olunub. Bu gün alimin ev muzeyi kimi fəaliyyət göstərir.

## Qeysəriyyə






Ordubad şəhərinin mərkəzində yerləşən möhtəşəm tarixi abidələrdən biri də Qeysəriyyə kompleksidir. Bu abidənin tikilmə tarixi XVII əsrə aid edilir. Qeysəriyyə sözünün mənası orta əsrlərdə hökmdarlar, nüfuzlu şəxslər üçün ləl-cəvahiratın satılması üçün tikilmiş örtülü şərq bazarı deməkdir. Sonradan "Zorxana" kimi də fəaliyyət göstərən binada yerli və qonşu ölkələrdən gələn pəhlivanlar öz güclərini sınamışlar. Abidənin ümumi sahəsi 540 kv m-dir. Abidə bişmiş kərpicdən inşa olunub, divarlarının qalınlığı 80 sm-dir. Qeysəriyyə kompleksi XX əsrin sonunda və 2011-ci ildə yenidən təmir olunmuşdur. Hazırda binada Ordubad rayon tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərir.

## Təkeşiyi məscidi





Ordubad şəhərində XVIII əsrə aid tarixi-memarlıq abidəsi. Şiə təkyəsi deməkdir. İlk əvvəllər karvansara kimi fəaliyyət göstərmişdir. Məscid bir neçə dəfə təmir və bərpa olunub. Şəbəkəli pəncərələri var. Məscidin şərq giriş qapısının baş tərəfində şeirlə yazılmış kitabə qoyulmuşdur. Xalq arasında Yəhya bəy məscidi kimi də tanınır. Məscid XVIII əsrə aid edilir.

## Ordubad mədrəsəsi





Ordubad şəhərində XVIII əsrə aid tarixi-memarlıq abidəsi. Şəhərin Came məscidinə yaxın bir ərazidə, ikimərtəbə inşa edilmişdir. Orta əsrlərdə Azərbaycanın mühüm mədrəsələrindən biri olmuşdur. Sovet hakimiyyəti illərində İpək fabrikinin kontoru kimi binadan istifadə etmişlər. Abidə bu gün baxımsızlıq ucbatından məhv olmaq təhlükəsi qarşısındadır.

## Buzxana





Ordubad şəhərində tarixi-memarlıq abidəsi. XIV əsrdə tikildiyi bildirilir. XVIII əsrdə yenidən bərpa olunub. İsti aylarda ərzaqları sərin saxlamaq üçün istifadə etmişlər. Bişmiş kərpic və əhəng məhlulundan istifadə edilməklə tikilib.

## Hacı Fəttah kəhrizi






Ordubad şəhərində qədim kəhriz yeri. 2009-cu ildə Beynəlxalq Miqrasiya Təşkilatının maliyyə dəstəyi ilə Hacı Fəttah kəhrizi yenidən bərpa olunub.

## Hacı Fəttah məscidi



Ordubad şəhərində orta əsrlərə aid məhəllə məscidi. XXI əsrdə yenidən bərpa və təmir olunaraq şəhər əhalisinin istifadəsinə verilib.

## Ordubad Came məscidi



Ordubad Came məscidi (bəzi mənbələrdə Şah Abbas məscidi kimi də qeyd edilir) Ordubad şəhərinin mərkəzində yerləşir. Məscidin tikilmə tarixi daha qədim dövrə aid edilsə də, XVII əsrdə əsaslı surətdə təmir və bərpa edilmişdir. Məscidin mövcud plan quruluşu XVII-XVIII əsrlərə aid abidələrin xarakterik xüsusiyyətini özündə daşıyır. Məscidin şimal qapısı üzərində daş lövhədə Səfəvi hökmdarı I Şah Abbasın fərmanı əks olunmuşdur. Bu fərman fars dilində olub, nəsx xəttilə yazılmışdır. Fərmanda Ordubad əhali-

sinin xəzinəyə ödədiyi vergilərdən azad olunduğu öz əksini tapır. Buna əsas kimi şəhər əhalisinin şiə olması, Şaha sadiqliyi və Tusiyyə nəslindən olanların bu ərazidə yaşamaları göstərilmişdir. Ordubad Came Məscidi XX əsrin sonlarında yenidən təmir olunmuşdur. Bu gün də şəhərin əsas məscidi kimi fəaliyyət göstərir.

## Hüseyn Sultan məscidi (Ərbabın nəvəsinin evi)



Ordubad şəhərində tarixi memarlıq abidəsi. Ordubadlı məhşur ərbab Rzaqulunun nəvəsinin bu evdə yaşadığı, sonradan isə binadan məscid kimi istifadə olunduğu bildirilir.

## Ordubad Hamamı



Ordubad şəhərində XVIII əsrə aid tarixi abidə. Şərq hamamlarına xas olan memarlıq üslubunda inşa olunub. 2011-ci ildə yenidən təmir və bərpa olunub. Hamamın ümumi sahəsi 483 kv m, divarlarının qalınlığı 1 metrdir.

## Məscid qonaq evi (Mingis başı)



Ordubad şəhərində Mingis məhəlləsinin başında orta əsrlərə aid məscid yeri. Sahəsi çox da böyük olmayan bu məscid binasından rəvayətə görə qədimdə şəhərə gələn qonaqlar gecələyərmişlər. Hazırda məhəllə məscidi kimi fəaliyyət göstərir.

## M.S.Ordubadinin ev muzeyi



Ordubad şəhərində görkəmli ədib M.S.Ordubadinin yaşadığı ev. 2011-ci ildə yenidən təmir olunub. Hal-hazırda yazıçının ev muzeyi kimi fəaliyyət göstərir.

## Mingis məscidi





Ordubad şəhərində tarixi memarlıq abidəsi. Mingis məhəlləsində başqa kiçik məhəllələr olduğundan məhəllənin baş məscidi hesab olunr. Bir neçə dəfə təmir olunub. XVII əsrin ikinci yarısında bərpa edilən məscidin daha əvvəlki dövrdə tikildiyi ehtimal edilir. Tədqiqatçıların fikrincə 1677-ci ildə məscid I Şah Abbasın vəziri Hatəm bəy Ordubadinin qardaşı oğlu Məhəmməd Hadi bəy tərəfindən bərpa edilmişdir. XX əsrin 70-80-ci illərində baxımsızlıq ucbatından məscidin çox hissəsi dağıdılıb. 2001-ci ildə yenidən bərpa edilib. İki mərtəbəli inşa edilən məscidin birinci mərtəbəsindən təsərrüfat xarakterli məqsədlər üçün istifadə edilir.

## Səqqaxana



Ordubad şəhərində Mingis məscidinin arxasında tarixi-memarlıq abidəsi. Ərəbcə "səqqa" susatan, su verən, farsca "xanə" ev sözlərindən əmələ gəlib. Səqqaxanalarda insanların istifadəsi üçün su saxlanılırdı. Mingis məhəlləsindəki səqqaxanaya da kəhriz vasitəsilə su gəlir və buradakı hovuza doldurulurdu. Buradan da insanların istifadəsi üçün paylanılırdı. Ehtimal ki, səqqaxana XVII əsrdə Mingis məscidi inşa olunarkən tikilmişdir.

## Sərşəhər məscidi





Ordubad şəhərində Sərşəhər məhəlləsində tarixi-memarlıq abidəsi. Sərşəhər sözü-şəhərin başı, mərkəzi mənasında işlədilirmiş. XVIII əsrə aid memarlıq abidəsi iki mərtəbəli, geniş şəkildə inşa edilib. Ordubad memarlıq üslubunda inşa edilən məscidin pəncərələri şəbəkə formasındadır. Məscid bu gün də rayonun əsas məscidlərindən biri kimi fəaliyyət göstərir.

## Sərşəhər çeşməsi



Ordubad şəhərində Sərşəhər məhəlləsində tarixi-memarlıq abidəsi. Məhəllənin əsas çeşməsi kimi müasir dövrdə də insanlar bu çeşmədən istifadə edirlər.

## Sərşəhər meydanı





Ordubad şəhərində Sərşəhər məhəlləsinin baş meydanı. Hər il rayonda təkil olunan Novruz bayramı şənliklərinin keçirildiyi əsas meydanlardan biridir.

## Daşlar başı məscidi



Ordubad şəhərində Sərşəhər məhəlləsində kiçik məhəllə məscidlərindən biri. Müasir dövrümüzdə də məhəllə məscidi kimi fəaliyyət göstərir.

## Şai kəhrizi






Ordubad şəhərində qədim kəhriz yeri. 2009-cu ildə Beynəlxalq Miqrasiya Təkilatının köməkliyi ilə yenidən bərpa olunub.

## Hacı Əhməd kəhrizi






Ordubad şəhərində qədim kəhriz yeri. 2008-ci ildə İsveçrə hökuməti Beynəlxalq Miqrasiya Təşkilatının köməkliyi ilə yenidən bərpa olunub.

## Hacı Abbas məscidi, Hacı Abbas quyusu





Ordubad şəhərində tarixi və memarlıq abidəsi. Bu ərazidə Hacı Abbas quyusu olmuş, sonradan yerli əhali quyunun yanında kiçik bir məscid binası da inşa etmişlər.

## Bilal məscidi, Bilal kəhrizi






Ordubad şəhərində Bilal kəhrizi yaxınlığında inşa olunmuş tarixi bir məscid. Kəhriz 2010-cu ildə yenidən bərpa olunmuşdur.

## Nəhər məscidi, Nəhər kəhrizi





Ordubad şəhərində tarixi məscid yeri. Nəhər məscidi demək olar ki, tamamilə dağılmışıdr. Məscidin yaxınlığındakı kəhriz 2010-cu ildə Beynəlxalq Miqrasiya Təşkilatının köməkliyi ilə bərpa olunub.

## Üçtürləngə məscidi, Çuxur çeşmə





Ordubad şəhərində orta əsrlərə aid məhəllə məscidi. Məscid Üçtürləngə (Hüştürəngə) məhəlləsinin adı ilə adlandırılıb. Bu gün də məhəllə məscidi və çeşməsi kimi fəaliyyət göstərir.

## Sarıtəpə kəhrizi (böyrək suyu)






Ordubad şəhərində qədim kəhriz yeri. 2009-cu ildə Beynəlxalq Miqrasiya Təşkilatının köməkliyi ilə bərpa olunub. Bu kəhrizin suyunun böyrək xəstəliklərinə faydalı olması bildirilir. Ona görə də kəhrizin digər bir adı "Böyrək suyu"dur.

## Malik İbrahim piri, Malik İbrahim qəbiristanı





Ordubad şəhərinin şərqində Qaradağın ətəyində orta əsrlərə aid tarixi və arxeoloji abidə. Qəbiristanlığın ümumi sahəsi 2 hektardan çoxdur. Burada çoxlu sənduqə və baş daşı tipli qəbirüstü xatirə abidələri qalmışdır. Qəbirüstü yazıların əksəriyyəti ərəb və fars dillərindədir. Qəbiristanlıqda aşkar edilmiş ən qədim qəbirüstü yazının tarixi XIV əsrə aiddir. Rəvayətə görə burada dəfn olunan Malik İbrahim Məhəmməd peyğəmbərin (s.a.s.) nəvəsi imam Hüseyn şəhid edildikdən sonra onun qisasını almaq üçün başlayan hərəkatın sərkərdəsi İbrahim Əjdərin oğlu olmuşdur. Pirdən bir qədər aralı cənub tərəfdə ziyarətgaha çevrilmiş sufi şeyxi Şeyx Əbu Səidin qəbri vardır. Şeyxin qəbri adlandırılan bu qəbrə də yeri əhali böyük ehtiram göstərir və ziyarət edir. Malik İbrahim piri və qəbirstanlığı müasir dövrdə şəhər əhalisinin ən çox ziyarət etdiyi ziyarətgahdır. Şəhər qəbiristanlığı kimi fəaliyyət göstərir.

## Malik İbrahim qəbiristanlığında sərdabə





Ordubad şəhərində Malik İbrahim qəbiristanlığı ərazisində sərdabə.

## Ordubad Qırxpilləsi





Ordubad şəhərində orta əsrlər aid tarixi-memarlıq abidəsi. Yeraltı kəhriz sularından istifadə etmək üçün tikilib. Hazırda da fəaliyyət göstərir.

## I Bist körpüsü



Ordubad rayonu Bist kəndi ərazisində XVII əsrə aid memarlıq abidəsi. Əlahi çayı üzərində tikilmişdir. Əsasən yonulmuş daşlardan və çay daşlarından tikilmişdir. Körpü iki tağlıdır. Qərbdəki tağ böyük, şərqdəki tağı kiçikdir. Ehtimal ki, Böyük İpək yolu üzərindəki bu körpü də ticarətlə məşğul olan tacirlərin əsas istifadə etdikləri körpülərdən olmuşdur. Hazırda Bist kəndinə giriş əsasən bu körpü vasitəsilədir.

## Gəmiqaya.
## Qaranquş yaylağı.





Gəmiqaya – Ordubad rayonu ərazisində dağ. Kiçik Qafqaz dağlarının ən hündür zirvəsi olan Qapıcıq dağına "Gəmiqaya" adı verilmişdir. Bu ad Nuh peyğəmbərlə bağlı olan əfsanəyə görə verilib. Gəmiqayanın ətəklərindəki Qaranquş yaylağı, Camışölən və Nəbi yurdunda qayaüstü təsvirlər qeydə alınmışdır. Ordubad ərazisində qeydə alınmış qayaüstü təsvrlər elmi ədəbiyyatda Gəmiqaya rəsmləri kimi tanınır. Qayaüstü təsvirlərin ən çox yayıldığı ərazi Qaranquş yaylağıdır. Təsvirlər dağın yamaclarındakı vulkanik qaya parçaları, qara bazalt daşlar üzərində həkk olunmuşdur. Tədqiqatçıların fikrincə bu təsvirlər qayalar üzərinə cızma, yonma, döymə, qazıma üsulu ilə həkk edilmişdir. Abidədə müxtəlif heyvan təsvirləri, ov səhnələri, müxtəlif həndəsi təsvirlər, fiqurlar və digər rəsmlər öz əksini tapmışıdr. Bu ərazidə qayaüstü təsvirlərlə yanaşı yurd, dəyə yerləri, qə-

bir abidələri də qeydə alınmışdır. Gəmiqaya qayaüstü təsvirləri dünya əhəmiyyətli abidə hesab olunur. Ordubad bölgəsinin tunc dövrü abidələri sırasında Gəmiqaya təsvirləri xüsusi yer tutur. Gəmiqaya abidəsi eyni zamanda qədim insanların dini ideoloji baxışlarını, gündəlik təsərrüfat və məişət həyatını öyrənmək üçün əsas mənbələrdən biridir.

## Üstüpü hamamı



Ordubad rayonu Üstüpü kəndi ərazisində orta əsrlərə aid tarixi abidə. Kəndin ayağında Düylün çayının sol sahilində tikilmişdir. Abidə XVII-XVIII əsrlərə aid edilir. Şərq hamamlarına xas bir memarlıq üslubunda inşa edilmişdir. Baxımsızlıq üzündən abidə dağılmaq üzrədir.

## Üstüpü məscidi



Ordubad rayonu Ustüpü kəndinin mərkəzində orta əsrlərə aid tarixi abidə. Kəndin əsas məscidi kimi fəaliyyət göstərir. 2010-cu ildə yenidən təmir olunmuşdur.

## Xaraba Gilan qala bürcləri









Ordubad rayonu ərazisində Xaraba Gilan qədim şəhər yerinin qala bürcləri. Bu bürclər şəhəri cənubdan gələn hücumlardan qorumaq üçün istifadə edilib. Vaxtilə 4 böyük bürc olub. Muasir dövrdə sadəcə bir qala bürcü yarım dağılmış vəziyyətdə qalır. Bürclər əsasən yonulmuş dağ daşlarından istifadə edilməklə inşa edilib. Qala bürclərini bir-biri ilə birləşdirən müdafiə divarının özülü daşdan, yuxarı hissələri isə çiy kərpicdən istifadə edilməklə inşa olunub.

## Xaraba Gilan nekropolu





Ordubad rayonu Xaraba Gilan ərazisində arxeoloji abidə. Bu nekropol şəhərin qərb hissəsində hündür təpənin üzərində salınmışıdr. Qəbirlər əsasən sal daşlardan istifadə edilməklə qurulmuşdur. Dəfn mərasimləri islam adətlərinə əsasən aparılmışdır. Bütün Xaraba Gilan şəhər yerində olduğu kimi bu nekropol da məhv olmaq üzrədir. Buna əsas səbəb abidəyə ögey münasibət və xəzinə axtaranların vəhşicəsinə abidələrimizi məhv etmələridir. Nekropol VIII-XVI əsrlərə aid edilir.

## Xaraba Gilan nekropolu (Ailə sərdabələri)









Orta əsr Xaraba Gilan şəhər yerində arxeoloji abidə. Bu nekropolda əsasən ailə sərdabələri olmuşdur. Bu sərdabələrdə kollektiv dəfnlər də həyata keçirilmişdir. Burada dəfn olunanların adlı-sanlı ailələrin nümayəndələri olduğu güman edilir. Dağ daşlarından istifadə edilməklə, yüksək zövqlə inşa edilmiş bu sərdabələr müasir dövrdə barbarlıq və baxımsızlıq üzündən dağıdılmışdır. Bu tikililərdə Memar Əcəmi məktəbinin izləri də aydın hiss olunur. Sərdabələrdən biri Mömünə Xatun türbəsində olduğu kimi bir sütun üzərində inşa edilmişdir. Vaxtilə bişmiş kərpicdən inşa edilmiş türbələr isə tamamilə məhv edilib.

## Xaraba Gilan Karvansara



Ordubad rayonu Xaraba Gilan şəhər yeri ərazisində orta əsrlərə aid arxeoloji abidə. 1982-ci ildə "Xaraba–Gilan" arxeoloji ekspedisiyası tərəfindən Karvansara yerində qazıntı aparılmışdır. Karvansara divarları əsasən dağ daşlarından, möhrədən və çiy kərpicdən tikilmişdir. Abidə XIV əsrə aid edilir.

## Xaraba Gilan Narınqala





Xaraba Gilan ərazisində eyni adlı dağın üzərində şəhərin narınqalası. Abidə ümumilikdə 10 hektardan artıq ərazini əhatə edir. Narınqala hündür dağ üzərində salındığından müdafiəsini təşkil etmək asan olub. Arxeoloji qazıntılar zamanı narınqalada olan bir çox inzibati və yaşayış binalar üzə çıxarılmışıdr. Çox təəssüf ki, laqeydlik üzündən bu binalar da dağılıb, məhv olmaq üzrədir.

## I Plovdağ nekropolu



Ordubad rayonu Kələntər Dizə ərazisində arxeoloji abidə. Abidə ərazidə təsərrüfat işləri görülərkən dağıntıya məruz qalıb. Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən XX əsrin 80-ci illərində nekropolda qazıntı işləri aparılıb. Abidədə 40-a yaxın qəbir abidəsi tədqiq edilib. Nekropolda kurqanaltı daş qutu və kurqanaltı torpaq qəbirlər tədqiq edilib. Bundan əlavə kurqanaltı sərdabələr də nekropolda tədqiq edilib. I Plovdağ nekropolunda qazılan kurqanların diametri 2 metrdən 10 metrə qədər idi. Arxeoloji material kimi müxtəlif formalı saxsı qablar, bəzək əşyaları və s. əldə edilib. I Plovdağ nekropolu e.ə. III-II minilliklərə aid edilir.

# II Plovdağ nekropolu





Ordubad rayonu Kələntər Dizə yaxınlığında tunc dövrünə aid arxeoloji abidə. 2003-cü ildən başlayaraq abidədə Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən qazıntılar aparılır. Nekropolda əsasən qurbangahlı və kurqanaltı daş qutu qəbirlər tədqiq olunub. Nekropolda üzə çıxarılmış qəbirlərdə əsasən sağ və sol böyrü üstə qoyulmuş insan skeletləri dəfn edilmiş, qurbangahlara isə əsasən saxsı məmulatı qoyulmuşdu. Bəzi qəbirlərdə insan skeletlərinin yanında müəyyən bəzək əşyaları, silahlar və xırdabuynuzlu heyvan sümükləri aşkar edilib. Abidə orta və son tunc dövrlərinə aiddir.

## III Plovdağ nekropolu



Ordubad rayonu Kələntər Dizə kəndi yaxınlığında eyni adlı dağın ətrafında tunc dövrünə aid arxeoloji abidə. 2012-ci ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən nekropolda qazıntılar aparılmağa başlanılıb. III Plovdağ nekropolunda əsasən kurqanlatı daş qutu və kurqanaltı torpaq qəbirlər tədqiq olunur. Abidə e.ə. II minilliyin sonlarına aid edilir.

## Plovdağ yaşayış yeri



Plovdağ yaşayış yeri Ordubad rayonunda Gilan çayının sahilində, Xaraba Gilan şəhər yerinin yaxınlığında yerləşir. Plovdağ Zəngəzur sıra dağlarına aid olub, bu dağ silsiləsinin sonuncusudur. Qazıntılar Plovdağın çoxtəbəqəli abidə olduğunu göstərmişdir. 1 ha yaxın yaşayış yerinin şərq tərəfində Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən bir yaşayış evi kompleksi öyrənilmişdir. Abidədən əldə olunmuş arxeoloji materiallara əsasən Plovdağ yaşayış yeri e.ə. III minilliyə aid edilir.

## Baba Yaqub piri, Baba Yaqub yaşayış yeri






Ordubad rayonu Dəstə kəndi ərazisində, Araz çayı sahilində orta əsrlərə aid arxeoloji və tarixi abidə. Yaşayış yerində aparılan kəşfiyyat xarakterli araşdırmalar nəticəsində yaşayış yerinin XIV-XVIII əsrlərə aid olduğu müəyyənləşdirilmişdir. Yaşayış yeri yaxınlığında Baba Yaqib piri də vardır.

## Cami (meydan) məscidi



Ordubad rayonu Dəstə kəndi mərkəzində tarixi-memarlıq abidəsi. Məscid kəndin mərkəzində yerləşdiyi üçün kəndin meydan və ya came məscidi adlanır. Sonradan məscidə minarə əlavə edilmişdir. Dəstə kəndində bir neçə məhəllə məscidi olmasına baxmayaraq Meydan məscidi kəndin baş məscidi hesab edilir.

## Sahib-əz Zaman məscidi





Ordubad rayonu Dəstə kəndində məscid. 1990-ci ildə tikilmişdir. Məhəllə məscidi kimi fəaliyyət göstərir.

## Xanağa nekropolu



Ordubad rayonu Xanağa kəndindən şərqdə orta əsrlərə aid arxeoloji abidə. Nekropol əsasən müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin bəzisinin ətrafına çay daşı düzülüb, bəzilərinin isə üzəri daş yığını ilə örtülmüşdür. Nekropolun ərazisində son orta əsrlərə aid şirli və şirsiz keramika nümunələri aşkar edilmişdir. Nekropol ümumilikdə XII-XVIII əsrlərə aid edilir.

## Vənənd Came məscidi



Ordubad rayonu Vənənd kəndi ərazisində orta əsrlərə aid tarixi-memarlıq abidə. Kəndin əsas məscidi hesab edilir. Üzərində ərəb və fars dillərində kitabə olub. Kitabəni ilk dəfə Rus tədqiqatçı N.Xanıkov rus dilinə tərcümə etmişdir. Abidə XIV əsrə aid edilir.

## Vələver piri



Ordubad rayonu Vələver kəndi ərazisində ziyarətgah. Bölgə üçün nüfuzlu olmuş İslam din xadiminin məzar üstü türbəsi. 2011-ci ildə yenidən tikilmişdir. Abidənin XVIII əsr aid olduğu güman edilir.

## Anabad hamamı



Ordubad rayonu Anabad kəndi ərazisində orta əsrlərə aid tarixi abidə. Şərq hamamlarına xas memarlıq üslubunda tikilmişdir. Hazırda demək olar ki, abidənin böyük bir hissəsi dağılmışdır.

## Anabad Baba çeşmə kəhrizi






Ordubad rayonu Anabad kəndi ərazisində qədim kəhriz yeri. 2002-ci ildə Kanada səfirliyi və Beynəlxalq Miqrasiya Təşkilatının köməkliyi ilə bərpa olunub.

## Nüsnüs Əhli-Beyt məscidi



Ordubad rayonu Nüsnüs kəndi ərazisində memarlıq abidəsi. 2011-ci ildə bir qrup kənd sakini tərəfindən inşa etdirilmişdir.

## Nüsnüs Qırxkimsənə məscidi, Qırxkimsənə piri





Ordubad rayonu Nüsnüs kəndi ərazisində orta əsrlərə aid tarixi və arxeoloji abidə. Abidə XIV əsrə aid edilir. Nüsnüs piri müasir dövrdə bölgə əhalisinin ən çox ziyarət etdiyi ziyarətgahlardan biridir. 1992-1993-cü illərdə kənd əhalisi tərəfindən təmir edilmişdir.

## Nüsnüs hamamı





Ordubad rayonu ərazisində orta əsrlərə aid tarixi-memarlıq abidəsi. Şərq hamamları memarlıq üslubunda tikilib. Hazırda baxımsızlıqdan məhv olmaq təhlükəsi qarşısındadır.

## Gənzə qəbrisitanı





Gənzə kəndinin içərisində yerləşir. Qəbiristanlıq şərq-qərb istiqamətində yönəlmiş müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin bəzilərinin üzərində kiçik oval təpəciklər, bəzilərininin ətrafında dördkünc formalı daş düzümləri vardır. Müəyyən qəbirlərdə dördkünc formalı, qaya parçalarından yonulmuş baş daşları vardır. Baş daşları üzərində ərəb əlifbası ilə kitabələr qalmışdır. Son orta əsrlərə aid keramika parçaları tapılmışdır.

## Gənzə Hacı Hüseynqulu məscidi






Ordubad rayonu Gənzə kəndində orta əsrlərə aid tarixi-memarlıq abidəsi. Gənzə kəndinin mərkəzində yerləşir. Sahəsi 322 (23 X 14) kv metrdir. XV əsrdə Hacı Hüseynqulu adlı nüfuzlu bir şəxs tərəfindən tikdirilmişdir. Kəndin əsas məscidi kimi fəaliyyət göstərir.

## Gənzə Məmmədhəsən məscidi






Ordubad rayonu Gənzə kəndində orta əsrlərə aid tarixi-memarlıq abidəsi. Vaxtilə mövcud olmuş məscid 2002-ci ildə əsaslı surətdə yenidən bərpa edilmişdir. Müasir dövrdə kənddə məhəllə məscidi kimi fəaliyyət göstərir.

## Bazar məscidi



Ordubad rayonu Dırnıs kəndi ərazisində orta əsrlərə aid tarixi-memarlıq abidəsi. Kəndin mərkəzindəki "Dırnıs meydanı", "Dırnıs bazarı" və "Dırnıs hamamı" yaxınlığında yerləşir. XX əsrin sonunda kənd əhalisi tərəfindən yenidən təmir və bərpa edilmişdir. Bu gün də kəndin əsas məscidlərindən biri kimi fəaliyyət göstərir.

## Dırnıs Böyük məscid





Kəndin yuxarı məhəlləsində, Mirzə küçəsində tarixi-memarlıq abidəsi. Böyük məscid və ya Came məscidi də adlandırılır. Hicri 1339 (1920-1921)-ci ildə təmir edilmişdir. 1999-cu ildə kənd əhalisi tərəfindən yenidən bərpa edilmişdir.

## Dırnıs (nekropolu) qəbiristanı



Ordubad rayonu Dırnıs kəndi ərazisində orta əsrlərə aid arxeoloji abidə. Kənddən şimal-şərqdə yerləşir. Dırnıs piri yaxınlığında salınmışdır. Qəbirlərin böyük əksəriyyətinin kənar daşları itmişdir. Müəyyən qrup qəbirlərdə baş daşları salamat qalmışdır. Bu baş daşları əsasən dağ daşlarında istifadə edilərək qoyulmuş, az bir hissəsi yonulmuşdur.

## Kələki məscidi



Ordubad rayonu Kələki kəndi ərazisində memarlıq abidəsi. Kəndin mərkəzində yerləşir. 2012-ci ildə Dövlət tərəfindən tikilmişdir. Kəndin əsas məscidi kimi fəaliyyət göstərir.

## Çimənək piri





Ordubad rayonu Unus kəndi ərazisində ziyarətgah. Yerli əhali burada dəfn olunanın vaxtilə nüfuzlu bir şəxs olduğunu bildirir. Ziyarətgahın həyətində ağac pir də var. Camaat nəzir edərək həmin ağaca dilək tutub, parça bağlayırlar.

## Gəlin qayası



Ordubad rayonunda Unus və Pəzməri kəndləri arasında təbiət abidəsi. Dağın yüksək hissəsində yüksələn daş insan fiquruna bənzəyir. Bu abidə xalqın mifologiyası ilə bağlıdır. Yerli əhali və bölgəyə gələn qonaqlar tərəfindən yüksək maraqla izlənilir.

## Köçəri qəbiristanı





Ordubad rayonu Məzrə kəndindən şərqdə orta əsrlərə aid arxeoloji abidə. Təpənin yamacında yerləşir. Qəbirlər əsasən dağ daşlarından qurulmuşdur. Qəbirlərin əksəriy-yətinin yerüstü əlaməti itmişdir. Qəbirlərin üzərində sənduqə tipli qəbir daşları və qoç heykəlləri olmuşdur. Sənduqələrin üzərində ərəb əlifbası ilə kitabələr vardır. Bundan əlavə qəbiristanlıq ərazisində dağ daşlarından içərisi yonulmuş vanna tipli daşlar da olmuşdur. Çox təəssüf ki, qoç heykəllərin demək olar ki, hamısı dağıdılmışdır. Yerüstü material kimi şirli və şirsiz keramika parçaları tapılmışdır.

## Köçəri yaşayış yeri (yurd yeri)



Ordubad rayonu Məzrə kəndindən şərqdə, Köçəri qəbiristanlığı yaxınlığında orta əsrlərə aid arxeoloji abidə. Burada dairəvi və dördkünc formalı yaşayış evi və dəyə yerlərinin qalıqları aşkar edilmişdir.

## Məzrə məscidi





Odubad rayonu Məzrə kəndində son orta əsrlərə aid tarixi abidə. XX əsrin sonlarında kənd əhalisi tərəfindən yenidən bərpa edilmişdir. Məscidin həyətində olan Çinar agacına görə məscid "Çinar piri" adlandırılır. Kəndin əsas məscidi kimi fəaliyyət göstərir.

## Gilaslı dərə yaşayış yeri, nekropolu



Ordubad rayonu Məzrə kəndindən şərqdə orta əsrlərə aid arxeoloji abidə. Məzrə pirinə gedən yolun sağ tərəfində yerləşir. Yaşayış yeri təpənin ətəyindədir. Evlər dördkünc formalı olub, qaya parçalarından tikilmişdir. Evlərə girişlər əsasən cənub tərəfdən olmuşdur. Yaşayış yerinin yaxınlığında nekropol yerləşir. Gilaslı dərədən tapılan keramika nümunələrinə əsasən abidə XI-XVIII əsrlərə aid edilir. Fikrimizcə abidədə arxeoloji qazıntılar aparılarsa daha qədim dövrə aid materiallar tapıla bilər.

## Babək qalası



Ordubad rayonu ərazisində Biləv kəndi yaxınlığında orta əsrlərə aid arxeoloji abidə. Rəvayətə görə xalq qəhrəmanı Babək bu qalaya sığındığından qala qəhrəmanın adı ilə belə adlandırılmışdır. Babək qalası əlverişli coğrafi mövqedə, hündür təpənin üzərində tikilmişdir. Yonulmuş daşlardan inşa edilmiş qalada dairəvi və dördkünc formada bina qalıqları tikilmişdir. Evlərin salamat qalmış divarlarının hündürlüyü 1 m-ə yaxındır. Yaşayış yeri ərazisində daha qədim dövrə aid də arxeoloji materiallar əldə edilmişdir. Babək qalası öz əzəməti, gözəlliyi və qədimliyi ilə bu gün də bölgə əhalisinin və qonaqların əsas diqqət mərkəzində olan abidələrdən biridir.

## Behrud Qrek qəbiristanı



Ordubad rayonu Behrud kəndi ərazisində arxeoloji abidə. Kəndin şərqində, təpənin yamacında, kənd qəbiristanlığı yaxınlığında yerləşir. Qəbirüstü daşlar əsasən iri yonulmuş çay daşlarından ibarətdir. Yerli əhali nekropola "Qrek qəbiristanlığı" deyir. Azərbaycanın bəzi bölgələrində də "Qrek qəbirstanlığı" kimi adlandırılan nekropollar mövcuddur. Behrud "Qrek qəbiristanlığı" haqqında da əlavə tədqiqata ehtiyac var.

## Behrud məscidi





Ordubad rayonu Behrud kəndində son orta əsrlərə aid tarixi abidə. XX əsrin sonlarında kənd əhalisi tərəfindən təmir edilib. Bu gün də kəndin əsas məscidi kimi fəaliyyət göstərir.

## Biləv nekropolu I





Ordubad rayonu Biləv kəndindən şərqdə orta əsrlərə aid arxeoloji abidə. Qəbiristanlıqda çoxlu sayda daş qoç heykəlləri və sənduqələr olmuşdur. Bu gün onların böyük əksəriyyəti dağıdılmışdır. Biləv kəndində bir neçə nekropol mövcud olub. Kənd əhalisi arasında bu nekropola "böyük qəbiristanlıq" da deyilir.

## Biləv körpüsü



Ordubad rayonu Biləv kəndi ərazisində orta əsrlərə aid tarixi-memarlıq abidəsi. Gilançay üzərində inşa olunan bu körpünün müəyyən hissəsi dağılmışdır. Körpünün uzunluğu 55, eni isə 3,5 metrdir. Körpü əsasən iri ölçülü çay və qaya daşlarından hörülmüş, yonulmuş daşlarla üzlənmişdir. Körpünün XVIII əsrdə tikildiyi ehtimal edilir. Gözəl memarlıq abidəsi olan Biləv körpüsü bu gün məhv olmaq təhlükəsi ilə üz-üzədir.

## Biləv İmam Hüseyn məscidi





Ordubad rayonu Biləv kəndi ərazisində tarixi abidə. Müstəqillik əldə edildikdən sonra kənd ziyalısı Fariz Əmirov tərəfindən yenidən bərpa etdirilib. Hazırda kənd məscidi kimi fəaliyyət göstərir. Əhali arasında “Böyük məscid” kimi də adlandırılır.

## Biləv İmam Həsən məscidi





Ordubad rayonu Biləv kəndi ərazisində tarixi məscid. Sovet hakimiyyəti dövründə anbar kimi istifadə edilib. Bu gün məscidin təmirə və əsaslı bərpaya ehtiyacı var.

## Biləv Şıx (Şeyx) piri nekropolu





Biləv kəndi ərazisində orta əsrlərə aid arxeoloji abidə. Qəbirlərin ətrafı dördkünc, bəzən isə dairəvi formada daş düzümləri ilə əhatə olunmuşdur. Qəbirlərin üzərində daş qoçlar və sənduqələr olmuşdur. Çox təəssüf ki, daş qoçların hamısı dağıdılmışdır.

## Biləv qalası



Ordubad rayonu Biləv kəndi ərazisində "Taxtır" adlı təpənin üzərində arxeoloji abidə. Qala divarlarının yalnız müəyyən hissəsi salamat qalmışdır. Qədim tikilinin içəri hissəsində dördkünc formalı bina qalıqlarını izləmək mümkündür. Qala uzun müddət düşmən hücumlarından müdafiə olunmaq üçün istifadə edilmişdir. Abidə VII-X əsrlərə aid edilir.

*Şamil Nadir oğlu NƏCƏFOV*

# Qazax və Ağstafa rayonlarının arxeoloji, tarixi və memarlıq abidələrinin elektron qeydiyyatı və xəritələşdirilməsi

AĞSTAFA və QAZAX RAYONLARININ ARXEOLOJİ, TARİXİ - MEMARLIQ ABİDƏLƏRİNİN XƏRİTƏSİ




MİQYAS 1: 50 000

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir - Qrant № EİF/GAM-1-2011-2(4)-26/22/5

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| Sıra sayı | Abidənin adı | Koordinatları | | | Dövrü |
| 1 | Ağstafaçay kurqanı | 41° 05' 40.3" N | 045° 21' 04.9" E | 366 m | Tunc dövrü |
| 2 | Seminariya binası | 41° 05' 36.2" N | 045° 21' 34.9" E | 384 m | XIX əsr |
| 3 | İsrafil Ağa hamamı | 41° 05' 35.4" N | 045° 21' 36.1" E | 385 m | XIX əsr |
| 4 | Məscid | 41° 05' 34.7" N | 045° 21' 37.3" E | 386 m | XIX əsr |
| 5 | Türbə | 41° 05' 34.4" N | 045° 21' 37.8" E | 387 m | XIX əsr |
| 6 | Tarix-Diyarşünaslıq Muzeyinin binası | 41° 05' 24.1" N | 045° 21' 33.7" E | 387 m | XIX əsr |
| 7 | Vaqif və Vidadinin heykəli | 41° 05' 32.1" N | 045° 21' 39.4" E | 387 m | XX əsr |
| 8 | Şəhər bağı | 41° 05' 29.2" N | 045° 21' 42.3" E | 387 m | XII əsr |
| 9 | Yaşayış evi (Ağ ev I) | 41° 05' 29.4" N | 045° 21' 45.5" E | 388 m | XIX əsr |
| 10 | Yaşayış evi (Ağ ev II) | 41° 05' 29.3" N | 045° 21' 46.1" E | 386 m | XIX əsr |
| 11 | Səməd Vurğunun heykəli | 41° 05 48.7" N | 045° 22' 35.8" E | 377 m | XX əsr |
| 12 | Dədə Qorqud kompleksi | 41° 05' 52.5" N | 045° 22' 50.3" E | 373 m | XX əsr |
| 13 | Qəbiristanlıq | 41° 05' 11.5" N | 045° 23' 08.3" E | 420 m | XVIII-XIX əsrlər |
| 14 | Tahir körpüsü (Daş Salahlı) | 41° 08' 46.2" N | 045° 16' 52.3" E | 411 m | XIX əsr |
| 15 | I Yaşayış yeri | 41° 08' 07.8" N | 045° 14' 51.6" E | 490 m | Tunc dövrü |
| 16 | II Yaşayış yeri | 41° 08' 02.5" N | 045° 14' 46.4" E | 499 m | Tunc dövrü |
| 17 | Kurqan | 41° 08' 02.9" N | 045° 14' 44.1" E | 499 m | Tunc dövrü |
| 18 | Avey yaşayış yeri | 41° 07' 45.8" N | 045° 14' 30.8" E | 504 m | Eneolit-tunc dövrü |
| 19 | Daş Salahlı qəbiristanlığı | 41° 07' 51.2" N | 045° 14' 31.9" E | 505 m | XVII-XX əsrlər |
| 20 | Su hovusu | 41° 08' 04.5" N | 045° 14' 39.4" E | 509 m | Tunc dövrü |
| 21 | Sənduqələr (Daş Salahlı qəbiristanlığı) | 41° 07' 58.4" N | 045° 14' 32.8" E | 518 m | XVII-XVIII əsrlər |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| 22 | Qaya kasavari yalaq | 41° 08' 02.9" N | 045° 14' 33.7" E | 515 m | Orta əsrlər |
| 23 | I Dəlləkli kurqanı | 41° 08' 45.0" N | 045° 15' 04.9" E | 474 m | Tunc dövrü |
| 24 | II Dəlləkli kurqanı | 41° 08' 47.8" N | 045° 15' 05.7" E | 472 m | Tunc dövrü |
| 25 | III Dəlləkli kurqanı | 41° 08' 46.7" N | 045° 15' 03.9" E | 475 m | Tunc dövrü |
| 26 | IV Dəlləkli kurqanı | 41° 08' 49.9" N | 045° 15' 05.5" E | 464 m | Tunc dövrü |
| 27 | V Dəlləkli kurqanı | 41° 08' 45.8" N | 045° 14' 59.6" E | 482 m | Tunc dövrü |
| 28 | VI Dəlləkli kurqanı | 41° 08' 45.4" N | 045° 14' 57.7" E | 484 m | Tunc dövrü |
| 29 | Qalaça yeri | 41° 07' 40.2" N | 045° 14' 14.9" E | 512 m | Tunc dövrü |
| 30 | Çoban Qurbanoğlu kurqanı | 41° 08' 53.6" N | 045° 15' 05.2" E | 472 m | Tunc dövrü |
| 31 | I Mərdanlı Damyeri kurqanı | 41° 08' 45.8" N | 045° 14' 57.8" E | 485 m | Tunc dövrü |
| 32 | II Mərdanlı Damyeri kurqanı | 41° 08' 54.2" N | 045° 15' 05.3" E | 472 m | Tunc dövrü |
| 33 | III Mərdanlı Damyeri kurqanı | 41° 08' 46.6" N | 045° 14' 57.9" E | 484 m | Tunc dövrü |
| 34 | I Ağdərə kurqanı | 41° 08' 45.1" N | 045° 14' 56.5" E | 487 m | Tunc dövrü |
| 35 | II Ağdərə kurqanı | 41° 08' 44.3" N | 045° 14' 55.7" E | 489 m | Tunc dövrü |
| 36 | I Yovşanlıtəpə kurqanı | 41° 08' 55.5" N | 045° 15' 05.9" E | 471 m | Tunc dövrü |
| 37 | II Yovşanlıtəpə kurqanı | 41° 08' 54.4" N | 045° 15' 04.8" E | 473 m | Tunc dövrü |
| 38 | III Yovşanlıtəpə kurqanı | 41° 08' 45.5" N | 045° 14' 56.6" E | 486 m | Tunc dövrü |
| 39 | IV Yovşanlıtəpə kurqanı | 41° 08' 46.2" N | 045° 14' 56.9" E | 486 m | Tunc dövrü |
| 40 | V Yovşanlıtəpə kurqanı | 41° 08' 44.3" N | 045° 14' 54.5" E | 491 m | Tunc dövrü |
| 41 | VI Yovşanlıtəpə kurqanı | 41° 08' 47.3" N | 045° 14' 56.9" E | 486 m | Tunc dövrü |
| 42 | VII Yovşanlıtəpə kurqanı | 41° 08' 44.4" N | 045° 14' 53.7" E | 492 m | Tunc dövrü |
| 43 | VIII Yovşanlıtəpə kurqanı | 41° 08' 56.3" N | 045° 15' 02.3" E | 476 m | Tunc dövrü |
| 44 | Rza Çal yaşayış yeri | 41° 08' 33.3" N | 045° 14' 38.8" E | 506 m | Son tunc-ilk dəmir dövrü |
| 45 | Xal-xal şəhər yeri | 41° 07' 36.7" N | 045° 13' 55.3" E | 549 m | Antik dövr və ilk orta əsrlər |
| 46 | Ovdan | 41° 11' 20.3" N | 045° 19' 37.9" E | 315 m | Orta əsrlər |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 47 | Məmməd Koxa bulağı | 41° 08' 37.2" N | 045° 14' 14.0" E | 547 m | Son orta əsrlər |
| 48 | I Şıxlı yaşayış yeri | 41° 17' 36.9" N | 045° 08' 19.4" E | 287 m | Eneolit-tunc dövrü |
| 49 | I Şıxlı qəbiristanlığı | 41° 17' 05.7" N | 045° 09' 01.3" E | 287 m | XVIII-XIX əsrlər |
| 50 | Vidadinin heykəli | 41° 17' 01.5" N | 045° 10' 15.2" E | 268 m | XX əsr |
| 51 | Əyritəpə yaşayış yeri | 41° 15' 28.1" N | 045° 14' 09.6" E | 250 m | Tunc dövrü |
| 52 | Kəmərli qəbiristanlığı | 41° 14' 21.1" N | 045° 15' 41.0" E | 251 m | XVIII-XIX əsrlər |
| 53 | Qırmızı körpü | 41° 19' 56.6" N | 045° 05' 32.5" E | 292 m | Son orta əsrlər |
| 54 | Səməd Vurğunun poeziya evi | 41° 14' 20.8" N | 045° 15' 52.5" E | 250 m | XX əsr |
| 55 | Narınqala | 41° 07' 40.1" N | 045° 13' 34.9" E | 557 m | Antik dövr və ilk orta əsrlər |
| 56 | Damcılı mağarası | 41° 08' 29.9" N | 045° 13' 55.9" E | 645 m | Paleolit dövrü |
| 57 | Damcılı bulağı | 41° 08' 28.2" N | 045° 13' 57.2" E | 600 m | Antik dövr və ilk orta əsrlər |
| 58 | Koroğlu məbədi | 41° 08' 40.6" N | 045° 14' 14.4" E | 570 m | Paleolit dövrü |
| 59 | Rus pravoslav kilsəsi | 41° 05' 20.3" N | 045° 21' 55.2" E | 380 m | XIX əsr |
| 60 | Aşağı Salahlı kurqanı | 41° 12' 31.2" N | 045° 20' 26.2" E | 282 m | Tunc dövrü |
| 61 | Çınqıltəpə yaşayış yeri | 41° 16' 21.8" N | 045° 21' 54.7" E | 245 m | Son tunc-ilk dəmir dövrü |
| 62 | Boztəpə yaşayış yeri | 41° 09' 08.7" N | 045° 16' 49.1" E | 394 m | Son tunc-ilk dəmir dövrü |
| 63 | Daşlı Çökək kurqanı | 41° 08' 45.1" N | 045° 14' 56.0" E | 487 m | Tunc dövrü |
| 64 | Yuxarı Salahlı qəbiristanlığı | 41° 13' 51.9" N | 045° 16' 43.4" E | 245 m | XVIII-XIX əsrlər |
| 65 | Süni mağara (Avey dağı) | 41° 08' 37.5" N | 045° 14' 13.5" E | 548 m | Paleolit dövrü |
| 66 | Qiyaməttəpə yaşayış yeri | 41° 06' 12.3" N | 045° 20' 25.8" E | 398 m | Eneolit dövrü |
| 67 | Qanlı Toyrə yaşayış yeri | 41° 08' 11.5" N | 045° 20' 16.1" E | 363 m | Eneolit-tunc dövrü |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 68 | İncəsu yaşayış yeri | 41° 15' 43.8" N | 045° 13' 29.5" E | 268 m | Eneolit-tunc dövrü |
| 69 | Yaşayış yeri | 41° 14' 40.4" N | 045° 11' 27.6" E | 251 m | Eneolit-tunc dövrü |
| 70 | I Musaköy yaşayış yeri | 41° 05' 57.2" N | 045° 19' 09.2" E | 421 m | Eneolit-tunc dövrü |
| 71 | Ocaqtəpə yaşayış yeri | 41° 07' 36.9" N | 045° 20' 42.0" E | 370 m | Eneolit-tunc dövrü |
| 72 | Yaşayış yeri | 41° 06' 06.7" N | 045° 19' 12.9" E | 443 m | Tunc dövrü |
| 73 | I Göl yeri kurqanı | 41° 09' 25.6" N | 045° 18' 09.0" E | 371 m | Tunc dövrü |
| 74 | II Göl yeri kurqanı | 41° 09' 26.0" N | 045° 18' 08.5" E | 370 m | Tunc dövrü |
| 75 | I Cogazçay kurqanı | 41° 05' 53.6" N | 045° 19' 03.7" E | 416 m | Tunc dövrü |
| 76 | II Coğazçay kurqanı | 41° 05' 51.1" N | 045° 19' 02.6" E | 417 m | Tunc dövrü |
| 77 | III Coğazçay kurqanı | 41° 05' 57.0" N | 045° 19' 03.8" E | 414 m | Tunc dövrü |
| 78 | Qazaxbəyli təpəsi | 41° 09' 48.5" N | 045° 18' 35.3" E | 351 m | Tunc dövrü |
| 79 | Yaşayış yeri | 41° 08' 24.2" N | 045° 19' 23.0" E | 380 m | Tunc dövrü |
| 80 | Daş Salahlı yaşayış yeri | 41° 09' 10.6" N | 045° 18' 02.4" E | 376 m | Tunc dövrü |
| 81 | I Böyüktəpə yaşayış yeri | 41° 09' 03.6" N | 045° 18' 14.7" E | 382 m | Tunc dövrü |
| 82 | II Böyüktəpə yaşayış yeri | 41° 08' 54.6" N | 045° 17' 59.5" E | 388 m | Tunc dövrü |
| 83 | Kiçiktəpə yaşayış yeri | 41° 09' 02.4" N | 045° 18' 02.2" E | 381 m | Tunc dövrü |
| 84 | I Novruzlutəpə yaşayış yeri | 41° 08' 48.3" N | 045° 17' 59.7" E | 388 m | Son tunc-ilk dəmir dövrü |
| 85 | II Novruzlutəpə yaşayış yeri | 41° 08' 48.2" N | 045° 17' 59.7" E | 388 m | Son tunc-ilk dəmir dövrü |
| 86 | I Göl yeri yaşayış məskəni | 41° 09' 20.9" N | 045° 18' 05.6" E | 377 m | Son tunc-ilk dəmir dövrü |
| 87 | II Göl yeri yaşayış məskəni | 41° 09' 27.1" N | 045° 18' 10.6" E | 371 m | Son tunc-ilk dəmir dövrü |
| 88 | III Göl yeri yaşayış məskəni | 41° 09' 29.9" N | 045° 18' 13.9" E | 371 m | Son tunc-ilk dəmir dövrü |
| 89 | IV Göl yeri yaşayış məskəni | 41° 09' 33.3" N | 045° 18' 18.3" E | 369 m | Son tunc-ilk dəmir dövrü |
| 90 | Rustəpə (Sarvantəpə) yaşayış yeri | 41° 06' 26.6" N | 045° 19' 21.7" E | 408 m | Son tunc-ilk dəmir dövrü |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| 91 | Sarıtəpə yaşayış yeri | 41° 06' 21.9" N | 045° 20' 39.8" E | 395 m | Son tunc-ilk dəmir dövrü |
| 92 | Didivan qalası | 41° 02' 51.1" N | 045° 16' 41.6" E | 569 m | VI-VII əsrlər |
| 93 | Didivan yaşayış yeri | 41° 02' 50.3" N | 045° 16' 40.8" E | 555 m | V-VIII əsrlər |
| 94 | Göyəzən qalası | 41° 05' 18.8" N | 045° 11' 06.4" E | 701 m | XIV əsr |
| 95 | Göyəzən yaşayış yeri | 41° 05' 18.5" N | 045° 11' 05.6" E | 712 m | XII-XVII əsrlər |
| 96 | Qarabulaq yaşayış yeri | 41° 08' 43.3" N | 045° 17' 59.6" E | 531 m | Orta əsrlər |
| 97 | Canalı qəbiristanlığı | 41° 07' 15.8" N | 045° 20' 31.0" E | 361 m | Son orta əsrlər |
| 98 | I Qazaxbəyli qəbiristanlığı | 41° 08' 10.5" N | 045° 19' 31.7" E | 377 m | Son orta əsrlər |
| 99 | II Qazaxbəyli qəbiristanlığı | 41° 13' 25.0" N | 045° 17' 32.3" E | 261 m | Son orta əsrlər |
| 100 | Daş Salahlı kurqanı | 41° 07' 33.7" N | 045° 15' 49.1" E | 429 m | Son tunc-ilk dəmir dövrü |
| 101 | Yastıtəpə yaşayış yeri | 41° 06' 53.7" N | 045° 26' 03.1" E | 340 m | Son tunc-ilk dəmir dövrü |
| 102 | Darağza yaşayış yeri | 41° 06' 41.8" N | 045° 25' 02.1" E | 337 m | Eneolit-tunc dövrü |
| 103 | Taytəpə yaşayış yeri | 41° 06' 31.1" N | 045° 18' 01.8" E | 425 m | Son tunc-ilk dəmir dövrü |
| 104 | Çaxmaqlıtəpə yaşayış yeri | 41° 06' 23.4" N | 045° 17' 48.2" E | 448 m | Eneolit, tunc-dəmir dövrləri |
| 105 | Böyüktəpə yaşayış yeri | 41° 06' 27.1" N | 045° 17' 57.6" E | 432 m | Tunc və dəmir dövrləri |
| 106 | I Türbə | 41° 04' 26.6" N | 045° 17' 37.8" E | 427 m | XVIII-XIX əsrlər |
| 107 | II Türbə | 41° 04' 26.4" N | 045° 17' 36.6" E | 427 m | XVIII-XIX əsrlər |
| 108 | III Türbə | 41° 04' 26.3" N | 045° 17' 36.3" E | 427 m | XVIII-XIX əsrlər |
| 109 | IV Türbə | 41° 04' 21.2" N | 045° 17' 31.1" E | 426 m | XVIII-XIX əsrlər |
| 110 | I Babadərviş yaşayış yeri | 41° 04' 26.4" N | 045° 17' 36.7" E | 427 m | Tunc dövrü |
| 111 | II Babadərviş yaşayış yeri | 41° 04' 23.6" N | 045° 17' 31.9" E | 434 m | Tunc dövrü |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 112 | III Babadərviş yaşayış yeri | 41° 04' 32.4" N | 045° 17' 59.8" E | 425 m | Tunc dövrü |
| 113 | Məscid | 41° 04' 34.0" N | 045° 18' 07.7" E | 417 m | XVIII-XIX əsrlər |
| 114 | Daş körpü | 41° 04' 20.1" N | 045° 17' 48.6" E | 406 m | XVIII-XIX əsrlər |
| 115 | I Xanlıqlar yaşayış yeri | 41° 04' 12.7" N | 045° 17' 01.0" E | 444 m | Tunc və dəmir dövrləri |
| 116 | II Xanlıqlar yaşayış yeri | 41° 04' 01.2" N | 045° 16' 55.1" N | 441 m | Tunc və dəmir dövrləri |
| 117 | Babadərviş müsəl-man qəbiristanlığı | 41° 04' 23.7" N | 045° 17' 31.9" N | 428 m | XVIII-XIX əsrlər |
| 118 | Qurban Çalı gözətçi məntəqəsi | 41° 05' 20.4" N | 045° 15' 22.3" N | 546 m | Son orta əsrlər |
| 119 | I Ürkməzli təpəsi yaşayış yeri | 41° 05' 58.3" N | 045° 15' 27.1" N | 491 m | Tunc, antik, ilk orta əsrlər |
| 120 | II Ürkməzli təpəsi yaşayış yeri | 41° 05' 56.7" N | 045° 15' 33.2" N | 491 m | Tunc, antik, ilk orta əsrlər |
| 121 | I Alpout yaşayış yeri | 41° 05' 54.3" N | 045° 14' 53.7" N | 511 m | Antik dövr və ilk orta əsrlər |
| 122 | II Alpout yaşayış yeri | 41° 05' 57.8" N | 045° 15' 04.3" N | 503 m | İlk orta əsrlər |
| 123 | Yaşayış yeri (I) | 41° 06' 08.6" N | 045° 14' 38.3" N | 510 m | Tunc və dəmir dövrləri |
| 124 | Yaşayış yeri (II) | 41° 06' 11.6" N | 045° 14' 46.2" N | 506 m | Tunc və dəmir dövrləri |
| 125 | Yaşayış yeri (III) | 41° 06' 15.6" N | 045° 14' 49.0" N | 505 m | Tunc və dəmir dövrləri |
| 126 | Yaşayış yeri (IV) | 41° 06' 14.7" N | 045° 14' 58.8" N | 502 m | Tunc və dəmir dövrləri |
| 127 | Yaşayış yeri (V) | 41° 06' 29.6" N | 045° 15' 01.4" N | 493 m | Tunc və də-mir dövrləri |
| 128 | Kurqan I | 41° 06' 27.2" N | 045° 14' 35.7" N | 513 m | Tunc dövrü |
| 129 | Kurqan II | 41° 06' 26.8" N | 045° 14' 31.1" N | 516 m | Tunc dövrü |
| 130 | Qəbiristanlıq | 41° 06' 36.7" N | 045° 14' 59.3" N | 490 m | XVIII-XIX əsrlər |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| 131 | Təzətəpə yaşayış yeri | 41° 06' 39.8" N | 045° 16' 49.9" N | 452 m | Orta əsrlər |
| 132 | Coğaz-Alpout yaşayış yeri | 41° 04' 56.3" N | 045° 12' 47.4" N | 530 m | Orta əsrlər |
| 133 | Abbasbəyli qəbiristanlığı | 41° 04' 56.7" N | 045° 12' 17.9" N | 553 m | XVIII-XIX əsrlər |
| 134 | Məqbərə-türbə | 41° 04' 56.5" N | 045° 12' 17.0" N | 553 m | XIX əsr |
| 135 | Gavur qəbiristanlığı | 41° 04' 59.0" N | 045° 12' 42.7" N | 532 m | XIX-XX əsrlər |
| 136 | Alpout qəbiristanlığı | 41° 05' 50.8" N | 045° 14' 46.0" N | 512 m | XVIII-XIX əsrlər |
| 137 | Qəbiristanlıq | 41° 05' 10.5" N | 045° 13' 13.7" N | 527 m | XVIII-XX əsrlər |
| 138 | Eyyub Ağa məscidi | 41° 05' 50.0" N | 045° 23' 45.7" E | 377 m | XIX-XX əsrlər |
| 139 | Mülk | 41° 05' 38.8" N | 045° 23' 48.2" E | 388 m | XIX əsr |
| 140 | Arançıtəpə yaşayış yeri | 41° 05' 47.9" N | 045° 24' 54.2" E | 386 m | Son tunc-ilk dəmir dövrü |
| 141 | Yaşayış evi | 41° 06' 32.6" N | 045° 24' 53.1" E | 354 m | XIX-XX əsrlər |
| 142 | Yaşayış yeri | 41° 06' 32.3" N | 045° 24' 54.1" E | 354 m | Son tunc-ilk dəmir dövrü |
| 143 | Ağalıqtəpə yaşayış yeri | 41° 06' 37.9" N | 045° 24' 58.7" E | 353 m | Son tunc-ilk dəmir dövrü |
| 144 | Alatəpə yaşayış yeri | 41° 15' 30.5" N | 045° 23' 54.8" E | 231 m | Eneolit-tunc dövrləri |
| 145 | Saloğlu yaşayış yeri | 41° 16' 01.9" N | 045° 22' 22.3" E | 230 m | Orta əsrlər dövrü |
| 146 | Tək məzar | 41° 15' 56.3" N | 045° 22' 36.3" E | 228 m | XX əsr |
| 147 | Arzamastəpə yaşayış yeri | 41° 05' 41.6" N | 045° 28' 04.5" E | 361 m | Neolit dövrü |
| 148 | I Şomutəpə yaşayışş yeri | 41° 06' 34.5" N | 045° 27' 35.7" E | 342 m | Neolit dövrü |
| 149 | Boztəpə yaşayış yeri | 41° 09' 08.7" N | 045°16' 49.1" E | 394 m | Tunc dövrü |
| 150 | Cantəpə yaşayış yeri | 41° 07' 27.1" N | 045° 26' 51.0" E | 329 m | Tunc dövrü |
| 151 | Vəkilovlar bağı | 41° 06' 54.0" N | 045° 26' 54.5" E | 340 m | XX əsrin əvvəlləri |
| 152 | Hüseyn Arifin ev muzeyi | 41° 06' 30.5" N | 045° 26' 41.1" E | 349 m | XX əsr |

| *1* | *2* | *3* | | | *4* |
|---|---|---|---|---|---|
| 153 | Hüseynli yaşayış yeri | 41° 14' 57.3" N | 045° 25' 29.8" E | 209 m | Son orta əsrlər dövrü |
| 154 | Kəhriz | 41° 05' 31.4" N | 045° 28' 16.8" E | 363 m | XVIII əsr |
| 155 | Talayeri yaşayış yeri | 41° 13' 57.7" N | 045° 26' 22.5" E | 214 m | Tunc dövrü |
| 156 | Zeynallı yaşayış yeri | 41° 13' 13.7" N | 045° 26' 35.7" E | 223 m | Orta əsrlər dövrü |
| 157 | Poylu qəbiristanlığı | 41° 12' 19.6" N | 045° 26' 51.1" E | 256 m | XVIII-XX əsrlər |
| 158 | I Türbə (Poylu qəbiristanlığı) | 41° 12' 17.1" N | 045° 26' 49.9" E | 259 m | XIX əsr |
| 159 | II Türbə (Poylu qəbiristanlığı) | 41° 12' 17.4" N | 045° 26' 51.4" E | 263 m | XIX əsr |
| 160 | III Türbə (Poylu qəbristlığı) | 41° 12' 21.7" N | 045° 26' 48.9" E | 251 m | XIX əsr |
| 161 | I Sənduqə | 41° 12' 12.6" N | 045° 26' 47.8" E | 263 m | XIX əsr |
| 162 | II Sənduqə | 41° 12' 13.1" N | 045° 26' 47.6" E | 262 m | XIX əsr |
| 163 | III Sənduqə | 41° 12' 18.7" N | 045° 26' 51.4" E | 260 m | XIX əsr |
| 164 | IV Sənduqə | 41° 12' 20.1" N | 045° 26' 49.0" E | 255 m | XIX əsr |
| 165 | V Sənduqə | 41° 12' 20.2" N | 045° 26' 49.2" E | 253 m | XIX əsr |
| 166 | Bozanay yaşayış yeri | 41° 11' 42.2" N | 045° 27' 02.4" E | 286 m | Antik və ilk orta əsrlər |
| 167 | Canbaztəpə yaşayış yeri | 41° 10' 49.8" N | 045° 27' 04.9" E | 306 m | Tunc dövrü |
| 168 | Yovşanlıtəpə yaşayış yeri | 41° 12' 27.9" N | 045° 27' 34.8" E | 239 m | Tunc dövrü |
| 169 | Qıraq Kəsəmən qəbiristanlığı | 41° 12' 24.8" N | 045° 27' 38.8" E | 242 m | XVIII-XX əsrlər |
| 170 | I Qıraq Kəsəmən türbəsi | 41° 12' 26.8" N | 045° 27' 30.7" E | 252 m | XIX əsr |
| 171 | Qıraq Kəsəmən yaşayış yeri | 41° 13' 09.5" N | 045° 27' 54.3" E | 211 m | Antik və ilk orta əsrlər |
| 172 | Ağtəpə yaşayış yeri | 41° 07' 13.7" N | 045° 29' 29.3" E | 341 m | Son tunc-antik dövrlər |
| 173 | Maraltəpə yaşayış yeri | 41° 07' 58.3" N | 045° 29' 44.3" E | 329 m | Son tunc-antik dövrlər |
| 174 | Köhnə dəyirman | 41° 05' 02.7" N | 045° 29' 25.3" E | 377 m | XVIII əsr |
| 175 | Hasarlıtəpə yaşayış yeri | 41° 08' 41.2" N | 045° 30' 26.8" E | 318 m | Son tunc-ilk dəmir dövrü |
| 176 | Nadirbəytəpəsi | 41° 06' 14.5" N | 045° 30' 17.7" E | 344 m | Son tunc-ilk |

| 1 | 2 | 3 | | | 4 |
|---|---|---|---|---|---|
| | yaşayış yeri | | | | dəmir dövrü |
| 177 | II Şomutəpə yaşayış yeri | 41° 08' 59.7'' N | 045° 30' 57.2'' E | 312 m | Tunc-dəmir dövrləri |
| 178 | Yaşayış yeri | 41° 06' 04.4'' N | 045° 30' 58.4'' E | 348 m | Orta əsrlər dövrü |
| 179 | Kurqan | 41° 06' 21.1'' N | 045° 31' 31.3'' E | 337 m | Tunc dövrü |
| 180 | Qarğalartəpəsi yaşayış yeri | 41° 06' 23.4'' N | 045° 31' 34.7'' E | 346 m | Neolit dövrü |
| 181 | Hasarlıqala yaşayış yeri | 41° 03' 38.8'' N | 045° 31' 04.5'' E | 407 m | Son tunc-ilk dəmir dövrü |
| 182 | Tatlı bulağı | 41° 03' 36.5'' N | 045° 31' 08.9'' E | 408 m | XIX əsr |
| 183 | Yaşayış yeri | 41° 05' 14.3'' N | 045° 31' 51.6'' E | 357 m | Son orta əsrlər dövrü |
| 184 | Alçaqtəpə yaşayış yeri | 41° 03' 27.7'' N | 045° 32' 09.9'' E | 401 m | Tunc dövrü |
| 185 | Molla Nağı təpəsi yaşayış yeri | 41° 04' 00.2'' N | 045° 32' 47.3'' E | 368 m | Neolit-eneolit dövrləri |
| 186 | Körpü-keçid | 41° 03' 15.4'' N | 045° 32' 40.9'' E | 393 m | XIX əsr |
| 187 | Böyüktəpə yaşayış yeri | 41° 03' 24.8'' N | 045° 32' 50.2'' E | 388 m | Tunc dövrü |
| 188 | Durnatəpə yaşayış yeri | 41° 03' 20.9'' N | 045° 32' 47.5'' E | 387 m | Tunc dövrü |
| 189 | Yaşayış yeri | 41° 03' 46.3'' N | 045° 33' 03.3'' E | 368 m | Tunc dövrü |
| 190 | Kurqan | 41° 02' 59.7'' N | 045° 34' 13.1'' E | 385 m | Tunc dövrü |
| 191 | Yaşayış yeri | 41° 03' 45.7'' N | 045° 33' 09.2'' E | 366 m | Tunc dövrü |
| 192 | Aranzəmin yaşayış yeri | 41° 08' 55.8'' N | 045° 27' 17.9'' E | 301 m | Tunc dövrü |

Azərbaycan Respublikası Prezidenti yanında EİF çərçivəsində həyata keçirilən layihənin nəzərdə tutulmuş çöl işləri üzrə ezamiyyəsi zamanı Qazax və Ağstafa rayonlarının xeyli arxeoloji, tarixi və memarlıq abidələri qeydiyyata alınmış və koordinatlaşdırılmışdır. Bu abidələrin çox az bir qismi indiyədək məlum olan abidələr idi. Əksəriyyət abidələr isə tamamilə yeni qeydə alınmış və koordinatlaşdırılan abidələrdir. Mümkün dərəcədə abidələrin plan quruluşuna nəzər salınaraq onlar haqqında dolğun informasiya əldə edilmişdir. Mühüm əhəmiyyət kəsb edən abidələr əhəmiyyət dərəcəsinə görə seçilir. Abidələrin bəziləri isə artıq dağılmaq təhlükəsi ilə üz-üzədir ki, bunlar haqqında da artıq həyəcan təbili çalınmalıdır. Abidələrin qeydiyyata alınması ilə paralel olaraq yerli bələdiyyə başçılarının və abidələrə yaxın olan torpaq sahiblərinin bəziləri ilə də görüşlər keçirilmiş və onlar ətraflı şəkildə bu barədə məlumatlandırılımışdırlar.

Qeyd edək ki, Qazax və Ağstafa rayonlarının hər ikisi Ermənistan ilə həmsərhəddir və təmas xəttinə yaxın olan hər iki rayonun, xüsusilə də Qazax rayonunun kəndlərinin bəzilərində atəşkəs hər gün bir-neçə dəfə pozulur. Abidələrin qeydiyyata alınması zamanı da bu çətinlik bizim işimizin sürətlə və fasiləsiz aparılmasına xeyli maneə oldu. Hətta bəzi abidələrin təmas xəttinə çox yaxın olması həmin abidələrin JPS koordinatlarının götürülməsinə imkan vermədi. Konkret desək cəbhə bölgəsi sayıldığına görə hərbçilər bizi bu sahələrə buraxmadılar. Qazax rayonundakı Avey Alban məbədi, Kəmərlidəki Alban məbədi, Köçəsgərdəki Atəşpərəstlər daxması, Qızılqayadakı bəzi abidələr və adlarını qeyd edə bilmədiyimiz və abidələrin ümumi siyahısında yalnız onların təsviri haqqında qeydlərlə kifayətləndiyimiz abidələrin elektron pasportlaşması mümkün olmamışdır. Qazax rayonu ərazisindəki Məzəm, Xeyrimli, Fərəhli, Cəfərli kəndlərində, Ağstafa rayonu ərazisindəki Köçəscər kəndində arxeoloji kəşfiyyat işlərinin aparılmasına məlum səbəblərdən hərbçilər icazə verməmişdilər. Bu kəşfiyyat işlərinin aparılması çox təhlükəli və həyat üçün riskli olduğundan və minalanmış sahələrə yaxın olduğundan ərazidə qulluq edən əsgər və zabitlər bu işlərin həmin yerlərdə aparılmasının imkansız olduğunu bildirmişlər. Dövlət tərəfindən və Prezident qvardiyasının silahlı qüvvələri tərəfindən ciddi qorunduğundan BTC və CQBK kəmərlərinin dəhlizi boyunca getmək və bu dəhlizdə 2002-2005-ci illərdə tədqiq ounmuş abidələrin (Həsənsu nekropolu, Soyuqbulaq kurqanları, Həsənsu kurqanı, I və II Poylu yaşayış yerləri, I, II və III Böyük Kəsik yaşayış yerləri, Qıraq Kəsəmən yaşayış yeri və s.) koordinatlarını götürmək mümkünsüz olmuşdur. Daha sonra məlumdur ki, Qazax rayonunun 6 kəndi –Bağanis Ayrım, Quşçu Ayrım, Yuxarı və Aşağı Əskipara, Sofulu və Barxudarlı kəndləri Ermənistan işğalçıları tərəfindən zəbt edilmişdir. Bu kəndlərin ərazisində qalan onlarla abidələrimizin taleyi də məlum deyildir. Təkcə qeydə alınan və abidələrin külliyyatına inventar nömrəsi ilə daxil olan 12 abidə Yuxarı Əskipara kəndi, 2 abidə isə Aşağı Əskipara kəndləri ərazisindədir.

Bütün bunlara baxmayaraq elmi layihədə nəzərdə tutulmuş ezamiyyət çərçivəsində xeyli abidələr qeydə alınmış, onların ətraflı təsviri götürülmüş və fotoları çəkilmiş, koordinatlaşdırılmışdır. Abidələr çoxtiplidir. Belə ki, bu abidələrin içərisində həm arxeoloji, həm tarixi, həm memarlıq abidələri, dini məzmun daşıyan abidələr, mağaralar, mağara düşərgələri, kəhriz və ovdanlar və s. vardır. Bu da işin əhəmiyyət dərəcəsini və emli baxımdan çox vacib nəticə daşıdığını göstərir. Çöl şəraitində qarşılaşdığımız bütün abidələrə elmi yanaşılmış, onlarla yeni abidələr qeydə alınmışdır. Bu abidələr qədim daş dövründən başlamış, yeni dövrün əvvəllərinə qədər tarixi keçmişimizi əks etdirirlər.

Ağstafa rayonu ərazində abidələrin koordinatlaşdırılması zamanı bir neçə marşrut seçilmişdir. Birinci növbədə Ağstafa şəhəri və buna bitişik kəndlərdə, o cümlədən İskra, Qaçaq Kərəm və s. yerlərdə axtarışlar aparılmışdır. Daha sonra Ağstafa-Tovuz şosse yolu boyunca abidələr izlənilmişdir, Qırılı, Aşağı və Yuxarı Göyçəli kəndlərində abidələr qeydə alınmışdır. Xeyli onilliklər boyu arxeolji qazıntı aparılmış abidlərin özlərinin (Qarğalartəpəsi, Molla Nağı, Nadirbəytəpəsi yaşayış yerləri və s.) də koordinatları götürülmüşdür. Daha sonra Köçəsgər və Tatlı kəndləri bounca ərazilər tamamilə gəzilmiş və abidələr tapılmışdır. İstiqamətlərdən biri də Poylu kəndi və eyniadlı qəsəbə istiqamətində olmuşdur. Bu eyniadlı kəndə yaxın olan Poylu qəsəbəsi, Xəlfəli və Qıraq Kəsəmən kəndləri gəzilmiş və axtarış aparılmışdır. Sonra Böyük Kəsik istiqamətində və eləcə də Saloğlu, Soyuqbulaq, Muğanlı kəndləri boyunca arxeoloji axtarışlar aparılmışdır.

Ceyrançöl ərazisi Ağstafa rayonunun böyük bir hissəsini əhatə edir. Çeyrançöldə abidələr nisbətən azlıq təşkil etsələr də dövr baxımından daha qədim abidələrdir. Yəni burada xüsusilə son illərdə açıq paleolit düşərgələri qeydə alınmışdır. Ceyrançöldən Ağgölün (Candargölün) şimalından Ellər oyuğu və Xanabad dərəsi boyunadək ərazidə çox qədim heyvanat qalıqları aşkar edilmişdir. Hələlik Ceyrançöldə ən qədim (orta aşel) düşərgə Qaradüz abidəsidir. Bu yaşayış yeri Qatardağ silsiləsinin cənub ətəyində Ağgöldən şimala hündür terras üzərində yerləşir. Ceyrançöl ərazisində ikinci aşel abidəsi Sarıburundu. Bu yaşayış yeri Ağgöldən şərqə vaxtilə Kür çayının deltası olmuş tirə ətəyində yerləşir. Qeydə alınan material arasında levallua xarakterli dairəvi və bir qütblü nüvələr olduğu halda müvafiq olaraq qəlpə və lövhə cüzi miqdardadır. Burada da haşero, çopper tipli alətlər nəzərə çarpır. Ceyrançöl paleolit düşərgələri dövrəsində Qarabığ yaşayış yeri (qədim mustye) xüsusi əhəmiyyət kəsb edir. Geomorfoloqların fikrincə burada alt paleolit abidələri Abşeron-Bakı terrasları üzərində salınmışdır.

Ağstafa-Qazax arasında bəzi kəndlərdə, o cümlədən Dağ Kəsəmən, Molla Cəfərli ərazisində abidələr müxtəlif tipli və məzmunludur.

Qazax rayonu ərazisində də xeyli kurqanlar, yaşayış yerləri, mağara düşərgələri, paleolit dövründən tutmuş ta son orta əsrlərə qədər olan abidələr qeydə alınmış və elektron pasportlaşması aparılmışdır. Qazax şəhərinin özü də tarix baxımından xeyli qədim şəhər olduğundan burada – yəni şəhərin özündə də xeyli abidələr qeydə alınmışdır.

Qazax və Ağstafa rayonları ərazisində rast gəlinən abidələrin böyük bir qrupunu eneolit və tunc dövrlərinə aid kurqanlar təşkil edir. Qeyd edək ki, bu tip kurqanların bəziləri tədqiq edildiyindən onlar haqqında ümumi təsəvvür yaratmaq mümkündür. Aveydağın ətəklərində, Ceyrançöldə, Ağstafaçayın bəzi yerlərində bu tip abidələrlə müşayiət olunan kurqan qəbiristanlıqları vardır. Tipinə görə bu kurqanlar iki yerə ayrılır: daş və torpaq qarışığından tökülmüş kurqanlar, torpaq kurqanlar. Hər iki növ kurqanlara qeyd etdiyimiz kimi Ceyrançöldə, Aveydağ ətəklərində, Coğaz çayı hövzələrində, Kür çayının sol sahilində rast gəlinir. Çox da hündür olmayan bu kurqanlar tək-tək yerləşmişdir. Aveydağın ətəklərində, Ceyrançöldə 1-1,5 metr hündürlükdə, 4-10 metr diametrində kurqanlardan ibarət 1,5 kv.km sahədə kurqan qəbiristanlıqlar mövcuddur.

Qazax və Ağstafa rayonlarının arxeoloji abidələri içərisində sayına görə daş qutu qəbirlər üstünlük təşkil edir. Hər iki bölgənin bu tip qəbir abidələri qədim dövrlərdə bu ərazidə yaşamış qəbilə və tayfaların tarixini və ictimai quruluşunu öyrənmək baxımından əsas mənbə rolunu pynayırlar. Əsasən bölgənin dağlıq hissələrində daş qutulara daha çox rast gəlinir. Daş qutulardan ibarət qəbiristanlıqların yerini müəyyən etmək üçün nəzərə çarpan nişanlara rast gəlmək olmur. Onun üçün də həmin qəbirlərin yerini müəyyənləşdirməkdə çətinlik yaranır.

Kurqan və daş qutularla yanaşı xeyli sayda torpaq qəbirlər də bölgənin arxeoloji abidələri içində mühüm yer tutur.

Neolit-eneolit dövrlərindən tutumuş ta son orta əsrlər qədər izlənilən və qeydə alınan yaşayış yerləri tipinə görə seçilir. Onlar müvəqqəti yaşayış yerləri, daimi yaşayış yerləri, yarımqazmalar, mürəkkəb quruluşlu yaşayış binaları, ilkin şəhər mədəniyyətini əks etdirən yaşayış məskənləri, mövsümü düşərgələr, siklop tikililər, dini ibadətgahlar, saray qalıqları, memarlıq abidələri, yaşayış evləri və s.-dən ibarətdir.

Layihə çərçivəsində qeydə alınmış və indiyədək koordinatlaşdırılmayan abidələrin böyük əksəriyyəti koordinatlaşdırılmışdır. Onların əhəmiyyət dərəcələri də qeyd edilmişdir. Bəzi abidələr də vardır ki, onların hazırda yerində əkin və tikinti işləri həyata keçirilir. Bu da çox təəssfüf doğuran bir haldır.

Ağstafa və Qazax rayonu ərazilərində aparılmış bir il ərzində aşkara çıxarılan abidələrin hamısı bu rayonların şübhəsiz ki, bütün maddi mədəniyyətini əks etdirmir. Yuxarıda qeyd etdiyimiz bəzi mühüm səbəblər və eləcə də arxeoloji kəşfiyyat işlərinə qısamüddətli ezamiyyətin ayrılması bu rayonların ərazisinin qarış-qarış gəzilməsi, yaşlı insanlarla ünsiyyət aparılması və etnoqrafik məlumatların toplanmasına və bir sözlə rayonların ərazisindəki bütün abidələrin aşkar edilərək qeydə alınmasına imkan verməmişdir.

Layihənin aparılması və onun yekun nəticələri bütövlükdə xüsusi proqram xarakteri daşımışdır. Yekunda onu qeyd etmək lazımdır ki, Qazax və Ağstafa rayonları ərazisində qısa müddət ərzində 200-dək abidənin elektron koordinatlaşdırılması tariximiz və abidələrimizin tədqiqi baxımından çox mühüm əhəmiyyət daşıyır.

# QAZAX RAYONUNUN

# ARXEOLOJİ, TARİXİ VƏ MEMARLIQ ABİDƏLƏRİ

## Avey mağarası



Avey dağı Gürcüstan ilə Qazax rayonu arasında yerləşən Kiçik Qafqaz dağlarındakı zirvələrdən biri, ağ bozumtul dağ silsiləsidir. Daş Salahlı kəndindən 1,2 km aralıqdadır. Buralarda hələ paleolit dövrünə aid insan fəaliyyətinin izləri var. İbtidai görkəmli qayadaca çapılan məbədlər, 30-a qədər süni mağara aşkar edilmişdir. Dağın başında qədim alban məbədi var. Cəbhə xəttinə yaxın olduğundan zirvəsinə hazırda giriş məhduddur. Avey sözünün özü də təxmin etməyə imkan verir ki, albanların Ay məbədi burada olub. Toponim Ay evi kimi açıqlanır - Avey. Ümumən türklərdə Aya sitayiş qədim dövrlərdən bəri geniş yayılıb. Qədim türklərdə "Ay Tənqri" (Ay Allahı) ifadəsi olub. Avey dağının özündə və ətrafında abidələr çoxdur. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 fevral 1989-cı il tarixli qərarı ilə Avey dövlət tarix-mədəniyyət qoruğu yaradılmışdır.

Avey mağarasında 1950-ci illərin sonunda aparılmış arxeoloji kəşfiyyat və ilkin tədqiqat işləri zamanı xeyli daş alətlər aşkar edildi. Daş məmulatı içərisində əsasən əmək alətləri mühüm yer tuturdu. Onların arasında itiuclular, qaşov və bıçaq tipli alətlər, kəsicilər xüsusi maraq doğururdu.

Avey mağarsının aşkar edilməsi və burada aparılan tədqiqatlar Azərbaycan paleolitinin ilk uğurlarından sayılır.

## Süni mağara (Avey dağı)



Avey dağında aşkar edilmiş 30-dən süni mağaradn biridir. Koroğlu məbədinə yaxın, Qarabulağın üstündədir. İki sıldırım qaya arasında yerləşir. Aveydağda daş dövrünə aid ilkin yaşayış yerləridnən hesab edilir. Mağaradan qədim daş dövrünə aid əmək alətləri tapılmışdır. Əmək alətləri içərisində əsas yeri copper, əl çapacaqları, qaşov tipli alətlər və itiuclular tutur. Mağarada eyni zamanda ovlanmış heyvanların sümük qırıqları da aşkar olunmuşdur. Bu onu göstərir ki, ümumiyyətlə Avey sakinlərinin həyatında ovçuluq əsas yer tutmuşdur.

Mağarada eyni zamanda tunc dövrünə və orta əsrlərə aid də xeyli maraqlı tapıntılar əldə edilmişdir. Mağaraya baxış zamanı buradan orta əsrlər dövrünə aid xeyli saxsı qab parçaları, çıraqlar və metal qırıntıları aşkar edildi. Onların uzunmüddətli istifadəsini söyləmək olar.

## Daş Salahlı mağarası



Daş Salahlı mağarası Aveydağ mağaraları qrupundan olan ən iri mağaradır. Qazax rayonununn Daş Salahlı kəndindən qərbdə vulkanik qayalıqlarda yerləşir. Hündürlüyü 35 metr, uzunluğu 17 metr, eni 10 metr, sahəsi isə 170 m2 -dir.

1958-ci ilin yay fəslində Qazax rayonu ərazisində paleolit dövrü üzrə aparılan arxeoloji qazıntılar zamanı Daş Salahlı mağarasında iki mədəni təbəqə üzə çıxarılmışdır. 1-ci mədəni təbəqədən arxeoloji material tapılmamışdır. 2-ci təbəqədən isə paleolit dövrünə aid materiallar tapılmışdır. Mağaranın girəcəyində diametri 2 metr olan böyük ocaq yeri aşkarlanıb. Ocağın külü arasından daş məmulatı və heyvan sümükləri tapılmışdır. Heyvan sümüklərinin əksəriyyəti parçalanıb yandırılmışdır. Daş məmulatı əsasən çaxmaqdaşı və obsidiandan (dəvəgözü) hazırlanıb. Alətlərin çoxu itiuclular və qaşovlardır. Nukleus, bıçaq və gəzli alətlər nisbətən azdır. Daş alətlər hazırlanma texnikası, forması və müqaisəsinə görə mustye dövrünə aid edilir. Daş Salahlı mağarasının daş məmulatı Tağlar mağarasının arxeoloji tapıntıları ilə eyni dövrə -yəni son mustye dövrünə aiddir.

Arxeoloji qazıntılar zamanı 300-dən artıq daş məmulatı və 500-ə yaxın sümük qalıqları aşkar olunmuşdur. Bu onu sübut etmişdir ki, burada yaşayan insanlar əmək alətləri hazırlanmış və ovçuluqla məşğul olmuşlar.

Daş Salahlı düşərgəsindən tapılmış daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinə əsasən burada mustye mədəniyyəti dövründə -yəni 60-80 min il bundan əvvəllər qədim insanların mağarada yaşadığını demək mümkün oldu. Bu dövrün, yəni – mustye dövrünün, bir sözlə Daş Salahlı mağara düşərgəsinin qədim sakinlərinin əsas məşğuliyyəti ovçuluq və yığıcılıq, əsas əmək alətləri isə itiuclu və qaşov tipli alətlər olmuşdur.

## Koroğlu məbədi



Daş Salahlı kəndində, Avey dağında, Qara bulaqdan 300-500 metr şimalda yerləşən mağara-məbəd. IV-V əsrlərə aid olunur. Məbədin giriş hissəsi bir qədər düzbucaqlı formada olub, hündürlüyü təxminən 5 metrə yaxındır. İçərisi uzunsov formalıdır.

Çöküntü qatları arasında ilk orta əsrlərə aid xeyli keramika nümunələri aşkar edilmişdir. Bunlar əsasən yaxşı hazırlanmış və təmiz gil tərkibli saxsı parçalarından ibarətdir.

Koroğlu məbədi Çar Rusiyası dövründə yerli qaçaqların sığınacaq yeri kimi də fəaliyyət göstərmişdir. Əlverişli strateji sahədə qərarlaşması buranın hökümətdən narazı kəndli qaçaq nümayəndələrin sığınacaq yeri kimi də fəaliyyətinə şərait yaratmışdır.

## Damcılı mağarası



Daş Salahlı kəndindən Xram çayına qədər uzanan, Avey dağının cənub-şərqində Yataq yeri adlanan ərazidə, əhəng qayalığın altında yerləşən Damcılı mağarasının sahəsi 360 $m^2$, uzunluğu isə 17 metrdir. Aveydağ mağara düşərgələri qrupunda ən irisidir. Yarımdairəvi şəkildədir. Qarşı hissəsi dağılmışdır. Ön tərəfdən hündürlüyü 4 metrdir. 1956-1958-ci illərdə burada Paleolit arxeoloji ekspedisiyası M.M.Hüseynovun rəhbərliyi ilə əsaslı arxeoloji qazıntı işləri aparmış, qiymətli maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Mağaranın qarışıq təbəqəsindən 8 mindən artıq arxeoloji material - daş kəsici alətlər, nukleuslar, itiuclu qaşov və bıçaqvari alətlər, lövhəşəkilli qəlpələr, ox ucluqları, bizlər və s., müxtəlif heyvanlara aid sümüklər, kül izləri tapılmışdır. Diametri 2 metrə yaxın ocaq yerindən xeyli əşya və qırıntılar əldə edilmişdir. Daş məmulatının hazırlanma texnikası, forması və müqayisəsinə görə orta paleolit, üst paleolit, mezolit və neolit dövrlərinə aiddir. Bütün bunlar bölgənin qədim sakinlərinin yaşayış tərzi, məşğuliyyəti və toplum kimi inkişaf səviyyələri barədə bilgi verir.

Daş məmulatının 550-dən çoxu alət, qalanı isə qəlpədir. Arxeoloji tapıntılar içərisində maraq doğuran faktlardan biri də müxtəlif artefaktlar üzərində rast gəlinmiş tünd qırmızı təbii boya izləridir. Damcılıda çoxlu fauna qalıqlarının aşkar olunması burada yaşayan sakinlərin ovçuluqla məşğul olduqlarını göstərir.

## Yataq yeri

Acıdərə ərazisində paleolit dövrünə aid yaşayış yeri. Acıdərənin sol tərəfindəki təpəliyin qərb ətəyini təşkil edir. Ölkə əhəmiyyətli arxeoloji abidələr sırasındadır. Daş dövrü açıq yaşayış məntəqələrindən biri hesab olunan Yataq yeri alt Xəzər yaşlı geoloji terras xarakterlidir. Artefaktlar yuyulma nəticəsində aşkar olunmuşdur. onların toplu halında aş-

kar edildiyi sahələr mövcuddur. Ərazidə paleolit dövrü mütəxəssisi M.Mənsurov uzun müddət tədqiqatlar aparmış və mühüm elmi nəticələrə gəlmişdir. Düşərgədən tapılan qəlpə və lövhələrinn bəzilərində istifadə əsasında alınan izlər müşahidə edilir. Nukleusların biri çoxüzlüdür, çaxmaqlaşmış roqovik daşınadndır. Formaca piramidanı xatırladır. Yelpikvari nüvələr isə alt üzdə yastı olub təbii qabıqdandırlar. Üzü üstə azca qabarıqlı olmaqla uclardan ortaya doğru vurulub qoparılmış lövhə izləri daşıyır.

Yataq yeri daş kolleksiyasının nümunələri Yaxın Şərq və Qafqaz paleolit abidələrinin texniki komplekslərinin alət servizi ilə oxşarlıq təşkil edirlər.

## Çaxmaqlı düşərgəsi



I Şıxlı kəndindən cənub-qərbdə paleolit dövrünə aid aşıq düşərgə. Ölkə əhəmiyyətli abidədir. Yuxarı paleolit dövrünə aid edilən düşərgədən əldə olunan materiallar yer səthindən qismən də şurf qoyulan zaman torpağın üst qatından götürülmüşdür. Yerüstü daş məmulatı erezion çökəkliyin şimal döşündə gedən yuyulmalar zamanı aşağıya axmışdır. Çaxmaqlı düşərgəsinin daş kolleksiyasına nüvələr, qəlpələr, qaşovlar, gəzli alətlər, lövhələr, itiuclular, iti uclu lövhələr, bıçaqlar, uclu qaşovlar, kəsərciklər, dişəkli lövlər daxildir.

Çaxmaqlı düşərgəsindən çox kiçik – mikrolit alətlər də toplanmışdır. Bunların əksəriyyəti dəvəgözündən, bir ədədi isə çaxmaq daşından hazırlanmışdır. Bu tip qəlpələrin bir yanı və bəzən də hər iki yanı çox diqqətlə dişəklənmişdir. Alətlərin hələlik nə məqsədlə işləndikləri barədə qəti fikir söyləmək çətindir. Lakin ola bilsin ki, onlar qədim dövrdə təsərrüfatın müəyyən sahəsində istifadə edilmişdir. Hələlik Şıxlı abidəsindən toplanmış daş məmulatını formasına, hazırlanma texnikasına, patina və s. əlamətlərinə əsasən alt və üst paleolit dövrünə aid etmək mümkündür.

## Qiyaməttəpə yaşayış yeri



Eneolit dövrünə aid yaşayış yeri. Köhnə Qazax konserv zavodunun yanında, Qazax-Əskipara şosse yolunun solunda, yoldan təxminən 2-3 metr aralı. Şosse yolu çəkilərkən abidənin bir hissəsini kəsib keçmişdir. Çox az bir hissəsi salamat qalmış abidənin üzərində xeyli sayda sümük və keramika fraqmentləri vardır.

## Qanlı Töyrə yaşayış yeri



Çaylı kəndinin ərazisində Qazax-Tbilisi yolundan 500-700 metr aralıda, yoldan şimaldadır. Uzunluğu 70 metr, eni 50 metr olan yaşayış yerinin h=5 metrdir. Abidənin müəyyən hissəsi dağılmışdır. Eneolit dövrünə aid mühüm əhəmiyyətli abidə sayılır. İlk dəfə arxeoloq İ.H.Nərimanov tərəfindən qeydə alınmış və kiçik miqyaslı arxeoloji qazıntılar aparılmışdır. Bu qazıntılar zamanı abidənin dövrü öyrənilmiş və tapıntıların təsnifatlaşdırılması həyata keçirilmişdir.

## Yaşayış yeri

İncəsu çayının sol sahilində, İncəsu çayının Kürə tökülən hissəsində yerləşir. Torpağı müəyyən sahələrdə daşınıb aparılmış, materialların bəziləri səpələnmişdir. Əldə edilmiş tapıntılar əsasında abidənin eneolit-tunc dövrlərinə aid olmasını söyləmək olar. Tapılmış xeyli sayda yerüstü arxeoloji tapıntılar eneolit və tunc dövrlərinin keramika nümunələrindən ibarətdir.

## İncəsu yaşayış yeri



İncəsu çayının sağ sahilində, Kürə tökülən hissəsindən 200 metr aralı, Qazax-Tbilisi yolundan cənubda, çoban yataqlarının yanında yerləşir. Sahəsi təxminən 600 $m^2$-ə yaxındır. Bu yaşayış yeri də eneolit və tunc dövrlərinə aid olub, entimal ki, çoxtəbəqəlidir. Yaşayış yerinin şimal-qərb tərəfində, hündür təpənin ətəyində ocaq yeri aşkar edildi. İlkin baxış və müşahidə zamanı müəyyən edildi ki, ocaq böyük ölçülü olub, ölçüləri şərq-qərb istiqamətində 1metr 30 sm, şimal-cənub istiqamətində 1metr 80 sm, qalınlığı 20sm-dir. Ocaq yerinin içərisindən saxsı qab qırıqlarına, heyvan sümüklərinə, sümük bizə, çaxmaqdaşından oraq dişlərinə, kəsici alətlərə və digər arxeoloji materiallara rast gəlinmişdir. Eneolit dövrünə aid olan gilinin tərkibi iri qum, xırda daş və bəzən kvars qatışıqlı keramika fraqmentləri zəif bişirilmişdir. Əldə formalaşdırılmış belə gil qab fraqmentlərinin səthi qeyri hamardır. Qonur rəngli bu qab qırıqları əsasən küp, xeyrə və küpə tipli qabları əks etdirirlər. Bəzilərinin səthində his izləri saxlanmışdır.

## I Musaköy yaşayış yeri



Musaköylə Çaylı kəndinin arasında əkin sahələrinin düz ortasında yerləşir. Abidənin sahəsi çox böyükdür, təxminən 2 haya yaxındır. Yaşayış yeri Sarvantəpədən 1 km cənubda, nisbətən Coğaz çayına yaxın yerdə yerləşir. Eneolit və tunc dövrlərinə aid yaşayış yerinin üzərindən həmin dövrləri əks etdirən xeyli sayda daş məmulatı və keramika nümunələri tapılmışdır.







## Ocaqtəpə yaşayış yeri



Canalı kəndinin ərazisində, kəndin şimalında, yaşayış evlərinin yaxınlığında və torpaq yolun yaxınlığında yerləşir. Sahəsi təxminən 1 ha-ya yaxın olan yaşayış yerinin üzərində xeyli sayda keramika nümunələri vardır. Yaşayış yeri üç tərəfdən əkin sahələri ilə, bir tərəfdən isə kəndə girən yolla hüdudlanır. Onun üzərindən keramika nümunələri ilə yanaşı xeyli sayda sümük və obsidian parçaları da tapılmışdır. Yaşayış yeri Mədəniyyət və Turizm Nazirliyinin qoruması altındadır.









## Avey yaşayış yeri



Enenolit-tunc dövrlərinə aid yaşayış yeri. Aşınmalar və sürüşmələr, eyni zamanda sel sularının gətirdiyi çöküntülərlə örtülmüşdür. Avey dağının ətəyində, Daş Salahlı kəndindən Qarabulağa gedən yolun sağında, yoldan 50 metr aralıda yerləşir. Hörgü yerləri və kərpic tikililər aydın görünür. Hörgü yerlərinin yaxınlığından kiçik ölçülü keramika nümunələri tapılmışdır ki, bunlar da tunc dövrünə aid edilir. Hörgülər əsasən ağ rəngli dağ daşlarından və çarpanaqlardan inşa edilmişdir. Düzümlərin çox səliqə ilə bir-birinin üzərinə qoyulması müşahidə edilir. Çox ehtimal ki, bu yaşayış yeri Gəncə-Qazax bölgəsinin dağlıq və dağətəyi zonaları üçün xarakterik sayılan müdafiə hasarlı yaşayış yerləri tipinə aiddir. Belə yaşayış yerləri tunc dövründə dağətəyi zonalarda geniş yayılmağa başlayır. Yaşayış yerinin müdafiə hasarlı olması onun strukturu haqqında müəyyən təsəvvür yaratmağa imkan verir.

## I Şıxlı yaşayış yeri



I Şıxlı kəndinin qurtarağagında yerlşən eneolit-tunc dövrünə aid abidə. Yerüstü materiallarla zəngindir. Qəbiristanlıqdan şimal-qərbdə, məktəbə yaxın təpənin döşündə yerləşən yaşayış yerində iri təsərrüfat küpləri tapılmışdır. Küpləri tapan şəxslərin verdikləri məlumata əsasən iki küpün içərisində üzüm tumları tapılmışdır. Abidənin həm də Gəmiqaya yaşayış yerinə yaxınlığı buranın qədim yaşayış yeri olmasını bildirir. Yaşayış yerindən çoxlu sayda gil qab nümunələri tapılmışdır. Müxtəlif hissələrdən aşkar edilən keramika nümunələri əsasən qalın divarlı təsərrüfat küplərinin fraqmentləri, sini, xeyrə, boşqab, küpə, fincan, bardaq, kuzə, kasa, manqal qırıqları ilə müşahidə olunur. Yaşayış yerindən aşkar edilən saxsı qab nümunələri müxtəlif ölçülü və təyinatlı olub, zərifliyi, özünəməxsusluğu və naxışların üüslubuna və ya müxtəlifliyinə görə bir-birindən fərqlənir. Yaşayış yerinin keramikası Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti üçün səciyyəvidir.





## Şomutəpə yaşayış yeri

Kosalar kəndi ərazisində ilk tunc-dəmir dövrlərinə aid yaşayış yeri. Ölkə əhəmiyyətlidir. Qismən tədqiq olunsa da əsaslı arxeoloji qazıntı işləri aparılmamışdır. Tapıntıları əsasən keramika nümunələrindən ibarətdir. Əksəriyyəti boz rəngli gildən olub, çox yaxşı bişirilmişdir, naxışı çərtmə və oyma ilə həyata keçirilmişdir.

## I Baba Dərviş yaşayış yeri



Babadərviş qədim yaşayış yerində arxeoloji tədqiqatlar Ağstafa-İcevan dəmir yolunun çəkilməsi ilə əlaqədar olaraq aparılmışdır. Tərtib olunmuş plana görə dəmir yol xətti Qazax şəhərinin qərbində, Coğaz çayının sol sahilində yerləşən müsəlman qəbiristanlığı (yerli əhali onu Saçlı qəbiristanlığı adlandırır) və Ağstafaçayın sağ sahilindəki Babadərviş qədim yaşayış yerini kəsməli idi. Babadərviş qədim yaşayış yeri silsilə təşkil edən 5 təpədən ibarətdir. 1958, 1960-1962-ci illərdə onların üçündə arxeoloji ekspedisiya qazıntı işləri aparmışdır.

Bu abidə də Xanlıqlar kəndinin şimalında, Ağstafaçayın sol sahilində yerləşir. Yerli əhali buranı və buraya daxil olan təpələri ümumiyyətlə Babadərviş adlandırır. Babadərviş təpələrinin sayı çoxdur. Lakin 5 təpənin üzəri müasir dövrün (XVIII-XIX əsrlərin) qəbiristanlığı və türbələri ilə, altı isə tunc dövrünün abidələri ilə zəngin olduğuna görə yalnız 5 təpə tarix əhəmiyyətlidir. I Baba Dərviş təpəsinin sahəsi 400-500 $m^2$- dir.

Baba Dərviş qədim yaşayış məskəni Qazax rayonu ərazisində yerləşən dünya əhəmiyyətli abidələrdən biridir. Arxeoloji materiallara əsasən bu məskən hələ e.ə. III minilliyin başlanğıcında mövcud olmuş, burada məskunlaşan insanlar çoxsaylı maddi-mədəniyyət nümunələri yaratmışlar. Həmin dövrə aid gildən düzəldilmiş insan, keçi, öküz və başqa heyvanların fiqurları, təkər modelləri xüsusilə maraqlıdır. Baba Dərviş ərazisində aparılan qazıntılar zamanı bir neçə yaşayış tikililəri üzə çıxarılmışdır. Xronoloji baxımından bu tikililər e.ə. XII-VII əsrlərə aid olmaqla Azərbaycanın Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti abidələri ilə uyğunluq təşkil edir. 1966-cı ildə Baba Dərvişdə daha bir nadir

tapıntı - katakomba tipli qəbir aşkar edilmişdir. Burada cənazə ilə birlikdə gil qablar, ağac cam, dəmir bıçaq, ağacdan olan toxuculuq dəzgahın hissəsi, sümük mil və tunc iynələr tapılmışdır. Babadərviş qəbir abidəsi V yaşayış sahəsində qeydə alınmışdır. İlk Tunc dövrünə aid qəbir təpənin səthindən 1,5 m dərinlikdə yerləşmişdi. Qəbirdə skelet sol böyürü üstə, başı şimala, üzü şərqə, bükülmüş ayaqları cənuba doğru yönəlmişdi. Qəbirdən sümük iy başlığı, qara rəngli cilallanmış gil qablar, tunc halqa tapılmışdır. Gil qablar qab altlığı, küpə və xeyrədən ibarətdir. Qəbir tədqiqatçılar tərəfindən e.ə. III minilliyin birinci yarısına aid edilmişdir.

Babadərvişdə, IV yaşayış yerində son tunc və erkən dəmir dövrünə aid dörd qəbir tədqiq edilmişdir. Qəbirlərdən tunc bilərzik, müxtəlif qablar aşkar edilmişdir. Qəbirlər Q.S.İsmayılov və V.H.Əliyev tərəfindən tədqiq olunmuşdur. Aparılan tədqiqatlar göstərir ki, Baba Dərviş sakinləri oturaq həyat sürmüş və əsasən əkinçiliklə məşğul olmuşdular. Onların təsərrüfatlarında maldarlıq da mühüm rol oynamışdır. Xırdabuynuzlu heyvanlara məxsus çoxsaylı osteoloji qalıqlar həmin heyvanların yaşayış yerinin qədim sakinlərinin maldarlıq təsərrüfatında üstünlük təşkil etdiyini göstərir. İribuynuzlu heyvanlar isə əkinçilikdə və nəqliyyatda qoşqu qüvvəsi kimi istifadə olunmuşdur. Toxuculuq və dulusçuluq yerli sakinlərin əsas məşğuliyyət sahələri olmuşdur.

Baba Dərviş yaşayış məskənində əldə edilən arxeoloji materiallar nəinki Azərbaycanın və Cənubi Qafqazın, ümumiyyətlə qədim dövr tarixinin öyrənilməsi üçün əvəzsiz qaynaqdır.

## II Baba Dərviş yaşayış yeri



Bu abidə I Babadərvişin yaxınlığında – ona bitişik, ondan qərbdə yerləşir. Abidənin üzəri qəbiristanlıqdır. Qəbiristanlıq çaya doğru uzanan təpənin üstünü tamamailə əhatə edir. Sahəsi 300-350 $m^2$-dir. Baba Dərvişdə aparılan geniş qazıntılarla burada tunc dövrünün başlanğıc mərhələsinə aid böyük yaşayış yerinin qalıqları üzə çıxarılmış və külli miqdarda maddi mədəniyyət nümunələri əldə edilmişdir. Maraqlıdır ki, bu abidənin alt

qatlarında daha qədim dövrlərə -e.ə.VI-IV minilliklərə aid yaşayış yerinin də izlərinə təsadüf edilmişdir. Bu xüsusiyyətlərinə görə Baba Dərviş Naxçıvandakı Kültəpə abidəsindən sonra bütün Qafqazda ikinci çoxtəbəqəli abidə olmuşdur. Arxeoloji qazıntılar zamanı məlum olmuşdur ki, Baba Dərvişin özündə ilk dəfə yaşayış hələ mis dövründə başlamışdır. Bu dövrdə mis istehsalı sirlərinin açılması, misdən daş alətlərə nisbətən daha möhkəm əmək alətlərinin hazırlanması yerli oturaq əkinçi-maldar tayfaların həyatında tərəqqi olmuş, mövcud dövrün iqtisadi və ictimai inkişafına böyük təsir göstərmişdir. Məhz bu dövrdə Azərbaycan ərazisində ilk əkinçilik mədəniyyəti təşəkkül tapmışdır. Baba Dərvişdən tapılmış maddi mədəniyyət nümunələrinin böyük qismini qədim dulus məmulatı təşkil edir. Müxtəlif ölçülü, biçimli və naxışlı gil qablar istehsalı ilk tunc dövründə yüksək inkişaf mərhələsinə çatmışdı. Bu qablar əldə hazırlanmış olsalar da, düzgün və nəfis formalara malikdirlər və indiyədək öz keyfiyyətlərini itirməmişlər. Qeyd etdiyimiz dövrün ən böyük mədəni nailiyyətlərindən birini təbiətdə təsadüf olunmayan metalın –tuncun istehsalı təşkil etmişdir. Tuncun istehsalı ilə Azərbaycanın qədim sakinləri tərəfindən hələ eramızdan əvvəl III minillikdə ilk metallurgiyanın əsası qoyulmuşdur. Tuncdan alət, silah və bəzək nümunələrinin hazırlanma üsulları genişlənmiş, daha da təkmilləşmişdir. Baba Dərviş abidələrindən bir sıra belə qiymətli tapıntılar əldə edilmişdir.

Baba Dərviş qazıntıları ilə müəyyən edilmişdir ki, e.ə.IV-III minilliklərdə Azərbaycanda ictimai münasibətlərdə də böyük inkişaf olmuş və əsaslı dəyişikliklər baş vermişdir. Ana nəslindən ata nəslinə keçid bu dövrdə başa çatmışdır.

## III Baba Dərviş yaşayış yeri



II Babadərvişə bitişik olan abidə. Ondan qərbə təxminən 10 metr aralı olub, dərə ilə ayrılır. Üzərində sonradan müsəlman qəbiristanlığı salınsa da yerüstü keramika nümunələri və xeyli sayda obsidian parçaları burada tunc və ilk dəmir dövründə sıx yaşayışın olmasını sübut edir.





## IV Baba Dərviş yaşayış yeri



Bu yaşayış yeri Babadərviş ərazisində üçüncü və beşinci təpələr arasında yerləşir. O, digər təpələrə nisbətən çox alçaq və yastı olub, düzgün olmayan dairəvi formaya malikdir. Abidənin sahəsi 0,25 hektar, hündürlüyü 2,5 metrdir. Burada ölçüləri 4x4 metr olan 18 kvadrat qazılmış, xam torpağa qədər öyrənilmişdir. Qazıntının ümumi sahəsi 288 $m^2$, mədəni təbəqənin dərinliyi 1,5 metrdir.

Burada 15-20 sm dərinliyə qədər içərisində az miqdarda qaramtıl və boz gil parçaları və çay daşları olan çürüntülü qara torpaq davam edir. Alt qatlarda isə mədəni təbəqənin tərkibini sarı gilli torpaq, kül, kömür, müxtəlif gil və daş məmulatı, osteoloji və tikinti qalıqları (möhrə, çay daşları, gil suvaq və s.) təşkil edirdi. Yaşayış yerinin mədəni təbəqəsi şərq hissədə 70 sm-dən 1 metrə qədər, şimal, qərb və mərkəzi hissələrdə isə 1,5 metr qalınlığındadır. Burada iki binanın qalınlığı və 32 təsərrüfat quyusu aşkara çıxarılıb öyrənilmişdir. Quyuların üçü istisna olmaqla, qalanları bilavasitə xam torpaqda qazılmışdır. Azərbaycanda son tunc və ilk dəmir dövrü yaşayış evlərinin formasını, quruluşunu təyin etmək üçün Babdərvişdə aşkar olunan bina qalıqları böyük elmi əhəmiyyətə malikdir. Yaşayış binası qalıqlarının daxilində çox maraqlı ocaq kompleksi və təsərrüfat quyuları var idi. Təsərrüfat quyuları əsasən yaşayış binalarının ətraflarında və daxilində qazılmışdır.

## V Baba Dərviş yaşayış yeri



Bu abidə dördüncü Babadərviş yaşayış yerindən 30 metr cənub-qərbdə yerləşirdi. Təpə oturacaqda dairəvi, üst hissədə dördbucaqlıya daha yaxın olmaqla, düz səthə malik idi. Təpənin hündürlüyü təxminən 7 metr, sahəsi 750 $m^2$-ə bərabər idi. Burada iki yerdə 81 $m^2$ sahədə qazıntı işi aparılırdı. Babadərvişdə mədəni təbəqənin qalınlığı 1 metrə çatırdı. Mədəni təbəqədən altda sarı torpaq yerləşirdi. Birinci qazıntı sahəsində silindrik formalı 11 quyu aşkar edilib öyrənilmişdir. onların dərinliyi 50-80 sm, diametri 0,5-1 metrdir. İçərisində təsərrüfat küpləri yerləşdirilmiş quyuları nəzərə almasaq, onlarda heç bir maddi mədəniyyət qalığına təsadüf olunmadı. Yalnız bir quyunun içərisində kiçik ağac parçaları var idi. Başqa bir quyunun ağız hissəsi palçıqla suvanmışdır. Quyuların təsərrüfat məqsədilə qazıldığını ehtimal etmək olar.

İkinci qazıntı sahəsinin ölçüsü isə 32 $m^2$-ə bərabər idi. Mədəni təbəqə və əldə edilən material bütün xüsusiyyətlərinə görə birinci sahədə aşkar olunan vəziyyəti təkrar edirdi. Burada çay daşından hörülmüş divar qalığı var idi. Təsərrüfat quyularına isə rast gəlinmədi. Xüsusilə Babadərviş yaşayış yerindən əldə edilən daş toxalar Azərbaycanda qədim əkinçilik mədəniyyətini öyrənmək üçün böyük əhəmiyyət kəsb edirlər. Daş toxalar müasir kətmənlərin ən ibtidai formaları olub, qədim əkinçilik alətləridir. Belə toxalar Azərbaycanda Gəncəçay, Quruçay və Köndələnçay hövzələrində, Kültəpədə, Sarvantəpə, Ağyazı düzündə və s. abidələrdən küllü miqdarda aşkar edilmişdir.

## Daş Salahlı yaşayış yeri



Daş Salahlı kəndinin ərazisində, kənddən 1 km şərqdə, kənddən Qazax-Tiflis şosse yoluna çıxan yolun sağında, yeni salınmış asfalt yolun yaxınlığında yerləşir. Üzrəi nisbətən dağılmış, bəzi yerlərindən su arxı qazılmışdır, bir tərəfindən isə torpaq yol çəkilmişdir. Sahəsi kiçikdir.

## Qazaxbəyli təpələri



Qazaxbəyli kəndinin ərazisində, Qazax-Tbilisi şosse yolunun sağında, yoldan təxminən 5 metr aralı yerləşir. Qazaxbəyli kəndi yaxınlığında bir-birindən 250-300 m aralı olan iki təbii təpələr var. Bu təpələr üstündə 1952-ci ildə erkən Dəmir dövrünə (e.ə. 8-6 əsrlər) aid olan yaşayış yeri və qəbiristanlıq aşkar olunmuşdur.

Təpələrin birində yerləşən böyük qəbiristanlıqda qəbirlər dördkünc şəkildə qazılmışdır. Ölülər, başları müxtəlif istiqamətlərə olmaqla, sağ və ya sol böyrü üstə dəfn edilmişdir. Skeletlərin bəzilərinin altından iri diametrli gil xeyrələr (qablar) tapılmışdır. Qəbirlərdən qara və boz rəngli gil qablar, kəsmə xətlərlə bəzədilmiş və cilalanmış gil bardaqlar, çölməklər, qablar, camlar, parçlar, tunc balta, tunc kəmər, nizə ucluğu, dəmir dəstəli tunc qılınc, dəmir xəncərlər və s. aşkar edilmişdir.

İkinci təpədə əldə edilən yerüstü arxeoloji materiallar qəbiristandakı tapıntılarla eynidir.

## Su hovuzu

2 ədəddir. Daş Salahlı kəndində, Avey məbədindən 150-200 metr qərb tərəfdə, Qızıl qayanın başında aşkar edilmiş su hovuzları antik dövr və ilk orta əsrlərə aiddir.

## I Dəlləkli kurqanı



Daş Salahlı kəndi ərazisində, Dəlləkli qəbiristanlığının cənub tərəfində tunc dövrünə aid 1-ci kurqan. Qazılmamışdır. Kiçik ölçülü olub, d=3 metrdir.

## II Dəlləkli kurqanı



Daş Salahlı kəndi ərazisində, Dəlləkli qəbiristanlığının cənub tərəfində tunc dövrünə aid 2-ci kurqan. 1-cidən 5 metr arlıdadır. Hündürlüyü 1 metr, diametri isə 3,5 metrdir.

## III Dəlləkli kurqanı



Daş Salahlı kəndi ərazisində, Dəlləkli qəbiristanlığının cənub tərəfində tunc dövrünə aid 3-ci kurqan. 1-ci və 2-ci kurqanlardan şərqdə yerləşir. D=3 metr, h=0,5 metrdir.

## IV Dəlləkli kurqanı



Daş Salahlı kəndi ərazisində, Dəlləkli qəbiristanlığının cənub tərəfində tunc dövrünə aid 4-cü kurqan. D=3,5 metr, h=1 metrdir.

## V Dəlləkli kurqanı



Daş Salahlı kəndi ərazisində, Dəlləkli qəbiristanlığının cənub tərəfində tunc dövrünə aid 5-ci kurqan.Digər kurqanlarla yanaşıdır. H=1,2 metr, d=4 metrdir.

## VI Dəlləkli kurqanı



Daş Salahlı kəndi ərazisində, Dəlləkli qəbiristanlığının cənub tərəfində tunc dövrünə aid 6-cı kurqan. Kiçik ölçüdə olub dairəvidir. Üzərinin daş örtüyü aydın görünür.

## Qalaça yeri



Şişqayadan və Daş Salahlı kənd qəbiristanlığından Gil zavodu istiqamətində hərəkət etdikdə yolun sağında, Daş Salahlı kəndi tərəfdə olan qədim qalaça yeri. Daş düzümləri çox aydın hiss olunur. Bu daşlar çox böyük həcmli dağ və qaya daşlarıdır. Amma bunlarda yonulma hiss olunur və dikinə basdırılmışdır. Çox ehtiaml ki, yaşayış yeri ətrafında belə daşlarla hasarlama aparılmışdır və bir növ nəhəng daşlardan salnımış siklop tikili xarakteri daşıyır. Sahəsi təxminən 500 kv.metrdir. Üzərində tunc dövrünün keramika nümunələri tapılmışdır. Qalaçanın qədim sakinləri burada uzunmüddətli yaşayış tərzinə malik olmuşlar.

## Çoban Qurbanoğlu kurqanı



Daş Salahlı kəndinin ərazizindəki “Xəzallının ağzı” deyilən yerdə tunc dövrünə aid kurqan. Hündürlüyü 1,5 metr, diametri isə 4 metrdir. Üzərinin daş düzümü çox aydın bilinir.

## I Mərdanlı Damyeri kurqanı



Daş Salahlı kəndi ərazizində, “Mərdanlı Damyeri” deyilən sahədə tunc dövrünə aid kurqanlardan 1-cisi. Dəlləkli kurqanları tipindən olub, tunc dövrünə aiddir.

## II Mərdanlı Damyeri kurqanı



Daş Salahlı kəndi ərazizində, "Mərdanlı Damyeri" deyilən sahədə, indiki sement zavoduna yaxın ərazidə aşkar edilmiş tunc dövrünə aid kurqanlardan 2-cisi.

## III Mərdanlı Damyeri kurqanı



Daş Salahlı kəndi ərazizində, "Mərdanlı Damyeri" deyilən sahədə tunc dövrünə aid kurqanlardan 3-cüsü.

## I Ağdərə kurqanı



Daş Salahlı kəndi ərazizində, "Daşlı Çökək" adlanan yerdən qərbdə, yolun kənarında yerləşən kurqan. Kiçik həcmlidir. H=1,3 metr, d=4 metrdir.

## II Ağdərə kurqanı



Daş Salahlı kəndi ərazizində, "Daşlı Çökək" adlanan yerdən qərbdə, yolun kənarında yerləşən 2-ci kurqan. Kiçik həcmlidir.Üzərində dairəvi, çox səliqəli daş düzümü vardır.

## I Yovşanlıtəpə kurqanı



Daş Salahlı kəndi ərazizində, “Daşlı Çökək” adlanan yerdən şərqdə yerləşən tunc dövrünə aid kurqanlardan 1-cisi.

## II Yovşanlıtəpə kurqanı



Daş Salahlı kəndi ərazizində, “Daşlı Çökək” adlanan yerdən şərqdə yerləşən tunc dövrünə aid kurqanlardan 2-cisi.

## III Yovşanlıtəpə kurqanı



Daş Salahlı kəndi ərazizində, "Daşlı Çökək" adlanan yerdən şərqdə yerləşən tunc dövrünə aid kurqanlardan 3-cüsü.

## IV Yovşanlıtəpə kurqanı



Daş Salahlı kəndi ərazizində, "Daşlı Çökək" adlanan yerdən şərqdə yerləşən tunc dövrünə aid kurqanlardan 4-cüsü.

## V Yovşanlıtəpə kurqanı



Daş Salahlı kəndi ərazizində, "Daşlı Çökək" adlanan yerdən şərqdə yerləşən tunc dövrünə aid kurqanlardan 5-cisi.

## VI Yovşanlıtəpə kurqanı



Daş Salahlı kəndi ərazizində, "Daşlı Çökək" adlanan yerdən şərqdə yerləşən tunc dövrünə aid kurqanlardan 6-cısı. Sahəsinə görə digərlərindən böyükdür.

## VII Yovşanlıtəpə kurqanı



Daş Salahlı kəndi ərazizində, "Daşlı Çökək" adlanan yerdən şərqdə yerləşən tunc dövrünə aid kurqanlardan 7-cisi.

## VIII Yovşanlıtəpə kurqanı



Daş Salahlı kəndi ərazizində, "Daşlı Çökək" adlanan yerdən şərqdə yerləşən tunc dövrünə aid kurqanlardan sonuncusu.

## Daşlı Çökək kurqanları



Daş Salahlı kəndi ərazizində, “Daşlı Çökək adlanan” yerdə 6 ədəd kurqan. Bu kurqanlar da forma və məzmun baxımından Yovşanlıtəpə və Agdərə kurqanlarını təkrarlayırlar. Daşlı Çökək yaşayış yerinə yaxındırlar.

## I Yaşayış yeri

Daş Salahlı kəndinin Avey dağı istiqamətində yaşayış yeri. Sahəsi kiçikdir.

## Yaşayış yeri

Canalı kəndinin əkin yerləri sahəsində, Canalı kəndi ilə Qazaxbəyli arasında, Qazax-Tiflis şosse yolunun sağında, yoldan 40 metr aralı, yeni salınmış benzindoldurma məntəqəsinin yaxınlığında yerləşir.





## Aşağı Salahlı kurqanı



Aşağı Salahlı kəndi ərazisində, dərələrə düşən yolun solunda yerləşən diametri 5 metrə yaxın, hündürlüyü isə təxminən 1,5 metr olan kurqan.

## Əyritəpə yaşayış yeri



2010-cu ilin noyabrında Ceyrançöl paleolit ekspedisiyasının rəhbəri M. Mənsurov arxeoloji kəşfiyyat işləri zamanı Qazax rayonunun Yuxarı Salahlı kəndinin şimal-şərqində, Poylu yolunun üst tərəfində, Əyrilər deyilən sahədə-hündür terras üzərindəki üç təpədə son tunc-erkən dəmir dövrünə aid yaşayış yerləri qeydə almışdır. Təpələr şərq-qərb istiqamətində uzanırlar. Təpələrin düzənliyə açılan sərhəddi təbii yarğanlarla hüdudlanır. Yalnız şərq tərəfi açıq sahəyə çıxır. Bu vəziyyət isə onların üzərindəki yaşayış yerlərinn strateji baxımdan əlverişli sahədə yerləşmələrini şərtləndirmişdir. Təpələrin üzərindəki

yaşayış yeri ehtimal ki, böyük bir yaşayış məskəni olmuşdur. Bunu hər üç təpədə tapılan maddi mədəniyyət qalıqlarının eyni dövrə aid olması da təsdiq edir.

Yaşayış yerindən xeyli miqdarda gil qab nümunələri və daş məmulatı toplanmışdır. Keramika nümunələrinin əksəriyyətinin üzərində naxış elementlərinə rast gəlinir. Tapılmış keramika fraqmentlərinin çoxu təmiz gil tərkibə mali olmaları ilə seçilirlər. Yaxşı hazırlanmış, sabit tempraturda bişiriliblər. Qulaqcıq formalı qulpların bəzilərinin üzərində çərtmə naxışlar vardır. Kuzə və bardaq qulplarının üzərində isə ştrixlər verilmişdir. Əksər kuzə fraqmentlərinin boyun və çiyin hissələrində bir-birinə paralel çərtmə və cızma naxışlar çəkilmişdir. Bəzilərinin gövdə hissəsinin ortasını isə çərtmə sünbülvari naxış qurşaqlayır. İki paralel xətlər arasından dalğalı cızma naxışların çəkilməsi hallarına da rast gəlinir. Xeyrə tipli gil qab fraqmentlərinin daxili səthinə isə günəş şüaları timsalında xətlərin çəkilməsi də xasdır. Cəmi bir neçə ədəd fraqmentə də rast gəlindi ki, onların səthində bişirilməzdən əvvəl cızma və çərtmə üsulu ilə şaquli və ya üfüqi olaraq bir-birinə paralel düz və ya dalğalı xətlər çəkilmiş, qab bişirilməzdən sonra isə onların içərisi qabın rənginə uyğun gil boya məhlulu ilə boyanmışdır. Belə qab fraqmentləri nazik divarlı olub, üzəriləri əvvəlcə yaxşı cilalanmış, sonra isə anqoblanmışdır. Keramika nümunələrini aşağıdakı kimi qruplaşdırmaq olar:




## I Böyüktəpə yaşayış yeri



Çaylı kəndindən 1 km şimal-şərqdə yerləşir. Sahəsi təxminən 3 ha-ya yaxındır. Abidə yastı təpənin üstündə yerləşir. Hündürlüyü təxminən metrə bərabərdir. Abidənin üzərində əkin işləri həyata keçirilmişdir. Abidə yeni qeydə alınmış və koordinatlaşdırılmışdır.

## II Böyüktəpə yaşayış yeri



I Böyüktəpə abidəsindən bir qədər aralıda, Çaylı kəndi yaxınlığında yerləşir. Sahəsi təxminən 3 ha-ya yaxındır. I və II Böyüktəpə abidəsinin ortasında Kiçiktəpə yaşayış yeri yerləşir.

## Kiçiktəpə yaşayış yeri



I və II Böyüktəpə yaşayış yerlərinin arasında yerləşir. Çaylı kəndinin ərazisindədir. Sahəsi 1 ha-ya yaxındır. Üzərində xeyli gil qab nümunələri aşkar edilmişdir ki, bunlar da abidənin dövrünü müəyyən etməkdə mühüm rol oynamışlar.









## I Göl yeri kurqanı



Sahəsi 8 $m^2$, hündürlüyü isə 1 metr olub, I və II Göl yeri yaşayış yerlərinin arasında yerləşir. I Göl yeri yaşayış yerindən şimaldadır.

## II Göl yeri kurqanı



Sahəsi 10 $m^2$, hündürlüyü isə 1,5 metr olub, I və II Göl yeri yaşayış yerlərinin arasında yerləşir. I Göl yeri yaşayış yerindən şimalda, I Göl yeri kurqanından qərbdədir. Kurqanlar bur-birindən 5-8 metr aralıdır.

## I Coğazçay kurqanı



Çoğaz çayı sahilində, Musaköy kəndi ərazisində yerləşir. Kurqanlar bir-birinə yaxındır. Coğaz çayının sol sahilində, I Musaköy yaşayış yerinə yaxın əkin sahələrinin və üzüm bağlarının yanında yerləşir. Hündürlüyü 2 metrə yaxın diametri isə 8 metrdir.

## II Coğazçay kurqanı



Coğaz çayının sol sahilində, I Musaköy yaşayış yerinə yaxın otlaq sahələrinin və üzüm bağlarının yanında yerləşir. Hündürlüyü 1,5 metrə yaxın diametri isə 10 metrdir.

## III Coğazçay kurqanı

Coğaz çayının sol sahilində, I Musaköy yaşayış yerinə yaxın əkin sahələrinin və üzüm bağlarının yanında yerləşir. Hündürlüyü 2 metrə yaxın diametri isə 10 metrdir.

## Ağstafaçay kurqanı

Qazax şəhərindən Qazax-Tiflis şossesinə çıxan yolun yaxınlığında, körpüyə yaxın yerdə yerləşir. Ağstafaçaya çox yaxındır. Hündürlüyü təxminən 4 metrdir.

## I Kurqan

Daş Salahlı və Alpout kəndləri arasındadır. Daş Salahlının qurtaracağında, Şişqayanın cənubundadır. Burada iki kurqan yanaşı yerləşirlər. Yaxınlıqlarında I Yaşayış yeri mövcuddur.

## II Kurqan

I Kurqandan təxminən 20 metr aralı olub o da Daş  Salahlı və Alpout kəndlərinin arasındadır. Aveydağın Şişqaya və Qızılqaya tərəfindəki qurtaracağında –onlardan cənubda yerləşir.

## Yaşayış yeri (I)



Daş Salahlı və Alpout kəndlərinin arasında, Avey dağından cənubdadır. Böyük su arxının (Qarasu çayının qolu)kənarındadır. Qazax-Əskipara şosse yolunun sağındadır. Sahəsi təxminən 1,5-2 ha-dır. Üzərində əsasən boz və qara rəngli tunc dövrü keramikasına daha çox rast gəlinir.

## Yaşayış yeri (II)



Daş Salahlı və Alpout kəndlərinin arasında, Avey dağından cənubdadır. Böyük su arxının (Qarasu çayının qolu) kənarındadır. Qazax-Əskipara şosse yolunun sağındadır. Sahəsi təxminən 1 ha-dır. Üzərində əsasən boz və qara rəngli tunc dövrü keramikasına daha çox rast gəlinir. I Yaşayış yerindən 50 metr aralıdadır.

## Yaşayış yeri (III)



Daş Salahlı və Alpout kəndlərinin arasında, Avey dağından cənubdadır. Böyük su arxının (Qarasu çayının qolu)kənarındadır. Qazax-Əskipara şosse yolunun sağındadır. Sahəsi təxminən 1,5 ha-dır. Üzərində əsasən boz və qara rəngli tunc dövrü keramikasına və antik dövrün zərif keramikasına rast gəlinir.

## Yaşayış yeri (IV)



Daş Salahlı və Alpout kəndlərinin arasında, Avey dağından cənubdadır. Sıra ilə I, II, III yaşayış yerlərinin sırasındadır. Böyük su arxının (Qarasu çayının qolu) kənarındadır. Qazax-Əskipara şosse yolunun sağındadır. Sahəsi təxminən 1,5-2 ha-dır.

## Yaşayış yeri (V)



Daş Salahlı və Alpout kəndlərinin arasında, yuxarıda qeyd etdiyimiz yaşayış yerlərinin sırasındadır. Avey dağından cənubdadır. Böyük su arxının (Qarasu çayının qolu) kənarındadır. Qazax-Əskipara şosse yolunun sağındadır. Sahəsi təxminən 1,5-2 ha-dır. Üzərində əsasən boz və qara rəngli tunc dövrü keramikasına daha çox rast gəlinir.

## I Xanlıqlar yaşayış yeri



Babadərviş təpələrindən təxminən 200-300 metr aralıda, Didivan gölünə tərəf ərazidə -otlaq və əkin tarlalarının ortasında yerləşir. Təxminən h=10-15 metr olan təbii təpənin üzərindədir. Yerüstü keramika nümunələri burada inkişaf etmiş dəmir dövrünədək yaşayışın olmasını ehtiva edir. Sahəsi təxminən 600-700 $m^2$-dir.

## II Xanlıqlar yaşayış yeri



I Xanlıqlar yaşayış yerindən təxminən 80-100 metr aralı, Didivan gölünə tərəf, Ağstafaçayın sol sahilində yerləşir. 1-cidən nisbətə sahəsinə görə kiçik, lakin eyni hündürlükdə (15-18 metr) olan təbii təpənin üstündədir. Sahəsi 400-500 $m^2$-dir. Yerüstü materiallar tunc, dəmir, ilk orta əsrləri xarakterizə edir.

## I Novruzlutəpə yaşayış yeri



Çaylı kəndi ərazisində, Avey dağı ətəyindən Qazax dəmiryolu vağzalına çəkilmiş dəmir yolu xəttinin solunda yerləşir. Sahəsi 1ha-ya yaxındır.

## II Novruzlutəpə yaşayış yeri



Çaylı kəndinin ərazisindədir. I Novruzlutəpə və II Böyüktəpə abidələrinin yanındadır. Sahəsi 1,5 ha-ya yaxındır. Yeni qeydə alınmış abidələr sırasındadır.

## Çaxmaqlıtəpə yaşayış yeri



Çaylı kəndi yaxınlığında son tunc-ilk dəmir dövrünə aid yaşayış yeri. Ölkə əhəmiyyətlidir.

Qazax-Əskipara şosse yolundan sola ayrılaraq Kommuna kəndinə gedən yolun solunda, köhnə hərbi baza yerinin yaxınlığındakı təpənin üstündə yerləşir. Sahəsi təxminən 0,5 ha-ya yaxındır. Yoldan təxminən 300-400 metr aralı yerləşir. Abidənin üzərində nə vaxtsa əkin işləri aparılmışdır. Yerüstü materiallar abidənin son tunc-ilk dəmir dövrünə aid olmasını sübut edir.

## I Göl yeri yaşayış məskəni



Daş Salahlı və Qazaxbəyli kəndləri arasında yerləşir. Daş Salahlıdan Qazax-Tbilisi şosse yoluna çıxan yolun solunda, yoldan təxminən 200 metr aralıdadır. Göl yeri böyük yaşayış kompleksinə daxil olan təpələrdən 1-cisidir.

## II Göl yeri yaşayış məskəni



Daş Salahlı və Qazaxbəyli kəndləri arasında yerləşir. Daş Salahlıdan Qazax-Tbilisi şosse yoluna çıxan yolun solunda, yoldan təxminən 200 metr aralıda, I Göl yeri yaşayış yerindən 50-70 metr aralı, ondan şimalda yerləşir.

## III Göl yeri yaşayış məskəni



Daş Salahlı və Qazaxbəyli kəndləri arasında yerləşir. Daş Salahlıdan Qazax-Tbilisi şosse yoluna çıxan yolun solunda, yoldan təxminən 180 metr aralı, II Göl yeri yaşayış yerindən 60-70 metr aralı, ondan şimal-şərqdə yerləşir.

## IV Göl yeri yaşayış məskəni



Sahəsinə görə Göl yeri yaşayış məskənlərinin ən böyüyü olub təxminən 2 ha ərazini əhatə edir. Bu abidələr ümumiyyətlə bir birinə uzununa təpələrdən ibarət olub böyük kompleks təşkil edirlər. Daş Salahlı və Qazaxbəyli kəndləri arasında yerləşir. Daş Salahlıdan Qazax-Tbilisi şosse yoluna çıxan yolun solunda, III Göl yerindən 70 metr aralı, ondan şimal-şərqdə yerləşir.

## Böyüktəpə yaşayış yeri

Çaylı kəndi yaxınlığında son tunc və ilk dəmir dövrlərinə aid yaşayış yeri. Ölkə əhəmiyyətlidir.

Çaylı və Kommuna kəndləri arasındadır. Abidə inzibati baxımdan Kommuna kəndi ərazisinə düşür. Bu abidə Taytəpənin yaxınlığında –ondan təxminən 70-80 metr aralıda yerləşir. Bu abidə də Kommuna kəndinə gedən yolun solunda, yoldan 400-500 metr aralı yerləşir. Abidə hündür təpənin -təxminən 20 metrdən çox olan bir təpənin üstündə yerləşir. Çox maraqlı struktura malikdir. Sanki hündür zirvəni xatırladır. Ümumi sahəsi 0,5 ha-ya bərabərdir.

## Taytəpə yaşayış yeri

Qazax-Əskipara şosse yolundan sola ayrılaraq Kommuna kəndinə gedən yolun solunda, köhnə hərbi baza yerinin yaxınlığındakı təpənin üstündə yerləşir. Sahəsi təxminən 0,5 ha-ya yaxındır. Yoldan təxminən 300-400 metr aralı yerləşir. Abidənin üzərində nə vaxtsa əkin işləri aparılmışdır. Yerüstü materiallar abidənin son tunc-ilk dəmir dövrünə aid olmasını sübut edir.

## Qazaxbəyli kurqanı

Qazaxbəyli kəndi ərazisində son tunc-ilk dəmir dövrünə aid kurqan. Ölkə əhəmiyyətli abidədir. Kurqanın hündürlüyü 6 metrə yaxındır.

## Aslanbəyli kurqanları

Aslanbəyli kəndinə gedən yolun sol tərəfində tunc dövrünə aid edilən kurqanlar. 5 ədəddir. Ölkə əhəmiyyətli arxeoloji abidələr siyahısındadır.

## Bərkin (Börkün) ağzı yaşayış yeri

Daş Salahlı kəndindən Aslanbəyli kəndinə gedən yolun 500 metr qərbində yerləşən ölkə əhəmiyyətli arxeoloji abidə. Bu ərazidə ilk dəfə olaraq 1961-ci ildə Qazax arxeoloji ekspedisiyası çöl tədqiqat işləri zamanı eyniadlı yaşayış yerini və ətrafda kurqanları qeydə almışdır. Yaşayış yeri ilə yanaşı kurqanlara da Bərkin ağzı və ya Bərgin ağzı kurqanları adı verilmişdir. Qeyd edək ki, Bərkin (Börkün) ağzı abidələr kompleksi Daş Salahlı ilə Əli Bayramlı kəndlərinin arasındadır.

Bərkin ağzı yaşayış yeri Daş Salahlıdan İncə dərəsinə gedən torpaq yoldan 500 metr qərbdədir. Bu yaşayış yeri 0,5 ha-ya qədər düz meydança şəklindədir. Onun cənub tərəfi dikdir. Ən yuxarı hissəsində yaşayış yerini əhatə edən iri daşlardan hörülmüş hasar qalığı vardır. Bu hasar qalığı təxminən 1 metr hündürlüyündə şərq-qərb istiqamətində uzanır.

Abidənin ərazisində arxeoloji qazıntı işləri 1961-ci ildə C.N.Rüstəmov və İ.H.Nərimanov tərəfindən aparılmışdır. Ekspedisiya yaşayış yerində mədəni təbəqəni öyrənmək üçün şimal-cənub istiqamətində 2x0,5 metr sahədə qazıntı işi aparılmışdır. Qazıntı 1,3 metr dərinlikdə xam torpağa çatdırılmışdır. Qazıntı nəticəsində mədəni təbəqədən boz rəngli gil qab qırıqları, dəvəgözü daşı qəlpələri və sümük qırıqları aşkar edilmişdir. Xeyli sayda yerüstü materiallar da tapılmışdır. Onlar əsasən ox ucluqları, obsidian parçaları, gil qab qırıqlarından ibarətdir.

Əldə edilmiş maddi mədəniyyət nümunələrinə əsasən onları Xocalı-Gədəbəy mədəniyyəti nümunələrinə aid etmək olar.

## Bərkin (Börkün) ağzı kurqanları

Daş Salahlı kəndi ərazisində “Bərkin Ağzı” (Börkün Ağzı) adlanan ərazidə yerləşən ölkə əhəmiyyətli abidələr kompleksi. Avey dağının şimal-şərq ətəyində çoxlu xırda kurqanların cəmləşiyi sahə belə adlanır. Bu kurqanlar Daş Salahlıdan İncə dərəsinə gedən torpaq yolun hər iki tərəfində, 10 km-ə qədər bir ərazidə səpələnmişdir. Əli Bayramlı kəndindən Yuxarı Salahlı kəndinə gedən yolun sol tərəfində, kənddən təxminən 5 km aralıda da 5 kurqan vardır. Tunc dövrünə aid edilən kurqanlar bir-birindən 6-10 metr aralı məsafədədir. Diametrləri 4-8 metr arasında olan kurqanların hündürlüyü 2-4 metr arasındadır. 6 ədəddir.

Bu yerlər bütünlüklə əkin və biçənək sahələridir. Ona görə də əkin sahəsinə düşən kurqan təpələrinin bir qism dağılmış daşları əkin sahələrinə səpələnmişdir. Yalnız əkin sahələrindən kənardakı kurqanlar tamamilə salamat qalmışdır.

1961-ci ildə Qazax arxeoloji ekspedisiyası bu kurqanlardan birini qazmışdır. Bu kurqan Daş Salahlıdan İncə dərəsinə gedən torpaq yoldan solda düzülmüş kuranlardan dördüncüsüdür. Kurqan ovalşəkilli olub, diametrləri 6,6 və 7,4, yer səthindən hündürlüyü 0,6 metrdir. Kurqandan bir çox arxeoloji materiallarla birlikdə Qızılvəng tipli boyalı qab qırığının tapılması da böyük maraq doğurmuşdur. Kurqan arxeoloji tapıntıları ilə birlikdə və digər kompleks kurqan abidələri ilə birlikdə Xocalı-Gədəbəy abidələri kompleksinə - tunc dövrünün sonlarına, yəni e.ə.II minilliyin sonlarına aid edilir.





## Daşli Çökək yaşayış yeri

Daş Salahlı kəndi ərazizində "Daşlı Çökək" adlanan yerdə tunc dövrünə aid yaşayış yeri. Ölkə əhəmiyyətli abidələr siyahısındadır. "Daşlı Çökək" kurqanları məhz bu yaşayış yerinə aiddir. Eyni sahədə yerləşirlər.

## Sarvantəpə (Rustəpə) yaşayış məskəni



Sarvantəpə yaşayış yeri ölkə əhəmiyyətli arxeoloji abidələrin siyahısına "Rustəpə yaşayış yeri" adı ilə düşmüşdür. Əslində isə bu yaşayış yerinin adı Sarvan təpəsi və ya sadəcə olaraq Sarvantəpədir. Yerli əhali arasındakı yaşlı insanların verdikləri məlumatlara əsasən və toplanmış digər arxeoloji-etnoqrafik məlumatlar əsasında müəyyən edilmişdir ki, Rustəpə adı abidəyə sonradan verilmişdir. Əslində ta qədimdən bu yaşayış yeri üzərində (öz əlverişliliyi və bütün yaxın ərazilərə nəzarət etmək imkanlarına malik olduğundan) dəvə karvanları və bu karvanlara sahiblik edən sarvanlar dayanıb dincələrmişlər. Sarvantəpə sözü də buradan götürülmüşdür. Tarixi ipək yolu üzərində yerləşən bu abidənin özündə bu adı yaşatması məhz tarixi gerçəklikdən irəli gəlmişdir. Doğurdan da hər iki tərəfdən dağlarla əhatə olunan böyük düzənliyin ortasında yerləşən bu abidədən dəvə karvanları dayanacaq məntəqəsi kimi istifadə edə bilərmişlər. Abidənin lap yaxınlığından, ondan təxminən 50 m aralı, şimal-qərb hissəsindən dəmir yolu keçir. Bu dəmir yolu Qazax dəmiryolu stansiyası ilə Aveydağın ətəyində tikilmiş gil zavodu arasında salınmışdır. Dəmir yolu xətti yük daşımaq üçün salınmışdır. Bu xətt hələ XX əsrin 20-30-cu illərində rus əsgərləri və hərbi əsirləri tərəfindən salınmışdır. Xətti inşa edərkən onlar bu təpənin üzərində düşərgə salmışlar. Ona görə də yerli əhali həmin vaxtdan etibarən bu təpəni "rusların təpəsi" və ya sadəcə olaraq "Rustəpə" adlandırmışdır. Abidənin tarixi adı olan Sarvantəpə 2009-cu ildən burada qazıntılar aparan Şamil Nəcəfovun rəhbərlik etdiyi arxeoloji ekspedisiya tərəfindən özünə qaytarılmışdır.

Sarvantəpə abidəsi son tunc-ilk dəmir dövrünə aid (e.ə.II minilliyin sonu-I minilliyin əvvəli) yaşayış yeri olub, Qazax rayonunun Çaylı kəndi ərazisində yerləşir. Qazax-Əskipara avtomobil yolunun solunda yerləşən abidə şimal-cənub istiqamətində uzanır. Abidənin uzunluğu 110-115 m, eni 50-55 m, hündürlüyü isə 4,60-4,70 m-dir. Ümumu sahəsi isə təxminən 1,5-2 ha-ya bərabərdir. Əslində isə abidənin ərazisi indikindən çox-çox böyük olmuşdur. Apardığımız müşahidələr və yaxın radiusda səpələnmiş analoji arxeoloji materiallara əsaslanaraq bu abidənin təxminən 2,5-3 ha-ya qədər ərazisinin olması

qənaətinə gəlmək olur. Zaman-zaman baxımsızlıq ucbatından abidənin yerləşdiyi təpənin ətəkləri texnika vasitəsilə kəsilərək götürülmüş və əkin məqsədləri üçün sahələr genişləndirilmişdir.

Arxeoloq Şamil Nəcəfovun rəhbərlik etdiyi Qazax arxeoloji ekspedisiyası 2009-cu ildən başlayaraq Qazax rayonunun Çaylı kəndi ərazisindəki Sarvantəpə yaşayış yerində arxeoloji qazıntılar aparmaqdadır. Qeyd edək ki, keçən beş il ərzində arxeoloji qazıntılar abidənin 250 $m^2$ –lik sahəsində aparılmışdır. Qazıntı sahəsi müvafiq kvadratlara bölünmüş və mədəni təbəqənin sonunadək aparılmışdır.

Arxeoloji qazıntılar zamanı Sarvantəpə yaşayış yerindən son tunc-ilk dəmir dövrünün inkişaf etmiş və son mərhələlərini özündə ehtiva edən (e.ə.XIII-IX əsrlər) xarakterik maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Bu tapıntılar yaşayış evləri və təsərrüfat məqsədli tikililərin qalıqlarından, təsərrüfat quyuları, ocaq qurğuları, daş və keramika nümunələri, metaldan və sümükdən hazırlanmış müxtəlif məzmunlu və təyinatlı artefaktlardan ibarətdir.

Əsas tikinti materialı kimi möhrə və kiçik həcmli çay daşlarından istifadə olunmuşdur. Bəzi yerlərdə divarın üzərinə suvanmış saman qarışıqlı palçığın izləri qalmışdır. Evlərin döşəmə hissəsində saman qatışıqlı çoxlu suvaq qalığına təsadüf olunmuşdur. Suvanmış divar qalıqlarının bəzi yerlərdə qızarması və his bağlaması isə bu hissələrdə ocaq qalanmasından və suvağın güclü yanğına məruz qalmasından xəbər verir.

Ocaq qurğularının əksəriyyəti yarımdairəvi formadadır. Belə ocaq qurğuları yerdə qazılmış dairəvi çala formasındadır. Çalanın içərisi kül qatı ilə tamamilə dolmuşdur. Ocağın qab qoyulmaq üçün üst hissələri gildən yastı formadadır. Onlar yanlardan və arxadan dördkünc formada qurulmuş möhrə divarlarla əhatə olunmuşdur.

Qazıntılar zamanı xeyli təsərrüfat quyusu aşkar edilmişdir. Onların demək olar ki, hamısı materikdə, yəni mədəni təbəqə yatımının başlanğıcında qazılmışdır. Təsərrüfat quyuları çay daşlarından hazırlanmış, iti ağızlı, toxa şəkilli alətlərə qazılmışdır. Təsərrüfat quyularının divarları qazıldıqdan sonra azca hamarlanmış və suvanmışdır. Quyuların içərisi yaşayış yerində baş vermiş dağıntı və yanğın nəticəsində möhrə, çay daşları, kül, torpaq və müxtəlif ev avadnlığı qırıqları ilə dolmuşdur.

Arxeolji qazıntı işləri zamanı əldə edilən artefaktların əksəriyyəti keramika nümunələridir. Əsasən boz, qırmızı, qara və tək-tük sarımtıl rəngli, keyfiyyətli gildən formalaşdırılaraq dulus çarxında hazırlanmış xeyrə, küpə, çölmək, kuzə, cam, kasa tipli qablardan ibarətdir. İri təsərrüfat küpü, qazan, sini, fincan, çölmək, sac və təknəvari qablar da dulus çarxında hazırlansalar da gilinə iri qum və kiçik çınqıl qarışığı qatıldığından görkəmcə kobud görünürlər. Sarvantəpə yaşayış yerinin gil qabları batıq, sınıq, qabarıq xətlər, şaquli paralel qabarıq xətlər arasında alt-alta yapışdırılmış gil düyməciklərlə, küpənin boğaz hissəsinə şaquli şüyrəli zolaqlar və s. naxış nümunələri ilə bəzənmişlər. Boz rəngli qablara en kəsiyi dairəvi, üstü dirsəkli və lentvari qulplarla təsadüf olunur.

Daş məmulatına dən daşları, sürtgəclər, bülöv daşları, dəstəklər, daş ərsinlər, daş toxalar aiddir. Dən daşları qayıqvari və oval formadadır. Üzləri yaxşı hamarlanmış dəstəklər isə uzunsov və şar şəklindədirlər. Əksəriyyətində işlənmə izləri müşahidə olunur. Sarvantəpə yaşayış yerindən tapılan bu daş alətlər Gəncə-Qazax bölgəsinin qədim sakinlərinin əkinçilik mədəniyyətini öyrənmək üçün böyük əhəmiyyət kəsb edirlər.

Bundan əlavə Sarvantəpə yaşayış yerindən gil möhürlər, sümükdən hazırlanmış əyircəklər, sümük bizin qalığı, oval formalı qəhvəyi, qara və boz rəngli daş asmalar tapılmışdır.

Bu materiallar abidənin dövrü, xüsusiyyətləri, abidənin qədim sakinlərinin təsərrüfat həyatı və məişətini əks etdirən məlumatların ümumiləşdirilməsinə kömək edir. Abidənin ərazisində aparılmış arxeoloji tədqiqatlar burada son tunc-ilk dəmir dövründə yaşayışın intensivliyi haqqında daha dolğun məlumat bazasının yaranmasına kömək edir.













## Saritəpə yaşayış yeri



Sarıtəpə qədim yaşayış məskəni Qazax şəhərinin qərb qurtaracağında yerləşən kərpic zavodunun həyətində yerləşir. Abidə 100 metr diametrində və 10 metr hündürlüyündə olan bir təpədən ibarətdir. 1956-1958 illərdə abidədə arxeoloji qazıntılar aparılmışdır. Sarıtəpə yaşayış yeri tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərində meydana gəlmiş və e.ə. I minilliyin sonuncu rübünədək burada yaşayış davam etmişdir.

Tədqiqatçılar müəyyən etmişlər ki, e.ə. VII əsrdə Sarıtəpədə yanğın baş vermişdir. Burada yanğından əmələ gəlmiş təbəqənin qalınlığı 0,7 metrə qədərdir. Həmin təbəqədən aşkar edilmiş binaların inşasında çay daşından, saman qarışıq palçıqdan və ağacdan istifadə edilmişdir. Binaların tavanı və divarları saman qatışıq gillə suvanmışdır. Tavanı saxlamaq üçün divar boyu yerə basdırılmış dirəklərin oyuqları aydın şəkildə seçilir. Tədqiqatçıların fikrincə binaların üstü küləşlə örtülmüşdür. Arxeoloji qazıntılar zamanı Sarıtəpədə xeyli təsərrüfat və dini xarakterli binalar aşkara çıxarılmışdır. Öyrənilmişdir ki, bu tikililər öz xarakteri baxımından hansısa bir ailə və ya kiçik bir kollektivə deyil, bütün qəbilə və ya tayfaya məxsus olmuşdur. Alimlərin əksəriyyəti Sarıtəpəni böyük tayfa ittifaqlarından birinin mərkəzi hesab edirlər. Burada tapılan iki sütun altlıqları bütün Qafqaz üçün unikal sayıla bilər. Onlar bir çox əlamətlərinə görə qədim İranın Suza və Persepolis şəhərlərindəki memarlıq abidələrinə oxşardır. Beləliklə Yaxın Şərq analoqlarına uyğun olaraq Sarıtəpədən üzə çıxarılan sütun altlıqları e.ə. V-IV yüzilliklərə aid etmək olar. Belə analoji sütun altlıqları yaxın illərdə Şəmkir rayonunun Qaracəmirli kəndində də aşkar edilmişdir. Sarıtəpənin bina qalıqlarından birinin yaxınlığından yerə basdırılmış 14 küp aşkar edilmişdir. Küplər iri həcmli, qabarıq gövdəli, geniş ağızlı olub, qulaqcıqlarla bəzəklidir. Sarıtəpənin gil qabları narın gildən, yapma üsulu ilə və ya dulus çarxında hazırlanmış çoxlu qara rəngli gil qablardan ibarətdir. Qablar çox incə şəkildə cilalanmış və üzəri cızma və ya yapma üsulu ilə naxışlanmışdır. Qabların qulpu əsasən zoomorf formada hazırlanmışdır.

Sarıtəpədə aparılan arxeoloji qazıntılar zamanı tapılmış maraqlı materiallar içərisində 1 ədəd tunc təbərzin baltanı qeyd etmək lazımdır. Sarıtəpədən tapılmış döyüş baltasını digərlərindən fərqləndirən cəhət tiyəsinin üzərində yolkavari bəzəyin və nişanın olmasıdır. Nişan iki cərgə nöqtələrdən və cərgələrin arasını birləşdirən kiçik xətlərdən

ibarət olub, çox güman ki, baltanı hazırlayan usta və ya emalatxanaya məxsus əlamət bildirilir.

Sarıtəpədən həmçinin xeyli miqdarda dördkünc və dairəvi formalı möhürlər də tapılmışdır. Möhürlərin işlək üzündə sadə və mürəkkəb motivdə günəş simvolu olan çərxi-fələk (svastika) nişanları təsvir olunmuşdur.

Qazıntılar zamanı məişətdə işlədilən daş və sümük alətlərə də təsadüf edilmişdir. Burada gildən hazırlanmış heyvan başlarının fiqurları tapılmışdır. Azərbaycanın digər həmdövr abidələrində olduğu kimi Sarıtəpədə də metal əşyalar az tapılmışdır. Buradan tuncdan hazırlanmış Cənubi Qafqaz tipli ox ucluqları, at fiquru formasında asma və digər əşyalar əldə edilmişdir.

## Daş Salahlı kurqanı



Daş Salahlı kəndinin girəcəyində, sağ tərəfdə son tunc-ilk dəmir dövrünə aid kurqan. Çox böyük kurqan olub, hündürlüyü təxminən 15-18 metr, diametri isə 60 metrdən çoxdur.

## Boztəpə yaşayış yeri

Daş Salahlı kəndindən 1km şərqdə yerləşən tunc-ilk dəmir dövrü abidəsi. Sahəsi 0,5 ha-dır. Üzərində dövrünü əks etdirən xeyli sayda gil qab fraqmentləri, daş nümunələr, sümük fraqmentləri tapılmışdır. Sümüklərin üzərində dərin yanma və his izlərinə rast gəlinir.

## Rza Çal yaşayış yeri və qəbiristanlığı





Daş Salahlı kəndində, Avey dağının ətəyində son tunc-ilk dəmir dövrünə aid abidə kompleksi. Yaşayış yeri və onun qəbiristanlığından ibarətdir.

## I Ürkməzli təpəsi yaşayış yeri



Ürkməzli kəndi ərazisində, Qazax-Əskipara şosse yolundan təxminən 200 metr aralı, Əskipara istiqamətində yolun solunda, Coğazçayın sol sahilində, yaşayış evlərinin düz əhatəsindədir. Bu abidə Qazax-Əskipara yolundan ayrılıb Dəmirçilər kəndinə gedən asfalt yolun solundadır. Abidənin bir hissəsi dağıdılmış, həyətyanı sahə kimi çəpərlənmişdir. Üzərində tunc, antik dövrlərinə və ilk orta əsrlərə aid keramika nümunələrinə rast gəlinir.









## II Ürkməzli təpəsi yaşayış yeri



Ürkməzli kəndi ərazisində, Coğaz çayının sol sahilində, I Ürkməzli təpəsindən 100-150 metr aralıdadır. Hər iki təpənin h=5-6 metr, sahəsi isə təxminən 600-800 $m^2$-dir. 2-ci təpə 1-cidən nisbətən böyük və hündürdür. II Ürkməzli təpəsinin üstündə ilk orta əsrlərə aid xeyli keramika vardır. Bu təpənin ortasında iri təsərrüfat küpü vardır.





## Xırmantəpə yaşayış yeri

Çaylı kəndi ərazisində, Qazax-Aşağı Əskipara yolunun yaxınlığında yerləşən son tunc-ilk orta əsrlərə aid yaşayış yeri. Ölkə əhəmiyyətlidir.

## Qazaxbəyli nekropolu

Qazaxbəyli kəndi ərazisində e.ə. VII-VI əsrlərə aid nekropol. Ölkə əhəmiyyətli arxeoloji abidələr sırasındadır.

1954-cü ildə Qazax rayonunun Qazaxbəyli kəndində əkin sahəsini genişləndirmək məqsədilə təpə düzəldilərkən qədim dövrlərə aid bir çox qəbirlər dağılmış və onların avadanlığı aşkara çıxmışdır. Həmin kəndin yeddiillik məktəbinin müəllimlərindən Əziz Qasımov maddi mədəniyyət qalıqlarından bir əsini toplamış və bu barədə Elmlər Akademiyasına məlumat vermişdir. Bundan sonra arxeoloqlar S.M.Qazıyev və C.Ə.Xəlilov Qazaxbəyli kəndinə ezam edilmişdilər.





Burada aparılan qısamüddətli arxeoloji tədqiqatlar təsdiq edir ki, təpə çox qiymətli arxeoloji obyekt olmuşdur. Bu obyektin qiymətli olmasını göstərmək üçün tapıntıları və arxeoloji qazıntıları nəzərdən keçirmək lazımdır. Təpənin orta hissəsi, əsasən tunc dövrünün axırı və dəmir dövrünün əvvəlləri üçün xarakterik olan qəbir abidələri ilə zəngindir. Qəbirlərdən maraqlı arxeoloji materiallarla yanaşı həmin dövrün dəfn adətlərini öyrənməkdə əsaslı olan insan skeletləri aşkar edilmişdir. Qəbirlərdən əld edilmiş silah nümunələri daha rəngarəngdir.

## Gümbültülütəpə yaşayış yeri

Aşağı Salahlı kəndində, Kür çayı sahilində ilk dəmir dövrü və orta əsrlərə aid yaşayış yeri. Ölkə əhəmiyyətli arxeoloji abidədir.

## Yeddi qardaş abidəsi



Bu yerə Yeddi daş da deyirlər. Yeddi qardaş arxeoloji abidəsi Dəmirçilər kəndinin cənub-qərbində, Qapaqlı dərə məhəlləsinin qurtaracağındadır. Bir-birinə sığınmış daşlardır. Deyilənə görə, vaxtilə yeddi bütöv daş olub. İkisi sonralar parçalanıb. İnsanlar buraya ziyarətə gələr, şam yandırıb daşların üstünə qoyar və niyyət edərlər. Qurban kəsənlər də olur. Tədqiqatlara görə bu arxeoloji abidənin tarixi erkən Dəmir dövrünə təsadüf olunur.

Bura ilə bağlı maraqlı əfsanə var. Çox qədim zamanlarda buraya düşmənlər hücum etməyə hazırlaşır. Xəbər tutan camaat gecə-gündüz kəndin yuxarı başında yeddi-yeddi keşik çəkməyə başlayırlar. Növbə kənddə yaşayan yeddi qardaşa çatır. Onlar növbədə ikən düşmənlərin mühasirəsinə düşürlər. Allaha dua edirlər ki, düşmənin əlinə keçməsinlər. Bu duadan sonra göydən ildırım çaxır, yağış yağır. Səs-küyə camaat oyanır, kəndi müdafiə edir, qardaşlar isə daşa dönür. O vaxtdan bu yer pir olub.

## Gəmiqaya təpəsi

Gəmiqaya adlanan təpə Bakı-Tbilisi avtomagistralın sağ tərəfində, Birinci Şıxlı kəndinin yanında ucalır. Bir tərəfi uçurumdur. Təpənin zirvəsindən Kür çayına möhtəşəm bir görüntü açılır. Bu yerin Gəmiqaya adı ilə adlanması, qəbir daşlarında gəmi şəkillərinin şəkilməsi, xalq arasında gəmiçiliyə aid əfsanələrin saxlanması buranın əhalisinin gəmiçiliklə də məşğul olduğunu göstərir.

Gəmiqaya təpəsinin səthində qədim saxsı qabların parçaları və qırıntıları asanlıqla təsadüf edilir. Bu parçalar göstərir ki, bu ərazidə çoxsaylı qırmızı, sarı və qara rəngli, müxtəlif ölçülü və təsərrüfat təyinatlı gil qablar, küplər mövcud imiş. Qabların üzərinə yapma, cızma və çəkmə üsulu ilə naxışlar vurulmuşdur.

Gəmiqayada sistematik arxeoloji qazıntılar aparılmayıb. Lakin, buradakı saxsı parçaların Qazaxın başqa yerlərində tapılan analoji əşyalarla müqayisəsi, Gəmiqaya qədim yaşayış məskənini erkən Dəmir dövrünə (e.ə. 8-6 əsrlər) aid etməyə imkan verir. Bu ərazinin gələcəkdə daha geniş tədqiqata ehtiyacı var.

Aşağıda göstərilən saxsı parçalar 2010 ildə Gəmiqayada aşkar olunmuşdur.






## Köhnə qəbiristanlıq

Əzizbəyli kəndində, çınqıl karxanası açılmış təpədə dəmir dövrünə aid qəbiristanlıq yeri. Ölkə əhəmiyyətli arxeoloji abidələr sıyahısındadır. Dağılmış qəbirlərdən tapılmış gil qablar, əsasən boz rəngli olub, onların tunc dövrünə aid olduğunu ehtimal edirik. Buradan tapılmış əşyalar tunc dövrünün sonu-dəmir dövrünün əvvəllərinə aid olsa da, çaxmaq daşından qayrılmış alətlərin tapılması buranın çox qədimdən və nekropol olmasını isbat edir.

Qəbiristanlıqdan xeyli sayda əqiq və şüşə-pastadan hazırlanmış muncuqlar, sümükdən hazırlanmış kəsici alətlər, sümük bizlər, metaldan hazırlanmış silah nümunələri (dəmirdən hazırlanmış ox ucluğu, tuncdan nizə ucluğu və s.) və məişət əşyaları (iynə, biz) da tapılmışdır.





## I Gavur qəbiristanlığı

Daş Salahlı kəndində, Avey dağının digər tərəfində Xal-xal şəhər yerindən qərb tərəfdə alban və xristian qəbirlərindən ibarət qəbiristanlıq yeri. Yerli əhali buradakı qəbirlərin müsəlman qəbrləri olmadığına görə həmin qəbiristanlığı “gavur qəbiristanlığı”, yəni “kafir qəbiristanlığı” adlandırmışdır.

## Xal-Xal şəhər yeri

Daş Salahlı kəndi ərazisində, Avey dağında Şişqayanın ətrafında antik-ilk orta əsrlərə aid alban dövrünə aid şəhər qalıqları. Bu ərazidə kiçikmiqyaslı arxeoloji tədqiqatlar aparılsa da ərazinin tamamilə tədqiq edilməsi alban dövrü tarixinin öyrənilməsinə böyük töhfə vermiş olacaqdır.

## Damcılı bulağı



Avey dağının aşağısında yerləşən Damcılı bulağı çox mənzərəli yerdə yerləşir. Təbii çatlardan süzülən su damcılarına görə bura Damcılı bulağı adlandırılmışdır. Ümumi hündürlüyü 1000 metrə çatan nəhəng qayalardan süzülən saf və duru, buz kimi soyuq su damcı-damcı tökülür, aşağıdakı oyuqlarda yığılıb bulaq olur. Bulağın düz yuxarı hissəsində Damcılı mağarası yerləşir. Məşhur Azərbaycan şairi Səməd Vurğun Damcılı bulağını dünyanın 8-ci, Azərbaycanın 1-ci möcüzəsi adlandırmışdır. Bura Qazax rayonu sakinlərinin əsas istirahət yeri, turizm mərkəzidir. Damcılı bulağı Avey qoruğuna daxil olub Damcılı mağarası ilə bir kompleks təşkil edirlər.

## Daş su anbarları

Daş Salahlı kəndi ərazisində, Avey dağının Şişqaya adlanan hissəsinin cənub-şərq və şimal-qərb tərəflərində antik dövrə aid olduğu ehtimal edilən daş oyma su saxlanc yerləri. Ölkə əhəmiyyətli abidədir.

## Yel dəyirmaninin qaliqlari

Daş Salahlı kəndində, Avey dağının Qızıl qaya adlanan hissəsində antik-orta əsrlərə aid dəyirman qalıqları. Ölkə əhəmiyyətli abidədir.

## Alban məbədinin qalıqları



Kəmərli kəndi ərazisində ilk orta əsrlərə aid məbəd qalıqları. Ölkə əhəmiyyətlidir. Məbədin müəyyən hissələri tamamilə dağılmışdır. Bu məbəd XVII əsrdə bərpa olunsa da ilk memarlıq üslubunu qoruyub saxlamışdır. Çay daşları və qırmızı rəngli bişmiş gil kərpicdən inşa edilmişdir. Sahəsi təxminən 50-60 kv.m-dir.

## Hunan (Xunan) qalası

I Şıxlı kəndi ərazisində, Kür və Xram çaylarının qovuşuğunda ilk orta əsrlərə aid qala qalıqları. Ölkə əhəmiyyətli abidədir. Qədim hun tayfaları ilə bağlasalar da bu mülahizələrin heç bir elmi əsası yoxdur.

## Narınqala

Daş Salahlı kəndi ərazizində, Avey dağının Şişqaya adlanan hissəsində antik-ilk orta əsrlərə aid alban şəhər yerinin narınqalasının qalıqları. Xal-Xal şəhər yerinin yaxınlığında olan narınqala çox ehtimal ki, bu şəhərin narınqalası funksiyasını daşımışdır.

## I Alpout yaşayış yeri



Qazax-Əskipara şosse yolunun Əskipara istiqamətində sağında yerləşir. Sahəsi təxminən 1 ha-dır. Üzərində sonradan salınmış tək-tək müsəlman qəbirlərinə də rast gəlinir. Toplanan keramika onun antik və ilk orta əsrlərə aidliyini göstərir.

## II Alpout yaşayış yeri



Bu yaşayış yeri I Alpout yaşayış yerindən təxminən 150 metr aralıdadır, yolun (Qazax-Əskipara) sağındadır. Sahəsi də təxminən 1-1,5 ha-dır. Abidənin üzəri neçə illərdir ki, pay torpağı kimi əkilir və becərilir. Tək-tək rast gəlinən keramika nümunələri onun dövrünü müəyyən etməkdə köməklik göstərir.

## Süni mağaralar

Daş Salahlı kəndi ərazisində, Avey dağının cənub və qərb tərəflərində aşkar olunmuş ilk orta əsrlərə aid 10-a qədər mağaralar. Ölkə əhəmiyyətli abidələr siyahısındadır.

## Dəmirçilər yaşayış yeri

Dəmirçilər kəndində, Kür çayının sol sahilində ilk orta əsrlərə aid yaşayış yeri. Ölkə əhəmiyyətli arxeoloji abidədir. Tapılmış yerüstü materiallar qeyd olunan dövrdə ərazidə yaşayışın intensiv olması barədə tutarlı fakt mənbəyidir.

## Yaşayış yeri

Abbasbəyli kəndindən 400 metr aralı ilk orta əsrlərə aid yaşayış yeri. Ölkə əhəmiyyətli arxeoloji abidələr sırasındadır.

## Məbəd



Qazax rayonunun Yuxarı Əskipara kəndi ərazisində V-VIII əsrlərə aid memarlıq abidəsi. Ölkə əhəmiyyətli abidələr siyahsındadır. Məbəd dini ibadətgah məqsədilə inşa edilmişdir. Alban memarlığı üslubunda tikilmiş bu məbəd yaxşı vəziyyətdə qalmışdır. Coğaz çayının sol sahilində hündür təpə üzərindədir. Üslub etibarilə Qəbələ və Qax rayonları ərazisindəki alban tikililərini xatırladır. Hündürlüyü 18 metrdir. Ortasında böyük altıbucaqlı formada tikili və ona birləşik üç kiçik alaqapı formalı tikilidən ibarətdir. Qapılarınən başında alban xaçı vardır, sütunlarında isə nəbati və zoomorf (balıq) şəkillərindən ibarət bəzək elementləri görünür. Analoji abidələrə Suriya ərazisində də rst gəlinir. Xristianlığın ilkin yayılma dövrlərini əks etdirir. Həyətində yazılı qəbir daşları mövcuddur.

Bu qəbirlərin qədim albanlara məxsus olması haqqında mülahizələr mövcuddur. Qəbir daşlarının birinin üzərində qarqarca yazılmışdır: ".....yurdumuzu tərk etmədik, qriqorianlara əyilmədik, qırıldıq...". Qədim məbəd aid olduğu kəndlə birlikdə Ermənistanın işğalı altındadır.

## Alban məbədi





Daş Salahlı kəndi ərazisində Avey dağın zirvəsində alban dövrünə aid ölkə əhəmiyyətli tarixi abidə. Qədim məbəd Avey dağının cənub zirvəsində yerləşir, qərb tərəfdən ona lap qədim dövrlərdən salınmış yol qalxır. Bu yol daş plitələrlə döşənmişdir. Məbədin belə bir hündür yerdə tikilməsi onun alban memarlığının səciyyəvi əlamətlərindən biri ilə bağlılığını bildirir. Ümumiyyətlə, istər Qazax rayonu ərazisində, istərsə də digər ərazilərdə alban məbədləri hündür yerlərdə salınmışdır və bu da həmin məbədlərin müqəddəs sayılmaları, ən yüksək yerlərdə salınmaları, dini ibadətgah ocaqlarında insanların allaha dua etməliəri üçün ən yüksək yeri seçmələri ilə (insanların dini əqidəsinə görə allaha yaxın olmaq anlamında) əlaqədardır. Belə alban məbədləri Daşkəsən, Gədəbəy, Agstafa, Şəmkir, Tovuz, Qax, Zaqatala, Balakən ərazisində də mövcuddur və onların salındığı yerlər də hündür təpələrin zirvələridir və yaxud dağlıq yerlərdir.

Avey dağında yerləşən məbəd Daş Salahlı məbədi adı ilə tanınır. Yerli camaat isə buranı sadəcə "Xaç" adlandırır. İki nefli –yəni otaqlı məbəd yerli Avey daşlarından inşa edilmişdir. Şimal hissəsinin tavanı tağvari, cənub hissəsinin tavanı isə konusvari günbəzlə tamamlanır. Aparılmış tədqiqatlardan əldə edilmiş nəticələrə və məbəd ətrafında kiçikmiqyaslı arxeoloji qazıntıların verdiyi bilgilərə əsasən məbəd V-VII əsrlərdə Qafqaz Albaniyası dövlətinin dövründə inşa edilmişdir. Məbəd ətrafındakı alban qəbirlərinin sinə daşları albanlara xas olan üslubda naxışlanmışdır. Alban qəbir daşlarının birinin üstündə emblem kimi albanlara məxsus lotos gülü və onun yuxarı künclərində günəş simvolu olan içərisi 8 hissəyə ayrılmış rozetka və ya svastika qazılmışdır.

Daş Salahlı alban məbədi haqqında ilk araşdırma F.Muradova tərəfindən aparılmış və tədqiqatçı məbədin tikildiyi dövrü və alban xaç daşınınn təyinatı haqqında fikirlər irəli sürmüşdür. Bəzi mülahizələrə əsasən bu məbəd orijinal deyildir. Yəni ilkin tikili olmayıb, V əsrdə burada inşa edilmiş alban məbədinin yerində tikilmiş XII əsr xristian məbədidir. Alban məbədi üzərində olan alban yazısı əks olunan epiqrafik lövhə vaxtilə qapının

girəcəyində, yuxarıda vurulmuşdur. Bu məbədin yerində tikilən ikinci məbəd tikilərkən həmin lövhə daş kimi məbədin qapısına hörülmüşdür.

Məbəd çox ehtimal ki, yaxınlıqda mövcud olan qədim Xal-xal şəhərinin sakinlərinin dini ibadətgah yeri olmuş, buraya çox yaxın ərazidə məskunlaşan qədim alban tayfaları dini ayinlərini yerinə yetirmək üçün gələrmişlər. Məbəd hazırda Ermənistan silahlı qüvvələri ilə atəş-təmas mövqeyinə düşdüyündən oraya gediş-gəliş məhduddur.

## Atəşpərəstlər daxması

Xanlıqlar və Köçəskər kəndləri arasında e.ə. VI əsrə aid tikili qalıqları. Ölkə əhəmiyyətli abidələr sırasındadır. Ətrafa baxış zamanı bir çox zoomorf gil qab qırıqları da tapılmışdır. Burada aşlan daxma və tikili qalıqlarının öyrənilməsi göstərir ki, çox mənzildən ibarət olan bu tikinti uzun müddət yaşamış və müəyyən vaxtlarda bərpa edilmişdir. Daxmanın divarlarında qapı və pəncərə yerləri vardır. Ətrafdan tapılmış gil qab qırıqları içində şirli qab nümunələrinə də rast gəlinir.

## "Qalakənd qalası" məbəd kompleksi



Bu məbəd kompleksi Yuxarı Əskipara kəndində, Coğaz çayının sağ sahilində yerləşir. Bəzi fərziyyələrə əsasən bu kompleks Qafqaz Albaniyası hökmdarlarının iqamətgahlarından biri olmuşdur. Kompleks təxminən 2,5 ha ərazidə yerləşərək ikiqat divarla əhatə olunmuşdur. Divarlar arasında məsafə təxminən 12 metrə yaxındır. Divarlar yerin relyefi ilə uzlaşdırılaraq strateji baxımdan çox mükəmməl bir tərzdə ucaldılmışdır. Qalanın daxili hissəsində dini, xidməti və təsərrüfat təyinatlı tikililər ucaldılmışdır. Bunların içində ən önəmlisi qalanın yuxarı hissəsində yerləşən məbəddir. Məbədin tikintisində 21x21x57 sm ölçülü bişmiş kəricdən və yerli tikinti materialından –gəc və bünövrə üçün dağ daşından istifadə olunmuşdur.

1970-ci ildə bu kompleksdə arxeoloji tədqiqatlar aparılmışdır və antik, ilk orta əsrlərə aid xeyli maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Tədqiqatçıların fikirlərinə görə kompleksin tikildiyi tarix VI-IX əsrlərə aid edilir.

Abidə hazırda erməni silahlı qüvvələrinin işğal etdikləri ərazidə yerləşir. Buna görə də həmin kompleksin əlimizdə olan fotoları köhnə çəkilmiş fotolardır.

## Didivan (Dədəban) qalası



Qala Qazax şəhərindən 5 km aralı, Xanlıqlar kəndinin qərbindəki Dədəban dağının döşündə yerləşir. İrəvandan Qazax istiqamətində səmt alan qədim karvan yolunun kənarındadır.

Xalq arasında qalaya Koroğlu qalası da deyilir. Adını müxtəlif cür desələr, ayrı-ayrı mənalandırsalar da, Dədəban - dədə evi kimi izahı daha inandırıcıdır. Başqa fərziyyəyə görə "Didi" fars sözü olub və mənası "göz" deməkdir, "van" isə məskən, məntəqə mənasındadır. Gözətçi məntəqəsi mənasını verir.

Planda qala dairə şəkilindədir. İri qaya parçalarından örülmüş qalanın hündürlüyü 8,3 metr, diametri isə 5,9 metrdir. Divarların eni aşağıda 1 metr, yuxarıda - 0,5 metrdir. Qalanın iç hissəsi boşdur. Lakin divarların bəzi yerlərində mərtəbələrin örtüyünü təşkil etmiş taxtalar üçün oyuqlar qalmışdır. Güman edilir ki, qala təxminən VI-VII əsrlərdə inşa olunub. XX əsrin ortalarınadək bura ziyarətgah olub. Dəlican yolu tərəfə istiqamətlənən müşahidə dəlikləri tikintinin məhz müşahidə, gözətçi qalası olduğunu sübut edir. Analoji müşahidə qalaları Coğaz çayın sahilində və Cəfərli kəndin yaxınlığında da var.

## Didivan (Dədəban) yaşayış yeri



Xanlıqlar kəndi ərazisindədir. Yaşayış yeri də eyniadlı olub, yerüstü keramika nümunələrinin xüsusiyyətləri əsasında eyni dövrə aid edilir.

## Şəhər bağı

İndiyədək öz mənzərəsini qoruyub saxlayan Qazax şəhərinin bağı qədim dövrlərdən salınmış istirahət yeri olmuşdur. Burada aparılan bərpa işləri zamanı dəfələrlə orta əsrlərin şirli gil qab nümunələri də tapılmışdır.

## Eşşəktəpə yaşayış evi

Qazaxbəyli kəndi ərazisində orta əsrlərə aid yaşayış yeri. Yerli əhəmiyyətli arxeoloji abidələr siyahısındadır. Qazaxbəyli kəndi Qazax şəhərindən 10 km qərbdə, Bakı-Tiflis şosse yolunun şimalında yerləşir. Maddi mədəniyyət qalıqları tapılmış təpə kəndin şərqində, ondan 500-600 metr kənardadır. Yerli əhali bu təpəyə "Eşşəktəpə" deyirlər. bu təpənin uzunluğu təxminən 200 metr, eni 100 metr, hündürlüyü 4-5 metr olmuşdur. Bu təpədən 400 addım şimal-şərqdə başqa bir uzunsov təpə vardır. Yerli əhali bu təpəyə Mollamey təpəsi deyirlər.

Eşşəktəpədə arxeoloji tədqiqatlar məqsədilə 5 yerdə kiçik miqyaslı qazəntı kvadratları qoyulmuşdur. Qazıntılar nəticəsində məlum olmuşdur ki, bura həm qədim qəbiristanlıq, həm də yaşayış yeri olmuşdur. Qəbirlərin tədqiqi zamanı məlum olmuşdur ki, burada kişilər sağ, qadınlar isə sol böyrü üstə basdırılmışdır. Qəbirlərin ən sıx olduğu yer təpənin mərkəz hissəsi olmuşdur. Təpənin üst hissəsində isə xeyli təsərrüfat küplərinin qırıqları, daş alətlər çıxarılmışdır.

Yekun nəticə olaraq məlum olmuşdur ki, Eşşəktəpədən tapılmış maddi mədəniyyət qalıqlarına əsasən bu təpədə müxtəlif dövrlərə aid qəbiristanlıq və orta əsrlərə aid yaşayış yeri olmuşdur. Bu təpədən aşkara çıxarılmış gil qablar, zinət şeyləri, muncuqlar və sairə-

nin az hissəsi qalmışdır. Tapılmış gil qablar öz formalarına. Bişirilmə texnikasına və rənglərinə görə bir-birindən fərqlənirlər.

## Şəhərgah

Yuxarı Əskipara kəndi ərazisində orta əsrlər dövrünə aid şəhər tipli yaşayış yerinin qalıqları. Tamamilə dağılmış və torpaqda itib-batmışdır. Əsaslı arxeoloji tədqiqatlara ehtiyacı vardır.

## Qaya Kasavari yalaqlar



Daş Salahlı kəndində, Avey dağında antik dövrə aid olması ehtimal edilən süni yaradılmış su saxlanc yerləri. Əsasən heyvandarlıq təsərrüfatında  istifadə edilməsi ehtimal olunur. Sonralar onun yeri bərpa edilmiş, yalaq salınmış qayanın ətrafında sürüşmələr olmuşdur. Hazırda yalaq olan daş dağdan xeyli aralıya sürüşmüşdür. Onun ətrafında biçənək və otlaq yerləri vardır. Ən son dövrlərdə isə onun içərisi təmir edilmiş, yenə də su saxlanması üçün istifadə edilməkdədir.

## Qollu qaya qalaçasi

Daş Salahlı kəndi ərazizindəki Avey dağının Qollu qaya adlanan hissəsində orta əsrlərə aid qalaça yeri. Ölkə əhəmiyyətli abidədir.  Haça qoldan ibarət olduğu üçün yerli əhali buranı belə adlandırır.

## Ovdan

Orta əsrlərə aid ovdan Daş Salahlı ərazisində, Avet dağının ətəyindədir. Ovdanın gözü tutulmuşdur və ətrafında xeyli sayda orta əsrlərə aid su tünglərinə və səhənglərinə rast gəlinir.

## Qarabulaq yaşayış yeri



Daş Salahlı kəndinin yaxınlığında, Avey dağının ətəyində, Qara bulağın ətrafında yerləşir. Bulağın qazıntısı və çəkilişi zamanı tapılan materiallar iri təsərrüfat küplərinin qalıqlarından ibarət olmuşdur. Bu materiallar orta əsrlərə aiddir.





## Coğaz-Alpout yaşayış yeri



Bu yaşayış yeri Alpout kəndinin Ürkməzli kəndi ilə sərhəddində, Coğaz çayının sol sahilində yerləşir. Əkin yerlərinin ortasındadır. Təpə üzərində yerləşən abidə şərq-qərb istiqamətində uzunsovdur.

## Təzətəpə yaşayış yeri



Alpout kəndi ilə Abbasbəyli kəndinin arasındadır. II Alpout yaşayış yerindən 150 metr aralıdadır. Yerüstü keramika nümunələrinə rast gəlinir. Üzərində tək-tək salınmış müsəlman qəbirləri mövcuddur.

## Qırmızı körpü (Sınıq körpü)



Memarlıq abidələrimizin ən nəfis nümunələri içərisində öz xüsusiyyətləri ilə seçilən Qırmızı körpü Qazax-Tbilisi yolunda, Xram (Təpədöy) çayı üzərində qurulub. Hal-hazırda Gürcüstanla Azərbaycan arasında olan dövlət sərhədi məhz burdan keçir. Abidə XII əsrdə Atabəy hökmdarı Məhəmməd Cahan Pəhləvan zamanında tikilib. Dörd aşırımlı (aşırımların uzunluğu - 8,2 m, 16,1 m, 8 m, 26,1 m) körpünün ümumi uzunluğu 175 metrdir. Sahildə eni 12,4 m, keçid hissədə isə 4,3 m. Başdan-başa bişmiş kərpiclə üzləşmiş abidə buna görə də "Qırmızı körpü" adını alıb. Sahil dayaqlarında vaxtilə karvanların gecələməsi üçün geniş otaqlar var (sol sahilində 168 kv.m, sağ sahilində 116 kv.m). Belə iri karvansaların olması körpünün karvan yollarında böyük əhəmiyyət daşıdığını göstərir. Qırmızı körpü üslub cəhətdən qədim Gəncə, Xudafərin, Marağa və Ərdəbil körpüləri ilə eyniyyət təşkil edir. XVII əsrdə Şax Abbas tərəfindən əsaslı təmir etdirilib və bəzədilib.

Xalq arasında bu körpüyə Sınıq körpü də deyilir. Lakin Qırmızı körpüdən daha qədim olan tarixi Sınıq körpü çay axarı ilə 100 metrə aralıda yerləşirdi. Gümana görə o Qafqaz Albaniyası dövründə (V əsr) inşa edilib. Tikiləndən uzun illər sonra körpünün tacı, daş çatmasının biri sınır. O vaxtdan adı Sınıq körpü qalıb. Zaman içərisində dağılan körpünün qalıqları indi də bilinir. Yaxınlıqdakı məşhur Qırmızı körpü ilə birlikdə ikisinə Qoşa körpü adını veriblər.

## Qatır körpüsü



Bu körpü Əskipara çayının üzərindən atılaraq Yuxarı Əskipara kəndi yaxınlığında tikilmişdir. XII-XIII əsrlərdə tikilməsi ehtimal edilir. Körpünün uzunluğu 7,3 m, mərkəzi hissəsinin eni 2,7 m ümumu hündürlüyü isə tağ yerindən su səthinə qədər 5,8 m təşkil edir. Körpü bir tağlı olaraq qaya daşlarından inşa olunmuşdur. Aşırımın ümumi görkəmi yarımçevrə şəkillidir. Onun keçid hissəsinin üst örtüyü torpaqdandır. Hal-hazırda abidə ermənilərin işğal etdikləri ərazidə yerləşir.

## Göyəzən yaşayış yeri



Alpout kəndi ərazisində, Göyəzən dağının ətəyində yerləşir. Burada ilkin arxeoloji araşdırmalar sübut edir ki, bu yaşayış yeri inkişaf etmiş orta əsrlərin ən strateji plan quruluşuna malik istehkam tipli yaşayış yerlərindən biri olmuşdur.







## Göyəzən qalası



Göyəzən dağı Qazax rayonunun rəmzi sayılır. O, mərkəzdən 20 km aralıda, Coğaz çayından 2 km solda, Alpout kəndində yerləşir. Nadir geoloji təbiət abidəsi hesab edilən dağ vulkan püskürməsi nəticəsində yaranıb. Təkdir və heç bir dağa bitişik deyildir. Hündürlüyü 250 metr olsa da, yerli əhali buranı "dünyanın mərkəzi" hesab edirlər. Dibində və ətəyində iri və qədim yaşayış yerinin, yeddibürclü qalanın qalıqları görünür.

Gövdəsində qədim insan məskəni sayılan mağaralar vardır. Zirvəsi nisbətən yastıdır. Qədim dövrlərdə dağın zirvəsindən həm də gözətçi məntəqəsi kimi istifadə edilidi. Bayramlarda və düşmən təhlükəsi olanda dağın zirvəsində tonqal qalanarmış. Göyəzən toponimlə bağlı müxtəlif rəvayətlər və yozmazlar var. Lakin ən inandırıcı izahat "göylərə baş vuran", "göy əzən" yozmasıdır.

Bu müdafiə istehkamı Qazax rayonunun simvolu sayılan Göyəzən dağının ətəyində yerləşir. İstehkam dağın sıldırım hissəsinə söykənərək yerli daşdan hörülmüş enli divarlara malikdir. Qala divarında yeddi bürc vardır, ona görə də ona Yeddibürclü qala da deyirlər. Divarları və bəzi bürcləri yaxşı qalmışdır. Giriş hissəsi iki bürcün arasında cənub hissədə yerləşmişdir. Qalanın içində müxtəlif təyinatlı tikili qalıqları və su toplamaq üçün qurğular mövcuddur. Qalanın VIII əsrin ortalarında ərəblər, XIII əsrdə isə monqollar tərəfindən tar-mar edildiyi haqqında tarixşünaslıqda müxtəlif fikirlər söylənilir. Qala ətrafında kiçik miqyaslı arxeoloji qazıntı işləri aparılmışdır.

## Yeraltı yol

Yuxarı Əskipara kəndi ərazisində XIV əsrə aid yol infrastruktur qalıqları. Ölkə əhəmiyyətli abidələr sırarındadır. Yolun hansı məqsədlə salınması dəqiqləşdirilməmişdir. Bunun üçün ərazinin geniş arxeoloji tədqiqinə ehtiyac vardır.

## Məmməd Koxa bulağı



Daş Salahlı kəndinin yaxınlığında XIX əsrə aid bulaq kompleksi. Yerli əhəmiyyətli abidə sayılır. Yerli əhali bəzən buranı “Qara bulaq” adlandırır. Etnoqrafik məlumatlara istinad etsək məlum olur ki, Avey dağının dərəsi hesab olunan bu ərazidə onlarla bulaq qaynayırmış. Bunların böyük əksəriyyəti yaxın məsafədəki əhalinin suya olan ehtiyacını tamamilə ödəyirmiş. Lakin zaman keçdikcə onların xeylisi qurumuşdur. “Qara bulaq” adı

ilə tanınan bu bulaq təxminən yüz ildən də çoxdur ki, həmin yerdən qaynayır. Bir neçə dəfə əhali bu bulağın gözünü təmizləmiş, hətta onun mənbəyini axtarmış və məqsəd su tüngləri vasitəsilə suyu yaxın məsafəyə saxsı borularla gətirmək olmuşdur. Ərazidən tapılan saxsı su tünglərinin qalıqları bu faktı bir daha təsdiqləyir. Müasir dövrlərdə də bu bulaq bir neçə dəfə təmir edilmiş və eyni zamanda əhalinin istirahət mərkəzlərindən birinə çevrilmişdir. Son qurucusunun və təmir edən sahibinin adı ilə bu bulaq bəzən "Məmməd Koxa" bulağı da adlanır.

## Qurban Çalı gözətçi məntəqəsi



Dəmirçilər kəndinin ərazisində, Coğaz çayının hündür sağ sahilində yüksək təpə üzərində yerləşir. Burada bir-birinə bitişik olan hündür üç təpə vardır ki, bu təpələrin üzərindən Coğazçayın bütünlüklə sol sahilini ta Aveydağa qədər nəzarətdə saxlamaq mümkündür. Qurban Çalı gözətçi məntəqəsi 1-ci, ən hündür təpənin üzərində yerləşir.

## Qulucanlı körpüsü

Yuxarı Əskipara kəndi ərazisində yerli əhəmiyyətli tarixi abidə. Erməni işğalı altındadır.

## Hamam qalıqları

Yuxarı Əskipara kəndindədir. Yarımdağılmış vəziyyətdədir.

## Çaylı körpüsü (Haqverdi ağa körpüsü)



Bu körpü Çaylı və Daş Salahlı kəndləri arasında yerləşir. Ona Haqverdi Ağa körpüsü də deyilir. Körpü bir tağlı olaraq qaya daşlarından inşa olunmuşdur. Aşırımın ümumi görkəmi yarımçevrə şəkillidir. Onun keçid hissəsinin üst örtüyü torpaqdandır. Tikilmə tarixi son orta əsrlərə aiddir.

## Qızıl Hacılı körpüsü

Yuxarı Əskipara kəndi ərazisində yerli əhəmiyyətli tarixi abidə. Xeyli hissəsi dağılmışdır və istifadə olunmur.

## Kazım körpüsü

Yuxarı Əskipara kəndi ərazisində yerli əhəmiyyətli tarixi abidə. Bu körpü Əskipara çayının qolu üzərindən salınmışdır və Yuxarı Əskipara kəndi yaxınlığında qurulmuşdur. Əskipara çayının qolu üzərindən salınmış ikinci belə körpüdür. Birinci körpü Qatır körpüsü adlanır.

Kazım körpüsünün uzunluğu təxminən 4 metr, eni 5,5 metr, hündürlüyü isə 5 metrdir. Körpü bir aşırımlıdır. Sol sahili sıldırımlıdır. Görkəmcə yarımçevrə formalıdır. Körpü qaya daşlarından və çarpanaq daşlardan inşa edilmişdir. Üst hissə isə kərpicdən tikilmişdir ki, bu da gediş-gəlişin rahat olması üçündür. Üst keçid hissəyə torpaq tökülmüşdür və bu da yumşaqlığı təmin etmək, arabaların rahat keçməsi üçündür.

Abidə aid olduğu kəndlə birlikdə erməni işğalçılarının nəzarətindədir.

## Canalı qəbiristanlığı



Canalı kəndinin ərazisində, kəndin mərkəzində, müasir kənd qəbiristanlığının yanında yerləşir.

## Koroğlu qalası qülləsi



Yuxarı Əskipara kəndi ərazisində qüllə qalıqları. Tikinti üslubu baxımından XVII əsrə aid edilir. Yuxarı Əskipara kəndində nisbətən salamat qalmış abidələrdən biri də Dördkünclü qaladır. Bu qalanı Koroğlu qalası qülləsi və sadəcə olaraq Qüllə də adlandırıdlar. Bəzən eləcə Koroğlu qalası da deyilir.

Coğaz çayının sahilində ucaldılmış bu çoxmərtəbəli qala gözətçixana olmuşdur. Çox planlı quruluşa malik pəncərələr, müşahidə dəlikləri, xəbərdaredici tonqal yerləri buranın gözətçi məntəqəsi olması fikrini təsdiqləyir. Plan quruluşu baxımından qala kvadrat şəklindədir. Onun hər bir tərəfinind uzunluğu 8 metr təşkil edir. Qala çaydaşından çox

səliqə ilə hörülmüşdür. Bişmiş qırmızı kərpicdən kəmər-naxışları vardır. Mərtəbə arası bağları ağacdan imiş. Həyətində köməkçi binalar da vardır. Bunu sübut edən faktlar həmin binaların qalıqlarıdır. Memarlıq və mühəndislik baxımından tikili bölgəyə məxsus inşaat üslubunda ucalmışdır. Buna oxşar, eyni üslubda tikilmiş gözətçi bürcü Ağstafa rayonu ərazisində, Azərbaycanın Gürcüstan ilə dövlət sərhəddində yerləşir. Bu qala Azərbaycanın orta əsr müdafiə tikililərinin nadir və önəmli örnəyidir. Analoji qala Balakən rayonu ərazisində də mövcuddur.

Hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altındakı ərazilərimizdədir.

## I Qazaxbəyli qəbiristanlığı







Qazaxbəyli və Yuxarı Salahlı kəndləri arasında, Qazax-Tbilisi şosse yolunun sağında yerləşir. Yoldan 150 metr aralıdadır. Bir-birindən aralı (təxminən100-200 metr) 4

qəbiristanlıqdır. Qəbirlərin demək olar ki, hamısının başdaşı qırmızı rəngli tuf daşındandır. Qəbirlərin üzəri çox səlis və nəfis formada kufi, nəstəliq xətti ilə yazılmışdır. Bu epiqrafik yazılar qabartma və oyma formasındadır.

## II Qazaxbəyli qəbiristanlığı







Bu qəbiristanlıq da eyni ərazidə yerləşir. I qəbiristanlıqdan təxminən 200 metr aralı, ondan şərqdə yerləşir. I qəbiristanlıq hündür təpə başında qalan 3-ü isə düzənlik ərazidədir.

## Dəlləkli qəbiristanlığı



Daş Salahlı kəndi ərazisində, Avey dağının ətəyindədir. Kəndin qədim əhalisinə məxsus olmuşdur.

## Daş sənduqələr



Daş Salahlı kəndi ərazisində, eyniadlı müasir kənd qəbiristanlığında yerləşən 3 ədəd son orta əsrlərə (XVII-XVIII əsrlər) aid daş sənduqələr. Yerli əhəmiyyətli tətbiqi sənət nümunələri hesab edilir.

## Daş qoç fiqurları

Daş Salahlı kəndi ərazisində, eyniadlı müasir kənd qəbiristanlığında yerləşən 3 ədəd son orta əsrlərə (XVII-XVIII əsrlər) aid daşdan yonulmuş qoç fiqurları. Yerli əhəmiyyətli tətbiqi sənət nümunələri hesab edilir.

## Daş Salahlı qəbiristanlığı



Müasir kənd qəbiristanlığı kimi istifadə olunsa da burada qədim epiqrafik yazılı qəbir abidələri də vardır. Qəbiristanlıqda XIX əsrdən başlayaraq dəfnlər həyata keçirilir.

## Qatır körpüsü

Məzəm kəndində son orta əsrlərə (XVII-XVIII əsrlər) aid yerli əhəmiyyətli abidə. Su anbarının altında qalmışdır.

## Yeraltı su kəməri

Yuxarı Əskipara kəndi ərazisində son orta əsrlərə aid ölkə əhəmiyyətli abidə. İşğal altındadır.

## Dəyirman

Aşağı Əskipara kəndindədir.

## Bağça qəbiristanlığı



Daş Salahlı kəndi ərazisində Qarasu çayı sahilində son orta əsrlərə aid qəbiristanlıq. Yerli əhəmiyyətli abidələr siyahısındadır.

## Haqverdiağa körpüsü

Daş Salahlı kəndi ərazisində Qarasu çayı sahilində körpü qalıqları. Son orta aiddir. Yerli əhəmiyyətli arxeoloji abidələr sırasına daxildir.

## Qədir körpüsü

Daş Salahlı kəndi ərazisində, Qarasu çayı sahilində yerləşən körpü qalıqları. Yerli əhəmiyyətli arxeoloji abidədir.

## Baba Dərviş müsəlman qəbiristanlığı



Babadərvişdə 5 təpəni əhatə edən XVIII əsrin II yarısı və XIX əsrin I yarısını əhatə edən qəbiristanlıq. Ağstafaçayın sol sahili boyunu, Xanlıqlar kəndinin şimal hissəsini əhatə edir. Təxminən epitafiyalı qəbirlərin sayı 1000-ə yaxındır. Yerüstü əlaməti bilinən və kiçik epitafiyasız baş daşlı qəbirlərin sayı 3000-dən çoxdur. Bu rəqəm qeyd olunan dövrdə kənddə əhalinin sıxlığına dəlalət edir. Qəbiristanlıqda 4-5 dağılmış, yalnız bünövrəsi qalan türbə yerləri də vardır. Bəzi qəbirlərin kənarında xeyli sayda keramika nümunələrinə rast gəlinir. Bu da qəbiristanlığın altında tunc dövrünün zəngin yaşayış yerinin olmasını göstərir.

## Daş körpü



Xanlıqlar kəndi ərazisində, Ağstafaçayın üzərindədir. Sol sahillə sağ sahili birləşdirmək üçün inşa edilmişdir. Bərbad vəziyyətdə olsa da yenə istifadə olunmaqdadır.

## I Türbə



Ağstafaçayın sol sahilində, Babadərviş kompleksinə daxil olan abidə. Bu türbənin təxmini h=5-6 metr olub, bünövrədən günbəzə qədər məsafə, günbəz yerinin ümumi uzunluğuna bərabərdir. I Babadərviş təpəsində yerləşir. Türbənin giriş qapısı və qapı üstündə kitabəsinin yeri vardır. Kitabə itmişdir. Pəncərə yerləri dairəvi formada qoyulmuşdur.

## II Türbə



Xanlıqlar ərazisində I Babadərviş kompleksinə aid memarlıq baxımından çox unikal və nəfis formada tikilmişdir. 1-ci türbədən təxminən 10-15 metr aralıda, ondan qərbdə yerləşir. Onun sahəsi=10-12 $m^2$ olub, h=8 metrə yaxındır.

## III Türbə



Bu türbə də Xanlıqlar kəndi ərazisində, kəndin şimalında, Ağstafaçayın sol sahilində, I Babadərviş kompleksinə aid olan abidədir. Bu türbə də memarlıq üslubu baxımdan əvvəlki iki türbənin eynidir. H=7-8 metr, içərisi isə 6-8 $m^2$-dir. 2-ci ilə yanaşı, ondan 3-4 metr aralıdadır. Kitabəsi yoxdur, amma kitabə yeri vardır. Giriş qapısı və 3 ədəd pəncərə yeri vardır. Günbəz hissəsi əvvəlkilər kimi şişdir.

## IV Türbə



Bu türbə I Babadərvişin ətəyindədir. Əvvəlkilərdən daha qədim olan bu türbə çay daşlarından tikilmiş və yarımdağılmış formadadır. Digərləri kimi ətrafı qəbirlərlə əhatə-

lənmişdir. Sahəsi 6-7 $m^2$ –dir. Bir ədəd pəncərə yeri, giriş qapısı vardır. Türbənin içərisində də 2 qəbir yeri vardır.

## Məscid



Bu məscid yarımdağılmış vəziyyətdədir. Yerli əhali arasındakı yaşlı adamların verdiyi məlumata görə 1905-ci illədək Xanlıqlar kəndi Ağstafaçayın sol sahilində yerləşirmiş. 1905-ci ildən sonra kənd çayın sağ sahilinə köçür. Burada əkinə çox yararlı torpaqlar, geniş otlaqlar əhalini buna məcbur etmişdir. Sağ sahilə köçən əhali öz qəbirlərini sol sahildə -indiki Babadərviş təpələrində basdırır. Bura əhalinin qəbiristanlıq yeri olur. Lakin, 1927-ci ildən sağ sahildə yeni kənd qəbiristanlığı salınır. Bu ildən sonra daha sol sahildə qəbirlər salınmır. Ona görə bu qəbiristanlıq köhnə qəbiristanlıq sayılır. Bu məscid də I Babadərvişdən çayın axını istiqamətində, üzü çaya dayandıqda solda yerləşir. Məscid kənd köçürüldükdən sonra tədricən dağılmağa başlamışdır.

## Qəbiristanlıq



Bu qəbiristanlıq Daş Salahlı və Alpout kəndləri arasında Qarasu çayının qolu olan iri dərəsi olan arxın sahilində yerləşir. Sol sahildədir. Sahəsi təxminən 0,5 ha-ya yaxındır. Üzərində qəbirlərin yerüstü əlamətləri bilinir. İstiqamətindən aydın olur ki, bu qəbirlər müsəlman qəbirləridir. Onların sayı 30-dan çoxdur.

## Qəbiristanlıq



Qəbiristanlıq heç bir yerüstü əlaməti olmayan, yalnız tək-tək rast gəlinən kiçik daş-lardan ibarət bir qəbiristanlıqdır. Daş Salahlı-Alpout arasnda hündür təpələrdən birinin üzərində yerləşmişdir.

## Abbasbəyli qəbiristanlığı



Abbasbəyli kəndinin qurtaracağında, Alpout kəndi ilə sərhəddədir. Qəbiristanlığın bir hissəsi Qazax-Əskipara şosse yolunun solunda, bir hissəsi isə sağında yerləşir.

## Tahir körpüsü

Daş Salahlı kəndi ərazisində, Qazaxbəyli istiqamətindən kəndin girişindədir. Hazırda üzərindən nəqliyyat vasitələrinin hərəkəti vardır.

## Məqbərə-türbə



Abbasbəyli qəbiristanlığında, qəbiristanlığın qərb ətəyindədir. Yarımdağılmış vəziyyətdədir.

## II Gavur qəbiristanlığı



Coğaz-Alpout yaşayış yerindən şimlada, Qazax-Əskipara şosse yolunun üzərindədir. Yoldan soldadır. Sahəsi kiçikdir. Burada cəmi yerüstü əlaməti bilinən 10-dək qəbir mövcuddur. Yerli əhalinin verdiyi məlumata görə burada xristian mənşəli adamlar dəfn

olunduğu üçün qəbiristanlıq Gavur (yəni kafir) qəbiristanlığı adlanır. Bu adda birinci qəbiristanlıq–alban qəbiristanlığı Daş Salahlı kəndi ərazisindədir.

## Alpout qəbiristanlığı



Alpout kəndinin köhnə qəbristalığıdır. Hazırda burada tək-tük dəfnlər həyata keçirilir. Qazax-Əskipara şosse yolunun kənarındadır.

## Kəmərli qəbiristanlığı



Kəmərli kəndinin ərazisində, Qazax-Tiflis şosse yolunun solunda yerləşir. Yoldan təxminən 200 metr aralıdadır. Qəbiristanlığın içərisində kiçik və orta ölçülü qədim kurqan abidələri də vardır.

## Yuxarı Salahlı qəbiristanlığı



Yuxarı Salahlının kənd qəbiristanlığı. Hazırda istifadə olunmur.

## I Şıxlı qəbiristanlığı



I Şıxlı kəndinin qəbiristanlığı II Şıxlı kəndinin qəbiristanmlığından zahirdə kasıbb olsa da, tarixi cəhətdən həm qədim, həm də zəngindir. I Şıxlı kəndinin türbələri ilə II Şıxlı kəndinin türbələri arasında fərq vardır. Ehtimala görə I Şıxlının türbələri formaca qədim dövrə aiddir. II Şıxlı qəbiristanlığından fərqli olaraq I Şıxlı qəbiristanlığında daş sənduqələrə. daşdan qoyun heykəlini əks etdirən qəbir daşlarına, daş topalarına təsadüf edilir. Çox maraqlıdır ki, bu qəbiristanlıqda olan bütün qoyun fiqurlu daşların baş hissəsi yoxdur. Məlum olduğu kimi qoyun fiqurunda qəbir daşları düzəltmək, qəbir abidəsi üzrə qoyun başı şəkli və s. Azərbaycanda islam dinindən əvvəl intişar tapmışdır. I Şıxlı qəbiristanlığı əsasən iki hissədən (köhnə və təzə) ibarətdir. Köhnə qəbiristanlıqda Azərbaycanın

məşhur şairlərindən biri olan Molla Vəli Vidadi basdırılmışdır. Keçmiş zamanda bu qəbrin üstündə təkcə baş daşı olmuşdur. 1920-ci ildən sonra qəbir bərpa edilərək, üzərində sementdən örtük çəkilmişdir. 1954-cü ildə isə əlavə olaraq qəbrin üzərinə mərmərdən lövhə qayrılmış və baş daşı düzələrək yeni abidə qoyulmuşdur. Molla Vəli Vidadinin qəbri yanında onun oğlu Əhmədin və qızı Cəvahirin qəbirləri də vardır.

## Qəbiristanlıq

İnzibati bölgü əsasında Ürkməzli kəndi ərazisindədir. Coğaz çayının sol sahilinə yaxındır.

## Türbə

Yuxarı Əskipara kəndində dini tikili qalığı. Türbə üslub baxımından Qazax rayonu ərazisindəki bəzi türbələri təkrarlayır. Qazax rayonu ərazisində xeyli sayda türbə və türbə qalıqları vardır. Belə türbələrə rayonun Xanlıqlar, Aslanbəyli, Qazaxbəyli, I və II Şıxlı, Hüseynbəyli, Canalı, Cəfərli, Yuxarı və Aşağı Əskipara kəndlərindəki köhnə qəbiristanlıqlarda rast gəlinir. Memarlıq üslubu və inşaat xüsusiyyətlərinə görə onlar bir-birilərinə çox bənzəyirlər. Türbələr bir qayda olaraq dörd və altıguşəlidirlər. onların üstü konusvari günbəzlə tamamlanır. İnşaat materialı kimi çox vaxt yerli daşlardan və qırmızı kərpicdən istifadə olunmuşdur. Yalnız Xanlıqlar kəndindəki türbələr təkcə bir tikinti materialından– qırmızı kərpicdən inşa edilmişdir.

Yuxarı Əskipara kəndindəki bu türbə yarımdağılmış vəziyyətdədir. Ümumi oxşarlığa baxmayaraq onun tikinti üslubunda kiçik fərqlər mövcuddur. Bu türbənin içərisində Qazax ərazisindəki türbələrin çox az bir qismində rast gəlinən qırmızı tufdan hazırlanmış oyma bəzəkli hündür başdaşı olan qəbir vardır. Bu türbənin XVIII-XIX əsrlərə aid olması müəyyən edilmişdir. Ümumi memarlıq üslubu baxımından bu türbə vahid memarlıq-inşaat qaydalarına tabedir.

Türbə erməni işğalçılarının müvəqqəti nəzarətə götürdüyü ərazidədir.

## Kilsə

Aşağı Əskipara kəndi ərazisində yerli əhəmiyyətli memarlıq abidəsi.

## Türbə



Xanlıqlar kəndi ərazisində eyniadlı qəbiristanlıqda XIX əsrə aid edilən türbə. Altıbucaqlıdır, bişmiş gil kərpicdən inşa edilmişdir. Üç tərəfində dairəvi pəncərə yeri vardır.

## Türbə



I Şıxlı kənd qəbiristanlığında XIX əsrə aid edilən türbə. Altıbucaqlıdır, giriş qapısı və qapı üzərində kitabəsi vardır. Kitabədə XIX əsrdə inşa olunması aydın göstərilmişdir. Yarıyadək yonulmuş ağ qaya daşından, sonra isə bişmiş qırmızı gil kərpicdən inşa edilmişdir.

## Türbə



I Şıxlı kənd qəbiristanlığında XIX əsrə aid edilən türbə. Hündür təpənin maili yamacına yaxın yerdə tikilib. 0,20x0,20x0,05 metr ölçülü bişmiş kərpicdən inşa olunan türbə altıbucaqlı plana malik olub uzunluğu və eni 4,70 m, hündürlüyü 3,50 m-dir. Onun hər bir bucağının uzunluğu 1,60 m-dir. Qarşı tərəfində hörülmüş kərpiclər həndəsi motivdə qurulub. Hər 30 və 55 sm kərpic hörgüsündən sonra iri çay daşlarından düzümlər qurulub. Bu da çox güman ki, türbənin ornamentli formaya malik olması üçün qurulub. Türbənin üzü ağ daşla üzlənib. Türbənin çatmatağlı qapı yeri 1,43x0,80 m ölçülü olub üzəri suvanmışdır. Portalında heç bir kitabəyə rast gəlinmir. Daxilində altı ədəd hücrəli tağ yerləşir. Cənub tərəfinin üzü tamamilə dağılmışdır. Salamat qalan tərəfinə uyğun olaraq daxili memarlıq quruluşunun eyni formaya malik olduğunu söyləmək mümkündür. Günbəz hissəsi də dağıldığı halda, türbənin öz formasına əsasən onun dairəvi planda tikildiyi məlum olur. Daxilində heç bir məzar daşına rast gəlinmir. Kənd əhalisinin verdiyi məlumata görə, vaxtilə buradakı qəbir daşı dağıdılmış və məzar yeri itmişdir.

## Türbə



I Şıxlı kənd qəbiristanlığında 1842-ci ilə aid edilən türbə. Qismən yaxşı vəziyyətdə qalmışdır. Türbə üzü cənub-şərq istiqamətində 130 dərəcə bucaq altında olub, yastı təpənin üzərində yerləşir. 0,20x0,20x0,05 m ölçülü bişmiş kərpicdən hörülmüş binanın ön və arxa tərəflərindəki dörd bucağının uzunluğu 2,80 m, yan tərəfdəki digərləri isə 1,60 m-dir. Türbənin hündürlüyü 3,60 m, günbəzinin diametri 6,80 m-ə bərabərdir. Qəbiristanlıq ərazisində nisbətən salamat qalmış abidənin tikinti texnikası digərlərindən azca fərqlənir. Belə ki, onun kərpic hörgüsü qapı hissəsində həndəsi formada qurulmuş və demək olar ki, çaydaşlarından istifadə edilməmişdir. 1,35x0,80 m ölçülü çatmatağlı qapı yeri suvanmış-dır. Türbənin üzü daşlarla üzlənmişdir. Qapının üzərində 1,00x0,45 m ölçüsündə kitabə yerinin olduğu güman edilən kvadrat formalı suvanmış hissə vardır. Lakin türbənin heç bir tərəfində yazıya rast gəlinmir. Cənub-qərb tərəfində 0,80x0,55 m ölçülü pəncərə yeri vardır. Arka formalı pəncərə yerinin yuxarı hissəsi salamat qalmış, hətta üstünə dirək məqsədilə qoyulmuş ağac qalığı da saxlanmışdır. Pəncərənin cənub-qərb tərəfdə qoyul-ması güman ki, günəşin hərəkət istiqamətində içərinin asanlıqla işıqlanması məqsədini daşımışdır. Türbənin yuxarısında piramida formalı günbəz hörülmüşdür. Qərb divarında günbəzvari stalaktitin aşağı tərəfində 0,70x0,40 m ölçülü taxça formalı yer qalmışdır. İçəridə vaxtilə məzar daşının olduğu şübhəsizdir.

## Türbə



II Şıxlı kənd qəbiristanlığında XIX əsrə aid türbə. Orijinal üslubda tikilmiş türbə digərlərindən çox fərqlənir.

## Dini tikili qalığı

Salahlı kəndi ərazisində XIX əsrə aid dini tikili qalığı

## Haci Mahmud əfəndinin türbəsi





Aslanbəyli kəndi ərazisində XIX əsrə aid dini tikili. Yerli əhəmiyyətli memarlıq abidəsidir. Əhali arasında “Göy türbə” və yaxud “Hacı Mahmud əfəndi ocağı” adı ilə də məşhurdur. Türbə Aslanbəyli kəndinin qədim qəbiristanlığında, İncə (İncəsu) çayı boyunca uzanan yolun solundadır. Bütün Gəncə-Qazax bölgəsində, Borçalı da daxil olmaqla

Şərqi Gürcüstanda, Dağıstanda, Türkiyədə tanınan bir ziyarətgahdır. 1893-cü ildə inşa olunan türbə dördküncdür və geniş hasarın içərisində inşa edilmişdir. Tikilinin bəzi elementləri göy rənglə boyandığından xalq arasında ona belə ad veriblər. Türbədə iki şəxs dəfn edilmişdir. Özünün savadı, geniş dünyagörüşü ilə bütün bölgənin rəğbətini və hörmətinin qazanmış ustad Hacı Mahmud Qarani (1835-1896) və onun məsləkdaşı Seyyid Yasinin (?-1892) məzarları bu türbədə yerləşir.

Yaxın dostu və əqidə yoldaşı olan Seyyid Yasinin 1892-ci ildə qəfil vəfatından sonra Hacı Mahmud əfəndi onun məzarı üstündə türbə ucaldır. Üç il sonra özü də vəsiyyəti ilə orada dəfn edilir. Deyilənə görə türbənin layihəsini Hacı Mahmud əfəndi Türkiyədən gətiribmiş. Tikintini İncə dərəsinin və Borçalı elinin ən məşhur ustaları həyata keçiriblər. Onlara isə rəhbərliyi Hacı Mahmud əfəndinin kürəkəni Daş Salahlı kəndindən olan Mustafa bəy Miralayev edib.

Türbə müqəddəs sayılır və hətta sovet hakimiyyəti illərində də qoyulan qadağalara baxmayaraq buraya indiyə qədər yaxın-uzaq yerlərdən xeyli ziyarətçilər axışırlar.

## Haci Mahmud Əfəndinin yaşayış evi

Aslanbəyli kəndi ərazisində XIX əsrə aid memarlıq nümunəsi. Yerli əhəmiyyətlidir. Hacı Mahmud əfəndinin yaşayış evi Aslanbəyli kəndinin qərb qurtaracağında yerləşir. Bu ev qonşuluqadkı müsafirxana (qonaq evi) və məscid ilə birlikdə vahid bir kompleks təşkil edir. Yerli inşaat materialından istifadə etməklə tikilən bina XIX əsrin bəyzadələrinə məxsus mülklərlə eyni görkəmə və üsluba malikdir.



## Haci Mahmud əfəndinin qonaq evi



Aslanbəyli kəndi ərazisində XIX əsrə aid memarlıq nümunəsi. Yerli əhəmiyyətlidir. Hacı Mahmud əfəndinin yaşayış evinə yaxın inşa edilən qonaq evi müsafirxana adı ilə məşhur idi. Buraya yaxın-uzaq yerlərdən əsli-nəsli Aslanbəylidən olan Hacı Mahmud əfəndinin yanına ziyarətə gələrdilər və qonaq evində gecələyərdilər. O, caamatın mənəvi atası, din və elm adamlarının müəllimi, həm də himayədarı olmuşdur. Xüsusilə Hacı Mahmud əfəndinin yanına Türkiyədən xeyli insanlar gələrmişlər.

Hacı Mahmud əfəndi özünün dini təhsilini Türkiyədə almışdır. Çox maraqlıdır ki, həmin dövrdə Azərbaycanlı dindarların ali dini təhsil almaq məqsədilə getdikləri yerlər əsasən Kərbəla, Nəcəf, Hüllə, Qum, Kirman və s. kimi şəhərlərin yerləşdiyi İran, İraq kimi ölkələr idi. Hacı Mahmud əfəndi isə öz dini təhsilini Türkiyədə almışdır. Mənbələrin məlumatından da aydın görünür ki, Hacı əfəndi öz dövrünün həm də imkanlı şəxslərindən olmuşdur. O, Amasiya şəhərində ustadı və mürşidi Seyyid Nigarinin qəbri üstündə öz şəxsi hesabına böyük bir məscid tikdirmişdir. Bu məscid indi də durur və onun üzərində Hacı mahmud əfəndi tərəfindən tikdirilməsi haqqında lövhə vurulubdur. Hacı Mahmud əfəndinin nüfuzundan və Türkiyə meylliliyindən ehtiyat edən çar hökuməti onu Dağıstanda ayağa qalxmış Şeyx Şamili dəstəkləməsində və müridizmdə günahlandırıb həbs edir. Bir müddət həbsdə saxladıqdan sonra yerli caamatın narazılığından ehtiyatlanıb yenidən azad edir. Ölümündən sonra Aslanbəylidə dəfn olunan Hacı mahmud əfəndi türbəsi indi böyük ziyartəgah kimi şöhrət tapıb.

# İsrafil ağa hamamı



Qazax şəhərinin mərkəzində XIX əsrə aid olan hamam kompleksi. Yaxşı vəziyyətdədir. Yerli əhəmiyyətli tarixi memarlıq abidələri siyahısına daxildir. Qısa günbəzli hamam Qazax şəhərinin mərkəzində, məscidin qarşısında yerləşir. Hamamı Qıraq Kəsəmən kəndinin sakini, Qazax diyarında tanınmış sahibkar İsrafil Ağa Kərbəlayev XIX əsrin axırlarında tikdirib, buna görə də hamam onun adı ilə tanınır. Bina memar Müzəffər Hüseynovun layihəsi əsasında qırmızı kərpicdən kirəclə hörülüb. Hamamın ümumi zalı, otaqları, diqqət çəkən hovuzu və çayxanası var. Böyük ölçülü (30m x 20m) hamamın plan quruluşu iki hissəyə bölünür. Ənənəvi Azərbaycan və Şərq hamamlarına xas olan dəhliz ilə birləşən iki günbəzli hissə və otaqlardan ibarət hissə. Hamamın küçəyə çıxan hissəsində kiçik dükanlar yerləşir. Plan quruluşuna görə Şərq və Avropa tələblərini özündə cəmləşdirən bu tikili tipinə Azərbaycanın digər bölgələrində rast gəlinmir.

## Cümə məscidi



Qazax şəhərində XIX əsrə aid olan məscid. Yerli əhəmiyyətli tarixi abidələr siyahısındadır. Çox yaxşı vəziyyətdə qalmışdır və qismən bərpa olunmuşdur. Şəhərin mərkəzində salınmış bağın yaxınlığındadır. İsrafil Ağa hamamı ilə üzbəüzdür. Bir vaxtlar Qazax şəhərində məscidlər çox idi, demək olar ki, hər məhəllədə məscid vardı. Lakin, sovetləşmə zamanı onların əksəriyyəti tamamilə məhv edilib dağıdılmışdır. Cümə məscidi isə zəmanəmizədək qorunub qala bilmişdir.

Şəhərin mərkəzində yerləşən Cümə məscidi 1899-cu ildə Kəsəmən kəndindən olan İsrafil ağa Kərbəlayevin təşəbbüsü ilə memar Müzəffər Hüseynovun layihəsi əsasında inşa edilmişdir. Qırmızı bişmiş kərpicdən ucaldılan məscid 17,2 metr x 17,2 metr ölçülü kvadrat quruluşlu zaldan ibarətdir. Sivri tağlar ilə yaranan səkkizbucaqlı formanın üzərində daxili diametri 13,4 metr olan günbəz inşa edilmişdir. Məscidin ümumi hündürlüyü 15 metr, divarlarının qalınlığı isə 1,9 metrdir. Məscidin giriş hissəsini baştağ bəzəyir. Baş fasadın hər iki tərəfindən qoşa minarələr ucalır.

Sovet hakimiyyəti illərində fəaliyyəti qadağan edilmiş məscid 1990-cı ildən öz fəaliyyətini yenidən bərpa etmişdir.

## Türbə

XIX əsrə aid olan türbə Qazax şəhərinin mərkəzindədir və şəhər bağının yaxınlığındadır. Bu türbə Şərq memarlıq üslubunda olub kiçik ölçülü olsa da yaxınlıqdakı XVIII-XIX əsr memarlıq abidələri ilə kompozisiya təşkil edir. Yerli əhəmiyyətli abidələr siyahısındadır.

## Aşağı türbə

Qazax şəhərində XIX əsrə aid türbə. Tikinti üslubu fərqlidir. Yarımdağılmış formadadır. Türbə yeri 3,00x3,00 m ölçülü kvadrat formalı olub iri çay daşlarından hörülmüşdür. Onun salamat qalmış hissəsinin hündürlüyü 1 m, eni 0,80 m-dir. Türbə yerinin şərq hissəsində 0,70 m enində qapı yerini aydın müşahidə etmək olur. Ətrafı boyunca 0,75 m enində xəndək qazılmışdır. Daxilində qapı yerinə əks tərəfdə kvadrat formalı məqsədi bilinməyən tikili qurulub. Qəbir daşına isə rast gəlinmir.

## Tarix-diyarşünaslıq muzeyinin binasi



1984-cü ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qazax Tarix-Diyarşünaslıq Muzeyi yaradılması haqqında sərəncamından sonra 1986-cı ildə mart ayında, Novruz bayramı ərəfəsində Muzeyin açılışı olmuşdur. Muzeyin binası XIX əsrdə tikilmiş bəy mülkü olmuşdur. Sovet hakimiyyətinin ilk vaxtlarında burada rayon firqəsi, kommunist dərnəyi fəaliyyət göstərmişdir.

Binanın ümumi sahəsi 579 $m^2$, ekspozisiya sərgi salonunun sahəsi 409 $m^2$, fondun sahəsi 12 $m^2$, eksponatlarının ümumi sayı 2450 ədəddir. Muzeyin eksponatları qədim daş dövründən tutumuş son orta əsrlərdək böyük bir tarixi mərhələni əks etdirir.

## Rus pravoslav kilsəsi



Dini tikili olan bu kilsə yaxşı vəziyyətdədir və Qazax şəhərininin mərkəzində yerləşir. Kilsə memarlıq baxımından XIX əsrə aid edilir. Bir qədər də yerli üslub verilmiş bu kilsə dörd künbəz üslubunda tikilmişdir. Pəncərələr və pəncərəüstü arkalar xaç formasında inşa edilmişdir.

## Yaşayış evi (Ağ ev I və Ağ ev II)

Qazax şəhərinin düz mərkəzində, H.Əliyev prospektində yerləşir. İki binadan ibarətdir.

## Məscid



Aslanbəyli kəndində 1909-cu ildə tikilmiş yerli əhəmiyyətli dini tikili. Kənd cammatı tərəfindən inşa edilmişdir. Binanın sağ küncündə yuxarıya doğru ensizləşən və son illərdə tikilmiş (yəni məscidə sonradan əlavə edilmiş) minarə vardır. Məscidin daxili hissəsi böyük ibadət zalından ibarətdir. O, öz növbəsində tən ortadan sütuna söykənən qoşa tağla iki hissəyə bölünmüşdür. Aslanbəyli kəndindəki bu məscid Hacı Mahmud əfəndinin xatirəsinə hörmət əlaməti olaraq tikilmişdir. Yerli caamat onun xeyrixahlığına, müəllimliyinə, el ağsaqqalı olmasına və ən əsası böyük din adamı olmasına ehtiram əlaməti olaraq bu məscidə Hacı Mahmud əfəndi məscidi adı vermişlər.

Sovet hakimiyyəti illərində bu məscidin fəaliyyəti də qadağan edilmişdir və məscid kolxoz balansına verilərək taxıl anbarı kimi istifadə olunmuşdur. Sonralar məsciddən kənd klubu kimi də istifadə edilmişdir və məscid çox bərbad hala düşmüşdür. 1990-cı ildən sonra məscid kənd sakinləri hesabına bərpa olundu və ibadət yeri kimi hazırda yenidən fəaliyyət göstərir.

## Yaşayış evi

Xanlıqlar kəndi ərazisində orta əsrlərə aid yerli əhəmiyyətli abidə. XX əsrin əvvəllərində tikilimişdir. Bəy mülküdür.

## Seminariya binası



Azərbaycanın ilk Müəllimlər Seminariyasının yerləşdiyi bu bina Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin fəaliyyət göstərdiyi bina olmuşdur.

1918-ci ildə Firudin bəy Köçərli Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Bakıya köçürəndə böyük çətinliklə qarşılaşır. Bakıda qarışıqlıq olduğundan qatar Ağstafa stansiyasında dayanmalı olur. Bir neçə gün keçdikdən sonra qərara alınır ki, Bakıda siyasi vəziyyət stabilləşənə qədər Seminariya Qazaxda fəaliyyət göstərsin. Firudin

bəy Köçərlinin xanımı Badisəba xanım Vəkilova Qazaxa gəlir və burada qohumları ilə görüşən zaman problemli də onlara danışır. Bu məsələdən agah olan Qazaxın Kosalar kəndinin sakini Məşədi İbrahim qərara alır ki, öz ikimərtəbəli qırmızı kərpicdən 1910-cu ildə tikdirdiyi mülkünü təmənnasız olaraq Seminariyanın fəaliyyəti üçün bağışlasın. Qeyd edək ki, Məşədi İbrahim öz zəhməti ilə var-dövlət qazanmış sahibkarlardan idi və xeyli mülk, bina, karvansaraya sahib idi. Öz mülklərindən bəzilərini xeyriyyə məqsədi ilə xalqın istifadəsinə verən Məşədi İbrahim mədrəsə və məscidlərdə oxuyan uşaqlara yardım göstərirdi.

Bu xeyriyyə tədbirindən sonra Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazax Müəllimlər Seminariyası adı ilə bu binada fəaliyyətə başlayır və Azərbaycan, Gürcüstan və indiki Ermənistan adlanan ərazidə yaşayan həmvətənlərimiz üçün böyük elm ocağı olur.

Qori Seminariyasının Azərbaycan şöbəsinin bazasında müstəqil Qazax Müəllimlər Seminariyasının təntənəli açılışı olur. Açılışda Qazaxda yerləşən türk ordusunun komandanı Səbri bəy, türk qarnizonunun rəisi Camal bəy, Qazaxın qarnizon rəisi H. Şıxlınski və yerli hökumətin məmurları iştirak edirdilər. Bundan başqa Cəbrayıldan, Şamaxıdan, Ağdamdan, Göyçaydan, Naxçıvandan, Zaqataladan və başqa rayonlardan da şagirdlər gəlib, burada təhsil alırdılar. Böyük maarifçi və ictimai xadim Firudin bəy Köçərli seminariyaya başçılıq etməklə yanaşı, Qazaxda yüzlərlə qız uşağının savad və təhsil əldə etməsi üçün yetimlər kursu təsis edir, qaçqınlara yardım fondu yaradırdı. Lakin 1920-ci ildə Firudin bəy Köçərli erməni terrorçuları tərəfindən qətlə yetirilir. Bundan sonra Seminariyaya xalq yazıçısı Mehdi Hüseynin atası Əli Hüseynov rəhbərlik edir.

Qazax Seminariyasının fəaliyyəti Azərbaycanda təhsilin, maarifin inkişafına böyük təkan vermişdir. Görülən təcili tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəlində Bakıda, Gəncədə, Nuxada, Salyanda, Şuşa və Qazaxda 23 dövlət orta təhsil müəssisəsi, o cümlədən 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllim seminariyası, 3 qadın təhsil müəssisəsi, 1 politexnik və 1 ticarət məktəbi fəaliyyət göstərirdi. Qazax Müəllimlər Seminariyası 1959-cu ilədək 3000-ə qədər kadr yetişdirmişdir. Seminariyanın binasında Azərbaycan kinomatoqrafiyasının istehsalı olan məşhur “Dəli Kür” (1969-cu il) filminin bəzi səhnələri çəkilmişdir. Hal-hazırda Seminariya binasında 4 nömrəli orta ümumtəhsil məktəbi fəaliyyət göstərir.

## Molla Vəli Vidadinin qəbirüstü abidəsi

I Şıxlı kəndinin qəbiristanlığındadır. 1970-ci ildə ucaldılmışdır. Qəbrin üstünə qoyulmuş mərmər lövhədə şairin əsərindən bir neçə beyt yazılmış, çiçək, kitab və qələm şəkli də çəkilmişdir. Lövhənin yuxarı hissəsində ortada çiçək şəkli, birinci sətirdə Molla Vəli, ikinci sətirdə Vidadi, üçüncü sətirdə isə 1707-1809 sözləri yazılmışdır. Daha sonra isə şairin şerlərindən bir parça verilmişdir. Vidadi 102 il ömür sürmüşdür.

## Molla Pənah Vaqifin xatirə muzeyi



Qazax şəhərində məşhur Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin xatirə muzeyi 1970-ci ilin noyabr ayının 20-də açılmışdır. Cəmi 11 otaqdan ibarət olan muzeyin ekspozisiyası Vaqifin həyat və yaradıcılığına, Qarabağ xanının vəziri kimi dövlət fəaliyyətinə, onun müasirlərinə, məktublaşmalarına, tədqiqatçılarına həsr olunmuşdur. 1983-cü ildə muzeyin ekspozisiyası yenidən tərtib olunmuşdur. və hal-hazırda muzeydə 1160 eksponat vardır.

2002-ci ilin 2 avqustundan Azərbaycan Respublikasının Nazirlər Kabinetinin xüsusi qərarı ilə muzeyin adı dəyişdirilərək Molla Pənah Vaqif və Molla Vəli Vidadinin xatirə muzeyi adlandırıldı.

## Vaqif və Vidadinin heykəli



Qazax şəhərinin mərkəzində, şəhər bağında qoyulmuşdur.

## Səməd Vurğunun heykəli



Qazax şəhərinin mərkəzi meydanında xalq şairi Səməd Vurğunun şərəfinə 1996-cı ildə ucaldılmış heykəl.

## Səməd Vurğunun poeziya evi



Yuxarı Salahlı kəndində yerli əhəmiyyətli abidə. 1975-ci ildə Bakıda «Sovet ədəbiyyatı günləri»ndə ölkənin ədəbi ictimayətinin iştirakı ilə «Səməd Vurğunun ev-muzeyi»nin təntənəli açılışı olmuş və bir il sonra, 1976-cı ildə şairin doğma kəndi Yuxarı Salahlıda ev-muzeyinin filialı – «Səməd Vurğunun poeziya evi» yaradılmışdır. 17 noyabr 1976-cı ildə S.Vurğunun anadan olmasının 70 illiyi ilə əlaqədar açılmışdır. Poeziya evin-

də S.Vurğunun həyat və yaradıcılığını əks etdirən eksponatlar nümayiş etdirilir. Poeziya evi yerli əhəmiyyətli monumental və xatirə abidələri siyahısına daxildir.

## Böyük Vətən müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsi

Qazax şəhərində yerləşir. 1975-ci ildə tikilmişdir.

## Dədə Qorqud kompleksi



Qazax şəhərinin mərkəzində, H.Əliyev prospektindədir. Çox böyük ərazini əhatə edən kompleks həm də istirahət parkıdır. Burada Dədə Qorqud dastanının süjet xətti əsasında bədii kompozisiya təşkil edilmişdir.

# AĞSTAFA RAYONUNUN

# ARXEOLOJİ, TARİXİ VƏ MEMARLIQ ABİDƏLƏRİ

## Köçəsgər paleolit düşərgəsi

Ağstafa dəmiryolu stansiyasının yaxınlığında, Köçəsgər kəndinin cənub tərəfində yerləşir. Böyük Qafqazın cənub və cənub-şərq ətəkləri, Kiçik Qafqazın şimal-şərq yamacları, eləcə də maili düzənliklərdə paleolit düşərgələrinin çoxluğu təbii amillərin əlverişli ərait yartması ilə izah edilə bilər. Qeyd olunan ərazilərdə qədim insanların həyat sürməsi, məskunlaşması üçün zəngin bitki və heyvanat aləmi olmuşdur.

Köçəsgər düşərgəsində toplanmış daş məmulatının əksəriyyəti yerüsü material olmuşdur. Bəzi qism materiallar isə düşərgənin şimal-şərqindəki təbii kəsilişdə təmizləmə, sıyırma işləri apararkən ətək hissədən əldə edilmişdir. 40-dan çox daş kolleksiyası toplanmışdır ki, bunlar da çopperlər, deşici-yonucu alətlər, sıyırıcı-yonucu alətlər, massiv uc qaşovları, bir yanlı və iki yanlı qaşovlar, üç yanlı və dişli qaşovlar, bıçaqlar və nüvələrdən ibarətdirlər. Kolleksiyanın üçdə ikisini disk şəkilli bir üzlü qoparılmış nüvə və qəlpələr tutur. İkinci işlənmə aparılmış hazırlıqlar arasında qaşov, bıçaq, gəzli-uclu qaşov və iskənə tipli alətlər vardır.

Geomorfoloji xüsusiyyətlərinə əsasən abidə Xəzər dövrü geoloji şəraitində formalaşmış terras üstündə mövcud olmuşdur.

## Şişquzey paleolit düşərgəsi

Arxeoloji kəşfiyyat zamanı Ağstafa dəmiryolu stansiyası yaxınlığında, Köçəsgər kəndinin cənub tərəfində aşkar edilmiş bir qrup paleolit abidələrindən ən böyüyü. Qeydə alınmış bu paleolit abidələri Enlidəş adlanan böyük bir təpənin müxtəlif yamaclarında yerləşir. Şişquzey düşərgəsi 1968-ci ildə qeydə alınmışdır. Düşərgə Köçəsgər kəndindən 7 km cənubda olub, təpənin cənub-qərb ətəyində yerləşir. Daş məmulatı 1075 ədəd olub, 60x20 metrlik sahədən toplanmışdır.

## Tatlı Açıq paleolit düşərgəsi



Tatlı kəndi ərazisində olan bu abidə açıq paleolit düşərgələri tipinə daxildir. Düşərgədə tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, burada mustye dövrü materialları mövcuddur. Tapılmış materiallar əsasən mikro çopperlər, uc qaşovları, iskənələr, dişligəzli alətlər, bıçaqlar, şip alətlər, qəlpələrdən ibarətdir. Na-düşərgənin dövrünü də mustye çərçivəsinə daxil etmək olar.

Tatlı materiallarının dövrünü müəyyənləşdirməkdə S.N.Zamyatinin Damcılı paleolit mağarasının ilkin təhlilini apararkən, Qıraq Kəsəmən daş məmulatını mustye dövrünə aid etməsi baxımından yeni aşkar edilən emalatxAnaloji nümunələr hələ XX əsrin 50-ci illərində Qıraq Kəsəmən ətrafında arxeoloji axtarışlar aparan paleolit dövrü tədqiqatçısı M.Hüseynov tərəfindən aşkarlanmışdır.

## Töyrətəpə yaşayış yeri

Aşağı Göyçəli kəndində neolit-tunc dövrlərinə aid yaşayış yeri. Arxeoloji materiallarla belə bir zəngin təpənin olması haqqında ilk dəfə 1954-cü ildə akademik İ.D.Mustafayev məlumat vermişdir. Həmin ildə arxeoloq S.M.Qazıyev və 1955-ci ildə M.M.Hüseynov Töyrətəpədə olmuşlar. 1958 və 1959-cu illərdə isə həmin təpə paleolit arxeoloji ekspedisiyası tərəfindən yoxlanılmışdır.

Töyrətəpə Aşağı Göyçəli kəndinin şimal tərəfində yerləşir. Təpənin diametri təxminən 100, hündürlüyü isə 6 metrdir. Abidənin şimal-qərb hissəsindən keçən su arxı onu bir qədər kəsir.

1961-ci ildə Qazax arxeoloji ekspedisiyası İ.H.Nərimanovun başçılığı ilə Töyrətəpə qədim yaşayış yerində əsaslı arxeoloji tədqiqat işinə başlayaraq mədəni təbəqənin qalınlığını və abidənin tarixini daha düzgün müəyyənləşdirmək məqsədilə bir daha yerüstü axtarış və kiçik bir sahədə kəşfiyyat qazıntısı aparmışdır. Arxeoloji tədqiqatlar zamanı abidənin dağıdılmış hissəsində təxminən 1 metr qalınlığı olan tunc dövrünə aid mədəni təbəqənin olduğu müəyyənləşdirildi. Bu təbəqəyə aid xeyli tapıntılar əldə edilmişdir.

Töyrətəpə yaşayış yerində tikili qalığı da aşkar edilmişdir və bu bina qalığının nə məqsəd daşıması haqqında tam fikir söylənilməmişdir.

## Qarğalartəpəsi yaşayış yeri



Qırılı kəndi ərazisində neolit-eneolit dövrlərinə aid yaşayış yeri. Neolit-eneolit dövrlərinə aid xeyli maraqlı tapıntılar əldə edilmişdir.

## Arzamastəpə yaşayış yeri

Vurğun qəsəbəsi ərazisində neolit dövrünə aid yaşayış yeri. Yaşayış yerinin sahəsi 0,5 ha-ya yaxındır. Yerüstü materiallar kobud hazırlanmış və gil tərkibi qarışıq olan keramika nümunələrindən ibarətdir.

## I Şomutəpə yaşayış yeri

Şomutəpə mədəniyyətinin əsas abidələrindən hesab edilən yaşayış yeri Cənubi Qafqaz ərazisində ilkin əkinçilik mədəniyyəti ocaqlarından hesab edilir. Şomutəpədən xeyli maddi qalıqlarla birlikdə dairəvi bina qalıqları da tapılmışdır ki, bu da çox böyük maraq doğrur. Divarlar iç üzdən palçıqla suvanmışdır. Döşəmə qalıqları üzərində kül izləri də aşkar olunmuşdur. Belə dairəvi bina qalıqları Elardan, Şenqavitdən, Təpəqavradan, Mesopotamiyada Tel-Arpaçaydan da məlumdur. Şomutəpə ilə yanaşı bir çox həmdövr abidələrdən tapılmış eyni divar qalıqları o dövr üçün dairəvi binaların səciyyəvi olduğuna işarə edir. Özünəməxsus xüsusiyyətləri ilə seçilmiş Şomutəpə abidələri “Şomutəpə arxeoloji mədəniyyəti” adı ilə tanınır. Bu mədəniyyət ilk dəfə İ.H.Nərimanov tərəfindən ədəbiyyata gətirilmişdir.

## Molla Nağı təpəsi yaşayış yeri



Köçəsgər kəndi ərazisində neolit-eneolit dövrlərinə aid yaşayış yeri. Yaşayış yerində qismən arxeoloji tədqiqatlar və şurf xarakterli kəşfiyyat qazıntıları aparılmışdrı. İlk dəfə bu abidədə F.Muradova tərəfindən arxeoloji tədqiqatlar aparılmışdır. Sonrakı tədqiqatlarda abidənin neolit dövründən başlayaraq ta eneolit dövrünün sonunadək məskunlaşması qeyd olunmuşdur.

## Çinlitəpə yaşayış yeri

Tatlı kəndi ərazizində eneolit dövrünə aid yaşayış yeri. İlkin tədqiqatlar zamanı tapılmış yerüstü nümunələr abidənin dövrü və xarakteri haqqında konkret informasiya verir.

## Alatəpə yaşayış yeri

Yaşayış yeri 1 ha-ya yaxın sahəni əhatə edir. Yaşayış yerinin bəzi yerləri dağıdılmışdır.

## Darağza yaşayış yeri

Yastıtəpə yaşayış yerinin yaxınlığında, ondan təxminən 150 metr arlıdadır. Yaşayış yerinin yerləşdiyi alçaq təpədə tunc dövrünün axırı, dəmir dövrünün əvvəllərinə aid olan gil qabların qalıqları vardır. Yaşayış yerindən altlıqlı gil qabların bəzi nümunələrini tapmışıq. Bu fraqmentlərdən bəziləri yapma düyməcikərlə naxışlanmışdır.

## Kiçiktəpə yaşayış yeri

Aşağı Göyçəli kəndi ərazisində neolit, eneolit və tunc dövrlərinə aid yaşayış yeri. Yaşayış yerinin yerüstü materialları onun dövrünü konkret təyin etməyə imkan verir.

## Çəpiş təpəsi yaşayış yeri

Həsənsu çayı yaxınlığında eneolit-tunc dövrlərinə aid yaşayış yeri. Kəşfiyyat xarakterli və ilkin arxeoloji tədqiqatlar aparılmışdır.

## Çaxmaqlıtəpə yaşayış yeri



Çoxtəbəqəli yaşayış yeri. Yaşayış yeri üzərində xeyli tapıntı əldə edilmişdir.

## Böyüktəpə yaşayış yeri

Tunc və ilk dəmir dövrlərinə aid yaşayış yeri böyük əraziyə aiddir.

## Boztəpə yaşayış yeri

Boztəpə yaşayış yeri kiçik sahəni əhatə etsə də yerüstü materiallar baxımından çox zəngindir.

## Cantəpə yaşayış yeri

Ağstafa şəhəri ərazizində tunc dövrünə aid yaşayış yeri. Sahəsində xeyli tikinti yerləri vardır.

## Böyüktəpə yaşayış yeri

Köçəsgər kəndi ərazizində son tunc-ilk dəmir dövrlərinə aid yaşayış yeri

## Durnatəpə yaşayış yeri

Köçəsgər kəndi ərazizində son tunc-ilk dəmir dövrlərinə aid yaşayış yeri. Sahəsi 1,5 hektara yaxındır. Üzərində xeyli yerüstü materiallar səpələnmişdir.

## Sarı Qaznaq qəbiristanlığı

Köçəsgər kəndində tunc dövrünə aid qəbiristanlıq.

## Kurqan



Qarğalartəpəsinə yaxın yerdə aşkar olunmuş kurqanın hündürlüyü 5 metrdən çox-dur.

## Talayeri yaşayış yeri



Poylu yolunun üzərində yerləşən yaşayış yerinin sahəsində iri daş-qaya parçalarına çox rast gəlinir. Ehtimal ki, bunlar tikili qalıqlarıdır.

## Alçaqtəpə yaşayış yeri

Tatlı kəndi ərazizində tunc və dəmir dövrlərinə aid yaşayış yeri. Kəndin şimal-qərb hissəsində yerlərir. Sahəsi təxminən 0,5 ha-dır.

## Qabaqtəpə yaşayış yeri

Pirili kəndi ərazizində tunc-dəmir dövrlərinə aid yaşayış yeri. Burada kiçikmiqyaslı arxeoloji qazıntılar aparılmışdır. Abidənin stratiqrafik plan quruluşu öyrənilmiş, maddi mədəniyyət qalıqları təhlil edilmişdir.

## II Şomutəpə yaşayış yeri

Yuxarı Göyçəli kəndi ərazisində tunc və dəmir dövrlərinə aid yaşayış yeri

## Çoban daşı




Dağ Kəsəmən kəndi ərazizində tunc və ilk dəmir dövrlərinə aid yaşayış yeri və qəbiristanlıq. Ərazidə 2011-ci ildə kiçikmiqyaslı arxeoloji kəşfiyyat işləri aparılmış və yerüstü keramika nümunələri abidənin dövrünü müəyyənləşdirməkdə yardımçı olmuşdur.

## Yastıtəpə yaşayış yeri



Yastıtəpə yaşayış yeri  Ağstafa dəmiryol stansiyasından 1 km şimal-qərbdə, çox da hündür olmayan təbii təpə üzərində yerləşir. Bu abidə ilk dəfə M.M.Hüseynov və T.Ə.Bünyadov tərəfindən qeydə alınmış və toplanılmış materiallar haqqında məlumat verilmişdir. 1957-1961-ci illərdə İ.H.Nərimanov və F.Muradova tərəfindən burada aparılan ilkin arxeoloji tədqiqatlar zamanı xeyli miqdarda gil qab parçaları, dən daşları, gil möhürlər və təsərrüfat küplərinin qalıqları əldə edilmişdir. Aşkar olunmuş arxeoloji materiallar əsasında, xüsusilə də  Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan boz və qara rəngli keramikanın ilkin təhlili əsasında yaşayış yeri e.ə. I minilliyin əvvəllərinə aid edilmişdir. Lakin abidənin ərazisində əsaslı arxeoloji qazıntılar aparılmamışdır.

2010-cu ildən Ş.Nəcəfovun rəhbərlik etdiyi Qazax arxeoloji ekspedisiyası Yastıtəpə son tunc-ilk dəmir dövrünə aid yaşayış yerində arxeoloji qazıntılar aparır. Yastıtəpədə arxeoloji qazıntılar aparılan ümumi sahə 275 $m^2$ olmuşdur. Yastıtəpə yaşayış yerində mədəni təbəqə yatımının qalınlığı 220-240 sm arasındadır. Bundan sonra yalnız yaşayış yerinin nə vaxtsa üzərində salındığı xam torpaq qatı gəlir ki, bu qatda da heç bir material izlənilmir.

Arxeoloji qazıntılar zamanı abidədən yaşayış evinin bünövrə hissəsinin qalıqları, təsərrüfat quyuları, ocaq kompleksi, təndir qalığı, xeyli sayda daş alətlər və gil qabların müxtəlif fraqmentləri aşkar edilmişdir.

Yaşayış evlərinin qalıqları formaca dairəvidir. Döşəməsinin xam torpaqdan olub, bir neçə dəfə saman qatılmış gillə suvanması aydın hiss olunur. Yaşayış evinin möhrə divarının qalığının şimal hissəsində çox mürəkkəb planda qurulmuş ocaq qurğusu aşkar edilmişdir. Çox böyük ehtimalla möhrə evlərin üstünü örtmək üçün dirəklərdən istifadə olunmuşdur. Divar qalığının üzərində kiçik həcmli dirək çalalarının yerləri vardır. Bu dirək ağacların materialı yəqin ki, davamlı meşə ağaclarından olurdu. Evlərin damı isə çox ehtimal ki, küləşlə və qamışla örtülmüşdür.

Aşkar edilən təsərrüfat quyularının hamısı xam torpaqda qazılmışdır. Oval, təndirvari və silindrik formalı quyuların forması eyni olsa da ölçüləri müxtəlifdir. Təsərrüfat quyularının birində yarıçürümüş odun parçalarına da təsadüf edildi.

Yaşayış yerindən xeyli sayda daş məmulatı bütöv və qırılmış halda tapıldı. Onlar dən daşları, sürtgəclər, həvəng və dəstələr, bülövlər, sapand daşları, döyüm alətləri, kəsicilər və s. idi. Bundan əlavə obsidiandan hazırlanmış 1 ədəd ox ucluğu, qısa dəstəyi olan daş alətlər, ərsini xatırladan boz rəngli çay daşından hazırlanmış alətlər, uzunsov və oval formalı sürtgəclər, çaxmaqdaşından hazırlanmış kəsici alətin qırığı, daşdan hazırlanmış balta da tapılmışdır.

Yaşayış yerindən tapılan xeyrə, sərnic, küp, küpə, qazan, çölmək, tava, manqal, dopu, kuzə, parç tipli gil qablar və onların fraqmentlərinin böyük əksəriyyəti keyfiyyətli hazırlanaraq sabit tempratur rejimində bişirilmiş və dulus çarxında hazırlanmışdır. Üzəriləri şüyrələmə, cızma və çərtmə üsulu ilə əsasən həndəsi motivlərlə naxışlanmışdır. Bundan başqa dairəvi yonulmuş keramika, təkər modeli də aşkar olunmuşdur. Bəzi saxsı qabların qulpu zoomorf hazırlanmışdır.

Yaşayış yerindən sümük biz, pastadan hazırlanmış muncuqlar tapılmışdır.

Yaşayış yerinin strukturu və salınmasını şərtləndirən amillər, təbii-coğrafi amillər baxımından yerləşməsi, yaşayış evlərinin salınma xüsusiyyətləri, təsərrüfat tikililərinin forması barəsində kifayət qədər dolgun məlumatların toplanması Yastıtəpə yaşayış yerinin son tunc-ilk dəmir dövrü sakinlərinin həyat tərzi və təsərrüfat fəaliyyəti barədə tutarlı məlumatların toplanmasına imkan vermişdir.

Yastıtəpə yaşayış yeri son tunc-ilk dəmir dövrünün inkişaf etmiş və son mərhələsinə (e.ə.XII-XI və e.ə.X-IX) aiddir.










## Hasarlıtəpə yaşayış yeri

Yuxarı Göyçəli kəndi ərazizində son tunc-ilk dəmir dövrlərinə aid yaşayış yeri

## Hasarlıqala yaşayış yeri

Tatlı kəndi ərazizində son tunc-ilk dəmir dövrlərinə aid yaşayış yeri

## Nadirbəy təpəsi yaşayış yeri



Nadirbəy təpəsi qədim yaşayış yeri 1963-cü ildə Qazax arxeoloji ekspedisiyası tərəfindən aşkar edilmişdir. Abidə Ağstafa rayonu ərazisində Bakı-Qazax avtomobil yolunun Həsənsu çayını kəsdiyi yerdə, çayın sol sahilində yerləşir. Qədim yaşayış yeri olan bu təpə öz xarici görünüşünə görə rayon ərazisində məlum olan yaşayış yerləri içərisində ən əhəmiyyətli abidələrdən biridir. Təpənin çay səviyyəsindən olan hündürlüyü təxminən 10 metr, sahəsi isə 2 ha-ya bərabərdir.

Abidənin qərb tərəfində kənd yerləşir. Elə abidə haqqında da ilk dəfə arxeoloji ekspedisiyaya kənd sakini Alı Qurban oğlu Qurbanov məlumat vermişdir. Onun dediyinə görə həmin ərazi vaxtilə Nadir bəy adlı birisinin olmuşdur. Hətta onun evi də bu təpənin üstündə yerləşibmiş. Hazırda kəndin evləri təpənin ətəklərinə gəlib çatmış və tədricən onu əhatələyirlər. Kəndin əhalisi uzun müddət təpənin torpağını qazıb apardığından təpənin üst səthi xeyli dağılmışdır. Nadirbəy abidəsi çayın sol sahilində, təbii təpə üzərində yerləşir. Belə bir yerin yaşayış üçün seçilməsi yəqin ki, su ilə əlaqədardır.

Abidədə arxeoloji ekspedisiyaya İ.Nərimanov rəhbərlik etmişdir. aparılan arxeoloji kəşfiyyat nəticəsində, təpədə 2-4 metr qalınlığında mədəni təbəqənin olduğu müəyyən edilmişdir. Amma abidə ərazisində hələlik əsaslı arxeoloji qazıntılar aparılmamaışdır. Buna baxmayaraq toplanmış maddi mədəniyyət qalıqları abidə haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Toplanılmış arxeoloji nümunələr və əldə etdiyimiz bilgilər əsasında yaşayış yerini tunc dövrünə aid edə bilərik.

## Çınqıltəpə yaşayış yeri



Poylu-Böyük Kəsik yolunun üzərində, Poylu körpüsündən 600-700 metr qabaqda, yolun solunda yerlərşir.

## Arançıtəpə yaşayış yeri

Ağstafa-Dağ Kəsəmən yolu yaxınlığında yerləşən son tunc-ilk dəmir dövrünə aid yaşayış yeri

## Sarıtəpə yaşayış yeri

Yuxarı Göyçəli kəndi ərazizində son tunc-ilk dəmir dövrlərinə aid yaşayış yeri

## Qoşatəpə yaşayış yeri və qəbiristanlığı



Yuxarı Göyçəli kəndi ərazisində son tunc-ilk dəmir dövrlərinə aid yaşayış yeri və qəbiristanlığı

## Yaşayış yeri



Ağalıqtəpə yaşayış yeri yaxınlığında eyni dövrə aid, nisbətən kiçik həcmli yaşayış yeri.

## Ağalıqtəpə yaşayış yeri



Ağstafa-Qazax şosse yolunun yaxınlığında yerləşən son tunc-ilk dəmir dövrünə yaşayış yeri. Yastıtəpə yaşayış yerindən təxminən 800 metr qərbdədir. Sahəsi 2 ha-ya yaxındır. Üzərində saysız yerüstü materiallar vardır ki, bunlar da tunc dövrünün sonunu və dəmir dövrünün əvvəllərini əks etdirir.

## Ağtəpə yaşayış yeri

Aşağı Göyçəli kəndi ərazisində son tunc-antik dövrlərə aid yaşayış yeri

## Maraltəpə yaşayış yeri



Aşağı Göyçəli kəndi ərazizində son tunc-antik dövrlərə aid yaşayış yeri. Təpənin torpağı qazılarkən buradan çoxlu miqdarda maddi mədəniyyət qalıqları çıxmışdır. Çox təəssüf ki, bunlar toplanılmamışdır.

## Şiş quzey piri

Köçəsgər kəndi ərazizində dəmir dövrünə aid abidə.

## Pirili nekropolu



Antik dövrə aid Pirili kəndi ərazizində nekropol. Burada tədqiqatlar zamanı I əsrə aid sadə torpaq və sonrakı dövrlərə aid katakomba qəbrilərə rast gəlinmişdir. Bu təpənin bir hissəsində yaşayışın varlığını göstərən əlamətlər də nəzərə çarpmışdır.

Ümumiyyətlə, kənd əhalisi 1940-cı ildən sonra köhnə yerindən köçərək ən qədim yaşayış yeri və qəbiristanlıq olan sahədə salınmışdır. Buna görə də torpaq işləri zamanı burada bir çox arxeoloji obyektlər dağıdılır. Kəndin şərqindəki təpələrdən əldə edilmiş maddi mədəniyyət qalıqları burada yaşayış yeri və I əsrə aid qəbiristanlıq olduğunu göstərir. Ən qədim qəbiristanlıq isə əsasən Kürün sağ sahilində, hazırkı samanlıq dəyələri olan yerdədir. Bu qəbiristanlıqda təsadüfi açılmış sadə torpaq qəbirlər əsasən tunc dövrünün axırlarına aiddir. Yuxarıdakı şəkil də bu qəbirdən tapılmış gil qab nümunəsini əks etdirir.

## Dəyirmantəpə yaşayış yeri

Dağ Kəsəmən yolunda yerləşən son tunc-ilk orta əsrlərə aid yaşayış yeri

## Qıraq Kəsəmən yaşayış yeri



Qıraq Kəsəmən kəndi ərazisində, qəbiristanlıqdan aşağıda, kəndin cənubunda yaşayış yeri

## Yaşayış yeri

Dağ Kəsəmən kəndi ərazizində IV-VII əsrlərə aid yaşayış yeri

## Tatlı Alban məbədinin qalıqları



Yuxarı Göyçəli və Tatlı kəndləri arasında yerləşən ilk orta əsrlərə aid məbəd

## Haça dağ ayrısı

Köçəsgər kəndi ərazisində orta əsrlərə aid abidə

## Keşikçidağ məbədi



Qaraca, yaxud David Qareci məbədi kimi də tanınan Keşikçidağ və yaxud Keşişdağ monastr kompleksi Azərbaycanın Gürcüstanla sərhəddində yerləşən qədim Alban məbədidir. Dəniz səviyyəsindən 850 metr hündürlükdə olan və böyük coğrafi sahəni əhatə edən məbəd kompleksinin bir hissəsi Gürcüstanın Saqareco rayonu, digər bir hissəsi Azərbaycanın Ağstafa rayonu ərazisində yerləşir.

Məbədin mənşəyinə dair Azərbaycan və gürcü mənbələri arasında tarixi konsensus mövcud deyildir. Azərbaycan mənbələrinə görə, Keşikçidağ məbədi qədim alban mənşəli olub, Qafqaz Albaniyasının mədəni irsinə aiddir. Əksər gürcü mənbələri isə məbədin gürcü mənşəli olub tarixən Gürcü Pravoslav Kilsəsinə tabe olduğunu iddia edirlər.

Azərbaycan tarixçilərinə görə məbəd gürcülər tərəfindən yalnız IV Qurucu Davidin hakimiyyəti dövründə (1089-1125) ziyarət edilməyə başlamış, daha sonra Tamaranın hakimiyyəti dönəmində (1184-1207) gürcü kilsəsinin təsiri altına düşmüşdür. Bundan sonra məbəd gürcüləşdirilmişdir. Aparılan tədqiqatlar göstərmişdir ki, məbədin divarlarına çəkilmiş şəkillər və gürcü dilində olan yazılar onun yaşına nisbətən xeyli gənc və sonrakı dövrlərə aiddir.

## Saloğlu yaşayış yeri



Saloğlu kəndi ərazisində yaşayış yeri. Eneolit-tunc dövrlərinə aiddir. Yaşayış yerinin üzərində xeyli sayda gil qab fraqmentlərinə rast gəlinir.

## Məscid



Düzqışlaq məscidi rayonun Düzqışlaq kəndi ərazisində yerləşir.

## Qıraq Kəsəmən qəbiristanlığı



Qıraq Kəsəmən kəndi ərazisində son orta əsrlərə aid qəbiristanlıq. İndi də kənd əhalisi öz dəfnlərini burada həyata keçirir.

## I Qıraq Kəsəmən türbəsi



Qıraq Kəsəmən kəndi ərazisindəki türbə. Altıbucaqlıdır. Üzərində kitabəsi də vardır. Ağ rəngli daşdan tikilmişdir.

## II Qıraq Kəsəmən türbəsi







Qıraq Kəsəmən qəbiristanlığında türbə. Üslub baxımından digərlərini təkrarlamır. Tikili qalığının diametri 10 m, tərəflərin hər birinin eni 5 m-dir. Bişmiş daşlardan hörülmüş binanın özülündə arabir çay daşlarına da rast gəlmək olur. Divarının eni 0,80 m, bəzi yerlərində isə salamat qalmış eni 0,60 m-dir. Türbə yerinin ortasında dağılmış vəziyyətdə 0,55x0,35 m ölçülü məzar daşı vardır. Kitabəsi tamamilə oxunmaz hala düşmüşdür. Bu türbə qalığı digər türbə və türbə yerləri içərisində baş daşlarının olması ilə seçilir.

## Poylu qəbiristanlığı



Poylu kəndi ərazisindədir. Sahəsi 3 ha-ya yaxındır. Poylu kəndinin qəbiristanlığı nəzərdən keçirildikdə burada xeyli qədim türbə və yazılı qəbir daşlarının olduğu aşkarlandı. Arxitektura, incəsənət, tarix, ədəbiyyat və etnoqrafik cəhətdən bu qəbiristanlıqları öyrənmək çox faydalıdır. Qəbir daşlarına çəkilmiş saz, xəncər, qayıq və s. şəkillər xalqın məişətini öyrənmək üçün əyani vasitələrdir.

## I Türbə



Kitabəsi yoxdur. Kvadrat formalıdır. Tikili yerinin üzü şərqə tərəfdir. 4,50x4,50 m ölçülü olub iri çay daşlarından 0,80 m enində hörülmüşdür. Salamat qalmış hündürlüyü 0,20 m-dir. Qapı yeri hündürdür, iri ağ daşlardan inşa edilmişdir.

## II Türbə



Üzərində kitabəsi vardır. Hicri tarixi ilə 1297-ci ildə tiklimәsi yazılmışdır. Digərləri kimi ağ rəngli daşdan tikilmişdir.

## III Türbə



Kitabəsi qalmışdır. XIX əsrə aid olması şübhə doğurmur. Bina yerinin üzü cənub-şərq tərəfədir. Onun uzunluğu 5 m, eni 3,70 m, h=4 metr, divarının eni 1,10 m-dir. Çay daşlarından qurulmuş hörgüsünün üzü ağ üzlük daşla üzlənmişdir.

## I Sənduqə



Uzunluğu 2,5 metr, hündürlüyü isə 1,4 metrdir. Üzərində kitabəsi vardır. Burada mərhumun adı, atasının adı və nəsil mənsubluğu qeyd edilmişdir.

## II sənduqə



Uzunluğu 2,3 metr, hündürlüyü isə 1,1 metrdir. Pilləvari formada inşa edilmişdir. İkipilləlidir. Aşağıdan üzlük daşla örtülmüş və üzərində isə epiqrafik yazılar verilmişdir.

## III sənduqə



Uzunluğu 2,5 metr, hündürlüyü isə 1,3 metrdir. Pilləvari formada inşa edilmişdir.

## IV Sənduqə



Kitabəsi olmadığından mənsubluğu bilinmir. Tamamilə ayrı üslubda inşa edilmişdir. Yəni bişmiş kərpiclərin dikinə qoyularaq forma verilmiş vəziyyətindədir.

## V Sənduqə



Düzbucaqlı formalı məzar daşının üzəri kitabə ilə zəngindir. Epitafiyanın yuxarı hissəsində aypara və bir-birinə qarşı duran nəbati təsvir verilib. Yuxarıdan hər iki tərəfində altı ləçəkli nəbati gül təsviri həkk olunub. Daşın aşağı hissəsində ortada at və üstündə insan təsviri çəkilib. At hərəkət vəziyyətindədir. Atın üstündəki insan bir əli ilə onun cilovundan tutub, digər əlini isə arxaya yaxud da yuxarı qaldırıb. Bu təsvirin çox hissəsi uçulduğundan onu tam aydınlıqla vermək mümkün olmur. Hətta epitafiyanın estampında da bu hissəni göstərmək çətinlik yaradır. Sənduqənin ərəbdilli kitabəsi zəif qazma üsulunda yazılıb.

## Tatlı bulağı



XIX əsrə aid abidə-kompleks.Tatlı kəndi ərazisindədir. Sonradan bərpa edilmişdir.

## Körpü-keçid



Tatlı kəndi ərazisindədir. XX əsrin əvvəlləri üçün xarakterikdir.

## Eyyub ağa məscidi



Dağ Kəsəmən kəndində möhtəşəm dini tikili. İki minarəli məscid qədim Şərq üslubunda tikilmişdir. Minarələrin hündürlüyü 20 metrə yaxındır.

## Kərim ağanın mülkü



Abidə Şərq memarlıq üslubunda tikilmiş rayonun əsas memarlıq abidələrindən sayılır. Bu mülk yerli əhalinin verdiyi məlumata əsasən XIX əsrdə yaşamış Kərim ağa tərəfindən tikilmişdir və yaşayış məqsədilə istifadə edilmişdir. Tikili saray xarakteri daşıyır və çoxşəbəkəli hündür pəncərələrdən geniş istifadə edilmişdir.

## Kəhriz

Kolxəlfəli kəndi ərazisində XIX əsrə aid kəhriz. Hazırda istifadə olunmur və dağılmış vəziyyətdədir.

## İsrafil ağanın evi



Rayonun Qıraq Kəsəmən kəndi ərazisindədir. Bünövrəsi çay daşlarından hörülmüşdür, daha sonra isə qırmızı kərpicdən inşa edilmişdir.

## Yaşayış evi



Ağalıqtəpə yaşayış yeri yaxınlığında olan abidə.

## Tək məzar



Poylu-Böyük Kəsik yolunun Poylu qəsəbəsindən Saloğluya gedən hissəsində yolun solunda, yoldan təxminən 150-170 metr aralıda salınmış tək məzar. Bu məzarın Böyük Vətən müharibəsində həlak olmuş hansısa hərbçiyə aid olması müəyyən edilmişdir. Tək məzarın salındığı yerdə heç bir digər qəbir abidəsinə rast gəlinməmişdir.

## Vəkilovlar bağı (Səməd Vurğun bağı)



Xalq şairi Səməd Vurğunun böyük qardaşı Mühdizan Vəkilov tərəfindən salınmışdır. XX əsrin əvvəllərindən salınmış bu bağ hazırda rayonun əsas istirahət guşələrndən biridir.

## Hüseyn Arifin ev muzeyi



XX əsr lirik Azərbaycan şairi, humanist və məhəbbət şairi, vətənpərvər insan Hüseyn Arifin doğulub boya-başa çatdığı ev. Hazırda onun ev muzeyi kimi də fəaliyyət gös-

tərir. Xatirə muzeyində şairə məxsus əşyalar qorunur. Ağstafada xalq şairi Hüseyn Arifin muzeyi qonaqların və turistlərin ən çox ziyarət etdikləri yerlərdəndir.

Xatırladaq ki, Hüseyn Arif 1924-cü ildə Ağstafanın Yenigün kəndində anadan olub. O, orta məktəbi bitirdikdən sonra Bakı Pedoqoji Texnikumunda oxuyub. Bədii yaradıcılığa da Bakıda oxuyarkən başlayıb. Şair Azərbaycanın xarici ölkələrlə "Dostluq və Mədəni əlaqələr cəmiyyətində" şöbə müdiri, Azərbaycan Aşıqlar birliyinin sədri vəzifələrində çalışıb. Dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

Hüseyn Arifin ölümündən sonra Respublika Nazirlər Kabinetinin 692 saylı qərarına əsasən şairin ev muzeyi yaradılmışdır. Hüseyn Arifin ev muzeyində 2000-dən artıq eksponat qorunub saxlanılır. Saxlanılan eksponatların çox hissəsi şairin şəxsi əşyaları, öz əli ilə yığdığı daşlar, mis qablar, şəxsi sazı, nəsil şəcərəsini əks etdirən tablo, fotoları və muzeydə keçirilən müxtəlif tədbirlərin disklərindən ibarətdir.

Onu da deyək ki, muzey Bakı-Qazax-Qırmızı körpü avtomobil yolunun üstündə yerləşdiyindən hər gün buranı çoxlu sayda insan ziyarət edir. Onlar şairə olan hörmət və ehtiramlarını xatirə kitabına yazdıqları sözlərlə bildirirlər. Muzeydə mütəmadi olaraq şairin həyat və yaradıcılığı ilə bağlı ədəbi bədii tədbirlər keçirilir.

***          ***          ***


*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

*Nəşriyyat redaktoru – **Əliş Mirzallı***
*Texniki redaktor – **Mətanət Qaraxanlı***
*Kompyuter tərtibatı – **Günel Muxtarova***
*Korrektor – **Rita Müslümova***

Çapa imzalanıb: 16.10.2017
Format: 70x100 1/16. Qarnitur: Times.
Ofset çap. Ofset kağızı. Həcmi: 22 ç.v.
Tiraj: 150. Sifariş № 17.

MÜTƏRCİM



Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru
www.mutercim.az